AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
NAXÇIVAN BÖLMƏSİ
NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ

VƏLİ BAXŞƏLİYEV

# AZƏRBAYCAN ARXEOLOGİYASI

I cild

Bakı - 2006

Kitab Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsində işlənib hazırlanmış, Naxçıvan Dövlət Universiteti elmi şurasının qərarı ilə nəşrə təqdim olunmuşdur

Məsləhətçilər: akademik İ.Ə.Həbibbəyli
akademik İ.M.Hacıyev

Vəli Baxşəli oğlu Baxşəliyev. Azərbaycan arxeologiyası( Ali məktəb tələbələri üçün vəsait). –Bakı: Elm, 2007, 239 s.

Kitabda Azərbaycanın ən mühüm abidələri haqqında məlumat verilmiş, arxeoloji mədəniyyətlərin tarixləndirilməsi və etnik mənsubiyyəti ilə bağlı bəzi məsələlərə toxunulmuşdur. Kitab Azərbaycanın qədim mədəniyyətləri haqqında bütöv təssəvvür əldə etməyə, Azərbaycan arxeologiyasının problemlərini göz önünə qoymağa imkan verir. Kitab ali məktəb tələbələri və geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.

© Vəli Baxşəliyev

# MÜNDƏRİCAT


GİRİŞ .......................................................................................... 4
PALEOLİT DÖVRÜ..........................................................................6
Quruçay mədəniyyəti ......................................................................6
Aşel mədəniyyəti ............................................................................11
Mustye mədəniyyəti .......................................................................16
Üst Raleolit dövrü........................................................................ 24
MEZOLİT DÖVRÜ........................................................................28
NEOLİT DÖVRÜ...........................................................................30
ENEOLİT DÖVRÜ ........................................................................32
İLK TUNC DÖVRÜ... ...................................................................62
Arxeoloji abidələr...........................................................................62
İqtisadiyyat .................................................................................103
Kür-Araz mədəniyyətinin mənşəyi və xronologiyası........................112
İctimai quruluş, mədəni əlaqələr, inamlar..........................................116
ORTA TUNC DÖVRÜ...................................................................120
Boyalı qablar mədəniyyətinin arxeoloji abidələri................................120
Qarabağ mədəniyyətinin arxeoloji abidələri.......................................144
İqtisadiyyat.....................................................................................156
Mədəniyyət və incəsənət.................................................................168
Orta Tunc dövrü mədəniyyətinin Cənubi Qafqaz və Yaxın Şərq mədəniyyətləri arasında yeri və xronologiyası.......................................171
İctimai quruluş, mədəni əlaqələr, inamlar............................................177
SON TUNC DÖVRÜ......................................................................182
Naxçıvan mədəniyyətinin arxeoloji abidələri.......................................182
Xocalı-Gədəbəy mədəniyyətinin arxeoloji abidələri............................192
İqtisadiyyat.....................................................................................212
Son Tunc dövrü mədəniyyətlərinin mənşəyi və xronologiyası.............224
İctimai quruluş, mədəni əlaqələr, inamlar............................................229
NƏTİCƏ........................................................................................234

# GİRİŞ

Arxeoloji abidələrin tədqiqi Azərbaycanın qədim dövr tarixini, bu ərazidə baş verən mədəni-tarixi prosesləri öyrənmək üçün mühüm əhəmiyyətə malikdir. Azərbaycanın arxeoloji abidələrindən aşkar olunan maddi-mədəniyyət nümunələri qədim daş dövründən başlayaraq Son Orta əsrlərədək böyük bir dövrü əhatə edir. Arxeoloji abidələrin tədqiqi Azərbaycanın həm yazıya qədər olan tarixini, həm də yazının meydana çıxmasından sonrakı tarixini öyrənmək üçün əvəzedilməz dəlillər vermişdir.

Azərbaycanın arxeoloji abidələrinin tədqiqi XIX əsrin 30-50-ci illərində qədim abidələrin qeydə alınması ilə başlanmışdır. İlk vaxtlar arxeoloji abidələrdə Azərbaycanda olan rus və alman mənşəli həvəskar araşdırıcılar qazıntılar aparmışlar. Onların əldə etdiyi zəngin maddi-mədəniyyət nümunələri Azərbaycanın arxeoloji abidələrinə və qədim mədəniyyətinə marağın artmasına səbəb olmuşdur. 1923-cü ildə Azərbaycan Tədqiq və Tətəbbö Cəmiyyətinin və Azərbaycan arxeoloji komitəsinin təşkil olunmasının milli arxeoloq kadrların yetişdirilməsində mühüm rolu olmuşdur. 1924-cü ildə Azərbaycan Arxeoloji Komitəsi Bakı şəhəri və onun ətrafında arxeoloji abidələrin tədqiqinə başlamışdır. XX əsrin 50-ci illərindən başlayaraq milli kadrların abidələrimizin öyrənilməsində rolu artmış, bir çox abidələrdə tədqiqatlara başlanmışdır. Azərbaycanın arxeoloji abidələrinin öyrənilməsində İ.M.Cəfərzadə, S.M.Qazıyev, D.Şərifov, Ö.Ş.İsmizadə, Q.M.Aslanov, Ə.K.Ələkbərov, İ.H.Nərimanov, O.H.Həbibullayev, R.M.Vahidov, Q.M.Əhmədov, C.Ə.Xəlilov, V.H.Əliyev, M.M.Hüseynov, Q.S.İsmayılov, İ.A.Babayev, A.B.Nuriyev, F.R.Mahmudov, H.F.Cəfərov, H.Ciddi, R.B.Göyüşov, F.L.Osmanov, F.M.Muradova, C.N.Rüstəmov, F.V.Qədirov, Ə.Q.Cəfərov, M.M.Mansurov, Q.Q.Aslanov, F.A.İbrahimov, Q.P.Kəsəmənli, və digər tədqiqatçıların mühüm xidmətləri olmuşdur. Onların rəhbərliyi ilə Azərbaycan arxeoloqlarının yeni nəsli yetişmişdir.

Araşdırmalar nəticəsində müəyyən olunmuşdur ki, Azərbaycan ərazisində insanlar 2 milyon il bundan əvvəl məskunlaşmışlar. Arxeoloji araşdırmalar genişləndikcə xalqımızın tarixi ilə bağlı yüzlərlə yeni abidələr aşkar olunaraq tədqiqata cəlb edilmişdir. Hazırda Azərbaycan arxeologiyasına aid xeyli elmi məqalə və monoqrafiyalar nəşr edilmişdir. Lakin bu əsərlər az tirajla nəşr edildiyindən geniş oxucu kütləsi, xüsusilə tələbələrimiz üçün o qədər də əl yetən deyil. «Azərbaycan arxeologiyası» adlı əsərin yazılmasına bir neçə dəfə müraciət edilmişdir. Onlar arasında T.Ə.Bünyadovun «Azərbaycan arxeologiyası oçerkləri», R.B.Göyüşovun «Azərbaycan arxeologiyası», M.M.Hüseynovun «Azərbaycan arxeologiyası», M.M.Hüseynov və digərlərinin həmmüəllifliyi ilə yazılan «Azərbaycan arxeologiyası» kitablarını göstərmək olar. Bu kitablar həm

çoxdan, həm də az tirajla çap olunduğundan tələbatı ödəmir. Digər tərəfdən bu kitablar çap edildikdən sonra Azərbaycan arxeologiyasının inkişafı nəticəsində bir sıra yenilik və dəyişikliklər meydana çıxmışdır. Azərbaycanda aşkar olunmuş minlərlə arxeoloji abidənin hamısı haqqında məlumat vermək olduqca çətin bir işdir. Odur ki, bizim yazdığımız kitabda ən mühüm arxeoloji abidələr haqqında məlumat verilmişdir. Arxeoloji abidələrin hamısını müəyyən mədəniyyətlər üzrə təsnif etmək mümkün olmadığından onların müəyyən qismi regionlar üzrə xarakterizə edilmişdir.

Bu kitabı yazmaqda məqsədimiz oxucuları Azərbaycanın qədim mədəniyyətləri ilə bir qədər ətraflı tanış etmək və bu mədəniyyətlər haqqında bütöv təsəvvür yaratmaqdan ibarətdir. Azərbaycanın qədim abidələri Azərbaycan xalqının qədim dövrdən bu ərazidə yaşadığını sübut edən ən tutarlı maddi dəlillərdir. Azərbaycan xalqının etnogenezi ilə bağlı bir sıra yanlış nəzəriyyələr uydurulsa da, qədim abidələrimiz xalqımızın keçdiyi yolu ardıcıllıqla izləməyə və bu yanlış nəzəriyyələrə cavab verməyə imkan verir. Arxeoloji və antropoloji araşdırmalar təsdiq edir ki, min illər bundan əvvəl Azərbaycanda yaşayan kuti, lullubi, turukki, kassi, su, naxçı, subar, skif və digər tayfalar Azərbaycan xalqının ulu əcdadları olmuşlar. Onların maddi və mənəvi dəyərləri bu gün də Azərbaycan xalqı içərisində yaşamaqda davam edir.

## PALEOLİT DÖVRÜ

**Quruçay mədəniyyəti.** Azərbaycanın əlverişli təbii-coğrafi mövqeyi Qədim daş dövründən insanların burada məskən salmasına şərait yaratmışdır. Azərbaycanın Paleolit abidələrinin öyrənilməsinə XX əsrin 50-ci illərində başlanmışdır. 1953-cü ildə S.N. Zamyatin və M.M.Hüseynovun rəhbərliyi ilə təşkil edilən kəşfiyyat xarakterli tədqiqatlar zamanı Qazax rayonunun Daşsalahlı kəndində, Damcılı mağarasında Paleolit düşərgəsi aşkar olunmuşdur. Sonrakı illərdə aparılan araşdırmalar yeni abidələrin aşkar olunması ilə nəticələnmişdir. Bu abidələr arasında 1960-cı ildə aşkar olunan Azıx mağarasının olduqca böyük əhəmiyyəti olmuşdur. 1960-cı ildə Azıx mağarasında başlanan araşdırmalar 1974-cü ilədək davam etdirilmiş, Azərbaycanın qədim daş dövrünü öyrənmək üçün olduqca əhəmiyyətli olan maddi-mədəniyyət qalıqları aşkar edilmişdir. 1968-ci ildə Aşel dövrü təbəqəsindən azıxantroqun alt çənə parçası, 1974-cü ildə isə insan fəaliyyətinin erkən mərhələsinə aid olan, Olduvay mədəniyyəti ilə müəyyən ümumi xüsusiyyətlərə malik olan Quruçay mədəniyyəti aşkar olunmuşdur.




Şəkil 1. Azıx mağarasının planı

Füzuli şəhərinin yaxınlığında yerləşən Azıx mağarası Quruçay vadisində, Mil düzü ilə dağ silsiləsinin birləşdiyi ərazidə, olduqca əlverişli mövqedə yer almışdur. Soyuq və isti iqlimlərin qovşağında yerləşən bu ərazi Paleolit dövrü

insanlarının ovladığı müxtəlif heyvanların buraya gəlməsinə imkan yaratmışdır. Onlar içərisində kərgədan, vəhşi atlar, ceyran, öküz və digər heyvan cinsləri olmuşdur.



Şəkil 2. Azıx mağarası. Quruçay mədəniyyətinin əmək alətləri

Mağaranın iki girişi olmuşdur. Dörd zaldan ibarət olan mağaranın ümumi sahəsi 80000 kv. m-dir. Zalların tavanında olan müxtəlif həcmli dəliklər gün işığının mağaraya düşməsinə imkan yaratmışdır. Azıx mağarasında aparılan qazıntılar zamanı 14 m qalınlığında 10 mədəni təbəqə aşkar olunmuşdur. X-VII təbəqələrdən aşkar olunan maddi-mədəniyyət nümunələri hazırlanma texnikası və tipologiyasının özünəməxsus xüsusiyyətləri ilə fərqləndiyi üçün Quruçay mədəniyyəti adlandırılmışdır. Ən aşağıda yerləşən və mağaranın daş döşəməsini örtən onuncu təbəqə Quruçay hövzəsinin ilk sakinlərinin maddi mədəniyyəti ilə bağlıdır. Ehtimal ki, insanlar Quruçay vadisində mağarada məskunlaşmamışdan xeyli əvvəl yaşamışlar.

Azıx mağarasının ən aşağı qatlarından aşkar edilən daş alətlər Quruçay vadisində məskən salan insanların həyatını öyrənmək üçün ən mühüm dəlildir. Bu təbəqədən daş dövrünün ən qədim mərhələsinə aid 20 əmək aləti aşkar edilib öyrənilmişdir. Onlar protoçopper, protoçorrinq, limasşəkilli kobud alətlər, çoxüzlülər və ərsinlərdən ibarətdir. Bu təbəqədən



Şəkil 3. Azıx mağarası. Quruçay mədəniyyətinin əmək alətləri

həmçinin istehsal tullantıları və Quruçay dərəsindən xammal kimi gətirilən çay daşları da aşkar edilmişdir. Əmək alətlərinin hamısı qırmızı, qəhvəyi, sarı-boz rəngli kvarsdan, xalsedon, andezit, bazalt tərkibli vulkanik daşlardan hazırlanaraq bəziləri bir tərəfdən, digərləri isə hər iki tərəfdən qəlpələr qoparılmaqla işlənmiş, üzərlərində istifadə izləri saxlanmışdır. Qəlpələr əsasən daşların kənarlarından mərkəzə doğru vurulan zərbələrlə qoparılmışdır. Alətlərin bir qismində çay daşının təbii qabığı saxlanmışdır. Bəzi əmək alətləri pilləli retuşla işlənmişdir. Onuncu təbəqədən aşkar olunmuş əmək alətləri işlənmə texnikasına və tipoloji

xüsusiyyətlərinə görə həmdövrdür. Ərsinlər, kəsici və özəkvari alətlər qəlpələr qoparılmaqla kobud hazırlanmışdır. Əmək alətlərinin işlənmə texnikasının kifayət qədər inkişaf etmiş səviyyədə olması, xüsusilə qəlpə qoparma üsulları, iki tərəfli işləmə texnikası, əmək alətlərinin ağız hissəsinin ikinci dəfə işlənməsi göstərir ki, Quruçay vadisinin qədim sakinləri mağaraya gəlməmişdən xeyli əvvəl vadidə açıq düşərgələrdə məskunlaşmışlar. M.M.Hüseynovun fikrinə görə, bu mədəniyyət Quruçay vadisində mağaranın məskunlaşmasından bir neçə yüz il əvvəl meydana gəlmişdir. Hazırda Quruçay mədəniyyətinin 1,8 milyon il əvvəl meydana gəldiyi ehtimal olunur.



Şəkil 4. Azıx mağarası. Quruçay mədəniyyətinə aid çapma aləti

Onuncu təbəqənin üzərində yerləşən doqquzuncu təbəqə daha qalın və maddi-mədəniyyət qalıqları ilə daha da zəngindir. Bu təbəqədə əmək alətlərinin sayı əvvəlkindən beş dəfə artıqdır. Onlar protoçopper, protoçoppinq, özəkvari və kubvari alətlər, limasşəkilli alətlər, ərsinlər və qəlpələrdən ibarətdir. Bu təbəqədə ilk dəfə olaraq kubvari alətlər meydana çıxır. Protoçopperlər çay daşının bir ucu, yaxud uzununa bir kənarının qoparılması ilə hazırlanmışdır. Protoçoppinqlər başlıca olaraq çox da ağır olmayan yastı, oval daşlardan, çay daşlarının bir ucu,

yaxud uzunsov kənarının hər iki tərəfdən qəlpələnməsi ilə, ərsinlər isə vurma səthi saxlanmış qəlpələrin bəzən bel, bəzən isə kənarlarının işlənməsi ilə düzəldilmişdir.

Mağaranın səkkizinci təbəqəsində aşkar olunan əmək alətləri tipoloji xüsusiyyətlərinə görə alt qatlardan aşkar olunan əmək alətləri ilə eynidir. Lakin bu təbəqə üçün protoçopper və protoçoppinq tipli ağır qiqantolitlərin meydana çıxması xarakterikdir. Bu təbəqədə primitiv çapacaqlara bənzəyən protoçoppinq-lər də aşkar olunmuşdur.

Yeddinci təbəqə Quruçay mədəniyyətinin tamamlayıcı mərhələsini əks etdirir. Bu təbəqə litoloji xüsusiyyətlərinə görə aşağıdakı təbəqələrlə eyni olub, özündən yuxarıda yerləşən erkən Aşel mədəniyyətindən tamamilə fərqlənir. Bu təbəqədən aşkar edilmiş daş məmulatı protoçopper, protoçoppinq, özəkvari və kubvari əşyalar, ərsinlər, qəlpələr, istehsal tullantıları, çay daşlarından ibarətdir. Əmək alətləri işlənmə texnikasının daha təkmil olunması ilə X-VIII təbəqənin alətlərindən fərqlənir. Bu fərqlər qəlpə qoparma texnikasında, xüsusilə qəlpələrin aydın seçilən vurma səthində, alətlərin kənarlarında saxlanmış qabarcıqlarda özünü göstərir. Çoppinqlərin hazırlanmasında Erkən Aşel dövrünün çoppinqləri və kobud çapacaqları üçün xarakterik olan əlamətlər izlənmişdir.

Azıx mağarasının X-VII təbəqəsindən aşkar olunmuş əmək alətləri tipoloji xüsusiyyətlərinə, hazırlanma texnikasına, qəlpə qoparma üsuluna və istifadə olunan xammalın tərkibinə görə genetik cəhətdən bir-biri ilə bağlı olub vahid bir mədəniyyətin məhsuludur. Bu mədəniyyət Azıx, Tağlar və Azərbaycanın cənub-qərbindəki digər mədəniyyətlərin qaynağı olmuşdur. Ümumi qalınlığı 4,5 m olan bu təbəqə mağaranın ən qədim çöküntüləri olmaqla eyni təbii şəraitin məhsuludur.

Qədim insanların yaşadığı Paleolit düşərgələrinə dünyanın bir çox yerlərində rastlansa da, çoxtəbəqəli Azıx mağarası təbəqələrin ardıcıl yerləşməsinə görə nadir abidələrdən biridir. Azıx mağarasının yeganə bənzəri hələlik Olduvay abidəsidir. Elə buna görə də Azıx mağarasından aşkar edilmiş əmək alətlərinin tipoloji təsnifatında və adlandırılmasında M.M.Hüseynov Olduvaydan aşkar edilmiş bənzər alətlərin adından istifadə etmişdir.

Azıx mağarasının X-VII qatlarının fauna qalıqları olduqca pis saxlanmışdır. Onların bir çoxu çürüdüyündən hansı heyvanlara aid olduğunu təyin etmək mümkün olmamışdır. Aşkar olunan heyvan sümükləri maral, antilop, quş, gəmirici və yırtıcı heyvanların lülə sümüklərinin parçalarından, buynuz qırıqlarından ibarətdir. Lakin Quruçay mədəniyyətinin mövcud olduğu Abşeron dövrünün fauna qalıqları daha zəngin olmuşdur. Bu dövrdə Vulpes aff vulpes, Crocuta spelea, Spelearstos speleus, Ursus cf.arctos, Cervus mesopotamiea, Equus sussen bornansis, Equus hidruntinus, Dicerorhinus mercki, Bison schotensaci və digər heyvanlar yaşamışdır.

Azıx mağarasından aşkar olunmuş çay daşlarından hazırlanmış kobud daş alətlərin bənzərləri Olduvay (Tanzaniya), Koobi-Fora (Keniya), Melka Kontura (Efiopiya), Vallona (Fransa), Ubeydiyə (İsrail) və digər abidələrdən məlumdur.

Azıx mağarasının qədim sakinlərinin əsas məşğuliyyəti yığıcılıq və ovçuluq olmuşdur.

**Aşel mədəniyyəti.** Azərbaycanda Aşel mədəniyyəti Quruçay mədəniyyəti əsasında inkişaf etmiş və onun ikinci mərhələsini təşkil etmişdir. Aşel mədəniyyətinə aid tapıntılar Azərbaycan ərazisində Qazax rayonunun Qayalı, Acıdərə, Şişquzey düşərgələrindən və digər abidələrdən aşkar edilmişdir. Lakin Aşel mədəniyyətinə aid ən zəngin maddi-mədəniyyət nümunələri Azıx mağarasından aşkar olunmuşdur. Azıx mağarasında Aşel mədəniyyətinin başlıca olaraq erkən və orta mərhələsi geniş təmsil olunmuşdur. Erkən Aşel 700-500 min il bundan əvvələ aid edilir. Azıx mağarasında Erkən Aşel Quruçay mədəniyyəti əsasında inkişaf etmiş və onun davamı olmuşdur. Aşel dövrünün erkən mərhələsi Azıx mağarasının altıncı təbəqəsində aşkar olunmuşdur. Bu təbəqədən xeyli daş məmulatı (2000-dən artıq), ocaq qalıqları, müxtəlif heyvan sümükləri, bitki ovuntusu aşkar olunmuşdur. Heyvan qalıqlarının çox aşkar olunması Aşel dövründə təsərrüfatda ovçuluğun əsas yer tutduğunu göstərir.

Əmək alətləri başlıca olaraq felzit, kvars, çaxmaqdaşı, bazalt, əhəng-daşından, bəzən isə xalsedon və digər daş cinslərindən hazırlanmışdır. Daş məmulatı əmək alətləri, istehsal tullantıları və çay daşlarından ibarətdir. Əmək alətləri arasında kobud çapacaqlar, qaşovlar kəsici alətlər və ərsinlər xüsusi yer tutur. Çapacaqlar həcminə görə Olduvay, Ubeydiyə, Terra-Amatadan tapılmış alətlərlə uyğundur.

Çapacaq və çapacaq tipli alətlər çay daşının hər iki tərəfindən qəlpələr qoparılmaqla hazırlanmış, tutacaq hissəsinin təbii qabığı saxlanmışdır. Çopper tipli alətlərin bir kənarı, yaxud ucu qəlpələr qoparılmaqla işlənmişdir. Bu tip alətlərlə yanaşı düz vurma səthi olan və təbii qabıqla örtülmüş qəlpələrdən hazırlanmış alətlər də vardır. Onlar ərsinlər, itiuclular, limastipli və s. alətlərdən ibarətdir. Aşkar olunan əmək alətləri qədim insanların yalnız çay daşlarından hazırlanmış çopper, coppinq və kobud çapacaqlarla kifayətlənmədiyini, qəlpələrdən əmək alətləri hazırlamağa başladığını göstərir. Azıx mağarasının Erkən Aşel mədəniyyətinə aid əmək alətləri qəlpələrin qoparılma texnikasına görə olduqca kobuddur və keçmiş SSRİ-də onların bənzərləri yoxdur.

Altıncı təbəqədən aşkar edilmiş arxeoloji materiallar bir tərəfdən daha qədim Quruçay mədəniyyətinin, digər tərəfdən isə Orta Aşel mədəniyyətinin xüsusiyyətlərini daşımaqla Aşelə keçid mərhələsini əks etdirir. Aşkar olunan fauna qalıqları, o cümldən Merka kərgadanı, Şotenzak bizonu, Zyusenbern atı, Mesopotomiya maralı, mağara kaftarı, nəhəng maral, cənub yarasalarının sümükləri bu dövrün Mindel buzlaşması dövrünə, bəlkə də daha əvvələ aid olduğunu deməyə imkan verir. Sümük qalıqlarının hamısı daşlaşmış vəziyyətdə aşkar olunmuşdur.



Şəkil 5. Azıx mağarası. Qədim Aşel mədəniyyətinin əmək alətləri

Erkən Aşel dövrü təbəqəsində diametri 30 x 20 sm olan ocaq qalıqlarının aşkar olunması Azıx sakinlərinin odla tanış olduğunu göstərir. Ocaq birbaşa girişdə yox, qapıdan 20-25 m uzaqlıqda cənub divarı yaxınlığında qurulmuşdur.

O dövrdə Azıx mağarasını əhatə edən bitki örtüyü də fərqli olmuşdur. Flora qalıqlarının tədqiqi Azıx sakinlərinin 60-dan artıq bitki növündən istifadə etdiyini göstərir. Başlıca ağac cinsləri çinar, küknar, qızılağac, palıd, tozağacı, göyrüş, cökə, vələs və digərlərindən ibarət olmuşdur. Heyvan və bitki qalıqlarının öyrənilməsi Azıx mağarasındakı altıncı təbəqənin Bakı dövrünə aid olduğunu deməyə əsas verir. Paleomaqnit ölçmələr isə bu təbəqənin Bryunes dövrünə, erkən Pleystocen, yaxud Tiraspol kompleksinin erkən inkişaf mərhələsinə aid olduğunu təsdiq edir. Bu isə təqribən 730 min il bundan əvvələ uyğun gəlir.



Şəkil 6. Azıx mağarası. Qədim Aşel mədəniyyətinin əmək alətləri

Altıncı təbəqənin üzərini örtən beşinci Orta Aşel təbəqəsi litoloji tərkibinə, rənginə, qalınlığına və arxeoloji materialın tərkibinə görə Erkən Aşel təbəqəsindən fərqlənir. Bu təbəqədən daş məmulatı, qədim insanın çənə sümüyünün parçası, ocaq qalıqları, daş hörgü və s. aşkar olunmuşdur. Daş məmulatı Erkən Aşel təbəqəsinə nisbətən 5-6 dəfə azdır. Tədqiqatçılar daş alətlərin az tapılmasını Orta Aşeldə havaların istiləşməsi və rütubətli iqlim şəraiti ilə bağlayırlar. Erkən Aşel dövrü ilə müqayisədə bu dövrdə aşağı keyfiyyətli daş cinslərindən istifadə edilməmişdir. Daş alətlərin hazırlanmasında felzit, çaxmaq daşı, bazalt, çaxmaqdaşlı əhəngdaşı, bəzən isə xalsedondan istifadə edilmişdir. Əmək alətləri çopper, çoppinq, əl çapacağı, ərsin və itiuclularla təmsil olunmuşdur. Əmək alətləri ilə bərabər qəlpələr, parçalanmış və bütöv təbii çay daşları da əldə edilmişdir. Beşinci təbəqənin alt qatlarından aşkar olunmuş əmək alətləri ümumi əlamətlərinə görə altıncı təbəqənin alətlərindən fərqlənmir, üst

qatlardan aşkar olunmuş alətlər isə xeyli təkmildir. Bu fərqlər fauna qalıqlarında da özünü göstərir. Beşinci təbəqənin üst qatlarının fauna qalıqları Tiraspol kompleksindən fərqlənərək Sinqil kompleksi ilə oxşarlıq təşkil edir. Müxtəlif landşaftlarda yaşayan heyvanların qalıqlarının aşkar edilməsi Orta Aşel dövründə havaların istiləşdiyini göstərir. Orta Aşel Azərbaycanda Mindel-Ris buzlaşmaları arasındakı dövrə uyğundur. Bu təbəqədən 35 növ heyvana aid fauna qalıqları aşkar edilmişdir. Onlar arasında nəcib maral, cüyür, qaban, porsuq, at, eşşək, uzunbuynuz maral, sayqak və digər heyvanların qalıqları vardır.



Şəkil 7. Orta Aşel mədəniyyətinin əmək alətləri

1968-ci ildə beşinci təbəqədən qədim insana aid alt çənə sümüyünün tapılması Aşel insanlarının fiziki quruluşu haqqında müəyyən fikir yürütməyə imkan vermişdir. Onunla birlikdə Orta Pleystocen dövrünə aid Aşel alətləri və xeyli miqdarda fauna qalıqları aşkar edilmişdir. Bu, keçmiş SSRİ ərazisində ən qədim paleoantropoloji tapıntı idi. Azıx adamının indiyədək dünyanın müxtəlif Paleolit düşərgələrindən tapılmış insan qalıqları ilə müqayisəli araşdırılması onun preneandertal tipinə aid olduğunu göstərir. Bu aşkar olunan fauna qalıqlarının geoloji dövrü və Aşel tipli daş alətlərin dövrü ilə tamamilə uyğundur. Azıxantropun çənə parçasına əsasən demək olar ki, Aşel mədəniyyətinin daşıyıcıları öz fiziki tipinə görə Fransanın cənubunda yaşayan preneandertallarla

bənzər olmuşdur. Azıxantropun yaşadığı dövrdə Sinantrop və Heydelberq tipli insanlar yayılmışdır.

Tədqiqatlar zamanı aşkar olunan ocaq qalıqları Aşel insanlarının odla tanış olduğunu və ondan istifadə etdiyini təsdiq edir. Ocaqların olduqca yaxşı saxlanması toplanan yanacaq materialı haqqında da müəyyən təsəvvür əldə etməyə imkan verir. Ocaqların biri, yuxarıda qeyd edildiyi kimi, altıncı təbəqədə, qalanları isə beşinci təbəqədə aşkar olunmuşdur. Beşinci təbəqənin ikinci layında yerləşən üçüncü ocağın sahəsi xüsusilə böyük olub 10 kv.m-dir. Vaxtilə mağarada olan bulağın ətrafında yerləşən ocaq bir neçə dəfə yerini dəyişdiyindən kül qalıqları böyük sahəyə yayılmışdır. Kül təbəqəsinin altından mağara ayısının alt və üst çənə sümüyü, digər heyvanlara aid sümüklərin qalıqları aşkar edilmişdir. Bu sümüklər odun təsirindən qızarmışdı. Dördüncü ocaq üçüncünün əks tərəfində, mağaranın şimal divarı yaxınlığında aşkar olunmuşdur. Burada həmçinin qədim evin təməlinin qalıqları aşkar edilmişdir. Beşinci ocağın dibi əhəngdaşı lövhələri, ətrafı isə qaya daşları ilə döşənmişdi. Onun sahəsi 50 x 50 sm olmuşdur.

1971-ci ildə aparılan araşdırmalar zamanı ikinci ocağın səviyyəsində gizlin guşə aşkar olunmuşdur. Buraya mağara ayısının kəllələri qoyulmuşdu. Ocaq üçün xüsusi yer seçilməsi, onun yaxınlığında bulağın olması, ayı kəllələri qoyulan gizlin guşənin mövcudluğu göstərir ki, bu ocaqlar Aşel adamlarının həyatında mühüm rol oynamış, ehtimal ki, müəyyən mənada sitayiş xarakteri daşımışdır. Mağaranın birinci zalı qədim insanlar üçün yalnız mənzil rolunu oynamamış, həmçinin müqəddəs və ritual yer olmuşdur. Odun əhəmiyyətini görən insan ona böyük önəm vermiş və sitayiş etmişdir.

Paleolit təbəqələrində, xüsusilə Aşeləqədərki və Erkən Aşel düşərgələrində ocaq izlərinə az rastlanmışdır. Aşel dövrünə aid abidələrdə ocaqlara indiyədək Çjoukoudyan, Terra-Amata, Lazar, Verteşeelleş və Azıxda rastlanmışdır. Tədqiqatçılar ocaqların meydana gəlməsini ovçuluq təsərrüfatı ilə bağlayırlar. Lakin araşdırmalar göstərir ki, ocaqlar yalnız yemək hazırlanması üçün deyil, mənzilin istidilməsi üçün də istifadə edilmişdir. Ocaqların müxtəlif səviyyələrdə, lakin müəyyən sahədə aşkar olunması göstərir ki, daşın emalı mağaranın girişində, yaşayış sahəsi isə bir qədər içəridə, ocaqların ətrafında olmuşdur. Azıx mağarasında yaşayış sahəsi kimi istifadə olunan hissə daş hörgü ilə mağaranın digər sahəsindən ayrılmışdır. Bu onu göstərir ki, Aşel insanları müəyyən dövrlərdə hava şəraiti ilə bağlı olaraq istini qoruyub saxlamağa ehtiyac hiss etmişlər. Daş hörgü müəyyən hissədə kəsilmiş və hörgünün davamı kimi maral buynuzları düzülmüşdür. Onlar bəzən bir-biri ilə üzbəüz yerləşdirilmişdir. Ehtimal ki, maral buynuzlarından ritual məqsədlə istifadə edilmişdir. Tədqiqatlara əsaslanaraq demək olar ki, Aşel dövründə insanlar süni tikintilərdən istifadə etməklə bərabər, süni od almağı da bacarmışlar.

Azıx mağarasının Aşel təbəqəsindən aşkar olunan arxeoloji tapıntılar o dövrdə yaşayan insanların mənəvi dünyası haqqında da müəyyən fikir deməyə

imkan verir. Mağara ayısına məxsus kəllələrin mağaranın gizlin guşəsində aşkar olunması Aşel ovçularında dini inancların meydana gəldiyini göstərir. Ayı kəlləsi üzərinə çəkilən cizgilər heyvana sitayişlə bağlı inancların meydana çıxdığını ehtimal etməyə imkan verir. Bir-birinin yanına qoyulmuş ayı kəlləsi Gürcüstanda, Cənubi Osetiyanın I Kudaro düşərgəsinin Orta Aşel təbəqəsində aşkar olunmuş və tədqiqatçılar tərəfindən dini təsəvvürlərin yaranması ilə izah edilmişdir. Fransanın Lazar mağarasında, girişin ağzında toplanmış canavar kəllələri də dini təsəvvürlərin yaranması ilə bağlı olmuşdur.

**Mustye mədəniyyəti.** Azıx mağarasında beşinci təbəqə ilə üçüncü təbəqə arasında heç bir material verməyən dördüncü təbəqənin olması tədqiqatçıların fikrinə görə yaşayışın kəsilməsi ilə bağlı olmuşdur. Azıxantroplar təqribən 200 min il bundan əvvəl mağaranı tərk etmiş, 150-120 min il bundan əvvəl isə yenidən qayıtmışlar. İnsanların mağaraya dönməsi havaların soyuması ilə bağlı olmuşdur. Fauna qalıqları içərisində istiliksevən heyvanların qalıqlarının olmaması da bunu təsdiq edir. Mustye təbəqəsində 2000-dən artıq daş məmulatı, minlərlə heyvan sümüklərinin qalıqları aşkar olunmuşdur. Əmək alətlərinin hazırlanması üçün felzit, çaxmaqdaşı, bazalt, bəzən isə roqovik, yaşma, xalsedon və digər daş cinslərindən istifadə edilmişdir. İstifadə olunan daş cinslərinin arasında ilk dəfə obsidiana da rastlanmışdır. Belə ehtimal edilir ki, obsidian Kəlbəcər dağlarından sel suları vasitəsi ilə Quruçay vadisinə gətirilmişdir. Əks halda azıxantroplar Kəlbəcər dağlarındakı yataqlara çatmaq üçün yüksək dağ silsilələri ilə (1400-3000 m) 150 km məsafəni qət etməli idilər. Bu isə o dövrdə mümkün deyildi.

Daş məmulatının hazırlanmasında istifadə olunan xammalın tərkibi göstərir ki, Mustye insanlarının həyat tərzində və daş işləmə texnikasında xeyli dəyişikliklər olmuşdur. Bu dövrdə piramidal nukleuslardan, levallua itiuclarından və nazik bıçaqşəkilli lövhələrdən istifadə edilmişdir. Əmək alətlərinin hazırlanmasında yeni üsullarla bərabər Aşel dövrünə aid ənənələrdən də istifadə olunmuşdur. Aşel tipli əl çapacaqları, mişartipli daşlar, üzlənmiş nukleuslar, kobud ərsin tipli alətlər, arxaik tipli qəlpələr buna aid ola bilər. Mustye insanları Kiçik Qafqazın cənub ətəklərinə, Mil düzündən Ceyrançöllədək geniş bir ərazidə yayılmışdır. Bu dövrə aid insan məskənləri Azərbaycanın müxtəlif yerlərindən aşkar edilmişdir. Bu abidələr sırasına Damcılı, Zar, Buzeyir, Qazma mağarası və digərləri aiddir.



Şəkil 8. Azıx mağarası. Mustye mədəniyyətinin əmək alətləri

Azıx mağarasında yaşayan Mustye insanları dairəvi formalı iri həcmli ocaqlar hazırlamış, ocaqların döşəməsinə və ətrafına əhəngdaşı döşəmişlər. Çox maraqlıdır ki, Mustye dövründə ocaqlar əvvəlkilərlə eyni sahələrdə salınmışdır. Aşkar edilmiş əmək alətlərinin qəlpə qoparma texnikası və tipoloji tərkibi Mustye dövrünün erkən mərhələsinə aiddir. Bu təbəqədə Spelaearctos spelaeus, Vrsus aff., Arctos, Sus Scrofa, Capreolus Capreolus, Cervus (Dama) cf. Mesopotamica, Megaloceros giganteus, Cervus elaphus, Capra aegagrus, Eguus hidruntinus, Dicerorhinus mercki heyvan cinsləri aşkar olunmuşdur.

Mustye mədəniyyətinin ən yaxşı öyrənilmiş abidəsi Tağlar mağarasıdır. Tağlar mağarası Azıx mağarasından 3 km qərbdə yerləşir.



Şəkil 9. Azıx mağarası. Mustye mədəniyyətinin əmək alətləri

Mağara 1963-1978-ci illərdə, yeddi qazıntı mövsümü ərzində, M.M.Hüseynov və Ə.Q.Cəfərov tərəfindən öyrənilmişdir. Tədqiqat zamanı altı təbəqə aşkar olunmuşdur. Mustye dövrünə aid olan II-VI təbəqələr maddi-mədəniyyət qalıqları ilə daha zəngin olmuşdur. Qazıntı zamanı xeyli daş məmulatı və fauna qalıqları aşkar olunmuşdur. Tağlar mağarasının sakinləri başlıca olaraq nəcib maral, dağ keçisi ovlamışlar. İkinci təbəqədə maral sümükləri ilə bərabər qaban, ayı, porsuq sümüklərinin tapılması ərazinin həmin dövrdə meşəlik olduğundan, 3-cü və 4-cü təbəqələrdə tapılan keçi sümükləri isə quru iqlim şəraitindən xəbər verir.




Şəkil 10. Tağlar mağarası. Levallua itiucluları

Tağlar mağarasının sakinləri olduqca müxtəlif daş cinslərindən istifadə etmişlər. Başlıca olaraq şist, çaxmaqdaşı və obsidiandan istifadə olunmuşdur. Əmək alətlərinin 92 %-i çaxmaqdaşından hazırlanmışdır. Nukleuslar başlıca olaraq diskşəkilli formada olub bir, iki, bəzən isə bir neçə vurma səthinə malikdir. Onlar arasında prizmatik nukleuslar da vardır. Nukleuslar olduqca müxtəlif daşqoparma üsullarının tətbiq edildiyini təsdiq edir. Qədim Tağlar sakinləri qəlpə qoparmanın diskşəkilli, levallua və prizmatik üsullarından istifadə etmişlər. Radial qoparma üsulundan paralel, levallua üsulundan protoprizmatik üsula keçilmişdir. Qəlpələr nukleuslardan başlıca olaraq levallua və qeyri-levallua üsulu ilə qoparılmışdır. Onlar sayca bərabərdir. Qəlpələr arasında

üçbucaqşəkillilər üstünlük təşkil edir ki, bu da levallua texnikasının inkişaf etməsi ilə bağlı olmuşdur.



Şəkil 11. Tağlar mağarası. Mustye mədəniyyətinin əmək alətləri

Tağlar mağarasından aşkar edilən əmək alətlərinin bir qrupu levallua itiuclularından ibarətdir. Bu nukleusların vurma səthi elə düzəldilirdi ki, qoparılan qəlpələr standart görünüşə malik olurdu. Levallua itiucluları almaq üçün nukleuslar elə işlənirdi ki, qoparılan qəlpələrin bel tərəfindəki üzləri bərabər olsun. Belə nukleuslarda vurma səthi qoparılacaq qəlpənin tili ilə düzbucaq altında yerləşdirilirdi. Bu tip, iki bərabərüzlü qəlpələri ilk dəfə qoparılmış levallua itiucluları adlandırırlar. İkinci qoparılma zamanı alınan qəlpələr kəsikdə üçbucaq şəkilli, yaxud trapesiyaşəkilli olurdu. Bu tiplər müxtəlif variantlara bölünür. Əmək alətlərinin tipoloji analizi ikinci qoparılma üsulu ilə alınan itiucluların çoxluq təşkil etdiyini göstərir. Ola bilsin ki, ilk qoparma mağaradan

kənarda olduğundan onlar az təmsil olunmuşdur. Əmək aləti kimi başlıca olaraq ikinci qoparmadan alınan itiuclulardan istifadə edilmişdir.




Şəkil 12. Tağlar mağarası. Mustye mədəniyyətinin əmək alətləri

Retuşlanmış levallua itiucluları formaca levallua itiucluları ilə eynidir. Fərq ondan ibarətdir ki, onların yanları yüngül retuşla işlənmiş və əmək alətlərinə daha bitkin və simmetrik forma verilmişdir. Ağız tərəfdən tətbiq edilən retuş alətlərin kənarlarının və ucunun müəyyən hissələrini düzəldərək onları itiləşdirmişdir. Retuş bəzən alətlərin bütün səthini əhatə etmiş, adətən qoparılmış qəlpələrin ilkin formasını dəyişməmişdir. Lakin bəzi hallarda qəlpələrin ilkin

forması dəyişmişdir. Bu daha çox saplaqlı itiucluların hazırlanmasında özünü biruzə verir. Tapıntılar göstərir ki, Mustye dövrünün son mərhələsində mağarada retuşlanmış, saplaqlı levallua itiucluları hazırlanmışdır.



Şəkil 13. Qazma mağarasındakı qazıntının planı

Mustye itiucluları formaca Tağlar kolleksiyası üçün xarakterik olan levallua itiucluları ilə bənzərdir. Lakin Mustye itiucluları bir qədər qısa və ağırdır. Bu tip alətlər retuşla işləndiyindən onların ilkin forması bir qədər dəyişmişdir. Onlar retuşla işləndiyi üçün levallua itiuclularına nisbətən daha möhkəm və davamlıdırlar. Alətlərin hazırlanmasında Mustye dövrü üçün xarakterik olan pulcuqlu, bir cərgəli, iki cərgəli və çoxcərgəli retuşdan istifadə edilmişdir.

Limas tipli alətlər az aşkar olunmuşdur (8-9 əd.). Retuşla işlənən bu alətlər obsidiandan hazırlanmışdır.

Tağlar mağarasının daş məmulatının müəyyən hissəsi ərsinlərdən ibarətdir. Ərsinlər olduqca müxtəlif tiplərlə təmsil edilmişdir. Onlar arasında sadə, köndələn və ikiqat ərsinlər üstünlük təşkil edir.



Şəkil 14. Qazma mağarası. Mustye mədəniyyətinin əmək alətləri

Mağaranın dibinin düz olması, girişdən başlayaraq arxa divara doğru mağara dibinin yüksəlməsi, müxtəlif dövrlərdə onda olan çöküntülərin və yaşayış sahəsinin dəyişməsinə səbəb olmuşdur. Məsələn 2-ci təbəqə 40 kv.m, 6-cı təbəqə isə 15 kv.m. sahə tədqiq edilmişdir.

Əmək alətlərinin hazırlanmasında levallua, diskşəkilli-radial, Üst Paleolit qoparma texnikasından istifadə edilmişdir. Araşdırma levallua texnikasının üstünlük təşkil etdiyini göstərir. Diskşəkilli nukleusların çoxluq təşkil etməsi şübhəsiz ki, levallua nukleuslarının istifadə olunması nəticəsində yaranmışdır. Üst Paleolit texnikası yalnız mağaranın üst qatlarında, xüsusilə 2-ci və 3-cü

təbəqələrdə meydana çıxmışdır. Mağaranın 4 a və 4 b təbəqələrində xeyli kül təbəqəsinin yığılması əhalinin müəyyən dərəcədə oturaq həyatından xəbər verir. Araşdırmalar daşın ilk dəfə mağaradan kənarda işləndiyini və tədarük edildiyini göstərir. Mağarada daş ikinci dəfə işlənmiş və müxtəlif üsullarla retuşlanmışdır. Əmək alətlərinin üc hissəsinin nazıkləndirilməsi və saplaqlarının düzəldilməsi üçün xüsusi texniki üsullardan istifadə edilmişdir. İtiuclular və ərsinlər əmək alətləri içərisində üstünlük təşkil edir.

Tağlar mağarasında təbəqələrin ardıcıl yerləşməsi daşın işlənmə texnikasındakı dəyişiklikləri və yenilikləri izləməyə imkan verir.



Şəkil 15. Damcılı mağarası. Musye mədəniyyətinin əmək alətləri

**Üst paleolit mədəniyyəti.** Arxeoloji araşdırmalar göstərir ki, təqribən 40-35 min il bundan əvvəl Azərbaycanda Mustye mədəniyyəti Üst Paleolit mədəniyyəti ilə əvəz olunmuşdur. Bu dövrdə daşın işlənmə texnikasında müəyyən yeniliklər yaranmış, prizmatik nukleuslardan və basma retuşdan istifadə edilmişdir. İqlimin dəyişməsi və mülayimləşməsi bitki və heyvanat aləmində,

habelə ictimai həyatda dəyişikliklərin baş verməsi ilə müşayət olunmuşdur. Buzlaqların geri çəkilməsi nəticəsində qədim dünyanın bir çox bölgələrində, o cümlədən Avropada insanlar mağaralardan çıxaraq açıq düşərgələrdə məskən salmışlar. Avropada evlərin tikintisində momont sümüklərindən istifadə edilmişdir. Bu dövrdə qazma tipli evlərdən də istifadə olunmuşdur. Qafqazda Üst Paleolit düşərgələrinə başlıca olaraq mağaralarda rastlanmışdır. Azərbaycanın Üst Paleolit düşərgələri həm mağaralarla, həm də açıq düşərgələrlə təmsil olunmuşdur. Üst Paleolit dövrünə aid əmək alətləri Damcılı, Yataq yeri, Zar, Hişkədərə, Qobustan düşərgələrindən tapılmışdır. Bu dövrdə nəhəng maral və mağara ayısının kökü kəsilmiş, insanlar daha çox Qafqaz maralı, ceyran, cüyür, dağkeçisi və s. heyvanları ovlamışlar.

Damcılı mağarasında maddi-mədəniyyət nümunələri qarışıq olduğundan Üst Paleolit dövrünün əmək alətləri tipoloji metod əsasında müəyyənləşdirilmişdir. Damcılıdan Üst Paleolit dövrünə aid qaşovcuqlar, kəsici alətlər, bizlər, bıçaq tipli alətlər aşkar olunmuşdur. Əmək alətlərinin hamısı çaxmaqdaşı və obsidiandan hazırlanmışdır.

Zar mağarası Gədəbəy rayonunda Şahdağ və Murovdağ silsiləsi arasında, Tərtər çayının sol tərəfində, dəniz səviyyəsindən 2190 m yüksəklikdə yerləşir. Mağara xəzinə axtaranlar tərəfindən dağıdılmışdır. Dağıdılmış sahədə M.M.Mənsurovun apardığı araşdırmalar zamanı obsidiandan hazırlanmış 152 əşya aşakar edilmişdir. Onlar istehsal tullantılarından, qəlpələrdən, nukleuslardan, itiuclulardan, qaşovlardan, iskənələrdən, vərdənə və s. alətlərdən ibarətdir.

Tapıntılar arasında bütün parametrlərinə görə Üst Paleolit dövrünə uyğun olan qaşovlar, yarpaqşəkilli itiuclular, retuşla işlənmiş lövhələr, qarmaqşəkilli alətlər vardır.

Mağaranın cənub qurtaracağında aparılan kəşfiyyat qazıntısı zamanı, kəsikdə çınqıl və çaydaşı qarışıq gilli torpaqdan yaranmış altı təbəqənin olduğu müəyyən edilmişdir. Bir-birini əvəz edən bu təbəqələrin yalnız dördündə maddi-mədəniyyət qalıqlarının olduğu müəyyən edilmiş, mədəni təbəqələrdən ona yaxın əmək aləti aşkar olunmuşdur. Aşağıdan yuxarıya doğru sıralanan bu əmək alətlərində texniki irəliləyiş aydın nəzərə çarpır.

Zar mağarasının əmək alətləri tipoloji və texnoloji səviyyəsinə, qəlpələrin morfologiyasına görə Mustye mədəniyyətinin ikinci mərhələsini və Mustyedən Üst Paleolitə keçidi əks etdirir. Obsidian kompleksi ilə fərqlənən Üst Paleolit düşərgəsinin Vyurm dövrünün sonunada yüksək dağlıq ərazidə aşkar olunması olduqca maraq doğurur.

Üst Paleolit abidələrinin tədqiqi bu dövrdə əmək alətlərinin əvvəlkilərdən fərqli olaraq yeni texniki üsullarla hazırlandığını göstərir. Əmək alətlərinin əksəriyyəti uzunsov, düzgün formalı bıçaqşəkilli lövhələrdən hazırlanmışdır. Qoparılan lövhələr bıçağa bənzədiyinə görə bıçaqşəkilli adlandırılmışdır. Bıçaqşəkilli lövhələrin alınması üçün seçilmiş xammal-çaydaşı, obsidian, yaxud

çaxmaqdaşı əvvəlcədən qəlpələnərək hazırlanır və vurma səthi yaradılırdı. Mustye dövründən fərqli olaraq Üst Paleolit lövhələrinin qoparılması üçün zərb alətindən və nukleusla zərb alətinin arasına qoyulan xüsusi alətdən istifadə olunurdu. Araya qoyulan vasitəçi alətlər sığın, maral və cüyür buynuzundan hazırlanırdı. Lövhələrin hazırlanması olduqca mürəkkəb bir proses idi. Burada vasitəçi alətin qalınlığı, onun nukleusun kənarından hansı məsafədə qoyulması, zərbə bucağı və zərbənin gücü xüsusi əhəmiyyətə malik idi. Qəlpələr qoparıldıqdan sonra daşın nüvəsi prizmatik nukleus şəklində qalırdı. Bıçaqşəkilli lövhələrin uzunluğu 5-10 sm, eni 2-3 sm olurdu. Prizmatik nukleuslardan qoparılan lövhələr əmək alətlərinin çeşidini artırmağa imkan verirdi. Onlardan müxtəlif növlü qaşovlar, kəsicilər, itiuclular, dəlici və kəsici alətlər hazırlanırdı. Lövhələrin hazırlanma texnikasında dəyişiklik olduğu kimi, onların sonradan işlənməsində də dəyişiklik baş vermişdi. Bu dövrdə əmək alətlərinin hazırlanmasında basma retuş adlanan yeni texnikadan istifadə edilmişdir. Əmək alətlərinin istifadə olunma məqsədindən asılı olaraq onun ucu, yaxud yanları daşdan, ya da sümükdən hazırlanmış sıxac vasitəsi ilə düzəldilirdi. Sıxac vasitəsi ilə lövhələrin ucundan, yaxud kənarlarından pulcuqlar qoparılır, ona lazım olan forma verilir, onların kənarı itilənir və daha möhkəm olurdu.

Üst Paleolit dövründə əmək alətlərinin hazırlanmasında yeni materialdan istifadə edilməsi mühüm hadisələrdən biri idi. Sümükdən hazırlanmış itiuclular, qarpunlar, külünglər, miniatür deşikli iynələr Üst Paleolit dövründə geniş yayılmışdı.

Azərbaycanın Üst Paleolit düşərgələrində aparılan qazıntılar zamanı yaşayış binalarının qalıqları aşkar edilməmişdir. Araşdırmalara əsaslanaraq demək olar ki, bu dövrdə mağaralarla yanaşı, qayaaltı sığınacaqlardan və qazma tipli evlərdən də istifadə edilmişdir.

Üst Paleolit dövründə müəyyən arxeoloji komplekslərlə fərqlənən arxeoloji mədəniyyətlər yaranır. Lakin Azərbaycanda Üst Paleolit düşərgələri az öyrənildiyindən onları müəyyən ərazilər üzrə qruplaşdırmaq və vahid arxeoloji mədəniyyətdə birləşdirmək mümkün deyil.

Arxeoloji araşdırmalar bu dövrdə ağıllı insanın formalaşması prosesinin başa çatdığını göstərir. Ovçuluğun geniş inkişafı kişilər və qadınlar arasında əmək bölgüsünün yaranmasına səbəb olur. Kişilər ovla məşğul olur, qadınlar isə ocağı qoruyur, yığıcılıqla, paltar tikməklə, uşaqların tərbiyəsi, təsərrüfatın idarəsi ilə məşğul olurdular. Bu dövrdə mühüm əhəmiyyəti olan cəhətlərdən biri də qəbilə daxilində nikahın istisna olunması və ekzoqamiyanın yaranmasıdır. Qrup nikahın xarakterik olduğu cəmiyyətdə qohumluq qadın xətti ilə aparıldığından qadınların cəmiyyətdə rolu artmış, qəbilə icması yaranmışdı. Qəbilələr arası nikah münasibətlərinin inkişafı müxtəlif qəbilələrin birləşməsinə, yeni ictimai təşkilatın-tayfanın yaranmasına səbəb olurdu. Tayfa bir neçə qohum qəbiləni birləşdirirdi. Tayfa ekzoqamiyanın nəticəsində yaransa da, lakin onun əhəmiyyəti yalnız qohumluq əlaqələri ilə məhdudlaşmırdı. Tayfanın öz ərazisi və ov yeri

olurdu. Ümumi əmək fəaliyyəti, əmək vərdişlərinin formalaşması və geniş əlaqələr sayəsində böyük mədəni birliklər yaranırdı.



Şəkil 16. Orta Şurtanın əmək alətləri(Kəlbəsər)

Üst Paleolit dövründə meydana gələn nailiyyətlər sonrakı dövrlərdə inkişaf etdirilmiş və günümüzədək gəlib çatmışdır. Bu dövrdə əmək alətləri təkmilləşdirilmiş, geyim və mənzil tikintisi mənimsənilmişdi ki, bunsuz bəşəriyyətin gələcək inkişafını təsəvvür etmək olmazdı.

## MEZOLİT DÖVRÜ

Təqribən 12 min il bundan əvvəl Üst Paleolit dövrü Mezolit dövrü ilə əvəz olunmuşdur. Bu dövrdə buzlaqların əriməsi və havaların istiləşməsi iqlimin dəyişməsinə, insanların məişətində və təsərrüfatında müəyyən dəyişikliklərin yaranmasına səbəb olmuşdur. Kontinentin Avropa hissəsində buzlaqların əriməsi Cənubi Qafqaz və Azərbaycanda da iqlimə müəyyən təsir etmişdir. Azərbaycanda Mezolit dövrü başlıca olaraq Qobustan abidələri əsasında öyrənilmişdir. Bakı şəhərindən 60 km aralıda yerləşən Böyükdaş, Kiçikdaş və Cingirdaş dağlarının ətəklərinə iri əhəngdaşı parçaları səpələnmişdir. Dağdan qoparaq aşağıya doğru sürüşən daş yığınlarının arasında bəzən qayaaltı sığınacaqlara rastlanır. Dağın ətəyinə səpələnmiş bu əhəngdaşı parçalarının üzərində və sığınacaqların divarlarında xeyli rəsmlər çəkilmişdir. Böyükdaş dağındakı qayaaltı sığınacaqlarda aparılan qazıntılar zamanı müəyyən olmuşdur ki, buradakı təsvirlər Neolit və Mezolit dövrünün sonuna aid maddi-mədəniyyət qalıqları ilə örtülmüşdür. Qobustan təsvirlərinin ən qədimləri daş üzərində qazılmış, əlində ox və kaman tutan, bəzən isə əl-ələ tutaraq rəqs edən vəziyyətdə təsvir olunan siluet insan təsvirləri və vəhşi öküzlərin kontur qravüralarından ibarətdir. Araşdırmalar Qobustan təsvirlərində qədim insanların totem və ovsunla bağlı ideoloji təsəvvürlərinin əks olunduğunu təsdiq edir. Bu təsvirlərdə qədim insanların həyat tərzi və məşğuliyyəti aydın şəkildə əks olunmuşdur.

Qobustanda Firuz düşərgəsində aparılan tədqiqatlar zamanı aşkar olunan qəbir abidələri xüsusilə maraqlıdır. Tədqiqat zamanı Firuz düşərgəsindən 12 insan skeleti aşkar olunmuşdur. Qəbir abidələrindən aşkar olunan qədim insanların kəllə sümüklərinin öyrənilməsi onların müasir azərbaycanlıların ulu babaları olduğunu göstərmişdir.

Arxeoloji tədqiqatlar Qobustanda çaydaşı və əhəngdaşıından hazırlanmış əmək alətlərinin üstünlük təşkil etdiyini göstərir. Əmək alətləri həmçinin çaxmaqdaşı və sümükdən hazırlanmışdır. Qobustanın Mezolit düşərgələrindən çoxlu heyvan sümükləri də tapılmışdır. Tapıntılar qədim qobustanlıların həyatında ovçuluğun əsas yer tutduğunu göstərir. Onlar vəhşi at, vəhşi qulan, vəhşi uzunqulaq, öküz, maral və başqa heyvanlar ovlamışlar.

Damcılı mağarasından aşkar olunan, Mezolit dövrünə aid edilən əmək alətləri çaxmaqdaşı və obsidiandan hazırlanmışdır. Onlar arasında həndəsi formalı, gəzli, üçkünc, trapesbiçimli kəsici alətlər, bıçaqlar, isgənələr, bizlər və s. vardır.

Mezolit dövrünə aid abidələrdən aşkar olunan əmək alətləri bu dövrdə mikrolit alətlərin istehsalı texnikasının mənimsənildiyini göstərir. Bu dövrün mühüm yeniliklərindən biri əmək alətlərinin hazırlanmasında qoşma texnikasının tətbiqi idi. Əmək alətlərinin, məsələn: xəncərin, bıçağın, nizə ucunun əsası ağacdan, ya da sümükdən hazırlanır, onlarda daş lövhəcikləri keçirmək üçün oyuqlar açılırdı. İti daş lövhələr həmin yarıqlara keçirilərək bərkidilirdi. Mikrolitlərin meydana çıxması Mezolit dövrü üçün xarakterikdir. Onların ölçüləri 1-2 sm olurdu. Mikrolitlər çaxmaqdaşından, yaxud yaxşı qəlpələnən

digər daşlardan xüsusi sıxaclar vasitəsi ilə qoparılırdı. Mikrolitlər həndəsi formalı olurdular. Mikrolitlər ox ucluğu və müxtəlif alətlərin hazırlanması üçün geniş istifadə olunmuşdur. Mikrolit alətlərin hazırlanma texnikasının mənimsənilməsi ox və kamanın ixtirası üçün də şərait yaratmışdır. Mezolit dövründə iti yerişli heyvanları ovlamaq üçün ox və kaman misli olmayan bir ixtira idi. Ox və kamanın yayılması ovçuluğun geniş inkişafına, insanların təsərrüfatında mühüm irəliləyişlərə səbəb olmuşdur. Tədricən yığıcılıq və ovçuluq kimi mənimsəmə təsərrüfatından istehsal təsərrüfatına- əkinçilik və maldarlığa keçidin əsası qoyulmuşdur. Mezolit insanları özlərindən əvvəlki insanlara nisbətən ətraf aləmdən daha çox faydalanmışlar. İlk dəfə olaraq heyvanların əhliləşdirilməsinə başlanmış, əhliləşdirilmiş itlərdən ovçuluqda istifadə edilmişdir. Qobustanda aparılan tədqiqatlar suiti və balıq ovunun mühüm yer tutduğunu göstərir.



Şəkil 17. Qobustan qaya təsvirləri

# NEOLİT DÖVRÜ

Arxeoloji araşdırmalar göstərir ki, e.ə. VII-VI minilliklərdə Mezolit dövrü Neolit dövrü ilə əvəz olunmuşdur. Əgər daş dövrünün əvvəlki mərhələlərinin

müəyyən olunmasında daşın işlənməsi texnikası əsas götürülürdüsə, Neolitdə bununla bərabər istehsal təsərrüfatının formalaşması mühüm əhəmiyyət qazanır. Hazırda tədqiqatçılar Neolit dövrünü iki mərhələyə bölürlər: keramikasız Neolit və keramikalı Neolit. Neolit dövrünə aid maddi-mədəniyyət nümunələrinə Damcılı mağarasında, Qobustan abidələrində (Ovçular zağası, Anazağa, Firuz, Böyükdağ), Naxçıvan Kültəpəsində, Xanlar, Qaraköpəktəpə, Yanıqtəpə, Hacı Firuz, Şomutəpə, Töyrətəpə və digər abidələrdə rastlanmışdır. Abidələrin tədqiqi bu dövrdə insanların açıq düşərgələrdə məskən saldığını, oturaq həyat keçirdiyini göstərir. Yaşayış yerlərinin əkinçilik və maldarlıq üçün əlverişli mövqelərdə yerləşməsi istehsal təsərrüfatının formalaşması ilə bağlı olmuşdur. Qobustandan aşkar olunan toxayabənzər alətlər, sürtgəclər, oraq dişi kimi istifadə olunan mikrolit lövhələr istehsal təsərrüfatının əsas sahələrindən biri olan əkinçiliyin inkişafından xəbər verir. Qədim qobustanlılar toxaları başlıca olaraq çay daşlarından hazırlamışlar. Onlar düşərgəyə gətirdikləri yastı uzunsov, bir ucu enli daşları hər iki üzdən qəlpələr qoparmaqla işləmişlər. Əmək alətlərinin işlək tərəfi istifadə nəticəsində cilalanmışdır. Sürtkəc və dən daşlarının tapılması, nəinki dənli bitkilərin əkildiyini, həm də onların yaşayış yerlərində emal edildiyini deməyə əsas verir. Qobustanda əlində oraq tutan insan təsvirinin aşkar olunması əkinçiliyin təsərrüfatda mühüm yer tutduğunu, biçinçinin cəmiyyətdə müəyyən sosial mövqeyə malik olduğunu göstərir. Təsərrüfatın müəyyən sahəsini təşkil edən balıq ovunda qayıqlardan istifadə edilmişdir. Qayıqlar ağacların içərisinin oyulması ilə və ya qamışdan hazırlanmışdır.

Əmək alətlərinin tipoloji analizi göstərir ki, mikrolitlərin bir qismindən ovçuluq və balıqçılıqda istifadə olunan silahlar hazırlanmışdır. Bu məqsədlə nizə ucları və qarpunlardan da istifadə olunmuşdur. Şübhəsiz ki, sahilboyu ərazidə yaşayan qobustanlıların təsərrüfatında balıqçılıq mühüm yer tutmuşdur.

Qobustan abidələrinin tədqiqində İ.M.Cəfərzadənin, C.N.Rüstəmovun, F.M.Muradovanın və digər alimlərimizin mühüm xidmətləri olmuşdur. C.Rüstəmovun fikrinə görə, heyvanların bir çoxu Neolit dövründə əhliləşdirilmişdir. Heyvanların əhliləşdirilməsi istehsal təsərrüfatının mühüm sahələrindən biri olan heyvandarlığın inkişafının əsasını təşkil etmişdir.

Neolit dövrünün ən mühüm yeniliklərindən biri dulusçuluq və toxuculuğun meydana gəlməsidir. Qobustan və I Kültəpədən aşkar olunan keramika nümunələri gil qablarının hörmə üsulu ilə hazırlandığını və olduqca kobud olduğunu göstərir.

Neolit dövründə əvvəlki texniki üsullardan da istifadə edilmişdir. Qəlpələmə və sıxma retuş bu dövrdə əmək alətlərinin hazırlanmasında mühüm rol oynamışdır. Bu dövrdə insanlar daşın deşilməsi və cilalanması texnikasına yiyələnmişlər ki, bu da təsərrüfatda və məişətdə mühüm yeniliklərə səbəb olmuşdur. Daş alət əvvəlcə qəlpələnir, ona lazımi forma verilir, sıxma retuşla işlənir və cilalanırdı. Cilalanmış və deşik açılmış daş baltalardan ağac emalında istifadə olunmuşdur ki, bu da mənzillərin tikilməsini təkmilləşdirməyə imkan

vermişdir. I Kültəpənin Neolit təbəqəsindən aşkar olunan tikinti qalıqları bu dövrdə dördkünc formalı, yerüstü mənzillərin tikintisinin mənimsənildiyini deməyə əsas verir. I Kültəpə evləri başlıca olaraq möhrədən tikilmişdir.

## ENEOLİT DÖVRÜ

Eneolit dövrü e.ə. VI-IV minillikləri əhatə edir. Bu dövrdə mis emalının və metalişləmənin əsası qoyulmuşdur. Azərbaycanın mis yataqları ilə zəngin olması və bu ərazidə mis külçəsinə rastlanması mis emalının erkən meydana gəlməsi və inkişafı üçün şərait yaratmışdır. Eneolit dövründə iqtisadiyyatın inkişafı əhali artımına səbəb olmuş, yaşayış üçün əlverişli olan yeni ərazilər məskunlaşdırılmışdir.

Azərbaycanın Eneolit dövrünə aid abidələrinin müəyyən hissəsi Şomutəpə mədəniyyətinə aid edilmişdir. Bu abidələrin bir qrupu Kür çayının orta axarında Gəncə-Qazax düzənliyində, xüsusilə Ağstafa və Həsənsu çaylarının hövzəsində yerləşir. Başlanğıcını dağlardan götürən Həsənsu Yuxarı Göyçəli kəndi yaxınlığında düzənliyə çıxaraq vaxtilə müxtəlif şaxələrə ayrılmış, əkinçiliyin inkişafı üçün əlverişli şərait yaratmışdır. Bu hövzənin əkinçilik üçün əlverişli olması Şomutəpə, Töyrətəpə, Cinnitəpə, Arzamas təpəsi və digər yaşayış yerlərinin yaranmasına səbəb olmuşdur. Ağstafaçay və Həsənsu vadisində həyat Eneolit dövründə kəsilmiş və yalnız Son Tunc dövründə bərpa olunmuşdur. Bu qrupun geniş öyrənilmiş abidələrindən biri Şomutəpə yaşayış yeridir. Azərbaycanın şimalında formalaşan Eneolit mədəniyyəti bu abidənin adı ilə bağlıdır. Ağstafaçay dəmir yol stansiyasının şərqində yerləşən yaşayış yerində 1961-1964-cü illərdə 400 kv.m sahədə tədqiqat aparılmışdır. Şomutəpənin məişət-təsərrüfat tikintiləri eyni tikinti qatına aiddir. Araşdırmalar göstərir ki, uçub tökülən binalar tez-tez təmir olunmuşdur.

Şomutəpə sakinləri bir sıra çiy kərpicdən tikilmiş dairəvi formalı evlərdə yaşamışlar. Evlərin divarları bəzən silindrik olmuş, bəzən isə yuxarıya doğru yığılmışdır. Tavan döşəməyə basdırılan xüsusi dirəklə saxlanmışdır. Evlərin bir, bəzən isə iki girişi olmuşdur. Evləri qızdırmaq üçün istifadə edilən ocaqlar divarların dibində yerləşdirilmişdir. Yaşayış binalarının diametri ən çox 3,7 m olmuşdur. Ocaqlar bəzən də həyətdə olmuşdur. Şomutəpənin təsərrüfat binaları da yaşayış evləri kimi dairəvi planlı olmuşdur. Yaşayış evlərinə bitişik olan təsərrüfat binaları bir həyətin ətrafında yerləşmişdir. Bir sözlə, Şomutəpə yaşayış yeri müəyyən ailələrə məxsus olan ayrıca təsərrüfat-məişət komplekslərinin məcmuyundan ibarət olmuşdur. Diametri 3 m olan binalardan yalnız biri yarımqazma tipli olmuşdur. Onun içərisinə girmək üçün xüsusi pilləkən düzəldilmişdir. Şomutəpə yaşayış yerindən taxıl dənləri, daşdan və sümükdən hazırlanmış əmək alətləri, o cümlədən dən daşları, oraq dişləri, sümükdən oraq çərçivəsi, toxalar, sümükdən hazırlanmış qadın fiquru aşkar olunmuşdur. Keramika məmulatı qum qarışıq gildən hazırlanmış, bəzən qırmızı boya ilə örtülmüşdür. Şomutəpədə dördkünc formalı dulus kürəsinin qalıqlarına, bəzi evlərin həyətində isə təsərrüfat quyularına rastlanmışdır.



Şəkil 18. Şomutəpə, Töyrətəpə və Babadərviş yaşayış yerlərinin maddi-mədəniyyət nümunələri. 1-4, 7, 9-11, 13 - sümük alətlər; 8 – qadın fiquru; 5, 6, 12, 14-20 - daş əmək alətləri; 21 – oraq; 22-24 – keramika

Töyrətəpə yaşayış yeri Şomutəpədən 2 km şimal-şərqdə yerləşir. Yaşayış yerində 1961, 1962, 1964 və 1965-ci illərdə 100 kv.m sahədə qazıntı aparılmışdır. Qazıntı zamanı beş tikinti qatı aşkar olunmuşdur. Töyrətəpənin ən alt təbəqəsi olan beşinci tikinti qatında dairəvi formalı yarımqazma tipli binanın qalıqları, həmçinin dairəvi formalı bir sıra kərpicdən tikilmiş bina qalıqlarına rastlanmışdır. Töyrətəpənin digər tikinti qatlarında aşkar olunan bina qalıqları da dairəvi formalıdır. Üçüncü tikinti qatındakı binalardan birinin divarları kərpicləri

köndələn qoymaqla yaradılan, içəriyə və xaricə doğru çıxıntılı olan plyastrlarla möhkəmləndirilmişdir. İkinci tikinti qatındakı divarların biri yalnız içəriyə doğru çıxan plyastrlarla



Şəkil 19. Qarğalartəpəsi yaşayış yerindəki tikinti qalıqlarının planı

möhkəmləndirilmişdir. Ocaqlar divarların dibində qurulmuşdur. Evlərin içərisində döşəməyə basdırılmış təsərrüfat küplərinə də rastlanmışdır. Töyrətəpənin ikinci və birinci tikinti qatlarında həm də dördkünc bina qalıqları aşkar olunmuşdur. İkinci tikinti qatında olan dairəvi və dördkünc formalı binaların bəziləri (4 №-li bina) iki sıra çiy kərpicdən tikilmişdir. Töyrətəpədən daşdan və sümükdən hazırlanmış əmək alətləri, o cümlədən dən daşları, oraq dişləri sümük toxalar, sümükdən və çaxmaqdaşından hazırlanmış yarımfabrikatlar, daşdan insan fiquru əldə edilmişdir.

Bu qrupun tədqiq edilmiş abidələrindən biri də Qarğalartəpəsi yaşayış yeridir. Yaşayış yeri dairəvi formalı evlər, onlara birləşik təsərrüfat tikintiləri və kiçik həyətlərdən ibarət olmuşdur. Evlər bir sıra çiy kərpicdən tikilmişdir. Dairəvi formalı evlərin tavanı döşəmənin mərkəzinə yerləşdirilən dayaq sütunu ilə saxlanmışdır. Evlərin döşəməsi bənövşəyi-qırmızı rənglə boyanmış, onların üzərinə qamışdan, yaxud müxtəlif bitkilərdən toxunmuş həsir salınmışdır. Ocaqlar divarın dibində olmuş, bəzi evlərin içərisində döşəməyə təsərrüfat küpləri basdırılmışdır. İkinci tikinti qatında aşkar olunan dördkünc formalı ocaq

giriş qapısının qarşısında divarın dibində yerləşdirilmişdir. Üçüncü tikinti qatında aşkar olunan binaların biri xaricdən



Şəkil 20. Qarğalartəpəsindən aşkar olunan qadın fiquru

və daxildən gil məhlulu ilə suvanmış və əhənglə ağardılmışdır. Binanın döşəməsi də ağardılmışdır. Binaların içərisində dən daşları, buynuzdan hazırlanmış toxalar, oraq dişləri, keramika nümunələri aşkar olunmuşdur. Qarğalartəpəsindən həmçinin xeyli yerüstü material da toplanmışdır. Onlar arasında gil qadın fiquru, qırmızı və qəhvəyi zolaqlarla naxışlanmış boyalı keramika, yapma naxışlı, habelə məməcikşəkilli çıxıntısı olan keramika nümunələrinə də rastlanır.




Şəkil 21. Töyrətəpədən aşkar olunmuş daş alətlər

Düzbucaqlı tikintilərin, plyastrların və iki sıra hörgünün Eneolit dövrünün son mərhələsində meydana çıxdığını nəzərə alsaq Qarğalartəpəsi yaşayış yerinin tək sıra kərpicdən, tikilmiş təsərrüfat-məişət komplekslərinin Şomutəpə və Töyrətəpədən qədim olduğunu demək olar. Qarğalartəpəsi yaşayış yerindən keramika məmulatı az tapılmışdır. Onlar qaba hazırlanmış və bitki qarışığı olan qabların parçalarıdır. Bitki qarışığı olan keramika qırmızı rəngdə bişirilmiş, əsasən qırmızı rəngdə anqoblanmış və cilalanmışdır.

Bu qrupa daxil olan Kiçiktəpə, Arzamaz təpəsi, Cinnitəpə yaşayış yerləri kəşfiyyat xarakterli tədqiqatlarla öyrənilmişdir. Keramika məmulatının bir qrupu

iri qum, yaxud daş ovuğu qatılmış gildən, digər qrupu isə bitki qarışığı olan gildən hazırlanmışdır.



Şəkil 22. Şomutəpə yaşayış yeri (D.Axundovun rekonstruksiyası)

Eneolit abidələrinin bir qrupu Tovuzçay və Şamxorçay vadisində yerləşir. Bu abidələrin müəyyən hissəsi Ağstafaçay və Coqazçay hövzəsində toplanmışdır. Ağstafaçay və Coqazçayın qovşağında, Babadərviş adlandırılan yerdə bir neçə təpənin üzərində qədim mədəniyyət qalıqlarına rastlanmışdır. Təpələrin birində 500 kv.m sahədə aparılan qazıntılar zamanı Eneolit mədəniyyətinin qalıqları aşkar olunmuşdur. Yaşayış yerində dörd qazma tipli ev aşkar olunmuşdur. Onların üçünün diametri 4 m-ə yaxın, dərinliyi isə 0,8 m olmuşdur. Qazmalardan birinin diametri 2,5 m olmuşdur. Qazmaların hamısı Eneolit dövrünə aid maddi-mədəniyyət qalıqları ilə dolmuşdur. Tədqiqat zamanı Eneolit dövrünə aid keramika məmulatı, dən daşları, oraq dişləri və digər əmək alətləri tapılmışdır. Keramika məmulatı Eneolit dövrü üçün xarakterikdir. Bəzi keramika məmulatı bitki qarışığı olan gildən hazırlanmış, bəzilərinin oturacağında hörmə işləri saxlanmışdır. Babadərvişdə ağzının kənarı içəriyə doğru batıq qablar da aşkar olunmuşdur. Belə qablara Kürün orta axarlarında olduqca az rastlanır.

Eneolit dövrünə aid Qanlıtöyrə, Qurbantəpəsi, Yataqyeri, Hüseynqulutəpəsi, Göytəpə, Keçili və digər yaşayış yerləri kəşfiyyat xarakterli tədqiqatlarla öyrənilmişdir. Bu yaşayış yerlərində dairəvi, yaxud düzbucaqlı evlərin qalıqlarına rastlanmışdır. Keramika məmulatı başlıca olaraq iki qrupa ayrılır. Birinci qrup qum qarışıq gildən, ikinci qrup isə bitki qarışığı olan gildən hazırlanmışdır. Bu abidələrdən yalnız Keçilidə 70 kv.m sahədə, Rus təpəsində isə 30 kv.m sahədə qazıntı aparılmışdır. Mentejtəpəsi yaşayış yerində heç bir qarışığı olmayan gildən hazırlanmış qablar da aşkar olunmuşdur. Bu qrupa daxil olan

qabların biri daraqvari alətlə çəkilmiş paralel xətlərlə və düyməşəkilli yapmalarla naxışlanmışdır.

Son zamanlar aparılan araşdırmalar zamanı Şomutəpə mədəniyyəti arealına daxil olan Böyük Kəsik və Poylu yaşayış yerləri, Soyuq Bulaq, Kavtusxevi, Seyidli, Dübəndi kurqanları aşkar edilmişdir. Yeni aşkar olunan abidələr Eneolit mədəniyyəti ilə Erkən Tunc dövrü mədəniyyətinin qarşılıqlı əlaqələrini öyrənmək baxımından olduqca əhəmiyyətlidir.



Şəkil 24. Qarğalartəpəsi yaşayış yeri(D.Axundovun rekonstruksiyası)

Azərbaycanın Eneolit abidələrinin müəyyən qrupu Kültəpə mədəniyyəti adlandırılmışdır. Bu mədəniyyət Naxçıvanı, Urmiya hövzəsini, Mil-Muğan düzlərini əhatə etmişdir. Bu mədəniyyət öz adını Naxçıvan şəhəri yaxınlığındakı I Kültəpə yaşayış yerinin adından götürmüşdür.

Naxçıvanda bu dövrə aid I Kültəpə, Sədərək, Xalac, Ərəbyengicə, Ovçulartəpəsi və digər abidələr qeydə alınmışdır. I Kültəpə yaşayış yerində aparılan araşdırmalar Eneolit mədəniyyətinin müxtəlif mərhələlərini izləməyə imkan vermişdir. Naxçıvanın Eneolit mədəniyyəti Urmiya hövzəsi və Mesopotamiyanın qədim mədəniyyətləri ilə iqtisadi mədəni əlaqələr şəraitində inkişaf etmişdir. Eneolit mədəniyyətinin təşəkkülündə Ubeyd tayfalarının xüsusilə böyük rolu olmuşdur. Arxeoloji abidələrinin tədqiqi nəticəsində Ubeyd tayfalarının Azərbaycan ərazisində yayılması ilə bağlı xeyli maddi dəlil ortaya çıxarılmışdır. Urmiya hövzəsində yayılan Eneolit




Şəkil 25. I Kültəpə yaşayış yerinin Eneolit təbəqəsi. 1-13, 16, 18, 20 - keramika; 14, 15, 21-25 – daş alətlər; 17-19 – sümük alətlər

dövrünə aid boyalı keramikanın Şimali Ubeydin lokal variantı olması, Urmiya hövzəsinin qədim əkinçilik mədəniyyətinin formalaşmasında Şimali Mesopotamiyadan gələn tayfaların müəyyən rol oynadığını təsdiq edir. Ubeyd tayfaları Urmiya hövzəsindən bir neçə istiqamətdə Azərbaycan ərazisinə yayılmışdır. Şübhəsiz ki, bu miqrasiyalar Naxçıvanı da əhatə etmişdir. I Kültəpənin erkən mərhələsində meydana gələn düzbucaqlı evlər Əliköməktəpə

və İlanlıtəpənin bənzər tikintiləri kimi Urmiya hövzəsinin qədim arxitekturası ilə bağlıdır. Neolit və Eneolit dövrünə aid düzbucaqlı tikintilərə Urmiya hövzəsində Hacı-Firuz, Yanıqtəpə və Göytəpədə rastlanmışdır. Keramika məmulatı və əmək alətlərinin bənzərliyi I Kültəpə, Pijdəlitəpə, Göytəpə, Tilkitəpə kimi abidələrin eyni mədəni rayona daxil olduğunu göstərir. I Kültəpənin Eneolit mədəniyyətinin Ubeyd mədəniyyəti ilə bağlılığı boyalı keramika və arxasıüstə uzadılmış skeletlərin aşkar olunması ilə də təsdiq olunur. Belə qəbirlər I Kültəpədə 20,8 m dərinlikdən başlayaraq müxtəlif dövrlərə aid tikinti qatlarından aşkar edilmişdir. Bu qəbirlərin birindən Mesopotamiyadan gətirildiyi təsdiq edilən boyalı çölmək aşkar olunmuşdur. Məlum olduğu kimi, Ubeyd mədəniyyəti protoşumerlərə və şumerlərə aid edilmişdir. Şumer dili hind-avropa dilləri ilə qohum olmamış, onun türk dilləri ilə bağlı olmasına dair inkaredilməz dəlillər aşkar olunmuşdur. Bu mədəniyyət üçün xarakterik olan arxasıüstə uzadılmış skeletlərin Mesopotamiyada yayılması şumerlərin gəlişi ilə əlaqələndirilir. I Kültəpədən aşkar olunmuş skeletlərin tədqiqi onların antropoloji cəhətdən müasir Azərbaycanlılarla bənzər olduğunu göstərmişdir. Mesopotamiya mənşəli boyalı keramikanın yalnız iqtisadi-mədəni əlaqələr nəticəsində deyil, müəyyən əhali qrupunun, daha doğrusu, şumerlərin Naxçıvan ərazisinə yayılması nəticəsində gətirildiyini söyləmək olar. Arxasıüstə uzadılmış qəbirlərin I Kültəpənin müxtəlif tikinti qatlarından aşkar olunması bu tayfaların Naxçıvanda uzun müddət məskunlaşdığını təsdiq edən faktlardan biridir. Mesopotamiya sivilizasiyasının müəyyən nailiyyətlərinin mənimsənilməsi iqtisadiyyatın inkişafına, əhalinin daha geniş ərazilərə yayılmasına səbəb olmuşdur. Azərbaycanın cənub rayonları, o cümlədən I Kültəpə üçün xarakterik olan samanlı keramikanın Cənubi Qafqaz abidələrində yayılması qədim tayfaların cənubdan şimala doğru hərəkəti ilə bağlı olmuşdur. Urmiya hövzəsi və Naxçıvan üçün xarakterik olan Eneolit mədəniyyətinin indiki Ermənistan ərazisində yerləşən Mahaltəpə, Xatunarx, Texut, Kültəpə və digər abidələrdə izlənilməsi onların vahid etnik-mədəni rayona daxil olduğunu təsdiq edir.

Eneolit dövründə Naxçıvanın qədim sakinləri əsasən oturaq həyat sürmüş, dördkünc və dairəvi formalı evlərdə yaşamışlar. Evlərin döşəməsi saman qarışıq gillə suvanmış, onların qızdırılmasında dördkünc və dairəvi formalı sobalardan istifadə edilmişdir. XII tikinti qatında aşkar olunan tapıntılar yaşayış binalarının yaxınlığında qurulan mətbəx ocaqlarından da istifadə edildiyini göstərir.

I Kültəpənin tədqiqi Eneolit evlərinin sadə daxili interyerə malik olduğunu göstərir. Evlərin içərisində və onların ətrafında təsərrüfat məqsədilə istifadə olunan müxtəlif qurğular olmuşdur. Ərzaq ehtiyatı taxıl quyularında, yaxud təsərrüfat küplərində saxlanmışdır. Evlərin həyətində və təsərrüfat tikintilərinin ətrafında daş döşəmələrdən istifadə edilmişdir ki, bu da Eneolit tayfalarının dövrünə görə yüksək mədəni həyat səviyyəsinə malik olduğunu təsdiq edir.




Şəkil 26. I Kültəpənin Eneolit təbəqəsindən aşkar olunmuş boyalı qablar

I Kültəpənin VIII tikinti qatında aşkar olunan tikinti qalıqları, ritual məqsədlə istifadə olunan ocaqlar ev kultunun varlığını, yaşayış yerində ziyarətgahların olduğunu göstərir. Ön Asiya, o cümlədən Şərqi Anadolunun Neolit və Eneolit mədəniyyətləri üçün xarakterik olan ev ziyarətgahlarının interyeri yaşayış evlərindən o qədər də fərqlənməmişdir.

Naxçıvan ərazisinin yumşaq və mülayim iqlimi, bu ərazinin yabanı bitən yumşaq buğda, bərk buğda, covdarla zəngin olması əkinçilik mədəniyyətinin erkən meydana gəlib inkişaf etməsi üçün şərait yaratmışdır. I Kültəpədən aşkar olunmuş yumşaq buğda (Triticum sativum), şarşəkilli buğda (Triticum steriococum), cırtdan buğda (Triticum kompactum Hest), qılcıqsız arpa (Hordeum Sativum), butılkaşəkilli arpa (Hordenm Lagun culiforme) növləri əkinçiliyin müəyyən inkişaf səviyyəsində olduğunu göstərir. Arxeoloji qazıntılar zamanı əkinçiliklə bağlı əmək alətlərinin, xüsusilə toxalar, dən daşları, sürtkəclər, həvənglər, dəstələr və digər alətlərin aşkar olunması əkinçilik məhsullarının yaşayış yerində emal olunduğunu təsdiq edir. Əkinçilik mədəniyyətinin yüksək inkişaf səviyyəsi həmçinin buynuzdan hazırlanmış oraq çərçivəsi və çoxsaylı oraq dişləri ilə də sübut olunur. Oraq dişləri və bıçaq şəkilli alətlər həm yaşayış evlərindən, həm də qəbir abidələrindən  aşkar olunmuşdur. Çoxsaylı əmək alətləri və becərilən bitkilərin çeşidləri Naxçıvanda əkinçiliyin başlanğıc mərhələdə olmadığını təsdiq edir.  Yaşayış yerlərinin çay kənarlarında, əlverişli mövqelərdə yerləşməsi nəinki dəmyə, həm də suvarma əkinçiliyi üçün əlverişli olmuşdur. Şübhəsiz ki, Eneolit dövründə əmək alətləri kifayət qədər təkmil olmadığından geniş əraziləri mənimsəmək və suvarma əkinçiliyini inkişaf etdirmək mümkün olmamışdır.

Kültəpənin Eneolit təbəqəsindən həm yabanı, həm də mədəni taxıl dənlərinin tapılması Naxçıvanın Cənubi Qafqazda dənli bitkilərin becərildiyi ilk ocaqlardan biri olduğunu göstərir.

Eneolit dövründə iqtisadiyyatın aparıcı sahələrindən biri də maldarlıq olmuşdur. Aşkar olunan sümük qalıqlarının analizi iribuynuzlu maldarlığın təsərrüfatda əsas yer tutduğunu göstərir. Tədqiqatçıların fikrinə görə, bu dövrdə iqlimin mülayim və rütubətli olması iribuynuzlu maldarlıq üçün daha əlverişli şərait yaratmışdır.

Naxçıvanda yerləşən qədim tayfaların mədəni inkişafını göstərən faktlardan biri də metallurgiyanın meydana gəlməsi və inkişafıdır. I Kültəpənin Eneolit təbəqəsindən mis külçəsindən hazırlanmış əmək aləti aşkar olunmamışdır. Ehtimal ki, bu dövrdə metal yüksək qiymətləndirildiyi üçün təkrar emal olunmuşdur. Bu isə metal əşyaların az tapılmasının əsas səbəblərindən biridir. Lakın I Kültəpədən aşkar olunmuş metal əşyaların tədqiqi Eneolit dövründə iqtisadi tərəqqinin yüksək inkişaf səviyyəsində olduğunu sübut edir.

Eneolit dövrü metal əşyaların hazırlanmasında istifadə olunan ərintiləri üç tipə bölmək olar. Birinci tipə təmiz misdən, ikinci tipə mis-arsen ərintisindən hazırlanan əşyalar daxildir. Üçüncü tip mis-arsen-nikel ərintisi ilə təmsil edilmişdir.

Məlum olduğu kimi, mis-nikel ərintiləri Yaxın Şərq ölkələri üçün xarakterik olmuşdur. Tədqiqatçıların fikrinə görə, Cənubi Qafqazın nikel qarışığı olan əşyaları, ya idxal olunmuş, ya da idxal olunmuş metal əsasında hazırlanmışdır.

Nikelə təbiətdə başlıca olaraq arsen və kükürdlə birləşmə halında rastlanır. Buna görə belə hesab edilir ki, mis-arsen-nikel ərintilərinin tərkibindəki nikel kupfernikel (NiAs) və arsen-nikel (Ni AsS) mineralları ilə bağlı olmuşdur. Bu minerallara arsen filizinin tərkibində çox rastlanır. Bu, həm də onunla təsdiq olunur ki, mis-arsen-nikel ərintilərinin tətbiqi, arsenin misin əsas aşqarlayıcı komponenti kimi aradan çıxması ilə kəsilmişdir. İ.R.Səlimxanov apardığı tədqiqatlara əsaslanaraq belə hesab edir ki, o dövrdə insanlar nikel metalı ilə tanış olmamışdır. Lakin nikelli tuncun bəzi xüsusiyyətlərinə bələd olan metallurq əritmə prosesində xəlitəyə nikelli filizi də əlavə etmişdir.

I Kültəpənin birinci təbəqəsindən aşkar olunan metal əşyalar dövrünə görə olduqca inkişaf etmiş metallurgiyanın məhsuludur. Odur ki, aşkar olunan əşyalar mis metallurgiyasının erkən mərhələsini deyil, inkişaf etmiş mərhələsini təmsil edir. I Kültəpədən aşkar olunan metal əşyaların tədqiqi onların yerli istehsalın məhsulu olduğunu göstərmişdir. Dünyanın ən böyük arsen yataqlarından biri olan Darıdağ yatağının Naxçıvanda yerləşməsi mis-arsen metallurgiyasının yerli zəmində meydana gəlib inkişaf etməsini təmin edən əsas faktorlardan biri olmuşdur.

Bu dövrdə misə süni aşqarlar qatılması texnologiyanın mənimsənilməsi texniki biliklərin yüksək inkişaf səviyyəsində olduğunu təsdiqləyir. Metallurgiya və metalişləmənin yüksək inkişafı iqtisadiyyatın digər sahələrinin ahəngdar inkişafı ilə təmin edilmişdir. Cənubi Qafqazın Eneolit abidələrindən, o cümlədən I Kültəpənin Eneolit təbəqəsindən aşkar olunan tapıntılar Kür-Araz mədəniyyəti dövründə inkişaf edən mis-arsen metallurgiyasının əsasının məhz Eneolit dövründə qoyulduğunu göstərir.

Arxeoloji araşdırmalara əsasən demək olar ki, I Kültəpədə həmçinin toxuculuq, dulusçuluq, sümükişləmə, daşişləmə və ev sənətkarlığının digər sahələri inkişaf etmişdir.

I Kültəpə sakinlərinin əsas məşğuliyyət sahələrindən biri dulusçuluq olmuşdur. Müxtəlif formalı gil qablarla təmsil olunan dulusçuluq məmulatı qum və saman qarışığı olan gildən əldə hazırlanaraq bişirilmişdir. O. H. Həbibullayevin fikrinə görə, qabların bişirilməsində dulus kürələrindən istifadə olunmuşdur. Keramika məmulatı əsasən çəhrayı, bəzən isə boz və qara rəng arasında dəyişməkdə olan rəng tonları ilə təmsil olunmuşdur.

I Kültəpədən aşkar olunan arxeoloji materiallar yüksək inkişaf etmiş bir sosial həyatın varlığını sübut edir. Eneolit təbəqəsində aşkar olunan evlərin sahəsi 19-56 kv.m , diametri isə 5-8,5 m arasındadır. Düzbucaqlı binalar çox dağıntıya uğradığından onların ölçüləri tam müəyyən edilməmişdir. Evlərin sahəsi orta hesabla 37,5 kv. m olmuşdur. Belə hesab etmək olar ki, I Kültəpənin təkotaqlı dairəvi evlərində cüt nikaha əsaslanan ailə, onların bəzilərində isə böyük ailələr yaşamışdır. Bu baxımdan arakəsmələrlə ayrılan bina diqqətəlayiqdir. Etnoqrafik materiallar dairəvi formalı evlərdə böyük ailələrin yaşadığını göstərmişdir. Cüt nigaha əsaslanan ailənin Neolit dövründə

formalaşdığı araşdırmalarla sübut olunmuşdur. Belə hesab etmək olar ki, Eneolit dövründə cüt nikaha əsaslanan ailənin daha böyük kollektivlərdə birləşməsi prosesi getmişdir. Naxçıvanın Eneolit iqtisadiyyatının əsasını cüt nikaha əsaslanan və böyük kollektivlərdə birləşmiş ailələr təşkil etmişdir. Böyük ailələrin meydana gəlməsi istehsal səylərinin birləşdirilməsi ilə də bağlı ola bilərdi. Analoji faktlar Azərbaycanın digər abidələrinin də tədqiqi zamanı ortaya çıxarılmışdır. Erkən əkinçilik mədəniyyətlərində qadınlar yüksək mövqeyə sahib olsa da, texnikanın və təsərrüfatın inkişafı kişinin rolunu artırmışdır. Ehtimal ki, Eneolit dövrünün sonunda 5-7 nəfərlik üzvdən ibarət ailəyə kişi rəhbərlik etmişdir.

I Kültəpənin Eneolit dövrünə aid qəbir abidələrinin müəyyən bir qismində qəbir avadanlığına rastlanması, digərlərində isə ona təsadüf olunmaması xüsusi mülkiyyətin mövcudluğunu ehtimal etməyə imkan verir.

Arxeoloji abidələrin tədqiqi göstərir ki, Eneolit dövründə iqtisadiyyatın müxtəlif sahələrinin inkişaf etməsinə baxmayaraq, əkinçilik və maldarlıq təsərrüfatda aparıcı mövqe tutmuşdur. Məhsuldarlığın artırılması, qorunması, habelə təbii stixiyalara qarşı mübarizə qədim insanların ideoloji təsəvvürlərinin formalaşmasında mühüm rol oynamışdır. Qonşu Şərq ölkələrindən fərqli olaraq Naxçıvan sakinlərinin dairəvi formalı, evlərə üstünlük verməsi ehtimal ki, onların ideoloji təsəvvürləri ilə də bağlı olmuşdur. Azərbaycan xalqı arasında yayılan inanclara görə insanın ətrafına çəkilmiş dairə onu bəd ruhlardan qoruya bilərmiş. Göyəm dağlarındakı bəzi qayaüstü rəsmlərdə insanlar dairənin içərisində təsvir edilmişdir. Ehtimal ki, evlərin dairəvi formada tikilməsi insanların təbii stixiyadan, bəd qüvvələrdən qorunması ilə bağlı təsəvvürlərini əks etdirmişdir. Tədqiqatlar bu dövrdə Günəş və Ayla bağlı inancların yayıldığını göstərir. Bu inanclar Eneolit dövründən sonra da arxeoloji materiallarda aydın şəkildə izlənmişdir. Daima işıq mənbəyi və təbiətin məhsuldar qüvvələrinin başlanğıcı olan Günəş insanlar tərəfindən ilahiləşdirilmiş, sitayiş obyektinə çevrilmişdir.

Naxçıvanın qədim sakinlərinin dünyagörüşü ilə bağlı ən dəyərli materiallar qəbir abidələrinin tədqiqi zamanı aşkar olunmuşdur. Bu dövrə aid qəbir abidələri yalnız I Kültəpənin Eneolit təbəqəsindən aşkar olunmuşdur. Qəbir avadanlığı başlıca olaraq bəzək əşyalarından, əsasən muncuqlardan ibarət olmuşdur. Lakin qəbirlərin bəzilərində əmək alətlərinin qalıqlarına, o cümlədən oraq dişlərinə rastlanmışdır. Araşdırmalar Eneolit dövründə I Kültəpədə yaşayış binalarının altında və onların arasında dəfn etmə adətinin olduğunu göstərir. Qəbirlərin müəyyən istiqaməti yoxdur, skeletlər müxtəlif cəhətlərə yönəldilmiş vəziyyətdə aşkar edilmişdir. Bəzi qəbirlərin döşəməsi dəfndən əvvəl gillə suvanmış, bəzilərində isə dəfndən sonra qəbrin üzərinə gil suvaq çəkilmişdir. Skeletlərin böyük bir qrupunun üzərində həsir qalıqlarına rastlanması onların dəfn zamanı həsirə büküldüyünü göstərir. Skeletlər sol, yaxud sağ böyrü üstə, bəzən isə arxası üstə uzadılmış vəziyyətdə aşkar olunmuşdur. Qəbirlərin

bəzisində mərhumun başının altına daş, yaxud gil qab parçası qoyulması adətinə rastlanmışdır. Dəfnlər tək, cüt və kollektiv halda olmuşdur. Şübhəsiz ki, evin döşəməsində dəfnetmə adəti ulu əcdada sitayiş, mərhumun ruhunun daim evdə olması, evin, ocağın mühafizəsi, son nəticədə məhsuldarlığın təmin edilməsi ideyası ilə bağlı olmuşdur. Mifoloji şəkildə dərk edilən o biri dünya qədim insanların mövcudluğunun əsasını təşkil etmişdir. Qəbilə rəhbərinin evin altında dəfn edilməsi, əcdadın ruhunun çağrılması, onların qəbrinə təmas edilməsi və s. vasitələrlə əcdadın ruhu ilə əlaqə yaradılmağa çalışılmışdır.

Qəbirlərin ikisində it skeletinə rastlanmışdır. Məlum olduğu kimi, it insanların əhliləşdirdiyi ilk heyvanlardan biri olmuşdur. Araşdırmalar itlə dəfn etmənin Azərbaycanda uzun müddət davam etdiyini göstərir. İtlə bağlı dəfnə Naxçıvanda Sarıdərə nekropolunda, Xocalı-Gədəbəy mədəniyyətinə aid qəbir abidələrində də rastlanması bunu təsdiq edir.

İtlə bağlı inancların yaranması maldarlığın yaranmasından xeyli əvvələ, ovçuluq dövrünə aiddir. İtlərin iy və iz bilmə keyfiyyətləri onlara böyük önəm qazandırmış, qədim ovçu tayfalar ovun axtarılması və tutulmasında böyük rolu olan itə sitayiş etmişlər.

İstər Ön Asiya abidələrindən, istərsə də Azərbaycan abidələrindən aşkar olunan itlə bağlı dəfnlər bu adətin qədim ovçu-maldar tayfaların inancları ilə bağlı olduğunu təsdiq edir. İtlə bağlı dəfnlər müəyyən ritualla bağlı olmuş, sakral məna daşımışdır. Şübhəsiz ki, qədim insanların dini-mifoloji görüşlərinin formalaşmasında maldar tayfaların itin qoruyucu funksiyası ilə bağlı inancları da müəyyən rol oynamışdır. Etnoqrafik materiallar həyətlərdə it kəlləsi asılmasının insanların bəd ruhlardan qorunması ilə bağlı olduğunu göstərir.

Məlum oluğu kimi, Şkif tayfa birliklərindən birinin rəhbəri İspaka adlanmışdır. İspaka sözünün midiya dilində sbaka (sobaka) sözünə zahirən bənzədiyinə əsaslanan bəzi tədqiqatçılar skiflərin irandilli olduğunu qeyd etmişdir. Lakin O.Süleymanov iz-bak-ispak-sıbak (sbaka) çevrilməsinin mümkünlüyünü sübut etmiş və sobaka sözünün hind-iran dillərinə türk dilindən keçdiyini söyləmişdir. İtə sitayişə semitlərdə, hind-avropalılarda, fin-uqorlarda rastlanmışdır. Lakin qədim köçəri türk tayfaları itə Tanrı kimi sitayiş etmiş, miflərdə isə öz mənşələrini onunla bağlamışlar. Tobol tayfalarında ulu əcdad-əfsanəvi qəhrəman Ak-kobok (Ağ köpək) adlanmışdır. Ağ noqoylar da həmçinin Ak-koboku öz əcdadları hesab etmişlər. Kobyak (köpək) adı türk tayfaları arasında geniş yayılmış adlardan biri olmuşdur. Tayfa başçılarına it adı qoyulması onları bəd ruhlardan mühafizə etmək, onların yenilməzliyini təmin etmək məqsədi güdmüşdür. Başqırlarda mövcud olan adətə görə qadının uşağı tez-tez öldükdə uşağı anadan ayırıb it südü ilə bəsləyirdilər. Yaxud azərbaycanlılar uşağı olmayan qadını və onun uşağını qurd dərisindən keçirirdilər. Araşdırmalar itlə dəfnetmənin və ona sitayişin türk xalqlarının mifologiyası ilə bağlı olduğunu təsdiq edir.

Qəbirlərin birində kəllənin ayrıca qoyulması adətinə rastlanmışdır. Kəllənin ayrıca qoyulması əcdada sitayişin formalarından biri hesab edilə bilər. Ön Asiya abidələrində aparılan araşdırmalarla müəyyən edilmişdir ki, dəfn zamanı qəbilə rəhbərlərinin başı gövdədən ayrılaraq boyanmış və evlərdə düzəldilmiş xüsusi səkilərin üzərində saxlanmışdır. Bəzi tədqiqatçılar kəllənin ayrıca dəfn edilməsini, yaxud evdə saxlanmasını kəlləyə sitayişlə əlaqələndirmişlər.

Yuxarıda qeyd edildiyi kimi, I Kültəpə qəbirlərinin bəzisində mərhumun başının altına daş qoyulması adətinə rastlanmışdır. Dəfn zamanı mərhumun başının altına daş qoyulması adətinə Ön Asiyanın bir sıra abidələrində rastlanmışdır. Arxeoloji araşdırmalar bu adətin Azərbaycanda uzun müddət davam etdiyini göstərir. Belə hesab edirik ki, mərhumun başının altına daş qoyulması adəti türk xalqları içərisində geniş yayılan daşa sitayişlə bağlı olmuşdur. İnanca görə, insan dünyasını dəyişərkən, onun ruhu daşa keçir. Azərbaycan türklərinin folklorunda ruhun daşa keçməsi, insanların daşa dönməsi, daşın balalaması ilə bağlı xeyli inanclar vardır. Daşla niyyət etmə adəti Azərbaycan xalqı arasında indi də qalmaqda davam edir. I Kültəpə tapıntısı göstərir ki, Azərbaycan türkləri arasında yayılan daşa və dağa sitayişin tarixi kökləri olduqca qədimdir. Qədim dünyanın bir çox xalqlarında olduğu kimi Azərbaycanda məskən salan qədim tayfaların da dünyagörüşündə Tanrıların dağlarda məskən salması haqqında təsəvvürlər olmuşdur. Xalq arasında müqəddəs hesab edilən bir çox ziyarətgahların hündür dağlarda yerləşməsi də bununla bağlıdır. Dağların ziyarətgaha çevrilməsində, habelə bu bölgələrdə qaya təsvirlərinin yaranmasında dağa sitayişin mühüm rolu olmuşdur. Dağ ziyarətgahlarına Naxçıvan ərazisində çox rastlanmışdır. Belə ziyarətgahların tipik nümunələrindən biri Əshabi-Kəhf ziyarətgahıdır. Bu ziyarətgah Azərbaycan xalqının islamaqədərki bir çox inanclarını qoruyub saxlamışdır. Burada daş atma, dilək daşı, daşla niyyət etmə və digər inanclar daşa sitayişlə bağlıdır.

Eneolit dövrünə aid dəfn adətinin xarakterik cəhətlərindən biri skeletlərin oxra ilə boyanmasıdır. Skeletlərin oxra ilə boyanması məhsuldarlıqla bağlı olmuşdur. Araşdırmalar göstərir ki, skeletlərin oxra ilə boyanması insanların işıq və qaranlıq haqqındakı təsəvvürlərini əks etdirmişdir. Qırmızı rəng qədim insanların təsəvvürlərində od, işıq, Günəş rəmzi olmuşdur. Məhsuldarlığın və artımın başlıca mənbəyi hesab edilən Günəş kosmik başlanğıc kimi düşünülmüş, xaotik başlanğıca qarşı qoyulmuşdur. Skeletlərin oxra ilə boyanması, şübhəsiz ki, mərhumun məzarının işıqlandırılması, onun ruhunun bəd ruhlardan qorunması, dirilmə ideyası ilə bağlı olmuşdur. Naxçıvan abidələrinin tədqiqi göstərir ki, bu ideya qədim tayfalar arasında uzun müddət yaşamış və başlıca olaraq onların mifoloji təsəvvürləri ilə bağlı olmuşdur.

Mil düzü və Naxçıvanda yayılan keramika məmulatı A.A.İyessen tərəfindən geniş bir əraziyə yayılan eyni mədəniyyət kimi xarakterizə edilmiş və Kültəpə mədəniyyəti adlandırılmışdır.

Mil-Qarabağ və Muğan düzlərinin Eneolit yaşayış yerlərinin böyük bir qrupu, o cümlədən Kəbirli, Şahtəpə, Kamiltəpə, Şomulutəpə, Təpəcik və başqaları kəşfiyyat xarakterli tədqiqatlarla öyrənilmişdir. Bu abidələrdən aşkar olunan keramika başlıca olaraq bitki qarışığı olan gildən çəhrayı rəngdə bişirilmişdir. Bununla belə keramika məmulatı müəyyən yaşayış yerlərində xarakterik xüsusiyyətləri ilə fərqlənir. Mil düzündən aşkar olunan boyalı keramika Kültəpə materialları ilə vahid kompleks təşkil edir. Elə buna görə də, İyessen Mil düzündən aşkar olunan keramikanı Kültəpə mədəniyyətinə aid etmişdir. Naxışlar enli zolaqlardan və bir-birinin içərisinə çəkilmiş şevronlardan ibarətdir. Naxışlar tünd qəhvəyi rənglə başlıca olaraq anqob üzərindən çəkilmişdir. Bəzi yaşayış yerlərindən aşkar olunan keramika nümunələri xaricdən kobud suvanmış, içəridən isə boz cilalı astarla örtülmüşdür.

Mil-Qarabağ zonasının mühüm abidələrindən biri olan Leylatəpəsi arxeoloji qazıntılarla öyrənilmişdir. Yerüstü materiallar iki qrupa bölünür. Birinci qrup qum qarışığı olan gildən, əldə, olduqca kobud hazırlanmışdır. Bəzilərinin üzərində daraqvari alətin izləri saxlanmış, bəzilərinin isə ağzının kənarı çərtmələrlə naxışlanmışdır. İkinci qrup keramika bitki qarışığı olan gildən hazırlanaraq qırmızı rəngdə bişirilmiş, bəzən yaşıla çalan anqobla örtülərək qara rənglə naxışlanmışdır. Yaşıla çalan keramika Ubeyd keramikası ilə bənzərlik təşkil edir.

Qazıntı zamanı aşkar olunan dördkünc formalı binalar arakəsmələrlə bir neçə yerə bölünmüşdür. Bu binanın qalıqları üzərində diametri 1 m-ə çatan dairəvi formalı dulus kürələrinin qalıqlarının olduğu müəyyən edilmişdir. Küpə tipli qabların bir qismi dulus çarxında hazırlanmışdır. Leylatəpənin keramika məmulatı təkmil formasına və keyfiyyətinə görə Kültəpə və Şomutəpə materiallarından tamamilə fərqlənir və ola bilsin ki, Eneolit mədəniyyəti ilə Kür-Araz mədəniyyəti arasında aralıq bir mərhələnin olduğunu göstərir.

1967-1968-ci illərdə İlanlıtəpədə 220 kv.m sahədə qazıntı aparılmışdır. Yaşayış yerində yastı-qabarıq və adi düzbucaqlı kərpicdən tikilmiş yaşayış evləri və təsərrüfat tikintilərinin qalıqları aşkar olunmuşdur. Yaşayış binaları dördkünc və yarımdairəvidir. Təsərrüfat tikintiləri onlara birləşikdir. Dairəvi formalı iki kiçik tikintiyə də rastlanmışdır. Binaların divarları və döşəməsi gillə suvanmış, bəzi yerlərdə qırmızı boya izləri qeydə alınmışdır.




Şəkil 27. Əliköməktəpəsi yaşayış yerindəki tikinti qalıqlarının planı

Yaşayış yerində bəzi sahələr əhənglə doldurularaq parıldayanadək cilalanmışdır.

Keramika məmulatı bitki qarışığı olan gildən hazırlanmış,onların xarici səthi açıq sarı və qırmızı rənglə anqoblanmış, cilalanmışdır. Lakin cilasız və anqobsuz qablara da tez-tez rastlanır. Küpə tipli qabların bəziləri dairəvi, oval

ştrixlər və üçbucaqşəkilli basma naxışla bəzədilmişdir. Tünd qəhvəyi rəngli qablardan birinin ağzının kənarı yapma naxışla bəzədilmişdir.



Şəkil 28. Mil düzünün boyalı keramikası (İlanlıtəpə)

Çalağantəpə yaşayış yerində 315 kv.m sahədə qazıntı aparılmışdır. Mədəni təbəqənin qalınlığı 4,3 m-dir. Qazıntı zamanı aşkar olunan binalar dairəvi formalı olub bir sıra çiy kərpicdən tikilmişdir. Evlərin diametri 3 m-ə çatır. Onlardan bəzisinin diametri 5,5 m-dir. Binalardan biri (№ 26) arakəsmə divarla iki hissəyə bölünmüşdür. Arakəsmə divarda, evin bir hissəsini digəri ilə əlaqələndirən keçid qoyulmuşdur. Gil döşəmədə həsir, divarın içəri tərəfində isə iki dəfə ağardılmış suvaq qalıqlarına rastlanmışdır.




Şəkil 29. İlanlıtəpənin təsərrüfat keramikası

Ağardılmış divarlar qırmızı boya ilə naxışlanmışdır. Bu naxışlardan yarımdairəvi və dairəvi işarələr qalmışdır. Ehtimal ki, bu binadan ziyarətgah kimi istifadə edilmişdir. Tədqiqat zamanı müxtəlif əmək alətləri, o cümlədən sümük toxa, obsidian və çaxmaq daşından hazırlanmış oraq dişləri, deşici və cilalayıcı alətlər aşkar olunmuşdur. Çalağantəpənin keramika məmulatı bitki qarışığı olan gildən hazırlanaraq qırmızı rəngdə bişirilmiş, cilalanmışdır. Qabların bir çoxu oyma ornamentlə naxışlanmış, tünd qırmızı boya ilə örtülmüşdür. Bəzi kasalar tünd qəhvəyi rənglə bir-birinin içərisinə çəkilmiş




Şəkil 30. Çalağantəpənin keramika məmulatı

kvadratlarla naxışlanmışdır. Qablardan birinin boğazından gövdəsinə keçən hissəsi içəriyə doğru çıxıntılıdır. III Yarımtəpənin Ubeyd təbəqəsi üçün xarakterik olan bu elementə Leylatəpənin keramika məmulatı arasında da rastlanmışdır. Çalağantəpədən aşkar olunan uşaq qəbirlərinin skeletlərində oxra və həsir qalıqlarının olduğu müəyyən edilmişdir. Qəbirlərdən həmçinin daş,

sümük, firuzə və mis muncuqlar, sədəfdən hazırlanmış bəzəklər aşkar olunmuşdur.




Şəkil 31. Kəbirli yaşayış yerinin boyalı keramikası

Eneolit dövrünə aid keramika məmulatının bir qismi boyalıdır. Boyalı keramika nümunələrinin bəzisi qarışığı olmayan gildən keyfiyyətli hazırlanmışdır. Tədqiqatçılar bu tip keramikanın idxal malı olduğunu qeyd etmişlər.

Eneolit abidələrinin müəyyən qrupu Muğanda, Cəlilabad şəhəri ətrafında, Mişarçay vadisində, digər bir qrupu isə Qurudərə vadisində qeydə alınmışdır. Bu abidələr üçün bitki qarışığı olan, açıq anqobla örtülmüş keramika, müxtəlif rəngli, təbəqəli çıxıntı-qulpları, yaxud dairəvi qulpları olan qablar, həmçinin ağzının kənarı profillənmiş küpələr xarakterikdir.

Muğanda daha geniş öyrənilmiş abidə Əliköməktəpəsidir. Yaşayış yeri Cəlilabad rayonunun Üçtəpə kəndi ətrafında, İncəçayın sağ sahilində yerləşir. Yaşayış yerinin mərkəzində 600 kv. m sahədə qazıntı aparılmışdır. Mədəni təbəqənin qalınlığı 5,1 m-dir. Qazıntı zamanı altı tikinti qatının olduğu müəyyən edilmişdir. Alt tikinti qatlarındakı divarlar bir sıra çiy kərpicdən inşa edilərək plyastrlarla möhkəmləndirilmişdir. Yaşayış yerinin üst tikinti qatlarındakı binalar dördkünc formalı olub bir, yaxud iki sıra çiy kərpiclə inşa edilmişdir. Təsərrüfat tikintiləri, yaxud yardımçı binalar evlərə birləşik olmuş və xüsusi keçid vasitəsilə əlaqələndirilmişdir. Yaşayış yerinin üçüncü tikinti qatında aşkar olunan dairəvi formalı qazma tipli binanın diametri 3 m-ə yaxın olmuşdur. Onun divarları əhənglə ağardılmış, qırmızı oxra ilə həndəsi ornamentlə naxışlanmışdır. Ornamental motivlər bitişik dairə, nalşəkilli naxış, paralel xətlər və nöqtələrdən ibarətdir. Bu binanın sitayiş məqsədi ilə inşa edildiyi ehtimal olunur. Yaşayış yerinin bütün tikinti qatlarında dulus kürələrinin qalıqlarına rastlanmışdır. Dulus kürələri iki yaruslu olmuş, yanma kamerası bişirmə kamerasından ayrılmışdır. Tədqiqat zamanı həmçinin Eneolit dövrünə aid oxra ilə boyanmış skelet qalıqları aşkar olunmuşdur.

Muğan düzünün keramikası gilində bitki qarışığının olması, açıq və tünd qırmızı rəngli anqoblu qabların forması və naxışlanmasına görə Mil- Qarabağ düzünün keramikasına bənzəyir. Lakin Mişarçay yaşayış yerlərində qabların bir qismi bitki qarışığı olan gildən, digər qismi isə qarışığı olmayan təmiz gildən hazırlanmışdır. Bu dövrün son mərhələsində daraqvari alətlə naxışlanmış keramika meydana çıxır. Muğanın Eneolit keramikasında Erkən Tunc dövrü keramikasına keçidin əlamətləri də izlənmişdir. Bütün bunlar Muğanın Eneolit abidələrini, Eneolit dövrünün son mərhələsinə aid etməyə imkan verir.

Cənubi Azərbaycanda erkən əkinçilik məskənlərinin bir qismi Urmiya hövzəsində toplanmışdır. Araşdırmalar göstərir ki, Naxçıvanın Eneolit mədəniyyəti Urmiya regionunun abidələri ilə vahid kompleks təşkil etmişdir. Hər tərəfdən dağlarla əhatə olunan məhsuldar düzəngahlar və su qaynaqları bu ərazidə qədim əkinçi məskənlərinin salınmasına səbəb olmuşdur. Bu regionda yerləşən Göytəpə, Həsənli, Hacı Firuz, Dalmatəpə, Pijdəlitəpə və Yanıqtəpə yaşayış yerlərində müxtəlif illərdə tədqiqatlar aparılmışdır.

Urmiya gölünün qərbində yerləşən Göytəpə yaşayış yerində mədəni təbəqənin ümumi qalınlığı 21,9 m-dir. Lakin yeraltı sular təbəqənin tam qazılmasına imkan verməmişdir. Ən aşağıda olan N təbəqəsi yaxşı öyrənilməmişdir. Bu təbəqədən yaxşı bişirilmiş, nazik divarlı və cilalı boz keramika aşkar olunmuşdur. Ondan üstdə yerləşən M təbəqəsində Eneolit



Şəkil 32. Göytəpə yaşayış yerinin planı və Eneolit keramikası

üçün xarakterik keramikaya rastlanmışdır. Eneolit təbəqəsinin qalınlığı 0,95 m-dir. Bu təbəqə üçün daş özül üzərində kərpicdən tikilmiş (35 x 15 x 15; 35 x 20 x 15 sm) düzbucaqlı evlər xarakterikdir. Göytəpənin Eneolit təbəqəsindən yaşma və obsidiandan hazırlanmış əmək alətləri, mis əşyalar, gil bullalar aşkar olunmuşdur. Keramika məmulatı bitki qarışığı olan gildən hazırlanmış açıq

qırmızı rəngdə bişirilmiş, anqoblanmış, tünd və açıq qəhvəyi rənglə, bəzən isə qara rənglə naxışlanmışdır. M təbəqəsinin ornamental motivləri başlıca olaraq dalğalı xətlər, festonlar, torlu üçbucaqlar və s. naxışlardan ibarətdir. Bütövlükdə M təbəqəsindəki keramikanın naxışları Xalaf-Ubeyd motivləri ilə bənzərdir.

Hacı-Firuz yaşayış yeri Həsənlidən 1,5 km cənubda yerləşir. Yaşayış yerində 100 kv. m sahədə aparılan qazıntılar zamanı alt tikinti qatı öyrənilmişdir.

Bu yaşayış yeri üçün həyətlərin ətrafında yerləşən çiy kərpicdən tikilmiş dördkünc formalı evlər xarakterikdir. Evlərin ölçüsü 6,5 x 4 m olmuşdur. Onların içərisində otağı iki yerə bölən kərpic sütunlara rastlanmışdır. Bu sütunlar evin qamış və çubuqlardan ibarət damını saxlamağa xidmət etmişdir. Evlərin birində dairəvi ocaq aşkar edilmişdir. Evlərin döşəməsi gillə suvanmış, bəzən isə qırmızı rənglə boyanmışdır. Hacı Firuz keramikası saman qarışıq gildən hazırlanmış, qabların içəri tərəfində hörmə işləri saxlanmışdır. Qabların xarici səthi ağ gillə anqoblanmış, bəzən isə naxışlanmışdır. Tədqiqat zamanı həndəsi motivdə naxışlanmış qablara və Xassuna mədəniyyəti üçün xarakterik küpələrə də rastlanmışdır.

Hacı-Firuzdan tapılan gil fiqurlar arasında Hacı-Firuz venerası adlandırılan qadın fiquru xüsusilə diqqətəlayiqdir. Yaşayış yerində həmçinin xeyli iy başlıqları aşkar olunmuşdur.

Yaşayış yerində bir neçə yerdə kollektiv dəfnlərin olduğu müəyyən olunmuşdur. Onların yanına cilalanmış baltalar, sadə və boyalı qablar, çaxmaq-daşı lövhələri qoyulmuşdur. Tədqiqatçıların fikrinə görə, özünəməxsus xüsusiyyətləri olan Hacı-Firuz mədəniyyəti Mesopotomiya ilə əlaqələrin olduğunu göstərir. Mellartın fikrinə görə, Hacı-Firuz Xassuna, Samarra və Hacıların V-I təbəqələri ilə həmdövrdür.

Yanıqtəpə yaşayış yerində Eneolit dövrünə aid mədəni təbəqənin qalınlığı 8 m-dir. Burada Son Eneolit dövrünə aid üç tikinti qatı aşkar edilmişdir. Aşkar edilən yaşayış evləri kiçik, ensiz otaqlardan ibarət olub həyətin ətrafında yerləşdirilmişdir. Yaşayış yerində təsərrüfat tikintilərinə də rastlanmışdır. Keramika məmulatı saman qarışıq gildən hazırlanmış, başlıca olaraq qırmızı rəngdə bişirilmiş və anqoblanmışdır. Yalnız bəzi cilalanmış qablar açıq-qəhvəyi anqobla örtülmüş, tünd qəhvəyi və qara rənglə naxışlanmışdır. Qablar formaca müxtəlif olub, kasalar, hündürayaqlı qədəhlər, boşqab, qab altlıqları, küpə və digər qablar ilə təmsil edilmişdir. Ornament motivləri kvadrat, şevron, ştrixlənmiş üçbucaq, nöqtəşəkilli naxış və digərlərindən ibarətdir. Bəzi qablarda insan sifətinin sxematik təsvirinə də rastlanır. Bəzi boyalı parçalar Ubeyd keramikası ilə oxşarlıq təşkil edir. Kasa tipli qabların birində insan sifətinin təsviri verilmişdir. Onun gözləri obsidian qəlpəsi, qaşları və burnu isə relyef zolaqlarla bildirilmişdir.




Şəkil 33. Yanıqtəpənin planı və Eneolit keramikası

Yanıqtəpənin qırmızı anqoblu keramikası Eneolit mədəniyyətinin fasiləsiz inkişafını göstərir. Alt təbəqələrdə yaxşı cilalanmış keramikaya rastlanmır.

Həsənlidən 5 km cənubda yerləşən Dalmatəpənin IV-V tikinti təbəqələrində yaşayış binalarının qalıqlarına rastlanmışdır. Dalmatəpənin yaşayış evləri həyətlərin ətrafında yerləşdirilən düzbucaqlı otaqlardan ibarət olmuşdur. Həyətlərdə ocaq, anbar və qab-qacaq olurdu. Binaların divarları gips, yaxud gillə suvanırdı. Tədqiqat zamanı çaxmaqdaşı və obsidiandan




Şəkil 34. Dalmatəpə və Hacıfiruz keramikası

hazırlanmış əmək alətləri, iy başlıqları və keramika məmulatı aşkar edilmişdir. Evlərin döşəməsinin altında 14 qəbir aşkar olunmuşdur.

Dalmatəpə yaşayış yerində özünəməxsus boyalı keramika ilə fərqlənən yeni mədəniyyət aşkar olunmuşdur. Bu mədəniyyətin meydana çıxması indiydək aydınlaşdırılmamışdır.

Dalmatəpənin keramikası iki qrupa bölünür. Birinci qrupa arxitektura qalıqları ilə birlikdə aşkar olunan boyalı keramika aiddir. Qabların bütün səthini örtən naxışlar sınıq xətlərdən, bir-biri içərisinə çəkilmiş kvadratlardan, üçbucaq

və torlu naxışlardan ibarətdir. Naxışların üzəri qara-bənövşəyi rənglə örtülmüşdür. Dalmatəpənin qonşuluğunda, Mərkəzi Zoqrosun cənubunda və Mərkəzi İranda da bənzər boyalı keramikaya rastlanmışdır. Bəzi bənzər nümunələrə Yarımtəpə (II-VII təbəqələr) və Yanıqtəpədə rast gəlinmişdir.

Dalmatəpənin ikinci qrup keramikası basma və kəsmə naxışlı qablardan ibarətdir. Bu tip keramikaya Cənubi Azərbaycan, İran və Ön Asiyada aşkar olunmuşdur. C.Mellart bu keramikanı Xassuna və Balkan yarımadasının, R.Dayson isə Yunanıstan və Qara Dənizin cənub rayonlarının keramikası ilə müqayisə etmişdir. R.M.Munçayev Dalmatəpə keramikasının Azərbaycanın Eneolit keramikası ilə bənzər olduğunu qeyd etmişdir. Lakin Dalmatəpənin ən yaxın bənzərləri İlanlıtəpədən məlumdur. Bu, Dalmatəpə keramikasının yerli inkişafın məhsulu olduğunu göstərir. Azərbaycanın Eneolit abidələrinin bir qrupunda yayılan bu mədəniyyəti Dalmatəpə mədəniyyəti adlandırırıq.

Pijdəlitəpə Sulduz düzənliyində İraqın sərhəddində yerləşir. Yaşayış yerinin alt təbəqəsi Eneolit dövrünə aiddir. Eneolit dövrünə aid tapıntılara qara və şəffaf obsidian, şist, sümükdən hazırlanmış əmək alətləri və keramika məmulatı aiddir. Keramika məmulatına heyvan fiqurları da daxildir. Saman qarışıq gildən hazırlanan keramika məmulatı qırmızı, qəhvəyi və boz-qəhvəyi rənglidir. Sadə keramika yüngülcə cilalanmış və sarıya çalan anqobla örtülmüşdür. Boyalı keramika müxtəlif motivli həndəsi ornamentlə naxışlanmışdır. Qabların naxışlanmasında heyvan təsvirlərindən də istifadə edilmişdir.

Pijdəlitəpədən aşkar olunan sümük toxanın bənzərləri İlanlıtəpə, Çalağantəpə və Kültəpədən məlumdur. Tapıntılar Urmiya hövzəsi sakinlərinin Şimali Azərbaycanla əlaqələrinin olduğunu göstərir. Mis keltin tapılması metaldan istifadəni təsdiq edən faktlardandır.

Hacı-Firuz və Yanıqtəpə yaşayış yerləri Urmiya hövzəsində erkən məskunlaşan əkinçi-maldar tayfalara aiddir. Bu yaşayış yerləri İran və İraqın sinxron mədəniyyətlərindən fərqlənərək müstəqil kompleks təşkil edirlər. Urmiyanın cənubunda boyalı və basma naxışlı keramika ilə xarakterizə edilən Dalmatəpə mədəniyyəti yaranır. Bu mədəniyyət Şimali Azərbaycanda Qarabağ düzünün abidələri ilə bənzərdir.

Urmiya hövzəsinin materiallarında Mesopotamiya ilə əlaqələr Ubeyd tipli keramikada öz əksini tapmışdır. Buradakı erkən əkinçilik məskənləri düzənliklərdə, başlıca olaraq kiçik çayların ətrafında qruplaşmışdır.

Araşdırmalar göstərir ki, Azərbaycanlıların qədim yaşayış məskənləri üçün dairəvi və düzbucaqlı arxitekturaya malik binalar xarakterikdir. Dairəvi formalı arxitektura başlıca olaraq Kür çayının orta axarlarından Araz çayınadək olan ərazilər üçün xarakterikdir. Azərbaycanın cənub şərqində və Urmiya hövzəsində başlıca olaraq düzbucaqlı arxitektura yayılmışdır. Gəncə-Qazax, Mil-Qarabağ və Naxçıvanda düzbucaqlı evlərin meydana çıxması Eneolit dövrünün son mərhələsinə aid edilir. İlanlıtəpədə hər iki tip arxitekturaya rastlanır.

Tədqiqatçılar belə hesab edir ki, iki müxtəlif arxitektura stilinin birləşdiyi zona Naxçıvan olmuşdur. Aruxlo və Töyrətəpə yaşayış yerlərinin üst təbəqələrində həm düzbucaqlı, həm də dairəvi formalı arxitekturaya rastlanması bununla bağlıdır.

Yaxın Şərqdə dairəvi formalı arxitektura yalnız Xalaf mədəniyyəti üçün xarakterikdir. Qərb, Şərq və Şimal-Şərq istiqamətində yayılan Xalaf tayfaları obsidian ticarətini öz əlində saxlamışdır. Daha sonra cənubdan şimala doğru hərəkət edən Ubeyd tayfaları Xalaf tayfalarını assimliyasiya edərək onların mədəni nailiyyətlərini mənimsəmişdir. Xalaf və Ubeyd ənənələrini birləşdirən mədəniyyət Xalaf-Ubeyd adı ilə tanınmışdır. Tədqiqatçılar Cənubi Qafqazda dairəvi formalı arxitekturanın yayılmasını Mesopotomiyanın təsiri ilə bağlayırlar.

Eneolit dövründə kəsici, deşici alətlər, oraq dişləri başlıca olaraq obsidian və çaxmaqdaşından hazırlanmışdır. Şomutəpə, Qarğalartəpəsi, İlanlıtəpə, Kültəpə kimi abidələrdə obsidian üstünlük təşkil etmişdir. Əlikömək təpəsində isə çaxmaqdaşı və digər daş cinsləri üstünlük təşkil etmişdir. Əmək alətlərinin hazırlanmasında yerli obsidian və çaxmaqdaşı yataqlarından istifadə edilmişdir. Yaşayış yerlərindən aşkar edilmiş əmək alətlərinin tədqiqi qədim əkinçilərin Paravan obsidian yatağından, İlanlıtəpə və Əliköməktəpəsinin Kəlbəcər yatağından, Naxçıvan Kültəpəsinin isə Göyəm və Zəngəzur dağlarndakı yataqlardan istifadə etdiyini göstərir.

Azərbaycanın Eneolit mədəniyyəti Yaxın Şərq, xüsusilə Mesopotamiya ilə əlaqələr şəraitində inkişaf etmişdir. Cənubi Qafqaz və Şimali Mesopotamiyada dairəvi formalı arxitekturanın yayılması şübhəsiz ki, onlar arasında müəyyən əlaqənin olduğunu göstərir. Mesopotomiyanın Orta Asiya, Cənubi Türkmənistan və Cənubi Qafqazla əlaqələrində Cənubi Azərbaycanın müəyyən rolu olmuşdur. Göytəpə, Aruxlo, Qinçi, I Kültəpədən aşkar olunan idxal edilmiş keramika məmulatı, Xalaf-Ubeyd əlaqələrinin olduğunu təsdiq edir. Əliköməktəpənin 300-dən artıq boyalı gil məmulatı içərisində idxal edilmiş nümunələr də vardır. Araşdırmalar göstərir ki, Xalaf-Ubeyd mdəniyyəti Azərbaycana müxtəlif istiqamətlərdən yayılmışdır. Ehtimal ki, bu istiqamətlərin biri Mil-Muğan abidələrinə, digəri isə Şərqi Anadolu mərkəzlərindən Naxçıvana doğru yönəlmişdir. Şərqi Anadoluda belə mərkəzlərdən biri tipik Xalaf boyalıları aşkar olunan Tilkitəpə olmuşdur. Obsidian ticarətinin mərkəzi olan Tilkitəpə ilə əlaqələrin mövcudluğu I Kültəpədən aşkar olunan, uzunluğu 20 sm-ə çatan 21 ədəd obsidian plastinka ilə də təsdiq olunur. Ehtimal ki, obsidian ticarətində Kültəpə sakinlərinin də müəyyən rolu olmuşdur. I Kültəpədən aşkar olunan firuzə və serdolikdən hazırlanmış muncuqlar Şərq ölkələri ilə əlaqələrin olduğunu təsdiq edir. Məlum olduğu kimi, firuzənin və serdolik muncuqların vətəni Pakistan və Şərqi İran olmuşdur.

Mesopotamiya ilə əlaqələrin olduğunu Çalağantəpədən aşkar olunan çölmək tipli qab, 1500 sədəfdən hazırlanmış muncuq, daş, mis və firuzədən

hazırlanmış muncuqlar və digər faktlar təsdiq edir. Bəzi tapıntılar Suriya ilə də əlaqələrin olduğunu təsdiq edir.

Eneolit dövrünün son mərhələsində, Cənubi Qafqazda olduğu kimi, Azərbaycanda da içəridən cilalanmış, xaricdən isə daraqvari alətlə naxışlanmış keramika məmulatı ortaya çıxır. Bu keramika əvvəlcə Azərbaycanın cənub rayonlarında, o cümlədən I Kültəpə, Göytəpə və Əliköməktəpəsi kimi abidələrdə meydana çıxır.

Azərbaycanın Eneolit yaşayış yerləri üçün sıx tikilmiş təsərrüfat məişət kompleksləri xarakterikdir. Bu komplekslər içərisində ocaq olan yaşayış evləri, ərzaq saxlamaq üçün anbar və həyətdən ibarət olmuşdur. Bəzən onlar bir-birindən kərpic divarlar vasitəsi ilə ayrılmışdır. Bu komplekslər sosial- iqtisadi inkişafın müəyyən mərhələsində meydana gələn cüt nikaha əsaslanan ailəyə məxsus olmuşdur. Hər təsərrüfat məişət kompleksində əmək alətlərinin, ocaq və gil qabların aşkar olunması cüt nikaha əsaslanan ailənin istehsalda müəyyən rol oynadığını və cəmiyyətin əsasını təşkil etdiyini göstərir. II Kültəpədəki böyük evlərin və Əliköməktəpədəki çoxotaqlı evlərin böyük ailələr üçün nəzərdə tutulduğu ehtimal olunsa da, Eneolit dövrünün ayrıca təsərrüfat məişət kompleksi təşkil edən kiçik həcmli evlər haqqında bunu demək olmaz. Bu dövrdə cəmiyyətdə qadınların müəyyən rolu olsa da ailənin başında kişi durmuşdur. I Kültəpə, Çalağantəpə və Əliköməktəpəsindəki qəbir abidələrinin tədqiqi cəmiyyətdə müəyyən sosial bərabərsizliyin olduğunu da deməyə imkan verir.

Polvtəpə (sahəsi 3 ha) və Xumtəpə (sahəsi 5 ha) kimi iri həcmli yaşayış yerləri bu tip yaşayış yerlərinin bir-birinə qohum olan qəbilə məskənlərindən ibarət olduğunu və ağsaqqallar şurası vasitəsi ilə idarə olunduğunu deməyə imkan verir. Erkən əkinçilik məskənlərindən xüsusi cins daşlardan hazırlanmış əsa başlıqları onların hakimiyyət rəmzi kimi qəbilə rəhbərlərinə aid olduğunu göstərir.

Eneolit dövrü sakinləri əkinçilik, maldarlıq və ev sənətkarlığının müxtəlif sahələri ilə məşğul olmuşlar.

Azərbaycanın Eneolit abidələrinin araşdırılması göstərir ki, bu dövrdə əhalinin əsas məşğuliyyəti əkinçilik və maldarlıq olmuşdur. Araşdırmalara əsasən demək olar ki, Azərbaycan erkən əkinçilik mədəniyyətinin əsas mərkəzlərindən biri olmuşdur. Azərbaycan yabanı və mədəni buğda növlərinin, xüsusilə Tr. Aestivum, Tr. Durum və Tr. Turgidum növlərinin vətəni olmuşdur. Arxeoloji abidələrin tədqiqi zamanı aşkar olunan müxtəlif taxıl növləri və əmək alətləri əkinçilik mədəniyyətinin geniş inkişaf etdiyini təsdiq edir. Şomutəpə, Töyrətəpə, Qarğalartəpəsi, Çalağantəpə və digər yaşayış yerlərinin tədqiqi zamanı Tr. Aestivum, Tr. Turgidum, Tr. Durum Dest, Hord pollidium, Hord dicticum, Tr. Compactum Hest və s. taxıl cinsləri tapılmışdır. Daşdan və sümükdən hazırlanmış toxalar bu dövrdə toxa əkinçiliyinin inkişaf etdiyini göstərir.

Eneolit dövründə iqtisadiyyatın əsas sahələrindən biri maldarlıq olmuşdur. Maldarlığın inkişafı başlıca olaraq osteoloji materialların analizi ilə müəyyən

edilmişdir. Şomutəpə, Töyrətəpə, Qarğalartəpəsi və Babadərvişdə xırdabuynuzlu heyvanlar iribuynuzlulara nisbətən üstünlük təşkil etmişdir. Lakin Əliköməktəpəsində üstünlük iribuynuzlu heyvanlara məxsus olmuşdur.

Bu dövrdə dulusçuluq, toxuculuq, daşişləmə, sümükişləmə, metallurgiya və metalişləmə kimi sənət sahələri də inkişaf etmişdir. Eneolit abidələrindən aşkar olunan metal əşyaların böyük bir qisminin tərkibində xeyli miqdarda mərgümüş qarışığına rastlanmışdır. Tədqiqatçılar bu qarışığın xəlitəyə süni yolla qatıldığını qeyd etmişlər ki, bu da Eneolit dövründə tunc metallurgiyasının əsasının qoyulduğunu göstərir.

Yaşayış yerlərinin tədqiqinə əsasən demək olar ki, bu dövrdə cüt nikaha əsaslanan ailə cəmiyyətin əsasını təşkil etmişdir. Eneolit dövrünün insanlarında axirət dünyasına, ev heyvanlarına və səma cisimlərinə inam mövcud olmuş, məhsuldarlığın təmin edilməsi üçün müxtəlif mərasimlər icra olunmuşdur.

Eneolit dövründə məhsuldarlığın təmin edilməsi, yağış yağdırılması ilə bağlı müəyyən ayinlər keçirilmiş, ulu əcdada, astral cismlərə və heyvanlara sitayiş edilmişdir. Gil qadın fiqurları da insanların ideoloji təsəvvürləri haqqında müəyyən məlumat verir. Qarğalartəpəsindən aşkar olunan qadın fiqurunun sinəsində çəkilən sünbülşəkilli cızma ornament tədqiqatçıların fikrinə görə, həyat ağacını simvolizə etmişdir. Onun çiyninə tökülmüş saçları dalğalı xətlərlə ifadə edilmişdir. Yağış çağırma ilə bağlı ayinin qalıqlarına Qarğalartəpəsi yaşayış yerində də rastlanmışdır.

## İLK TUNC DÖVRÜ

**Arxeoloji abidələr.** Azərbaycanın İlk Tunc dövrü mədəniyyəti arxeoloji ədəbiyyatda Kür-Araz mədəniyyəti adı ilə tanınmışdır. Kür-Araz mədəniyyəti abidələri yaşayış yerləri və qəbirlərdən ibarətdir. Bu abidələrin müəyyən lokal xüsusiyyətlərinin olmasını nəzərə alaraq onları regionlar üzrə araşdırmağı məqsədəuyğun hesab edirik. Erkən Tunc dövrü abidələri arasında çoxtəbəqəli

yaşayış yerləri ilə xarakterizə olunan Naxçıvan-Urmiya qrupunun abidələri xüsusi yer tutur.

Naxçıvanda Kür-Araz mədəniyyətinə aid I Kültəpə, II Kültəpə, Ovçulartəpəsi, Maxta Kültəpəsi, Xalac, Ərəbyengicə, Şortəpə kimi qədim yaşayış yerləri aşkar olunmuşdur.

Bu abidələrdən I Kültəpə və II Kültəpədə geniş miqyaslı arxeoloji qazıntılar aparılmış, digərləri isə yalnız kəşfiyyat xarakterli tədqiqatlarla öyrənilmişdir.

I Kültəpə yaşayış yeri Naxçıvan şəhərindən 8 km şimal-şərqdə, Naxçıvançayın sol sahilində, Babək rayonunun eyniadlı kəndi yaxınlığında yerləşir. Abidənin ümumi sahəsi 1,5 ha-dır. Yaşayış yerində 1951-1964-cü illərdə O.H.Həbibullayev tərəfindən aparılan qazıntılar zamanı 22,2 metr qalınlığı olan 4 mədəni təbəqə aşkar edilmişdir.

Yaşayış yerinin Kür-Araz mədəniyyətinə aid olan ikinci təbəqəsi abidənin üzərindən 3,4-4,5–12,4-1,3 m dərinlikdə yerləşir. Maddi- mədəniyyət qalıqları ilə zəngin olan bu təbəqə 8,5-9 m qalınlığındadır. Mədəni təbəqə müxtəlif həcmli çay daşları, çiy kərpic qalıqları, osteoloji qalıqlar, obsidian, çaxmaqdaşı parçaları, kömür qalıqları, kül və torpaq laylarının qarışığından ibarətdir. Kül qalıqları, başlıca olaraq, sobaların, manqal və ocaqların ətrafında toplanmışdır. Təbəqədən müxtəlif daş, sümük, metal əşyalar və keramika məmulatı aşkar olunmuşdur.

Abidənin stratiqrafiyası Kür-Araz dövrünə aid yaşayış məskəninin Eneolit təbəqəsi üzərində salındığını göstərir. O.H.Həbibullayevin fikrinə görə, Kür-Araz təbəqəsi Eneolit təbəqəsindən 30-40 sm qalınlığında olan steril təbəqə ilə ayrılır.

I Kültəpədə Kür-Araz dövrünə aid 14 tikinti qatı aşkar olunmuşdur. Bunlar bir-birinə bənzər təsərrüfat-məişət kompleksləri ilə xarakterizə olunur. Alt laylarda qeydə alınan yaşayış evləri başlıca olaraq dairəvi planlı, üst laylardakı evlər isə əsasən dördbucaqlıdır. Dairəvi planlı bəzi evlərin düzbucaqlı artırması vardır. Tikinti materialı kimi çay daşı, çiy kərpic və möhrədən istifadə edilmişdir.

I Kültəpədə Kür-Araz mədəniyyətinin ilk mərhələsinə aid edilən yaşayış evləri dairəvi planlıdır. Evlərin divarları çiy kərpiclə hörülmüş və hər iki tərəfdən gillə suvanmışdır. Birinci tikinti qatında aşkar olunan 34 №-li binanın tikintisində 40 x 20 x 10 sm ölçülü kərpiclərdən istifadə edilmişdir. Döşəmə gillə suvanmışdır. Binanın içərisində yarımşar formalı qulpu olan gil qab parçaları, daş alətlər və nalşəkilli ocaq qurğusu əldə edilmişdir.



Şəkil 35. I Kültəpənin İlk Tunc dövrü təbəqəsi. Evlərin planı və arxeoloji materiallar

Həmin tikinti qatında, 33 №-li evin tikintisində isə 50 x 24 x10 sm ölçülü çiy kərpiclərdən istifadə edilmişdir. Binanın divarları 35-40 sm hündürlüyündə, 32 sm qalınlığında qalmışdır. Diametri 8,35 m-dir. Bina çiy kərpicdən hörülmüş divarla iki qeyri-bərabər hissəyə bölünmüşdür. Onun şimal- şərq hissəsindən anbar kimi istifadə edilmişdir.




Şəkil 36. I Kültəpədən aşkar olunmuş heyvan fiqurları

Üçüncü tikinti qatına aid 28 №-li bina dairəvi formalı olub, şimal-şərq tərəfdə düzbucaqlı binanın divarı ilə birləşmişdir. Divarlar 42 x 18 x 12 sm ölçülü çiy kərpiclərdən hörülmüş və gillə suvanmışdır. Binanın diametri 5,5 m-dir. Onun cənub-şərq hissəsində, qapı girişinin sağ tərəfində divara bitişik gil soba aşkar olunmuşdur. Soba bir qədər dəyirmiləşdirilmiş, dördkünc formadadır. Sobanın odluğu künbəz tipli olub, uzunluğu 1,34 m, eni 0,78 m, hündürlüyü 0,18 m-dir.

Binanın mərkəzi hissəsində gillə suvanmış döşəmədə evin tavanını saxlayan dayaq dirəyi üçün qoyulmuş yastı daşa rast gəlinmişdir. Evin içərisindən müxtəlif formalı gil qab qırıqları, heyvan sümükləri aşkar edilmişdir.

I Kültəpədə aşkar olunan binaların bəzilərinə Yaxın Şərq və Zaqafqaziyanın bir çox abidələrində rast gəlinir. Daş təməl üzərində çiy kərpicdən, yaxud möhrədən tikilmiş binalara Azərbaycan ərazisində Qaraköpəktəpə, Günəştəpə, Göytəpə, Yanıqtəpə, II Kültəpə qədim yaşayış yerlərində rast gəlinmişdir. Belə binalar Şenqavit, Kosi-Koter, Arevik və s. abidələrdən də məlumdur.

II Kültəpə yaşayış yeri Naxçıvan şəhərindən 12 km şimalda, Babək rayonunun Yuxarı Uzunoba və Didivar kəndləri arasında, Naxçıvançayla Cəhriçayın birləşdiyi yerdə salınmışdır. Abidənin alt təbəqəsi Kür-Araz dövrünə aiddir. Mədəni təbəqənin qalınlığı relyefdən asılı olaraq dəyişir. Yaşayış yerində ikinci qazıntı sahəsində, 200 $m^2$ sahədə aparılan qazıntılar əhəmiyyətli nəticələr vermişdir. Bu sahədə Kür-Araz təbəqəsi abidənin üzərindən 4-4,5 – 14 m dərinlikdə yerləşir. Təbəqənin qalınlığı 9,5-10 m-dir.

Abidənin stratiqrafiyası göstərir ki, qədim dövrdə yaşayış yeri, bilavasitə Cəhri çayının girintili-çıxıntılı sahilində salınmışdır. Mədəni təbəqənin bəzi yerlərdə davam etməməsi yaşayış yerinin salındığı sahənin ilk vaxtlar nahamar olduğunu göstərir. Təbəqənin toplanması ilə əlaqədar yaşayış sahəsi düzəldilmiş və hamarlanmışdır.

Mədəni təbəqə möhrə, kərpic divar, osteoloji və kömür qalıqlarından, həmçinin, kül və yanmış torpaq qatlarından ibarətdir. Təbəqədə obsidian və çaxmaqdaşı qəlpələrinə, gil qab parçalarına, daş sümük və metal əşyalara rast gəlinmişdir. Mədəni təbəqənin yığılma ardıcıllığı kəsiklərdə aydın izlənir.

Binaların divarları ilk baxışda möhrəyə bənzəsə də, onların diqqətlə izlənilməsi tikintilərin kərpiclə inşa edildiyini göstərmişdir. Kərpiclər sıx sıra ilə yerləşdirilərək, gil məhlula suvanmışdır. Tədqiqatlar zamanı divarlardan çıxarılan kərpiclərin ölçüləri 40 x 20 x 10, 40 x 38 x 10 sm olmuşdur.

II Kültəpənin İlk Tunc dövrü təbəqəsində 14 tikinti qatının olduğu müəyyən edilmişdir.

Dən daşları, həvəng və dəstələr, çəkiclərlə təmsil olunan daş alətlər Kür-Araz mədəniyyəti dövründə demək olar ki, əsaslı dəyişikliyə uğramamışdır. Bunun əksinə olaraq, gil məmulatı və metal əşyalar hiss ediləcək dərəcədə dəyişmişdir. Bu dəyişikliklər abidənin dövrləşdirilməsi üçün əsas olmuşdur. Qeyd etmək lazımdır ki, evlərin planında da müəyyən dəyişiklik olduğu izlənmişdir. Alt tikinti qatları üçün dairəvi, üst tikinti qatları üçün isə dördkünc artırmalar əlavə edilmiş dairəvi evlər xarakterik olmuşdur.

II Kültəpə yaşayış yerində, gözləndiyinin əksinə olaraq, Eneolit təbəqəsinə rast gəlinməmişdir. Buna baxmayaraq XIV-XII tikinti qatlarında



Şəkil 37. II Kültəpənin İlk Tunc dövrünə aid naxışlı keramikası

aşkar olunmuş gil qabların formasında Eneolit mədəniyyətinin təsiri özünü göstərir. Bu təbəqədə aşkar olunan gil qablardan bir qrupunun tərkibində Eneolit keramikası üçün xarakterik olan saman qarışığına rast gəlinmişdir.



Şəkil 38. II Kültəpə. İlk Tunc dövrünə aid maddi-mədəniyyət qalıqları



Şəkil 39. II Kültəpə. İlk Tunc dövrünün son mərhələsinə aid maddi-mədəniyyət qalıqları

Təəssüf ki, bu tip qabların əksəriyyəti forma verməyən parçalardan ibarət olmuşdur.

II Kültəpənin alt tikinti qatları üçün dairəvi planlı evlər xarakterikdir. Bu evlər arakəsmə divarla iki hissəyə bölünmüşdür. Araşdırmalara əsasən söyləmək olar ki, evlərin bir qismindən təsərrüfat məqsədilə, yaxud da anbar kimi, digər qismindən isə yaşayış sahəsi kimi istifadə edilmişdir. Alt tikinti qatında olan binalar başlıca olaraq möhrədəndir. XI tikinti qatından başlayaraq evlərin tikintisində çiy kərpicdən istifadə edilmişdir.

II Kültəpənin üst qatları üçün düzbucaqlı artırması olan dairəvi və dördkünc formalı evlər xarakterik olmuşdur. Axırıncı tip binalar Azərbaycanda Qaraköpəktəpə, Babadərviş və Mingəçevirdən bəllidir.

II Kültəpənin alt tikinti qatlarında evlərdə iki ocağın olması müşahidə olunur. Onların biri dördbucaqlı ocaqlarla, digəri isə manqallarla təmsil edilir. Bu tip ocaqlar I Kültəpədə də aşkar olunmuşdur. II Kültəpəyə nisbətən I Kültəpədə dördbucaqlı ocaqlar daha yaxşı qalmışdır. O.H.Həbibullayevin fikrincə, bu ocaqlar dördkünc formalı sobalar şəklində olmuş və onlardan evlərin qızdırılması üçün istifadə edilmişdir.

II Kültəpədə düzbucaqlı ocaqların ətrafından sxematik insan fiqurlarına bənzədilən nalşəkilli ocaq qurğuları tapılmışdır. Qeyd etmək lazımdır ki, nalşəkilli ocaq qurğuları oturmuş insan fiquruna bənzəyir. Təsadüfi deyil ki, Ə.K.Ələkbərov Şortəpədən tapılan bu cür ocaq qurğusunu insan heykəlinin ayağına bənzətmişdir. Bu fikir Q.İ.İone tərəfindən də təsdiq edilmişdir. Ehtimal ki, insan fiqurunu özündə cəmləşdirən nalşəkilli ocaq qurğuları ocağın himayədarını təcəssüm etdirmişdir.

I Kültəpə və II Kültəpənin arxeoloji materiallarının araşdırılması göstərir ki, evlərin qızdırılmasında dairəvi formalı manqallardan da istifadə edilmişdir. O.H.Həbibullayev bu manqallardan sitayiş məqsədilə istifadə olunduğunu da söyləmişdir. Bizim fikrimizcə, bu ocaqlardan evlərin qızdırılmasından başqa təsərrüfat məqsədilə, xüsusilə çörək bişirilməsi və qızdırılması üçün də istifadə edilmişdir.

Ovçulartəpəsi yaşayış yeri Şərur rayonunun Dizə kəndindən şimalda, Arpaçayın sol sahilində yerləşir. Yaşayış yerinin ümumi sahəsi 10 ha-dır. Yaşayış yerinin xarakterik cəhəti ondan ibarətdir ki, burada Kür-Araz təbəqəsi sonrakı dövrlərin mədəni qatları ilə örtülməmişdir. Yaşayış yeri şərqdən qərbə uzanan təbii təpədə yerləşir. Abidənin üzərində xeyli maddi- mədəniyyət qalıqlarına, xüsusilə, gil qab parçalarına rast gəlinir. Yerüstü materiallar içərisində Eneolit dövrü üçün xarakterik olan gil qab parçaları da vardır.

Yaşayış yerinin yerləşdiyi təpənin üzərində teleqüllə tikilərkən mədəni təbəqə dağıdılmışdır. Təpənin şimal tərəfində V.H.Əliyev və A.Q.Seyidov tərəfindən 6,25 $m^2$ sahədə kəşfiyyat xarakterli qazıntı işləri aparılmışdır. Daha sonra abidə S.H.Aşurov tərəfindən tədqiq edilmişdir. Mədəni təbəqədə möhrə, kül, çürüntü və osteoloji materialların qalıqlarına rast gəlinmişdir. Buradan,

həmçinin çəhrayı, sarı və boz rəngli gil qab parçaları, daş alətlər və tunc iynə qırığı tapılmışdır. V.H.Əliyev və A.Q.Seyidovun qazıntıları zamanı 0,6 m dərinlikdə arakəsmə ilə ikiyə bölünmüş bina qalığı aşkar olunmuşdur. Lakin qazıntı sahəsi kiçik olduğundan binanın ümumi planını müəyyən etmək mümkün olmamışdır. Divar mərmər qaya parçalarından hörülərək gil məhlulla bərkidilmişdir. Divarın saxlanmış hissəsinin uzunluğu 3, eni 0,7, hündürlüyü 0,4 m-dir. Şübhəsiz ki, tikinti materialı yaxınlıqda olan qayalıqdan gətirilmişdir.



Şəkil 40. Maxta Kültəpəsində Erkən Tunc dövrünə aid bina qalıqları (Vəli Baxşəliyev, Səfər Aşurov və Lauren Ristvet tərəfindən qazılmışdır)

Maxta Kültəpəsi yaşayış yeri Şərur rayonunun Maxta kəndindən qərbdə, Araz çayının sol sahilində yerləşir. Onun cənub-qərb hissəsi dəmiryolu çəkilərkən dağıdılmışdır. Yaşayış yerinin salamat qalan hissəsinin sahəsi 3 ha-dır.

1988-1989-cu illərdə V.H.Əliyev və S.H.Aşurov tərəfindən yaşayış yerində 100 $m^2$ sahədə tədqiqat işləri aparılmış, daş təməl üzərində çiy kərpicdən hörülmüş tikinti qalıqlarına, gil qab parçalarına və ocaq qurğusunun hissələrinə rast gəlinmişdir.

Kəşfiyyat xarakterli tədqiqatlar zamanı yaşayış yerinin əhatə etdiyi ərazidə daşdan tikilmiş qədim məbəd, onun içərisində isə daş bütlər aşkar edilmişdir.

Yaşayış yerinin keramika məmulatı və tikinti qalıqları Kür-Araz mədəniyyətinin orta mərhələsinə aiddir.

Xalac yaşayış yeri Şərur rayonunun eyni adlı kəndi yaxınlığında, Arpaçayın sağ sahilində yerləşir. Yaşayış yeri, burada açılan mərmər daş karxanasında gedən işlər zamanı dağıdılmışdır. Onun salamat qalmış hissəsinin sahəsi 0,5 hektardır. Abidədən toplanan yerüstü materiallar boz və çəhrayı rəngli gil qab parçalarından, əmək alətlərindən ibarətdir.

Şortəpə yaşayış yeri Şərur rayonunun İbadulla kəndinin içərisində, Araz çayının sol sahilində yerləşir. Yaşayış yerinin ümumi sahəsi 1,5 ha-dır. Yaşayış yeri 1936-cı ildə Ə.K.Ələkbərovun kəşfiyyat xarakterli qazıntıları ilə öyrənilmişdir. Kür-Araz mədəniyyətinə aid təbəqə abidəninin üzərindən 1,5-3 m dərinlikdə yerləşir. Qazıntı zamanı gil qab parçaları və ocaq qurğularının qalıqları aşkar olunmuşdur. Yaşayış yerində aparılan kəşfiyyat xarakterli tədqiqatlar nəticəsində bu dövrə aid gil qab parçaları da toplanmışdır.

Ərəbyengicə yaşayış yeri Şərur rayonunun eyni adlı kəndinin yaxınlığında, Araz çayı ilə Arpaçayın birləşdiyi yerdə salınmışdır. Abidənin çox hissəsi üzüm plantasiyaları və əkin sahələrinin altında qalmışdır. Onun salamat qalan hissəsinin sahəsi 0,8 ha-dır. Yaşayış yerində aparılan kəşfiyyat xarakterli tədqiqatlar nəticəsində dən daşları, sürtgəclər, gil qab parçaları, əldə edilmişdir. Toplanmış keramika başlıca olaraq Kür-Araz mədəniyyətinin orta və son mərhələsinə aiddir.

Urmiya hövzəsində yerləşən abidələr içərisində Göytəpə və Yanıqtəpə xüsusilə diqqətəlayiqdir. Bu abidələrdən tapılmış arxeoloji materiallar Kür-Araz mədəniyyətinin müxtəlif mərhələlərini özündə əks etdirir. Göytəpədən aşkar olunan materiallar Kür-Araz mədəniyyətinin erkən, Yanıqtəpə materialları isə son dövrünə aiddir. Tədqiqatçıların fikrinə görə, bu abidələr stratiqrafiya baxımından bir-birini tamamlayır.

Göytəpə yaşayış yeri Urmiya gölünün qərbində, Urmiya şəhərindən 7 km cənub-şərqdə yerləşir. Abidədə aparılan səkkiz qazıntı sahəsindən yalnız birində Kür-Araz mədəniyyətinə aid edilən «K» təbəqəsinə rastlanmışdır. Abidənin mərkəzində yerləşən I qazıntı sahəsində (83 $m^2$) Kür-Araz mədəni təbəqəsi bilavasitə Eneolit dövrünə aid edilən «M» təbəqəsinin üzərində yerləşir.

Göytəpənin «K» təbəqəsi Barton- Braun tərəfindən aşağıdan yuxarıya doğru $K_1$, $K_2$, $K_3$ olmaqla, üç tikinti qatına bölünmüşdür. Xarakterik keramika ilə fərqlənən bu tikinti qatlarındakı memarlıq qalıqları qazıntılar zamanı öyrənilməmişdir. Aşağı $K_1$ təbəqəsində qalın kül layları halında güclü yanğın izləri, kömür qalıqları, ev tavanlarının yanmış ağaclarının qalıqları aşkar olunmuşdur. Bu təbəqədən, həmçinin çiy kərpicdən hörülmüş böyük divarın bir hissəsi də aşkar edilmişdir. Onun eni 1,65m-dir.

$K_2$ və $K_3$ tikinti qatlarında müxtəlif dərinliklərdə çiy kərpicdən divar qalıqlarına, kiçik çay daşlarından hörülmüş təməl qalıqlarına rast gəlinmişdir. Çiy kərpiclər tam olaraq əldə edilməmişdir (? x 0,21 x 10 sm). Bəzi yerlərdə gillə suvanmış döşəmə qalıqları aşkar edilmişdir. Ocaqlar divarların yaxınlığında olmuş, lakin onların formasını müəyyən etmək mümkün olmamışdır.



Şəkil 41. Göytəpənin İlk Tunc dövrü təbəqəsinin materialları

$K_3$ qatında döşəmədə qazılaraq ağzı yastı daşlarla örtülmüş çuxurun içərisində iri həcmli, yuvarlaq oturacaqlı, üç qulplu gil qabın olduğu müəyyənləşdirilmişdir. Şübhəsiz ki, bu qab ərzaq ehtiyatı saxlamaq üçün nəzərdə tutulmuşdur.

Tapıntılar içərisində gil məmulatı üstünlük təşkil edir. Əldə edilən arxeoloji materiallardan gil təkər modelləri, heyvan fiqurları, iy başlıqları, muncuqlar diqqəti cəlb edir. Bu təbəqədən tunc nizə ucluğu, üzük, sancaq, metal

çubuqlar tökmək üçün gil qəliblər də tapılmışdır. $K_3$ təbəqəsindən götürülən kömürün analizi e.ə. 2574 $\pm$146-cı ili göstərmişdir.



Şəkil 42. Yanıqtəpədən aşkar olunan evlərin planı və maddi-mədəniyyət qalıqları

Urmiya gölünün şərqində yerləşən Yanıqtəpə abidəsi daha yaxşı öyrənilmişdir. Bu abidənin təsərrüfat-məişət komplekslərində Kür-Araz mədəniyyətinin əsas əlamətləri aydın şəkildə izlənmişdir.

Yanıqtəpə yaşayış yeri qədim dövrdə ardıcıl olaraq yaranan üç təpədən ibarət olmuş, zaman keçdikcə onlar bir təpə halında birləşmişdir. Onun hündürlüyü 16,5 m, diametri 300 m-dən artıqdır. Yaşayış yerində Neolit, Eneolit və İlk Tunc dövrünə aid təbəqələrə rast gəlinmişdir. Kür-Araz mədəniyyətinə aid təbəqə abidənin ən üst qatında yerləşmişdir. Lakin Eneolit təbəqəsi ilə Kür-Araz təbəqəsinin bir-birinə münasibəti stratiqrafik baxımdan həll edilməmişdir. Belə

ki, qazıntı zamanı heç yerdə Kür-Araz təbəqəsinin Eneolit təbəqəsini örtdüyü müəyyənləşdirilməmişdir.



Şəkil 43. Yanıqtəpənin II İlk Tunc dövrü təbəqəsində aşkar olunan maddi-mədəniyyət qalıqları

Ç.Barney Eneolit və Kür-Araz mədəniyyəti qalıqlarını analiz edərək belə nəticəyə gəlir ki, bunların arasında böyük xronoloji fasilə olmuşdur. Onun fikrincə, bu mədəniyyət buraya şimaldan gələn tayfalar tərəfindən gətirilmişdir. Abidənin şimal yamacında aparılan qazıntılar zamanı müxtəlif dərəcədə qalmış 9 tikinti qatı aşkar olunmuşdur. Bu tikinti qatları müəllif tərəfindən şərti olaraq I İlk Tunc və II İlk Tunc dövrlərinə ayrılmışdır.

Birinci dövrə aid edilən tikinti qatlarında aşkar olunan binalar dairəvi planlıdır. Onların bəzisinin yenidən tikilməsi göstərir ki, bəzi binalardan bir neçə tikinti dövründə istifadə edilmişdir. İlk mərhələyə 30, 32 №-li yaşayış və 34 №-li təsərrüfat binası aiddir. Təsərrüfat binasında içərisində təsərrüfat küpəsi olan

ərzaq quyusu aşkar olunmuşdur. Bir qədər sonra tikilən 10, 11, 21, 31 №-li binalar əvvəlkilərdən yalnız həcminin böyüklüyünə görə fərqlənir.

Bundan sonrakı ikinci tikinti qatında dairəvi planlı 1 №-li unikal binanın qalıqları aşkar olunmuşdur. Bu bina təpənin ən hündür yerində yerləşmişdir. Binanın bu cür mərkəzi mövqeyi onun xüsusi əhəmiyyətə malik olduğunu göstərir. Bina konstruksiyasına görə də digərlərindən fərqlənir. Onun bir-birinin içərisində yerləşdirilmiş iki konsentrik divarı vardır. İçərisi arakəsmə divarla 4 bölümə ayrılmışdır. Divarlar 2 m hündürlükdə qalmışdır. Binanın ikinci xarici divarı Ç.Barneyin fikrinə görə, nəmliyin qarşısını almaq üçün olmuşdur.

Bizim fikrimizcə, binanın belə quruluşu həm də ərzaq ehtiyatlarının saxlanması üçün vacib olan temperaturun tənzimlənməsi üçün nəzərdə tutulmuşdur. Xaricdəki divar kərpiclərin pilləli şəkildə yerləşdirilməsi ilə, fiqurlu şəkildə hörülmüşdür. Bu cür hörgü divara müəyyən gözəllik və möhkəmlik vermişdir.

Dairəvi planlı 1 №-li bina bir neçə tikinti dövründə mövcud olmuş, III tikinti qatında da öz funksiyasını itirməmişdir. Bu tikinti qatında güclü müdafiə divarının qalıqları aşkar olunmuşdur. Divarın qazıntı zamanı aşkar edilmiş hissəsinin eni, 4,6-5 m-dir. O yonulmamış daşlardan tikilərək, gil məhlulu ilə bərkidilmişdir.

II İlk Tunc dövrünə aid edilən təbəqə bilavasitə birincinin üzərində yerləşir. Bu dövrdə evlərin tikintisində böyük dəyişiklik olmuş, dairəvi planlı evlər dördkünc planlı evlərlə əvəz olunmuşdur. Aşağı təbəqələr üçün xarakterik olan yanğın izlərinə bu dövrdə rast gəlinməmişdir. İkinci dövrə aid tikinti qatlarından yalnız biri yaxşı qalmışdır. Bu tikinti qatında iki böyük, bir neçə kiçik həcmli bina qalıqları və geniş həyət aşkar olunmuşdur. Kərpic sütunlarının və ağac dirəklərinin qalıqları göstərir ki, yaşayış əsasən üst mərtəbələrdə olmuşdur. Lakin, aşağıdakı binaların birində divar boyunca yatacaq üçün istifadə olunan kərpic səkinin qeydə alınması, birinci mərtəbələrin də yaşayış sahəsi kimi istifadə olunduğunu göstərir. Alt mərtəbələrdə başlıca olaraq mətbəx və anbarlar yerləşdirilmişdir. Bu binalarda aşkar (1 və 4 №-li) olunan soba qalıqları, suvanmış mətbəx kürsüləri dediklərimizə əsaslı sübutdur. Ortasında maye axıtmaq üçün novlar olan mətbəx kürsülərinə həm dairəvi, həm də düzbucaqlı evlərdə rastlanması evlərin daxili quruluşundakı müəyyən ənənələrin davam etdiyini göstərir.

Bütün tikinti qatlarından tapılan arxeoloji materialların əksəriyyəti gil məmulatından ibarətdir. Burada, həmçinin dən daşları, dəstələr, həvənglər, qaşovlar, oraq dişləri aşkar edilmişdir. Müdafiə divarının yaxınlığında sapand daşlarına da rast gəlinmişdir. Gildən hazırlanmış möhürlər, iy başlıqları, körük ucluğu, balta modeli, naxışlanmış ocaq qalıqları əsas tapıntılardandır. Bu təbəqədən tapılan yeganə metal əşya olan kiçik tunc xəncərin ucu qırılmışdır.



Şəkil 44. Yanıqtəpə yaşayış yeri (7-li evin görünüşü)

Yanıqtəpənin Kür-Araz təbəqəsindən aşkar edilmiş materialların təhlili göstərir ki, Eneolit dövrü ilə I İlk Tunc dövrü arasında böyük xronoloji kəsinti olmuşdur. Ola bilsin ki, Eneolit dövründə tərk edilmiş yaşayış yerində İlk Tunc dövrünün sonunda əhali yenidən məskunlaşmışdır. Yanıqtəpənin Kür-Araz təbəqəsinin Ç.Barney tərəfindən iki dövrə bölünməsinə baxmayaraq, onun hər ikisi İlk Tunc dövrünün üçüncü mərhələsinə aiddir. Yanıqtəpənin dördkünc planlı tikintilərlə xarakterizə edilən üst təbəqələri İlk Tunc dövründən Orta Tunc dövrünə keçid mərhələsini əks etdirir. Lakin Ç.Barney tərəfindən I İlk Tunc dövrü üçün verilən tarix (e.ə. 2100-1900) real vəziyyəti əks etdirmir. Yanıqtəpənin I Kültəpə, II Kültəpə, Göytəpə kimi abidələrlə ərazicə yaxınlığını nəzərə alaraq, arxeoloji materialları Kür-Araz mədəniyyətinin üçüncü dövrünə aid etmək olar. Demək olar ki, Yanıqtəpə Naxçıvan-Urmiya qrupuna aid abidələrdə Kür-Araz mədəniyyətinin sonuncu mərhələsini daha dolğunluqla əks etdirir.

Haftavantəpə yaşayış yeri Urmiya gölünün şimal-qərbində, Salmas ovlağında yerləşir. Bu yaşayış yeri 1968-1978-ci illərdə Ç.Barney tərəfindən qazılmışdır. Haftavantəpənin alt təbəqəsi İlk Tunc dövrünə aiddir. Bu mədəniyyət Ç.Barney tərəfindən İlk Tunc II və İlk Tunc III dövrlərinə bölünmüşdür.

Qordlartəpə yaşayış yeri Urmiya şəhərindən 13 km şərqdə yerləşən, 16 m yüksəkliyi, 225 m diametri olan bir təpədir. Yaşayış yeri 1972-1978-ci illərdə K.Kromer, daha sonra isə A.Lippertin rəhbərlik etdiyi Avstriya ekspedisiyası tərəfindən öyrənilmişdir. Bu yaşayış yerinin alt təbəqəsi İlk Tunc dövrünə aid materiallar vermişdir.

Erkən Tunc dövrünə aid qəbir abidələrinə Naxçıvanda Dizə, Qarabulaq və Xornu və Xaraba-Gilanda rastlanmışdır Dizə nekropolu Ovçulartəpəsi yaşayış yerinin cənub tərəfində aşkar olunmuşdur. Qəbirlər dağıdılmış vəziyyətdə olmuşdur. Bu qəbirlərdən birinə aid kameranın yalnız bir qismi salamat qalmışdır. Qəbir kamerası oval formalı olub çay daşları ilə hörülmüş, döşəməsi gillə suvanmışdı. Qəbirdə bükülü vəziyyətdə iki skelet qalığı və Kür-Araz mədəniyyətinin son mərhələsinə aid gil qablar aşkar olunmuşdur. İkinci qəbir tamamilə dağıdılmış vəziyyətdə olduğundan formasını və istiqamətini müəyyən etmək mümkün olmamışdır.

Qarabulaq nekropolundakı kurqantipli qəbir abidələrin dördü S.H.Aşurov tərəfindən öyrənilmişdir. Kromlexlə əhatə olunan kurqanların diametri 7-12 m arasındadır. Kurqanaltı qəbirlər daş qutu tipli olub yastı sal daşları üst-üstə qoymaqla qurulmuşdur. Qəbirlərdən Kür-Araz mədəniyyətinin son mərhələsinə aid keramika və bəzək əşyaları aşkar olunmuşdur.

Culfa rayonunun Göynük kəndi yaxınlığında qeydə alınan Xornu nekropolundakı qəbir abidələri kurqan tipli olmuşdur. Alçaq təpə şəklində olan kurqanlar yerli əhalinin diqqətini çəkmiş və dağıdılmışdır. Onlardan yalnız birinin materialları toplanaraq bizə verilmişdir. Apardığımız araşdırmalar zamanı dağıdılmış qəbirlərin ölçülərini müəyyən etmək mümkün olmasa da, ətrafa yayılmış daş yığınları və insan skeletinin qalıqları dəfnlərin daş qutu tipli qəbirlərdə inqumasiya yolu ilə aparıldığını təsdiq edir.

Erkən Tunc dövrünə aid iki qəbir abidəsinə Xaraba-Gilanda Plovdağın cənub ətəyində rastlanmışdır. Daş qutu tipli qəbirlər iri sal daşların şaquli istiqamətdə qoyulması ilə qurulmuş, əvvəlcə ağacla, sonra isə daş lövhələrlə örtülmüşdür. Qəbirlərin birində bir, digərində isə iki bükülü insan skeleti aşkar olunmuşdur. Onlarda qəbir avadanlığına olduqca az rastlanmışdır.

Araşdırmalar göstərir ki, bu qrupa daxil olan abidələr vahid iqtisadi-mədəni rayona daxil olmuş, əkinçilik və maldarlıq üçün əlverişli ərazilərdə

salınmışdır.



Şəkil 45. Şortəpə yaşayış yerinin maddi-mədəniyyət nümunələri (Qarabağ)

Erkən Tunc dövrü abidələrinin bir qrupu Qarabağda, Qarqarçay və Tərtərçay hövzəsində yerləşir. İ.H.Nərimanov və H.F.Cəfərovun rəhbərliyi ilə aparılan araşdırmalar zamanı bu ərazidə onlarla yaşayış yeri və qəbir abidəsi aşkar olunmuşdur. Bu abidələrin tədqiqində H.F.Cəfərovun böyük əməyi olmuşdur. Tədqiqat zamanı Qarahacı, Göytəpə, Üçoğlan-1(Sarıçoban), Ağtəpə, Dəyirman yeri, Cüttəpə, Şortəpə və digər yaşayış yerləri tədqiq olunmuşdur. Bu abidələr başlıca olaraq kəşfiyyat xarakterli araşdırmalarla öyrənilmişdir. Sarıçoban və Şortəpə yaşayış yerlərində aparılan kəşfiyyat xarakterli qazıntılar bu yaşayış yerlərində mədəni təbəqənin olduqca az yığıldığını göstərmişdir. Şortəpə yaşayış yerinin tədqiqi zamanı dördkünc formalı, çiy kərpicdən inşa olunmuş binanın qalıqları aşkar olunmuşdur.

Bu yaşayış yerlərindən aşkar olunan keramika məmulatı Kür-Araz mədəniyyətinin bütün mərhələlərini əks etdirir. Qarahacı, Sarıçoban və Cüttəpə, Şortəpə yaşayış yerlərinin keramika məmulatında Eneolit mədəniyyətinin əlamətləri (qabların gilinin tərkibində saman qarışığının olması, onların xarici səthinin daraqvari alətlə işlənməsi) izlənmişdir. Bu abidələrdən aşkar olunmuş arxeoloji materiallar Kür-Araz mədəniyyətinin mənşəyi və inkişafı ilə bağlı problemlərin tədqiqi üçün olduqca əhəmiyyətlidir.




Şəkil 46. 103 № -li Xankəndi kurqanının planı

Mil-Qarabağ zonasının qəbir abidələri Xankəndi, Borsunlu, Üçtəpə Xaçınçay kurqanları və digərləri ilə təmsil olunmuşdur.

Xankəndi kurqanları eyni adlı yaşayış yerindən şimalda, bir-birinin yaxınlığında yerləşir. Hündürlüyü 1,5 m, diametri 24 m olan 119№- li kurqanın təpəsi bir qədər dağılmışdır. Kurqanın altındakı ən qədim torpaq qəbir olduqca pis qalmışdı. Üstündə düzəldilmiş dairəvi planlı meydança novşəkilli oyuqla əhatələnmişdir. Onun şimal-şərq tərəfdəki girişi böyük daş plitə ilə örtülmüşdür. Girişin sağ tərəfində insan skeletinə rast gəlinmişdir. Diametri 4,5 m olan dairəvi meydançada 36 böyük və kiçik yaşlı insan skeleti qeydə alınmışdır. Skeletlər bükülü, oturaq, uzadılmış, vəziyyətdə müxtəlif istiqamətlərə yönəldilmişdir. Mərkəzi hissədə arxası üstə uzadılmış böyük insan skeleti aşkar edilmişdir. Onun ətrafında daş toppuz, tunc nizə ucluğu, iki daş həvəng tapılmışdır. Qəbirin cənub-şərq hissəsində altı daş ox
ucluğuna, 5 sümük iy başlığına, şimalında isə pasta muncuqların qızıl pilələrinə və altı daş asmaya rastlanmışdır. Bundan başqa qəbirdən 22 ədəd əzilmiş gil qab tapılmışdır. Onlar toxuma karkas üzərində hazırlanmışdır. Kollektiv dəfnlə seçilən bu qəbir gil məhlulla bərkidilmiş çay daşları ilə qapadılmışdır. Bu təbəqədən üstdə Son tunc dövrünə aid kollektiv dəfn qeydə alınmışdır.




Şəkil 47. 103 № -li Xankəndi kurqanının materialları

Burada aşkar olunan 125 №- li kurqan həcmcə kiçikdir. O da birinci kurqan kimi üç təbəqəlidir. İlk Tunc dövrünə aid kollektiv dəfndən yalnız bükülü vəziyyətdə, sol yanı üstə olan bir skelet qalmışdır. Onun baş və ayaq tərəfində keçi skeletinə rast gəlinmişdir. Yaxınlıqda daş toppuz, tunc nizə ucu, çaxmaqdaşından 5 ox ucluğu, qızıl təbəqədən asma, daş həvəng, 30 obsidian parçası, 1 nukleus və gil qab parçaları aşkar olunmuşdur.



Şəkil 48. 119 və 125 № li ( 2, 6, 10) Xankəndi kurqanlarının materialları

Mil düzündə Üçtəpə adlı yerdə üç böyük kurqan aşkar olunmuşdur. Bu kurqanların biri 1960- cı ildə A.A.İessen tərəfindən tədqiq edilmişdir. Bu kurqanların ən böyüyünün hündürlüyü 17 m-dir. A.A.İessenin tədqiq etdiyi ən kiçik kurqanın hündürlüyü 13 m, diametri 130 m- dir. Açıq rəngli torpaq kurqanının altında, 12,8 m dərinlikdə, diametri 25 m, hündürlüyü 2 m olan daş təpəyə rast gəlinmişdir. Ondan aşağıdakı qamış döşəmənin altından torpaq qəbir aşkar olunmuşdur. Qəbirin uzunluğu 13,8 m, eni 1,5 m, dərinliyi 2,6 m- dir.

Qəbirin örtüyü yanğından qaralmış iki sıra ağac tirdən ibarətdir. Örtülmüş sahənin uzunluğu 24 m, eni 7,5- 8 m- dir.



Şəkil 49. Üçtəpə kurqanının (№ 3) görünüşü

Qəbir kamerasının içəri tərəfi və örtüyü güclü yanğına məruz qalmışdır. Onun içərisi qırmızı oxra və kömür qarışıq daşla doldurulmuşdur. Burada, həmçinin qızarmış və yanmış gil qab parçalarına da rast gəlinmişdir. Qəbirin kurqan örtüyündə müxtəlif yerlərdə ağ daş qapaq, oxra əzmək üçün daş plitə, daş həvəngin parçası, dən daşı və keramika qırıqlarına təsadüf edilmişdir. Qazıntı zamanı müəyyən edilmişdir ki, orta əsrlərdə burada qəbir qazılarkən, qədim qəbirə deşik açılmış və onun içərisi tamamilə təmizlənmişdir. Yalnız bundan sonra güclü yanğın baş vermiş və qəbir örtüyü dağılaraq içəri tökülmüşdür.

A.A.İessenin fikrinə görə, Üçtəpə kurqanı aşağıdakı şəkildə düzəldilmişdir. Əvvəlcə bu sahədə qəbir kamerası qazılmış, onun torpağı kənara çəkilərək kameranın kənarına daş düzüldükdən sonra oxra və müxtəlif əşyalarla müşayiət olunan dəfn prosesi olmuşdur. Qəbirin üzəri tirlərlə və qamışla örtülmüşdür. Bu örtüyün üzərinə gil qablar qoyulmuş və daş kurqan düzəldilmişdir. Daş təpənin üzərində yerli torpaqdan kurqan düzəldilmişdir. Müəyyən edilmişdir ki, kurqan üç il ərzində müəyyən fasilələrlə düzəldilmişdir.

Şübhəsiz ki, dəbdəbəli dəfn ritualı ilə düzəldilən Üçtəpə kurqanı tayfa başçısına aid olmuşdur. Çox təəssüf ki, kurqan qarət edilmiş və qəbir avadanlığı oğurlanmışdır.

Qəbirdən götürülən ağacdan alınan tarix e.ə. 2550+120, kömür analizi isə e.ə. 2887+230- cu ili göstərmişdir. Tədqiqatçılar bu qəbri e.ə. III minilliyin ortalarına və sonuna aid etmişlər.



Şəkil 50. Borsunlu kurqanının (№ 7) keramika məmulatı

Tərtər rayonu ərazisində yerləşən Borsunlu nekropolundakı kurqanlarının bir qrupu H.F.Cəfərov tərəfindən tədqiq edilmişdir. Nekropol Borsunlu kəndi ətrafında, İncəçayın orta axarlarında yerləşmişdir. Ayrı-ayrı qruplar halında cəmləşən kurqanlar H.F.Cəfərov tərəfindən beş tipə bölünmüşdür. Kurqanların bəzisi kromlexlərlə əhatələnmişdir. Kurqanın altında yerləşən qəbir kameraları dördkünc formalı olub gəc məhlulu ilə bərkidilən daş lövhələrdən inşa olunmuşdur. Bəzi qəbir kameralarının giriş yolu vardır. Borsunlu kurqanları üçün inqumasiya, kremasiya, həmçinin kollektiv dəfnlər xarakterik olmuşdur.

Kür-Araz mədəniyyətinə aid abidələrin bir qrupu Quruçay və Köndələnçay vadisində aşkar edilmişdir. Bu qrupa Xantəpə, Qaraköpəktəpə, Kültəpə, Şomulutəpə, Uzuntəpə, Meynətəpə kimi onlarla abidə daxildir. Onlar içərisində Qaraköpəktəpə stratiqrafik quruluşuna görə olduqca əhəmiyyətlidir.

Qaraköpəktəpə Köndələnçayın sağ sahilində yerləşən konusvari təpədən ibarətdir. Abidənin üzərindən toplanan yerüstü materiallar Eneolit dövründən başlayaraq Orta əsrlərə qədər uzun bir dövrü əhatə edir. Yaşayış yerində 1967- ci ildən başlayaraq 300 $m^2$ sahədə tədqiqat aparılmışdır.

Qazıntılar zamanı İlk Tunc dövrünə aid 7 m qalınlığında mədəni təbəqənin olduğu müəyyənləşdirilmişdir.

İlk Tunc dövrünə aid təbəqənin alt qatlarında dairəvi formalı iki bina qalığı aşkar olunmuşdur. Onlardan birinin əsas hissəsi qazıntı sahəsindən kənarda qalmışdır. İkinci binanın diametri 6,85 m- dir. Binaların tikintisində qaba yonulmuş daş parçaları və çay daşlarından istifadə edilmişdir. Binalarda içərisi çay daşlarından qurulmuş ocaqlar da olmuşdur. Bina divarların salamat qalmış hissəsinin eni 40 sm, hündürlüyü 30- 40 sm- dir.

İkinci binanın içəri tərəfində dördkünc formalı artırma düzəldilmişdir. Binanın divarları da iri qaya parçalarından hörülərək, gil məhlulu ilə bərkidilmişdir. Divarların eni 65 sm, hündürlüyü 80 sm-dir. Binanın yaxınlığında iri daş parçaları döşənmiş sahə və bu sahə boyunca uzunluğu 2,8 m olan divar aşkar olunmuşdur. Daş döşənmiş sahədən bir qədər aralıda iri daş parçalarından və çay daşlarından iki sıra ilə işlənmiş, uzunluğu 4,8 m olan divar qalığı olmuşdur.

Bu təbəqədə ocaq qurğularının qalıqlarına, gil qab parçalarına, daş və sümük alətlərə rastlanmışdır. Gil qabların bir qismi yapma və spiralvari qazma ornamentlə naxışlanmışdır. Ornamentlərin bir qrupu dairəvi düyməciklər və batıqlardan ibarətdir. Belə naxışlar I Kültəpə, II Kültəpə, Göytəpə və digər abidələrdən bəllidir.

Qaraköpəktəpənin üst qatlarında, birinci qazıntı sahəsində böyük, çoxotaqlı evin qalıqları aşkar edilmişdir. Evin divarları iri həcmli əhəngdaşı parçalarından tikilmişdir. Bütün otaqlar dördkünc formalı olub, bir- birindən qalın divarla ayrılmışdır. Divarlar bəzi yerlərdə 1m hündürlüyündə qalmışdır. Otaqların döşəməsi bərk torpaq layından ibarətdir. Burada qızarmış torpaq qatını kül və kömür qalıqları örtmüşdür. Bu yaşayış kompleksinin yaxınlığında daşla döşənmiş sahənin olduğu müəyyən edilmişdir.

İkinci qazıntı sahəsində böyük çay daşlarından, həmçinin yonulmamış əhəngdaşı parçalarından tikilərək, gil məhlul ilə bərkidilmiş divar qalıqları ortaya çıxarılmışdır. Bu divarların dördkünc formalı yaşayış binasına aid olduğu müəyyənləşdirilmişdir. Binaların içərisindən təsərrüfat və məişət əşyalarının qalıqları, o cümlədən İlk Tunc dövrü üçün xarakterik olan əmək alətləri, keramika və sümük əşyalar da əldə edilmişdir.

Qaraköpəktəpədən tapılmış daş alətlər dən daşları, sürtgəc, bülöv daşları, qurama oraq dişləri, obsidian lövhələr və s. maddi-mədəniyyət qalıqlarından ibarətdir. Keramika, başlıca olaraq qara cilalı, müxtəlif formalı qabların parçaları ilə təmsil olunmuşdur. Gil məmulatı arasında ocaq qurğuları, təkər modeli, iy başlıqları və başqa əşyalar da olmuşdur. Gildən hazırlanmış əşyalar içərisində toppuz başı və metalişləmədə işlədilən butə qalıqları diqqəti cəlb edir. Tədqiqat zamanı sümükdən həzırlanmış əmək alətləri də aşkar edilmişdir.

Günəştəpə yaşayış yeri Füzuli şəhəri yaxınlığında, Köndələnçayın sağ sahilində yerləşir. Abidənin İlk Tunc dövrünə aid mədəni təbəqəsinin qalınlığı 2 m- dir. Bu təbəqədə qaya parçaları və çay daşlarından tikilmiş, gil məhlulu ilə bərkidilmiş dairəvi formalı yaşayış binasının qalıqları aşkar olunmuşdur. Binanın diametri 7 m- dir. Divarların ətrafında xeyli suvaq və çiy kərpic parçalarının qeydə alınması, divarların daş təməl üzərində çiy kərpicdən tikildiyini göstərir. Qazıntılar zamanı daş və sümükdən hazırlanmış əmək alətləri, Kür-Araz mədəniyyəti üçün xarakterik olan qara cilalı gil qab parçaları əldə edilmişdir.

Arxeoloji qazıntılar Günəştəpə yaşayış yerinin İlk Tunc dövrünün yalnız müəyyən mərhələsində mövcud olduğunu göstərir.

Meynətəpə yaşayış yeri Füzuli şəhərindən altı km şimal-şərqdə, Köndələnçayın sağ sahilində yerləşir. Yaşayış yeri müxtəlif formalı üç təpədən ibarətdir. Abidənin ətrafı əkinçilik üçün yararlı sahələrlə əhatə olunmuşdur. Tədqiqatlar zamanı bu sahələrdən qurama oraq dişləri aşkar edilmişdir.

Təpələrin hər üçündə əmək alətlərinə, gil qab parçalarına rast gəlinmişdir. Üçüncü təpə maddi-mədəniyyət qalıqları ilə daha da zəngindir. Köndələnçayın uçurumlu sahilində yaranan kəsikdə təpənin mədəni qatları aydın şəkildə izlənir. Burada mədəni təbəqənin qalınlığı 3-4 m arasındadır. Təbəqə yanmış torpaq qatlarından, gil qab parçalarından, çay daşlarından və digər maddi-mədəniyyət qalıqlarından ibarətdir. Arxeoloji materialların təhlili Meynətəpənin Kür-Araz mədəniyyətinin bütün dövrü ərzində mövcud olduğunu göstərir.

Uzuntəpə yaşayış yeri Meynətəpədən bir qədər aralıda yerləşir. Abidə uzunluğu 200, eni 60 m- ə yaxın uzunsov təpə şəklindədir. Hündürlüyü 1m olan yaşayış yeri hər tərəfdən əkin sahələri ilə əhatələnmişdir. 1968- ci ildə aparılan kəşfiyyat qazıntıları zamanı mədəni təbəqənin 1m qalınlığında olduğu müəyyən edilmişdir. Mədəni təbəqə kül qatları, tikinti qalıqları, gil qab parçaları və digər maddi-mədəniyyət qalıqlarını özündə cəmləşdirmişdir.




Şəkil 51. Mingəçevir yaşayış yeri və nekropolu

Əldə edilən maddi-mədəniyyət qalıqları daş alətlər, gil qab parçaları, heyvan fiqurları, ocaq qurğularından ibarətdir.

Şomulutəpə yaşayış yeri Uzuntəpədən 40-50 m şimal-qərbdə yerləşən hündür, konusvari təpənin üzərindədir. Onun hündürlüyü 6, diametri 80 m- dir. Kəşfiyyat xarakterli tədqiqatlar zamanı toplanan yerüstü materiallar dən daşları, gil qab parçaları və oraq dişlərindən ibarətdir.

Kültəpə yaşayış yeri Quruçay və Köndələnçay vadisinin çoxtəbəqəli abidələrindən biridir. Bu yaşayış yerinin alt təbəqəsindən Eneolit və İlk Tunc dövrünə aid maddi-mədəniyyət nümunələri aşkar edilmişdir.

Bu qrupa daxil olan Xantəpə yaşayış yerində, yalnız kəşfiyyat xarakterli qazıntı işləri aparılmışdır. Yaşayış yerində qara cilalı gil qab parçalarının və əmək alətlərinin qalıqları aşkar edilmişdir. Tapıntıların böyük qrupunu təşkil edən gil məmulatı boz rəngdə bişirilmişdir. Onların bir qismi çəhrayı astarlıdır. Gil qabların üzərində yapma və cızma naxışlara, dairəvi batıqlara rast gəlinmişdir.

Gəncə-Qazax zonasının arxeoloji abidələri yaşayış yerləri və qəbir abidələri ilə təmsil olunmuşdur.

Mingəçevir yaşayış yeri Yevlax şəhəri yaxınlığında, Kür çayının sağ sahilində, Bozdağ vadisinin mərkəzi hissəsində yerləşir. Yaşayış yeri əvvəlcə böyük bir sahəni əhatə etmişdir. Lakin, Kür çayının öz məcrasını dəyişməsi ilə əlaqədar yaranmış yarğanlar nəticəsində, onun sağ tərəfində yerləşən yaşayış yeri dağılmış və sahəsi xeyli kiçilmişdir. Nəticədə qədim yaşayış yerindən yalnız kiçik qalıqlar qalmışdır. Abidədə aparılan qazıntının ümumi sahəsi 1200 $m^2$ olmuşdur. Bütün qazıntı sahəsində təqribən eyni stratiqrafiya izlənmişdir. Burada alt qatda, bilavasitə materikin üzərində Kür-Araz təbəqəsinə, yuxarıda inkişaf etmiş Tunc dövrünə və Antik dövrə aid təbəqələrə də rast gəlinmişdir.

Qazıntı sahəsində Erkən Tunc dövrünə aid dörd yaşayış binasının qalığı aşkar edilərək, öyrənilmişdir. Onların içərisində 2 №- li yaşayış binası daha yaxşı qalmışdır. Bu bina yaşayış yerinin mərkəzində yerləşir. Bina küncləri dəyirmiləşdirilmiş dördkünc formalı, yarımqazma tipli yaşayış binasının qalıqlarından ibarətdir. Onun sahəsi 112 $m^2$ , divarlarının qalmış hissəsinin hündürlüyü 1-1,10m-dir. Divarların yuxarı hissəsi və damın örtüyü ağacdan qurulmuşdur. Binanın divarları və döşəməsi gillə suvanmışdır. Evin döşəməsi 4 yarus əmələ gətirən döyəclənmiş gil təbəqəsi, daş, balıqqulağı və keramika parçalarından ibarətdir. Divarlar boyunca bir-birindən 2 m aralıda evin damını saxlayan dirək çuxurları, mərkəzdə isə hər sırada üç ədəd olmaqla iki sıra ocaq qalıqları aşkar olunmuşdur. Dirək çuxurlarının və ocaqların planı bütün yaruslarda eyni olduğundan, qeyd etmək olar ki, 4 təbəqəli döşəmənin yaranması, yalnız döşəmənin yeniləşdirilməsi ilə bağlı olmuşdur. Ocaqların ətrafında mətbəx qalıqlarına rast gəlinmişdir. Yaşayış binası möhrədən tikilmiş arakəsmə divarla üç hissəyə bölünmüşdür. Cənub-qərb tərəfdə birinci yarusun döşəməsi altında

heyvan və balıq sümükləri ilə doldurulmuş çuxur aşkar olunmuşdur. Binanın içərisindən dən daşları, əzilmiş gil qablar və müxtəlif əşyalar aşkar edilmişdir. Yaşayış binasının cənub divarının xaricində daha 4 təsərrüfat quyusu ortaya çıxarılmışdır. Yaşayış yerinin digər binaları da dördkünc formalı və yarımqazma tipli olub, arakəsmələrlə bir neçə hissəyə ayrılmışdır. Döşəmələrinə çay daşları düzülərək döyəclənmişdir. Bu binalar üçün də bir neçə ocağın olması xarakterikdir.

Yerüstü materiallar və qazıntıdan aşkar edilmiş tapıntılar Kür-Araz dövrünü xarakterizə etmək üçün kifayət qədər material vermişdir. Bunlar dən daşları, həvənglər, dəstələr, toppuzlar, oraq dişləri, ox ucluqları və ağırlıq daşlarından ibarətdir. Sümükdən hazırlanmış dəlici və cilalayıcı alətlərə, iy başlıqlarına da rastlanmışdır.

Mingəçevir yaşayış yeri Cənubi Qafqazda yeganə abidədir ki, burada bir neçə ocaqlarla xarakterizə olunan, yarımqazma tipli binalar qeydə alınmışdır. Bu tip yaşayış yerlərinin meydana çıxması abidənin coğrafi şəraiti ilə də bağlı olmuşdur. Ətrafda zəngin meşə massivinin olması, divarları ağacdan olan yarımqazma tipli evlərin tikilməsi üçün şərait yaratmışdır.

Mingəçevir yaşayış yerinin yaxınlığında, Kür çayının sağ sahilində bu dövrə aid qədim qəbiristanlıq da aşkar edilmişdir. Burada Son Tunc dövrü qəbiristanlığının altında Kür-Araz mədəniyyətinə aid 4 qəbir öyrənilmişdir. Onlar torpaq qəbirlərdən ibarət olub, tək dəfnlərlə xarakterizə olunur. Skeletlər bükülü vəziyyətdə, müxtəlif istiqamətlərə yönəlmişdir. Qəbir avadanlığı hər qəbirdə skeletin baş tərəfinə qoyulmuş bir gil qabdan ibarətdir.

Babadərviş yaşayış yeri Mingəçevirdən qərbdə, Qazax şəhərinin cənub-qərbində, Ağstafaçayın sol sahilində yerləşir. Qədim yaşayış yeri Ağstafaçay vadisinin dağ silsiləsi ilə birləşdiyi yerdə mövcud olan təpələrdən birinin üstündə salınmışdır.

Yaşayış yerində 600 $m^2$ sahədə aparılan qazıntılar zamanı aşkar edilən mədəni qatlarının ən qədimi yarımqazma tipli evlərlə xarakterizə olunan Eneolit təbəqəsidir. Bundan üstdə yerləşən Kür-Araz təbəqəsinin qalınlığı 50-60 sm-dir. Bu təbəqə kül qatları, çiy kərpic parçaları, suvanmış çuxur qalıqları, çay daşları və s. maddi-mədəniyyət qalıqlarından ibarətdir. Təbəqədə təsərrüfat məqsədi üçün istifadə olunmuş 25 çuxura rast gəlinmişdir. Bəzi çuxurların divarları çiy kərpic parçaları ilə bərkidilərək suvanmışdır. Təsərrüfat çuxurlarının içərisindən gil qab parçaları, məişət əşyaları, heyvan sümükləri və yanmış taxıl qalıqları aşkar edilmişdir. Çuxurların əksəriyyəti aşağıya doğru genişlənən quyu formasındadır. Onların ən irisinin yuxarıdan diametri 1,15m, altdan diametri isə 2,5m- dir. Şübhəsiz ki, bu çuxurlar taxıl ehtiyatı saxlamaq üçün nəzərdə tutulmuşdur. Bu qədər böyük təsərrüfat quyusunun yaşayış binalarının olmadığı kiçik bir




Şəkil 52. Baba-Dərviş yaşayış yerinin İlk Tunc dövrü təbəqəsi

ərazidə qeydə alınması, abidənin bu hissəsindən taxıl ehtiyatlarının saxlanması üçün ümumi anbar kimi istifadə edildiyini göstərir.

Yaşayış yerində məişət tullantılarının doldurulduğu çuxurlara və ocaqlara da rast gəlinmişdir. Ocaqlar silindirik-dairəvi formalı olub, divarları odun təsirindən qızarmış və bişmişdir. Onların birinin içərisindən heyvan sümükləri, öküz fiquru, naxışlanmış gil qab tapılmışdır. Ehtimal ki, bu ocaqdan müəyyən ayinlərin icrası üçün istifadə olunmuşdur. Yaşayış yerinin kənarında, bir-birinin yaxınlığında üç oval çuxura rast gəlinmişdir. Həmin çuxurların təmizlənməsi zamanı müəyyən edilmişdir ki, onlar metaləritmə sobalarının aşağı hissəsindən ibarətdir. Bu qurğuların ətrafından şlak qalığı, görük ucluğu, metal çubuqlar tökmək üçün formalar tapılmışdır.

Qazıntının mərkəzi hissəsində qoşa spiralla naxışlanmış daş stela aşkar olunmuşdur. Ola bilsin ki, bu stela ritual ocaqla vahid bir kompleksə daxil olaraq ziyarətgah rolu oynamışdır.

Yaşayış yerində qeydə alınmış xeyli tikinti qalıqları, çiy kərpic qırıqları, suvaq parçaları, çay daşları və s. burada dairəvi formalı, yerüstü tikintilərin mövcud olduğunu göstərir. Tikinti qalıqları arasında rast gəlinən iki ocaq qurğusu xüsusilə diqqətəlayiqdir. Bu qurğuların içəridən çıxıntıları və yarımşar şəkilli qulpları vardır.

Yaşayış yerindən aşkar edilmiş keramika məmulatı müxtəlifdir. Onların bir qrupu arxaik formada olub, kobud hazırlanmışdır. Digər qrupa isə qara cilalı, naxışlı qablar daxildir. Ehtimal ki, abidədə Kür-Araz mədəniyyətinin bütün mərhələlərində yaşayış olmuşdur. Mədəni təbəqənin az yığılması, onun mövsümi yaşayış yeri kimi istifadə edilməsini göstərir. Yaşayış yerində, həmçinin insan və heyvan fiqurları, daş çəkiclər, baltalar, dən daşları, həvənglər, dəstələr, toxa parçaları, bıçaqşəkilli plastinkalar, ox ucluqları, toppuz başlıqları, asmalar, sümük bizlər, iynələr, balıq qarmağı, dəlici və cilalayıcı alətlər aşkar edilmişdir. Mədəni təbəqədə rast gəlinən xeyli istehsal tullantıları, xüsusilə daş çıxarları, alətlərin yerli istehsala aid olduğunu göstərir.

Bu qrupa aid olan arxeoloji abidələrin bir qrupu kəşfiyyat xarakterli tədqiqatlarla öyrənilmişdir. Onların sırasına Zəylik və Keçili yaşayış yerləri də daxildir.

Babadərviş qəbir abidəsi 1966-cı ildə V yaşayış sahəsində qeydə alınmışdır. İlk Tunc dövrünə aid qəbir təpənin səthindən 1,5m dərinlikdə yerləşmişdi. Qəbirdə skelet sol böyürü üstə, başı şimala, üzü şərqə, bükülmüş ayaqları cənuba doğru yönəlmişdi. Qəbirdən sümük iy başlığı, qara rəngli cilallanmış gil qablar, tunc halqa tapılmışdır. Gil qablar qab altlığı, küpə və xeyrədən ibarətdir. Qəbir tədqiqatçılar tərəfindən e.ə. III minilliyin birinci yarısına aid edilmişdir.

Şamxor SES tikilərkən aşkar olunan Osmanbozu kurqanları dəfn adətinə, kurqan örtüyünün və qəbir kamerasının quruluşuna görə Qarabağ kurqanları ilə

bənzərdir. Osmanbozu kompleksində Qarabağ kurqanlarında olduğu kimi kollektiv dəfn və ölüyandırma adəti eyni vaxtda olmuşdur.

Qobustanda aşkar olunan Kür-Araz mədəniyyəti abidələrini iki qrupa ayırmaq olar. Birinci qrup abidələr qayaaltı sığınacaqlarla təmsil edilib (Anazağa, Çardaqzağa, Firuz-1).

Anazağa yaşayış yeri Qobustan qoruğu binası yaxınlığında, Böyükdaş dağının üst hissəsində yerləşir. Qazıntılar zamanı burada üç mədəni təbəqə aşkar olunmuşdur. Alt təbəqələr daş dövrünə, ən üstdə olan 1m qalınlığındakı təbəqə isə Tunc dövrünə aiddir. Burada İlk Tunc dövrünə aid ayrıca təbəqəyə rast gəlinməmişdir. Kür-Araz mədəniyyətinə aid maddi- mədəniyyət qalıqları, yalnız müxtəlif mərhələləri əhatə edən, qarışıq təbəqələrdən əldə edilmişdir. Tapıntılar qara və şabalıdı rəngli cilalı qab parçalarından, daş alətlər, gil təkər modeli və başqa əşyalardan ibarətdir.

Çardaqzağa yaşayış yeri Anazağadan 200- 250 m cənubda, Böyükdaş dağında yerləşir. Qazıntılar zamanı müəyyən edilmişdir ki, burada mədəni təbəqənin qalınlığı 30-40 sm-dir. Təbəqə çox yerdə yuyulub qarışmışdır. Mədəni təbəqədə, başlıca olaraq İlk Tunc dövrünə aid keramika, obsidian və çaxmaq daşından hazırlanmış əmək alətləri aşkar olunmuşdur. Sığınacağın divarlarında aşkar olunan qayaüstü təsvirlərin də bu dövrə aid olduğunu demək olar.

Firuz-1 sığınacağı Kiçikdaş dağının şərq ətəyində yerləşir. Sığınacaqda Daş və Tunc dövrlərinə aid mədəni təbəqəyə rast gəlinmişdir. Tunc dövrünə aid edilən mədəni təbəqə iki qata ayrılmışdır. Üst qatdan Tunc dövrünün son mərhələsinə, alt qatdan isə İlk Tunc dövrünə aid maddi-mədəniyyət qalıqları aşkar edilmişdir. Gilinin tərkibinə və hazırlanma texnologiyasına görə fərqlənən gil qab parçalarının üzəri cilalanmışdır. Onların bəzisinin yarımşar formalı qulpu olmuşdur.

İkinci qrupa ətrafı möhkəmləndirilmiş Dairə və təbii cəhətdən müdafiə olunan mövqedə salınmış Böyükdaş yaşayış yerləri daxildir.

Dairə yaşayış yeri Böyükdaş dağının aşağı şimalında yerləşir. Ətrafı iri həcmli yonulmamış daşlardan hörülmüş divarla əhatə edilmişdir. Sahəsi 200 $m^2$ olan yaşayış yerinin 1/3 hissəsi qazıntılarla öyrənilmişdir. Divar boyunca aparılan qazıntılar abidənin tam planını ortaya çıxarmağa imkan vermişdir. Yaşayış yerini əhatə edən müdafiə divarı içəridə dikinə, o biri tərəfdən isə yastısına qoyulmuş daşlarla tikilmişdir. Müəyyənləşdirilmişdir ki, mədəni təbəqə yalnız divar boyu yığılmışdır. Təbəqənin qalınlığı 30- 40 sm- dir.

Yaşayış yerinin şərq hissəsində yaşayış binalarına aid tikinti qalıqları aşkar olunmuşdur. Lakin onlar yaxşı qalmadığından, ümumi planlarını müəyyən etmək mümkün olmamışdır. Tədqiqat zamanı gil qab parçaları, əmək alətləri, ocaq yerləri aşkar edilmişdir.

Abidənin cənub hissəsinin tədqiqi zamanı tikinti qalıqları, ocaq qurğusu, gil qab parçaları və daş alətlər aşkar olunmuşdur. Şimal-şərq tərəfdə, divar boyu daş döşənmiş sahə, divar qalıqları və dairəvi formalı ocaq aşkar olunmuşdur.

Ocağın ətrafından gil qab və iri manqal parçaları da tapılmışdır. Maddi-mədəniyyət qalıqlarına əsasən demək olar ki, abidədə yaşayış başlıca olaraq müdafiə divarı boyunca olmuşdur. Onun mərkəzi hissəsindən, ehtimal ki, ictimai məqsədlər üçün istifadə edilmişdir.



Şəkil 53. Qobustan. Dairə yaşayış yeri

Böyükdaş yaşayış yeri eyni adlı dağın üst hissəsində aşkar edilmişdir. Yaşayış yerinin çox hissəsi Duvannı daş karxanası tərəfindən dağıdılmışdır. Qobustan arxeoloji ekspedisiyası bu yaşayış yerində 318 $m^2$ sahədə qazıntı işləri aparmışdır. Burada bir sıra daşdan hörülmüş dördkünc planlı, çoxotaqlı binanın qalıqları aşkar edilmişdir. Dağılmış tikinti qalıqları arasında, üzərində çubuq izləri olan gil suvaq parçalarına rast gəlinmişdir.

Qazıntılar zamanı 3 №- li otaqdan oval formalı ocaq, onun yaxınlığında isə suvaq qalıqları aşkara çıxarılmışdır. Onun ətrafı, uzun müddət yanan ocağın təsirindən qızarmışdı. Ocaqdan şimalda, içərisinə dağdağan toxumu yığılmış dairəvi qurğulara rast gəlinmişdir.

1 və 2 №- li otaqların mərkəzi hissəsində, içərisi küllə dolmuş, dairəvi formalı ocaqlar aşkar olunmuşdur. Buradan müxtəlif gil qab parçaları, manqal qalıqları, dən daşları, sürtgəclər, toxa və oraq dişləri də əldə edilmişdir. Çay daşlarından hazırlanmış əmək alətləri çoxluq təşkil edir.

Şübhəsiz ki, bu bina cüt nigah əsasında qurulmuş patriarxal ailəyə mənsub olmuşdur. F.M.Muradova arxeoloji materiallara əsasən, bu yaşayış yerini e.ə. III minilliyin sonu və II minilliyin başlanğıcına aid etmişdir.

Qobustanda İlk Tunc dövrünün sonuna aid edilən qəbir abidələri kurqan tiplidir. Kurqanlar daş və torpaq örtüklüdür. Onların hündürlüyü 0,5-1,1, diametri 4,5-11m- dir. Daş örtüyün altında, bir cərgə daşlardan düzülmüş kromlexlər aşkar olunmuşdur. Bəzi kurqanların örtüyü dağıdıldığından, kromlexə aid daş düzümləri aydın seçilir.

Kurqanlar xarici görünüşcə bənzər olsalar da, qəbir tiplərinə görə xəndəksiz, xəndəkli və daş qutu olmaqla, üç yerə bölünür. Xəndəksiz kurqanlar başlıca olaraq Orta və Son Tunc dövrlərinə aiddir.

Tədqiqatçı F.M.Muradova tərəfindən İlk Tunc dövrünə aid edilən 5 №- li xəndəkli kurqan kromlexlə əhatə edilmişdir. Kromlexin mərkəzində yerləşən dördkünc formalı qəbir kamerasının yanları kiçik həcmli əhəng daşları ilə əhatə olunmuş, üstü iri sal daşlarla örtülmüşdür. Qəbir qarət edildiyindən, skeletə rast gəlinməmişdir. Aşkar edilən keramika məmulatı e.ə. III minilliyin sonu üçün xarakterik olmuşdur.

İlk Tunc dövrünə aid edilən 3 №- li kurqanın hündürlüyü 1,1 m, diametri 11 m- dir. Kurqanın mərkəzində əhəng daşlarından qurulmuş daş qutu tipli qəbir aşkar olunmuşdur. Bu abidənin qərb divarı və örtük daşı saxlanmamışdır. Ola bilsin ki, qəbir kurqanın qarət edilməsi zamanı dağıdılmışdır. Onun qərb tərəfində, örtük daşları arasında hər iki tərəfdən yonularaq, insan şəklinə salınmış əhəng daşına rast gəlinmişdir. Daş heykəlin hündürlüyü 1,4 metrdir. Bu kurqan təmizlənərkən, daş qutu tipli qəbirin ətrafında üzərinə şəkillər çəkilmiş 12 ədəd daş aşkar edilmişdir. Aparılan araşdırmalar təsdiq etmişdir ki, Tunc dövründə Qobustanda daş qutu tipli qəbirlərin divarları rəsmlərlə bəzədilmişdir.

Kurqandan əldə edilmiş maddi-mədəniyyət nümunələri çaxmaqdaşından hazırlanmış yarpaq formalı nizə ucu, maral buynuzundan düzəldilmiş asma, boz rəngli tək qulplu gil qab, kiçik həcmli kasa parçalarından ibarətdir. Kurqan e.ə. III minilliyin sonuna aid edilmişdir.

Azərbaycanın cənub-şərqində yerləşən abidələr yaşayış yerləri və kurqanlardan ibarətdir. Bu qrupa aid I Mişarçay və II Mişarçayda İlk Tunc dövrünə aid maddi-mədəniyyət qalıqları aşkar olunmuşdur. Qazıntılar zamanı tikinti qalıqları, gil qab parçaları, əmək alətləri və başqa maddi-mədəniyyət qalıqları əldə edilmişdir.

Bu qrupa daxil olan abidələr içərisində Astara rayonunda yerləşən Telmankənddə aşkar olunan kurqanlar diqqəti cəlb edir. Bu kurqanların ikisi F.R.Mahmudov tərəfindən öyrənilmişdir. Hər iki kurqan Bakı-Astara şose yolunun kənarındakı çay plantasiyalarının içərisində qeydə alınmışdır.

F.R.Mahmudov tərəfindən tədqiq edilən 1 №- li kurqanın hündürlüyü 2,3, diametri isə 14 m- dir. Kurqan örtüyü müxtəlif ölçülü daşlardan ibarətdir. Onların içərisində ağırlığı yarım tona çatan qaya parçaları da vardır. Daş kurqanın üstü nazik torpaq təbəqəsi ilə örtülmüşdür. Kurqan örtüyünün altında dördkünc formalı daş qutu tipli qəbir aşkar edilmişdir. Qəbirin uzunluğu 1m, eni 0,7 m, hündürlüyü 0,5 m-dir. Skelet olduqca pis qalmış, çürümüşdür. Onun sağ böyrü

üstə, bükülü vəziyyətdə, şimal-cənub istiqamətində, üzü qərbə tərəf olduğu müəyyən edilmişdir. Qəbir kamerası bir sıra daş düzülmüş kromlexlə əhatə olunmuşdur. Kromlexin diametri 6,9 m- dir. Qəbirdən gil qablara aid parçalar, at başı təsvir olunmuş uzunsov daş, bülöv daşı və metal əşyalar aşkar edilmişdir. Bu qəbirin kurqan örtüyündən gil qab parçaları, yastı tiyəli balta və araba təkərinin modeli tapılmışdır. Materiallar içərisində saplaqlı tunc nizə ucluqları xüsusi maraq doğurur. Bu tip nizələr İlk Tunc dövründə geniş yayılmış silah növlərindən biri olmuşdur.

İkinci kurqan (№ 2) birincidən 1 km cənubda, Dırankəş adlı yerdə qeydə alınıb, öyrənilmişdir. Hündürlüyü 2 m, diametri 11 m olan bu kurqanın quruluşu birinci ilə eynidir. Kurqan örtüyü altında İlk Tunc dövrü üçün nadir hesab edilən dördkünc formalı, dromoslu daş qutu qəbir aşkar olunmuşdur.

Qəbirin ölçüləri 3,5 x 2,4 x 1,2 m-dir. Qəbir kamerası bir cərgə düzülmüş qaya parçalarından qurulmuşdur. Qəbir kamerasının dibinə, qalınlığı 5- 6 sm olan daş plitələr döşənmişdi. İstər qəbir kamerası, istərsə də onun girişi daşla doldurulmuşdu. Örtük daşlarına rast gəlinməmişdir. Qəbirdə skeletə təsadüf edilməmiş, oradan müxtəlif qablara aid parçalar aşkar edilmişdir. Tədqiqatçının fikrinə görə, bu qəbir qarət edilmişdir.

Bu kurqanların tarixinin müəyyən edilməsində 1 №- li kurqanın materiallarına istinad edilmişdir. Tədqiqatçı F.R.Mahmudov kurqanları e.ə. III minilliyin ortalarına aid etmişdir.

Azərbaycanın şimal-şərqində yerləşən abidələr yaşayış yerləri ilə təmsil edilmiş və başlıca olaraq, kəşfiyyat xarakterli tədqiqatlarla öyrənilmişdir. Bu abidələr içərisində Qusar rayonunda yerləşən I Böyüktəpə, II Böyüktəpə, III Gövduşantəpə, Qəflətəpələri, Kuçumxantəpə, Xaçmaz rayonunda Təpəyatağı, Sərkərtəpə, I Çinarqala, Dəvəçi rayonunda I Çaqqallıq yaşayış yerləri, Şəkidə 1 №- li Daşüz və Küdürlü kurqanları xüsusi əhəmiyyətə malikdir.

1982-1986-cı illərdə Xaçmaz rayonunda yerləşən Sərkərtəpədə aparılan qazıntılar zamanı bu dövrə aid yaşayış binalarının arxitekturasını müəyyən dərəcədə bərpa etmək mümkün olmuşdur. Burada saman qarışığı olan çiy kərpicdən tikilmiş dairəvi planlı yaşayış binasının qalıqları aşkar olunmuşdur. Bütün evlərin içərisindən gildən düzəldilmiş dairəvi formalı, yuxarıya doğru bir qədər genişlənən ocaqlar qeydə alınmışdır. Evlərin döşəməsinə çiy kərpic düzülmüş, gillə suvanmışdır. Erkən Tunc dövrünə aid mədəni təbəqənin qalınlığı 4 m olmuşdur. Yaşayış yerində aparılan araşdırmalar zamanı Erkən Tunc dövrünə aid ziyarətgah aşkar olunmuşdur. Sərkərtəpədən aşkar olunan ziyarətgah İlk Tunc dövründə yaşayan insanların ideoloji görüşlərinin öyrənilməsi üçün xüsusilə əhəmiyyətlidir. Ziyarətgah daxili quruluşuna görə II Kültəpədən aşkar olunan ziyarətgahlara bənzəyir. Lakin Sərkərtəpə ziyarətgahı daha yaxşı saxlanması ilə fərqlə



Şəkil 54. Sərkərtəpənin keramika məmulatı

nir.Onun mərkəzi hissəsində dairəvi formalı ocaq, şimal divarı yaxınlığında qurbangah, ocağın yaxınlığında dairəvi formalı altı buynuzşəkilli çıxıntısı olan manqal, qurbangahın yaxınlığından isə buynuzşəkilli çıxıntıları olan sitayiş qurğuları aşkar olunmuşdur. Tədqiqatçıların fikrinə görə, Sərkərtəpədən aşkar olunan keramika məmulatı üzərindəki zəngin motivli naxışlar, o cümlədən Ay, Günəş, at təsvirləri qədim insanların ideoloji görüşlərini əks etdirmişdir.

Sərkərtəpə ziyarətgahının divarında Günəşi simvolizə edən, dairəvi formalı batıqla ifadə olunan təsvirin olması da diqqətəlayiqdir. Məlum olduğu kimi, bu tipli batıqlara I Kültəpə və II Kültəpə yaşayış yerlərindən aşkar olunan manqalların ağzının kənarında da rastlanmışdır.

Aşkar olunan tapıntılar ziyarətgahlarda məhsuldarlıqla bağlı mərasimlərdə məhsuldarlığın mənbəyi hesab olunan öküz kultu ilə bərabər, səma cisimlərinə sitayişin də mühüm yer tutduğunu göstərir. Məhsuldarlığın təmin edilməsi müxtəlif heyvanların Tanrılara qurban verilməsi, yaxud onların fiqurlarının Tanrı hüzuruna gətirilməsi ilə təmin olunmuşdur.

Təpəyatağı yaşayış yerində aşkar olunan suvaq qalıqları və onların üzərində qalmış çubuq izləri, burada toxuma divarlı, hər iki üzdən saman qarışığı

olan gillə suvanmış evlərin olduğunu sübut edir. Abidədə, həmçinin ağac və təsərrüfat çuxurlarının qalıqlarına da rast gəlinmişdir.

Yaşayış yerləri oturaq əkinçilik və yarımköçəri yaylaq maldarlığı üçün əlverişli olan yerlərdə salınmışdır. Ərazinin əlverişli coğrafi şəraiti e.ə. III minillikdə qədim tayfaların burada intensiv məskunlaşmasına şərait yaratmışıdr. Bu abidələr başlıca olaraq, Kür-Araz mədəniyyətinin inkişaf etmiş mərhələsinə aid olmaqla, bir sıra özünəməxsus xüsusiyyətləri ilə seçilir. Bu yaşayış yerləri, İlk Tunc dövrü mədəniyyətinin Şimali Qafqaz və Dağıstana doğru irəliləməsi və adı çəkilən ərazilərlə Azərbaycanın Kür-Araz mədəniyyətinin müqayisəli şəkildə öyrənilməsi baxımından əhəmiyyətlidir.

Aşkar olunmuş materialların əksəriyyəti keramikadan ibarətdir. Onlar boz, qonur, qara və çəhrayı rəngdə bişirilmişdir. Gil qablar xaricdən, bəzən isə hər iki tərəfdən yaxşıca cilalanmışdır. Qabların ornamenti cızma və qabartma naxışlardan ibarətdir. Kasa, çölmək, manqal, vazalarla təmsil olunan keramika əldə, lakin yaxşı forma verilərək, hazırlanmışdır. Qabların yarımşar və ilgəkşəkilli qulpları vardır.

Daş alətlər dən daşları və oraq dişləri ilə təmsil olunmuşdur. Sümükdən hazırlanmış cilalayıcı alətlər də əldə edilmişdir. Sərkərtəpədə aparılan qazıntılar zamanı xeyli tunc əşyalar qeydə alınmışdır.

Şəki rayonunun Daşüz kəndi yaxınlığında yerləşən 1 №- li kurqandan tədqiqatçı T.İ.Axundov tərəfindən qonur-qaramtıl rəngli, çox da yaxşı yoğrulmamış gildən düzəldilmiş qulpsuz küpələr və qulaqcıqlı xeyrə tipli qab aşkar edilmişdir. Kurqanın sadə torpaq qəbrində uşağa aid skelet qalıqları aşkar olunmuşdur. Kurqan e.ə. III minilliyin sonlarına aid edilir.

Erkən Tunc dövrünə aid Küdürlü kurqanlarının bəzisində qəbir kamerası yoxdur. Mərhum bükülü vəziyyətdə dəfn olunmuş və onun başı qərbə tərəf yönəldilmişdir. Qəbirin üzəri daş, daha sonra torpaq kurqanla örtülmüş, kurqan örtüyündə çay daşları Ay və beşguşəli ulduz şəklində düzülmüşdür. Kurqanların cənub-qərbində qurbangah olmuşdur. Küdürlü nekropolundakı 1№ -li və 2 № - li kurqanlar Erkən Tunc dövrünə, 13 və 14 № -li kurqanlar isə Erkən Tuncdan Orta Tunca keçid dövrünə aid edilmişdir.

Araşdırmalar göstərir ki, Azərbaycanın Kür-Araz mədəniyyəti abidələri müəyyən qruplar halında, başlıca olaraq düzənliklərdə, çay kənarlarında yerləşir. Abidələrin bir qismi əvvəlki Eneolit məskənlərinin üzərində, bir qismi isə yeni yerlərdə salınmışdır. Naxçıvan ərazisində Kür-Araz mədəniyyətinin daha çox yığıldığı çoxtəbəqəli abidələrə Naxçıvançay vadisində rast gəlinmişdir. Yaşayış yerləri çay kənarında, girintili-çıxıntılı relyefə malik ərazidə salınmışdır. Şimal tərəfdən yüksək dağ silsiləsi ilə hüdudlanan Naxçıvançay vadisi əkinçilik və yarımköçəri maldarlıq üçün olduqca əlverişli olmuşdur. Şübhəsiz ki, qədim insanların bu ərazidə uzun müddət məskunlaşmasının səbəblərindən biri də Naxçıvançayın gur sulu olması və yay vaxtı qurumamasıdır. Ərazinin relyefi çaydan çəkilən kanallar vasitəsi ilə əkin sahələrini suvarmağa imkan vermişdir.



Şəkil 55. Küdürlü kurqanlarının planı və kəsikləri ( № 1 və 2)

Şərur rayonunda, Arpaçay vadisində yerləşən yaşayış yerlərində mədəni təbəqə olduqca az yığılmışdır. Bu, bir tərəfdən İlk Tunc dövründə yaylaq maldarlığının inkişafı, digər tərəfdən isə Arpaçay vadisində yay vaxtı yaranan su qıtlığı ilə bağlı olmalıdır. Xüsusilə, yayın isti keçdiyi və yağıntının az olduğu zamanlar Arpaçay tamamilə quruyur və onun aşağı axarlarına su çatmır.

Bu abidələrin yerləşdiyi ərazi əkinçilik üçün olduqca əlverişlidir. Onlar Arpaçayın vadisi ilə eyni səviyyədə, düzən hissədə yerləşmişdir. Şərur abidələri içərisində, su tutarlarından bir qədər uzaqda, düzənlik sahədə yerləşən Maxta Kültəpəsi, diqqəti cəlb edir. Ehtimal ki, yaşayış yerinin sakinləri vaxtilə Arpaçaydan çəkilən su kanalından istifadə etmişdir. E.ə. I minillikdə Arpaçaydan Şərura çəkilmiş su kanalının qalıqları indi də qalmaqdadır.

Cənubi Azərbaycanda, Urmiya hövzəsində yerləşən abidələr topoqrafik xüsusiyyətlərinə görə Naxçıvan abidələrinə bənzərdir. Onlar yüksək dağ kəsimləri ilə əhatə olunan düzənlik hissədə, əlverişli vadilərdə salınmışdır.

Qazıntılar zamanı müəyyən edilmişdir ki, Yanıqtəpə yaşayış yerinin salındığı ərazi ilkin vəziyyətdə üç təpədən ibarət olmuş, mədəni təbəqənin yığılması nəticəsində onlar birləşmişdir.

Gəncə-Qazax zonasında yerləşən, Mingəçevir qrupuna daxil olan abidələr dağ silsiləsinin ovalıqla birləşdiyi ərazidə, gur sulu çayların sahilində salınmışdır. Onları əhatə edən düzənlik və dağlıq relyef, Kür-Araz mədəniyyəti tayfalarının əsas məşğuliyyətini təşkil edən əkinçilik və maldarlığın inkişafı üçün əlverişli olmuşdur.

Quruçay və Köndələnçay vadisinin abidələri topoqrafik xüsusiyyətlərinə görə, digər abidələrlə bənzərdir. Onlar da çay vadilərinin əkinçilik və maldarlıq üçün əlverişli hissəsində salınmışdır. Bu abidələrin tədqiqi göstərir ki, yaşayış yerləri əvvəlcə düzən sahədə salınmış, mədəni təbəqənin yığılması nəticəsində sonradan təpə halına düşmüşdür. Burada yaşayış yerlərinin qrup halında və bir-birinin yaxınlığında yerləşməsi, onlarda eyni qəbilədən olan icma üzvlərinin məskunlaşdığını göstərir. Bu qrupa daxil olan abidələr arasında Qaraköpəktəpə istisna olmaqla, digərlərində mədəni təbəqə az yığılmışdır. Şübhəsiz ki, bu, yarımköçəri maldarlığın inkişafı və ərazinin təbii şəraiti ilə bağlı olmuşdur. Çünki, ilin müəyyən fəsillərində gursulu olan bu çayların suyunun azalması və quruması əhalinin həyatına müəyyən təsir etmişdir. Lakin, Araz boyunca yerləşən bol otlaq sahələri, buradan müəyyən zaman ərzində yaşayış yeri kimi istifadə olunmasına şərait yaratmışdır.

Şimal-Şərqi Azərbaycanın İlk Tunc dövrü yaşayış yerləri strateji və təsərrüfat üçün əlverişli mövqelərdə yerləşmişdir. Yaşayış yerlərinin yüksək dağlıq və ovalıqların birləşdiyi ərazilərdə olması, əkinçiliyin və maldarlığın inkişafına şərait yaratmışdır. Ərazinin coğrafi mövqeyi də e.ə. III minillikdə əhalinin intensiv məskunlaşmasına şərait yaratmışdır. Yaşayış yerlərində mədəni təbəqənin 2- 4 m qalınlığında yığılması, burada oturaq həyat tərzinin uzun müddət davam etdiyini göstərir.

Kür-Araz mədəniyyətinin ilk mərhələsinə aid yaşayış binaları başlıca olaraq dairəvi planlıdır. I Kültəpənin Kür-Araz təbəqəsində bu dövrə aid 40 bina qalığı aşkar edilmişdir. Evlər bir-birinin yaxınlığında, aralarında müəyyən keçid saxlanmaqla tikilmişdir. Ehtimal ki, yaşayış binaları ensiz və dar küçələrlə bir-biri ilə əlaqələnmişdir. Erkən mərhələyə aid dairəvi planlı evlər çay daşlarından hörülmüş təməl üzərində möhrədən, yaxud çiy kərpicdən tikilmişdir. I Kültəpədə möhrə və çiy kərpicdən hörülmüş divarlara eyni qatda təsadüf edilmişdir. Burada divarların tikintisində istifadə olunan çiy kərpiclərin ölçüsü 44 x 20 x 12 sm, 48 x 18 x 12 sm- dir. II Kültəpənin birinci mərhələyə aid alt qatlarında divarların təməldən yuxarı hissəsi başlıca olaraq möhrədən tikilmişdir.

I Kültəpədən aşkar edilmiş kərpic divarların tikinti texnikası diqqətəlayiqdir. Belə ki, kərpiclər bir sırada divar boyunca qoşa qoyulmuş, o biri sırada isə köndələninə yerləşdirilmişdir. Bu zaman köndələn qoyulan kərpiclərin

küncləri divardan 2- 3 sm irəli çıxmışdır. Tikinti zamanı divarda yaranan çıxıntılar suvaqla doldurulmuşdur.

I Kültəpə və II Kültəpədə dairəvi formalı evlərin mərkəzində yastı dirək daşlarına rast gəlinməsi sübut edir ki, evlərin örtüyü mərkəzi dirəyə dayanmışdır.



Şəkil 56. II Kültəpədə İlk Tunc dövrünə aid kərpic hörgü

I Kültəpə və II Kültəpədə aşkar olunan dairəvi binalar arakəsmə divarla iki hissəyə ayrılmış, onların birindən yaşayış sahəsi, digərindən isə təsərrüfat məqsədilə istifadə edilmişdir. I Kültəpədə evlərin qızdırılması üçün dördkünc formalı, ikiqatlı sobalardan istifadə edilmişdir. Onların tavanı günbəzşəkilli örtük formasında olmuşdur. II Kültəpədəki düzbucaqlı ocaqlardan da bu məqsədlə istifadə edilmişdir. Evlərin qızdırılması üçün müəyyən vaxtlar dairəvi manqallardan da yararlanmışlar. I Kültəpə və II Kültəpədə manqallar evin döşəməsinə basdırılmış halda aşkar edilmişdir. II Kültəpədə dördkünc formalı ocaqların yaxınlığında döşəmədən hündürdə yerləşən düzbucaqlı səkilərə, onların üstündə isə iribuynuzlu heyvanın başına bənzər ocaq qurğularına rast gəlinmişdir. II Kültəpənin XI tikinti qatında qeydə alınan dairəvi bina, fikrimizcə, ziyarətgah olmuşdur.

Binaların döşəmələri yaxşı döyəclənib möhkəmləndirildikdən sonra gillə suvanmışdır. Evlərin döşəməsində dairvəi planlı təsərrüfat quyuları aşkar olunmuşdur. Təsərrüfat quyularında müxtəlif ərzaq ehtiyatları, o cümlədən küpələrə yığılmış taxıl və dərzlər saxlanmışdır. I Kültəpənin birinci tikinti qatından dərz saxlanan təsərrüfat quyusu aşkar edilmişdir. Təsərrüfat quyularından əldə edilən sümük və çürüntü qalıqları digər ərzaq ehtiyatlarının saxlanmasına sübutdur.

II Kültəpənin alt qatlarının tikinti qalıqlarından görünür ki, bəzi binaların qövsşəkilli divarlarla əhatə olunmuş yarımçıq həyətləri olmuş və bu həyətlərdən təsərrüfat məqsədilə istifadə edilmişdir.

Mingəçevir binaları öz arxitekturasına görə nəinki Azərbaycanın, hətta bütün Cənubi Qafqazın həmdövr tikintilərindən fərqlənir. Onlar yarımqazma tipli, dördkünc formalı binalardan ibarətdir. Sahəsi 28-112 $m^2$ olan yarımqazmalar arakəsmə divarlarla bir neçə hissəyə bölünmüşdür. Onların döşəməsinə çaydaşı döşənərək, döyəclənib möhkəmləndirilmişdir. Divar boyunca evin damını saxlayan dirək oyuğuna, evlərin mərkəzində isə iki sıra ocaq yerlərinə rast gəlinir. Divarların yuxarı hissəsinin tikintisində ağacdan, damların örtüyü üçün isə toxuma karkasdan istifadə edilmişdir.

İstər dairəvi, istərsə də yarımqazma tipli evlər Azərbaycanda Eneolit dövrü abidələrindən bəllidir. Bu, Azərbaycanın Eneolit abidələri ilə İlk Tunc dövrü abidələrinin arxitekturasında genetik bağlılığın olduğunu göstərir.

Kür-Araz mədəniyyətinin ilk mərhələsini əks etdirən Göytəpənin $K_1$ təbəqəsində eni 1,65 m olan müdafiə divarının qalıqlarının aşkar edilməsi diqqətəlayiqdir. Çiy kərpicdən tikilmiş bu divar, ola bilsin ki, vaxtı ilə bütün yaşayış yerini əhatə etmişdir.

Azərbaycanın İlk Tunc dövrü abidələrinin böyük bir qismi Kür-Araz mədəniyyətinin ikinci mərhələsini öyrənmək üçün əhəmiyyətlidir. I Kültəpə, II Kültəpə, Babadərviş, Qaraköpəktəpə və digər yaşayış yerlərində aşkar olunan yaşayış binaları dairəvi planlıdır. Bəzi evlərdə dördkünc formalı artırmalar vardır. Yaşayış binalarının qalıqları I Kültəpə və II Kültəpə yaşayış yerlərində daha aydın plana malikdir. Binalar çay daşlarından hörülmüş təməl üzərində, çiy kərpiclərdən tikilmişdir. I Kültəpənin alt laylarında izlənən tikinti texnikasından bu mərhələdə də istifadə edilmişdir. Birinci mərhələdə olduğu kimi, bu mərhələdə də dairəvi evlər arakəsmə divarla iki hissəyə bölünərək, bir tərəfindən təsərrüfat məqsədilə istifadə edilmişdir. Bəzi binalarda bu məqsədlə istifadə olunmuş düzbucaqlı artırmalar da olmuşdur. Binaların tikintisində istifadə olunan kərpiclərin ölçüləri 40 x 20 x 10 sm- dir.

Binalar birinci mərhələdə olduğu kimi, ikiqatlı və dördkünc formalı sobalarla, həmçinin düzbucaqlı ocaq qurğuları və dairəvi manqallarla qızdırılmışdır. Ola bilsin ki, II Kültəpədəki düzbucaqlı ocaqlar bir qatlı dördkünc sobaların qalıqları olmuşdur. II Kültəpədə dördkünc formalı ocaqların yaxınlığında mərkəzi hissəsi antropomorfik heykəl təsvirləri ilə tamamlanan nalşəkilli ocaq qurğuları aşkar olunmuşdur. Demək olar ki, bütün evlərdə aşkar edilən nalşəkilli ocaq qurğularının yerləşdirilməsi üçün, bəzən dördkünc formalı səkilər düzəldilmişdir. Bəzi hallarda isə nalşəkilli ocaq qurğularına dairəvi manqalların yaxınlığında da rastlanır.

Evlərin gillə suvanmış döşəmələrində bəzən həsir qalıqları aşkar olunmuşdur. Ərzaq ehtiyatı təsərrüfat küplərində, yaxud bu məqsədlə qazılmış quyularda saxlanmışdır. I Kültəpə, Göytəpə və Yanıqtəpədə təsərrüfat küpləri

yerə basdırılmış vəziyyətdə aşkar edilmişdir. Təsərrüfat quyuları adətən evlərin içərisində, bəzən isə həyətdə, binanın yaxınlığında qazılmışdır. Bu dövrdə, bütün kollektiv üçün nəzərdə tutulan ümumi ərzaq anbarları da olmuşdur.

Babadərviş yaşayış yerində kiçik bir sahədə 25 təsərrüfat quyusunun aşkar edilməsi, bununla bağlıdır. Ətrafda tikinti qalıqlarına rast gəlinmədiyindən, ehtimal etmək olar ki, anbarın üzəri yüngül örtüyə malik olmuşdur.

Kür-Araz mədəniyyətinin ikinci mərhələsinin arxitekturası Urmiya hövzəsinin abidələrində kifayət qədər öyrənilməmişdir. Quruçay və Köndələnçay vadisində bu mərhələyə aid tikinti qalıqları Qaraköpəktəpədən aşkar olunmuşdur. Burada dairəvi formalı binaların yalnız təməli qalmışdır. Binaların divarları qaba yonulmuş qaya parçalarından və çay daşlarından tikilmişdir. Ola bilsin ki, divarların yuxarı hissəsi çiy kərpiclərdən hörülmüşdür. Təbəqədə xeyli miqdarda çiy kərpic qalıqlarının aşkar olunması bununla bağlıdır. Qaraköpəktəpə yaşayış yerinin maraq doğuran cəhətlərindən biri, bu binaların yaxınlığında daş döşənmiş sahənin qeydə alınmasıdır. Bu daş döşəmələrin, evləri birləşdirən ensiz küçə qalıqları olduğunu söyləmək olar.

Kür-Araz mədəniyyətinin üçüncü mərhələsinə aid yaşayış binaları dairəvi və dördkünc planlıdır. Dairəvi planlı binalar Yanıqtəpədə aşkar olunmuşdur. Binalar daş təməl üzərində çiy kərpicdən tikilmişdir. Yanıqtəpə yaşayış yerində bir neçə tikinti dövrü ərzində mövcud olan 1 №- li binanın arxitekturası maraqlıdır. Bina iki sıra konsentrik divarla əhatələnmişdir. Onun divarları daş təməl olmadan, fiqurlu hörgü ilə tikilmişdir. Müxtəlif ərzaq ehtiyatlarının saxlanması üçün anbar rolunu oynayan bina, uzun müddət öz funksiyasını itirməmişdir.

Yanıqtəpənin aşağıdan dördüncü tikinti qatının bütün sahəsi bir-birinə sıx yerləşdirilmiş dairəvi planlı evlərlə örtülü olmuşdur. Binaların bəzisinin dördkünc artırmaları, bəzilərinin isə divarla məhdudlaşdırılmış kiçik həyətləri olmuşdur. Binaların hamısının içərisi demək olar ki, eyni quruluşa malikdir. Burada paltar və qabların qoyulması üçün taxçalara, ərzaq ehtiyatı üçün gil qablara və üzərində maye axıtmaq üçün novu olan uzun mətbəx skamyalarına rast gəlinmişdir. Hər bir evdə I Kültəpədən məlum olan ikiqatlı sobaların bənzərləri aşkar olunmuşdur.

Binalar olduqca sıx yerləşdiyindən, onların arasında keçidə rast gəlinməmişdir. Ehtimal ki, giriş binaların damından olmuşdur.

Yanıqtəpə yaşayış yerində güclü yanğından sonra tikilmiş müdafiə divarının qalıqları aşkar olunmuüşdur. Eni 4,6-5 m olan bu divar, yonulmamış qaba daşlardan tikilmişdir. Kür-Araz mədəniyyətinin son mərhələsinə aid müdafiə divarları Qaraköpəktəpə və Dairə yaşayış yerində də qeydə alınmışdır.

Qaraköpəktəpənin üst tikinti qatında - birinci qazıntı sahəsində yonulmamış qaba daşlardan tikilmiş çoxotaqlı binanın qalıqları aşkar olunmuşdur. Şübhəsiz ki, belə binalar böyük patriarxal ailələr üçün nəzərdə tutulmuşdur. Dördkünc formalı binaların qalıqları I və II Kültəpələrin üst

qatlarında da izlənmişdir. Bu baxımdan, II Kültəpənin altıncı tikinti qatında aşkar olunan bina maraq doğurur. Düzdür, divarlar yaxşı qalmadığından onun planını müəyyən etmək mümkün olmamışdır. Burada qeydə alınan divarın qərb tərəfində dairəvi ocaq, onun yaxınlığında düzəldilmiş dördkünc formalı platforma üzərində isə heyvan sümükləri və öküz başına bənzədilmiş ocaq qurğularının parçaları tapılmışdır. Yaşayış yerinin bu hissəsində ziyarətgah olduğu ehtimal edilir.

II Kültəpənin beşinci tikinti qatında aşkar olunan çoxotaqlı binanın qalıqları daş təməl üzərində çiy kərpiclərdən tikilmişdir. Kərpiclərin ölçüsü 40 x 40 x 10 sm- dir. Binanın şimaldakı divarı daha enli olub, bir neçə sıra çiy kərpicdən hörülmüşdür. Bu divarın cənubunda möhrə platforma qalıqları və iki ədəd öküz başı formalı ocaq qurğusunun parçaları əldə edilmişdir. Binanın bu hissəsinin patriarxal ailəyə mənsub bir ziyarətgah olduğunu söyləmək olar.

Dördüncü tikinti qatında metaləritmə kürəsinin ətrafında rast gəlinən divar qalıqları daş təməl üzərində bir sıra çiy kərpicdən tikilmişdir.

II Kültəpənin ikinci tikinti qatında aşkar olunan çoxotaqlı binanın divarları yanlarda iri həcmli çay daşlarından hörülərək, arası kiçik həcmli daşlarla doldurulmuşudr. Bu binadakı otaqlar qapı keçidləriylə bir-biri ilə əlaqələndirilmiş, otaqların içərisində dairəvi ocaqlar aşkar edilmişdir. Binanın qərb divarının qalınlığı 1,5 m-dir. Ola bilsin ki, bu divar binanın xarici qatına aid olmuş və müdafiə məqsədilə tikilmişdir.

Bu tikinti qatında rastlanan dördkünc planlı binanın divarları kvadrat formalı olub 40 x 40 x 10 sm ölçülü iki sıra çiy kərpicdən tikilmişdir. Birinci tikinti qatında qeydə alınan təsərrüfat məqsədli bir-birinə paralel tikilən divarların qalıqları daş təməl üzərində, eyni texnika ilə tikilmişdir. Divarın tikintisində istifadə olunan çiy kərpiclər kvadrat formalıdır.

Dördkünc formalı binaların içərisində dayaq dirəkləri üçün daşların olmamasından O.H.Həbibullayev bu qənaətə gəlmişdir ki, bu evlərin damı yastı olmuşudur. Nəticə çıxararkən, tədqiqatçı həm də Naxçıvanın etnoqrafik xüsusiyyətlərini əsas götürmüşdür. Lakin, bizim apardığımız araşdırmalar göstərir ki, dördkünc formalı binalar dayaq dirəkləri olmadan belə, ikiyanlı çadırşəkilli örtüklə qapadıla bilər.

Kür-Araz mədəniyyəti abidələrinin tədqiqi göstərir ki, onlar su tutarlarının yaxınlığında, başlıca olaraq çayların kənarında salınmışdır. Yaşayış yerlərinin salınmasında əkinçilik və yarımköçəri maldarlıq üçün əlverişli olan mövqelər seçilmişdir ki, bu da həmin mədəniyyəti yaradan tayfaların inkişaf xüsusiyyəti ilə bağlı olmuşdur.

Yaşayış binalarının arxitekturasının və tikinti texnikasının öyrənilməsi, Kür-Araz mədəniyyəti dövründə Eneolit ənənələrinin qorunub saxlandığını və inkişaf etdirildiyini göstərir.

**İqtisadiyyat.** Arxeoloji abidələrdən aşkar olunmuş maddi-mədəniyyət nümunələri Erkən Tunc dövrünün iqtisadi həyatının müəyyən sahələrini öyrənməyə imkan verir. Azərbaycanın arxeoloji abidələrinin tədqiqi təsərrüfatın

müxtəlif sahələrinin, xüsusilə əkinçiliyin və maldarlığın inkişaf etdiyini göstərir. Əkinçiliyin İlk Tunc dövründə yüksək inkişafı təbii şəraitlə, həmçinin burada, yabanı taxıl bitkilərinin olması ilə bağlı olmuşdur. Azərbaycanda, xüsusilə Naxçıvan ərazisində qədim dövrdə yumşaq və bərk buğda, çoxcərgəli butılkaşəkilli arpa və digər taxıl növləri bitmişdir. Erkən Tunc dövründə becərilən taxıl qalıqları Azərbaycanın bir sıra yaşayış yerlərində, o cümlədən I Kültəpə, II Kültəpə, Babadərviş, Qaraköpəktəpə və b. abidələrdə aşkar olunmuşdur. Taxıl quyuları və taxıl qalıqları İlk Tunc dövrü abidələrin əksəriyyətindən tapılmışdır. I Külətəpədən hətta noxud və darı dənləri də aşkar olunmuşdur.

Arxeoloji tapıntılar Azərbaycanda dənli bitkilərin müxtəlif növlərinin becərildiyini göstərir. I Kültəpənin və Babadərvişin İlk Tunc dövrü təbəqəsindən çoxcərgəli arpa dənlərinin tapılması xüsusilə maraqlıdır. Q.Xelbekin fikrinə görə, altıcərgəli arpa, intensiv suvarma zonalarında ikicərgəli arpadan törəmişdir. Naxçıvan ərazisində yabanı, altı cərgəli arpa aşkar olunduğundan, demək olar ki, bu növ Azərbaycanda yerli zəmində, yabanı növlərdən yaranmışdır.

Arxeoloji abidələrin dağ ətəklərində, gur sulu çayların sahilində yerləşməsi, şübhəsiz ki, suvarma əkinçiliyinin inkişafına kömək etmişdir. Ərazinin relyefi müəyyən dərəcədə buna şərait yaratmışdır. II Kültəpə ətrafındakı ərazinin öyrənilməsi göstərir ki, bu yerlər Naxçıvançaydan çəkilmiş kanallar vasitəsi ilə suvarılmışdır. Bu dövrdə şübhəsiz ki, dəmyə əkinçilik də geniş yayılmışdır. O.H.Həbibullayevin fikrinə görə, qədim dövrdə iqlim daha mülayim və rütubətli olmuşdur. B.B.Piotrovsi də qədim taxıl dənlərinin öyrənilməsi nəticəsində bu fikrə gəlmişdir. Ola bilsin ki, ilk zamanlar süni suvarma olmadan da əkinçilik olmuşdur.

Azərbaycanın Kür-Araz abidələrinin tədqiqi zamanı xeyli daş toxalar aşkar edilmişdir. Bu, toxa əkinçiliyinin inkişaf etməkdə olduğunu göstərir. Torpağın becərilməsi üçün ağac və sümük alətlərdən də istifadə edilmişdir.

Qoşqu qüvvəsi tətbiq edilməklə şumlama əkinçiliyinin nə zaman meydana gəldiyini söyləmək çətindir. Lakin tədqiqatçılar təkər modeli və öküz fiqurlarına əsaslanaraq İlk Tunc dövründə qoşqu qüvvəsinin tətbiq edildiyini söyləmişlər. Öküz fiqurları I Kültəpənin alt qatlarında aşkar olunmuşdur. Bütün öküz fiqurlarının boğazında ikitərəfli dairəvi deşik açılmışdır. Q.Klark qeyd etmişdir ki, öküzlərdən qoşqu qüvvəsi kimi arabaya qoşulmazdan əvvəl istifadə edilmişdir. Ehtimal ki, qoşqu qüvvəsi Azərbaycanda Tunc dövrünün ilk mərhələsində tətbiq edilmişdir. II Kültəpənin alt qatlarında təkər modellərinə rast gəlinməsi, təkərli nəqliyyatın da erkən meydana gəldiyini göstərir.

Kür-Araz mədəniyyətinin ilk mərhələsində əkinçilikdə obsidian və çaxmaqdaşından hazırlanmış oraq dişlərindən istifadə edilmişdir. Dən daşlarının və həvəngələrin təkmil forması Kür-Araz mədəniyyətinin ilk mərhələsində əkinçiliyin kifayət qədər inkişaf etmiş səviyyədə olduğunu göstərir. II Kültəpənin

alt qatlarından aşkar edilən tunc əşyalar metalişləmənin inkişaf səviyyəsindən xəbər verir. Ola bilsin ki, bu mərhələdə metal oraqlardan da istifadə edilmişdir.

İkinci və üçüncü mərhələnin biçin alətləri qurama oraqların dişləri ilə təmsil edilmişdir. I Kültəpədən əldə edilən mis-mısyak ərintisindən hazırlanan tunc orağın parçaları da bu dövrə aiddir. Qeyd etmək olar ki, İlk Tunc dövrünün bütün mərhələlərində qurama oraqlar əsas yer tutmuşdur.

I Kültəpə tapıntıları göstərir ki, biçindən sonra taxıl dərz şəklində bağlanmış və yaşayış yerinə gətirilmişdir. İlk mərhələdə taxıl əllə, sonrakı mərhələdə isə ağac vəllər vasitəsilə döyülmüşdür.

Yığılmış taxıl ehtiyatları taxıl quyularında və təsərrüfat küplərində saxlanmışdır. Babadərviş və Yanıqtəpədən əldə olunan materiallar göstərir ki, taxılın yığılması üçün xüsusi anbarlar olmuşdur.

Taxıl emalının sonrakı mərhələsində dən daşlarından istifadə edilmişdir. Çörək I Kültəpədən məlum olan ikiqatlı sobalarda, yaxud gil tavalarda bişirilmişdir.

İlk Tunc dövründə təsərrüfatın mühüm sahələrindən biri də maldarlıq olmuşdur. Maldarlığın inkişaf səviyyəsi osteoloji qalıqların və öküz fiqurlarının tədqiqi ilə müəyyən edilmişdir. Azərbaycanın İlk Tunc dövrü abidələrindən xeyli miqdarda osteoloji material əldə edilmişdir. Onların içərisində öküz sümükləri üstünlük təşkil edir. Tapıntılar arasında qoyun, keçi, donuz, köpək və at sümükləri də vardır. Kür-Araz mədəniyyətinin ilk mərhələsində iribuynuzlu heyvan sümükləri üstünlük təşkil etmişdir (75- 80 %). Babadərviş yaşayış yerinin ilkin mərhələsində iribuynuzlu heyvanlar 90 % olmuşdur. Q.S.İsmayılovun fikrincə, sürüdə iribuynuzlu heyvanların üstünlük təşkil etməsi oturaq həyat tərzi ilə bağlı olmuşdur.

Başlıca olaraq, qoyun və keçi sümükləri ilə təmsil olunan xırdabuynuzlu heyvanlar ilk mərhələdə ikinci yeri, sonrakı mərhələdə isə inkişaf edərək birinci yeri tutmuşdur. Bu, bütün yaşayış yerlərində özünü aydın şəkildə göstərmişdir. Üçüncü mərhələdə gil qablar üzərində xırdabuynuzlu heyvanlara aid buynuzşəkilli relyef ornamentlərin meydana çıxması da bununla bağlıdır. Xırdabuynuzlu heyvanların sayca artması, tədqiqatçılar tərəfindən yarımköçəri maldarlığının inkişafı ilə əlaqələndirilmişdir. Yaşayış yerlərinin topoqrafiyasına və bir çox yerləşmələrdə mədəni təbəqənin az yığılmasına əsasən söyləmək olar ki, yarımköçəri maldarlıq Azərbaycanda artıq Kür-Araz mədəniyyətinin ikinci mərhələsində mövcud olmuşdur.

Qobustan istisna olmaqla, Azərbaycanın qədim yaşayış yerlərində heyvan ağılı aşkar olunmamışdır. Ola bilsin ki, heyvanlar yaşayış yerinin yaxınlığında, xüsusi hasarlanmış sahədə saxlanmışdır.

Maldarlığın inkişaf etməsi təkərli nəqliyyatın və əkinçiliyin də inkişafına təkan vermişdir. İribuynuzlu heyvanlardan taxıl döyümündə istifadə edilməsi əmək məhsuldarlığını və cəmiyyətin inkişafı üçün zəruri olan izafi məhsul istehsalını artırmışdır.

Osteoloji materialların analizi Kür-Araz mədəniyyəti tayfalarının həyatında ovçuluğun da müəyyən yer tutduğunu göstərir. Başlıca olaraq ceyran, maral, ayı, pişik və b. heyvanlar ovlanmışdır. Vəhşi heyvanlara aid osteoloji qalıqların az olması (10 %) onların təsərrüfatda ikinci dərəcəli yer tutuduğunu göstərir.

Kür-Araz mədəniyyəti abidələrindən kütləvi şəkildə aşkar olunan keramika məmulatı dulusçuluğun iqtisadiyyatın əsas sahələrindən biri olduğunu göstərir. Kür-Araz mədəniyyəti dövründə dulusçuluğun inkişafında hiss ediləcək irəliləyiş gözə çarpır. Tədqiqatlar göstərir ki, bu dövrdə dulusçuluq ev sənəti çərçivəsindən kənara çıxaraq, ixtisaslaşmış istehsal sahəsinə çevrilmişdir. Kür-Araz mədəniyyətinin ilk mərhələsindən başlayaraq qabların yaxşı yoğrulmuş gildən hazırlanması, simmetrik formalaşdırılması, keyfiyyətli bişirilməsi və anqoblanması bununla bağlıdır.

Keramika məmulatı təkmil konstruksiyalı birkameralı dulus kürələrində bişirilmişdir. Lakin gil qabların bir qismində bişməmiş təbəqənin olması və bəzi qabların səthində yaranan ləkələr xammalın texnologiyasında və bişirmə texnikasında yüksək səviyyəyə çatılmadığını göstərir. İlk mərhələdə xammalın texnologiyası və bişirmə texnikası ilə bağlı axtarışlar ikinci mərhələnin sonunda müvəffəqiyyətlə nəticələnmişdir. Bu dövrdə nazik divarlı və yaxşı cilalanmış qablar ortaya çıxmışdır.

II Kültəpənin VII tikinti qatından əldə edilən unikal dulus kürəsinin qalıqlarına hələlik Cənubi Qafqaz abidələrində rast gəlinməmişdir. Üçüncü mərhələdə dulusçuluq istehsalı daha da ixtisaslaşmış və yüksək inkişaf etmişdir. Bu mərhələdə nazik divarlı, yaxşı cilalanmış qablar üstünlük təşkil edir. Bəzi qabların üzəri qara rəngli boya ilə örtülmüşdür. Qabların analizi də bunu təsdiq etmişdir. Bu mərhələnin keramikası həm də zəngin ornamentasiyası ilə fərqlənir. Naxışlar qabların gövdəsinə yüksək ustalıq və zövqlə çəkilmişdir.

Tədqiqatlar göstərir ki, Kür-Araz mədəniyyətinin ilk mərhələsində boz rəngli keramika da müəyyən yer tutmuşdur. İkinci mərhələdə çəhrayı rəngli keramika azalmağa doğru getmiş, üçüncü mərhələdə isə olduqca az qeydə alınmışdır.

Keramika məmulatının əsasını gil qablar təşkil edir. Birinci mərhələyə aid gil qablar başlıca olaraq II Kültəpədən, I Kültəpənin alt qatlarından Göytəpə, Babadərviş və Mingəçevirdən əldə edilmişdir. II Kültəpədən tapılan gil qabların 58,5 %-i boz, 32,5 %-i isə çəhrayı rəngdə bişirilmişdir. Bu mərhələnin xarakterik xüsusiyyəti qabların ağız kənarının dördkünc formada xaricə çıxması, yarımşəkilli uzunsov formalı qulplar və gil qabların hər iki tərəfdən yaxşıca sığallanaraq, xaricdən anqoblanmasıdır.

Qablar tərkibinə narın, bəzən isə iri qum qatılmış gildən hazırlanaraq yaxşı bişirilmişdir. İri qum əsasən təsərrüfat qablarının tərkibinə qatılmışdır. Bəzi qabların xarici divarlarında nəzərə çarpan ləkələr, gilin yoğrulması və bişirilmə

texnologiyası ilə bağlı olmuşdur. Mingəçevirdən əldə edilən gil qablar tərkibində iri qum və əzilmiş daş qarışığının olması ilə fərqlənir.

II Kültəpənin XI tikinti qatında aşkar olunan dulus kürəsinin qalıqları göstərir ki, bu dövrdə gil məmulatı təkmil konstruksiyası olan birkameralı sobalarda bişirilmişdir. Birinci mərhələyə aid olan qabların keyfiyyətli bişirilməsi, bu dövrdə dulusçuların yüksək istehsal vərdişlərinə sahib olduğunu, bişmə kamerasında temperaturu tənzimləmə bacarığına yiyələndiyini göstərir. Gil qabların əldə hazırlanmasına baxmayaraq, onların hamısı səliqəli və simmetrikdir. Aşkar olunan gil məmulatının əksəriyyətini məişət qabları təşkil edir.

Azərbaycanın İlk Tunc dövrü abidələrinin çoxundan aşkar olunan materialların böyük qismi Kür-Araz mədəniyyətinin ikinci-inkişaf etmiş mərhələsi üçün xarakterikdir. Bu mərhələyə aid arxeoloji materiallar I Kültəpə, II Kültəpə, Ovçular təpəsi, Maxta Kültəpəsi, Xələc, Ərəbyengicə, Şortəpə, Qaraköpəktəpə, Meynətəpə, Uzuntəpə, Sərkərtəpə və Şimal-Şərqi Azərbaycanın digər abidələrindən məlumdur.

Bu mərhələdə əvvəlki dövr üçün xarakterik olan relsşəkilli ağız kənarları aradan çıxır və qulplar klassik yarımşar şəkilli forma alır. Mərhələnin sonuna yaxın çəhrayı və qəhvəyi astarlı gil qablar ortaya çıxır. Daha çox boz və çəhrayı rəngli qablara rast gəlinir. Qara rəngli qablar olduqca azdır.

Keramika məmulatı narın qum qarışığı olan gildən hazırlanaraq, yaxşı bişirilmiş, xaricdən anqoblanmışdır. Əldə hazırlanmış qablar olduqca simmetrik və səliqəlidir. Bəzi qablar cilalanmışdır. Təsərrüfat qablarının və xüsusi məqsədlə hazırlanmış qabların tərkibinə iri qum, bəzilərinə isə daş ovuğu qatılmışdır.

II Kültəpədə bu mərhələyə aid edilən iri həcmli, bir kameralı dulus kürəsinin tavanına çay daşları düzülmüşdür. Ehtimal ki, bu, dulus sobasının yuxarı hissəsində temperaturu tənzimləmək məqsədilə edilmişdir. Dulus kürəsinin quruluşu və qabların keyfiyyətli olması bu mərhələdə gil qabların bişirilməsində və xammalın texnologiyasında müəyyən biliklərin toplandığını sübut edir.

Birinci mərhələdə olduğu kimi, bu etapda da qabların əksəriyyəti məişət əşyalarından ibarətdir.

Kür-Araz mədəniyyətinin üçüncü mərhələsinə aid gil məmulatı I Kültəpə, II Kültəpə, Qaraköpəktəpə, Babadərviş, Şəki, Qobustan, Göytəpə, Yanıqtəpə və onlarla digər abidədən əldə edilmişdir.

Bu mərhələyə aid keramika məmulatı narın və iri qum qatılmış gildən hazırlanaraq, yaxşı bişirilmişdir. Qablar boz, qara və çəhrayı rəngdədir. Onların xarici səthi yaxşı hamarlanaraq cilalanmışdır. Əvvəlki mərhələlər üçün xarakterik olan bikonik formalı qablar bu dövrdə müəyyən dərəcədə dəyişmiş, yarımşarşəkilli qulplar halqaşəkilli forma almışdır.

Yaşayış yerlərində bu mərhələyə aid dulus kürəsinin qalıqlarına rast gəlinməsə də gil qabların yüksək keyfiyyətlə hazırlanması və bişirilməsi

müəyyən texnoloji nailiyyətlərin əldə olunduğunu göstərir. Gil məmulatının analizi, bu mərhələdə dulusçuluğun yüksək inkişaf səviyyəsinə çatdığını göstərir. Bu dövrün qabları yüksək sənətkarlıqla hazırlanmasına və zövqlə bəzənməsinə görə əvvəlki mərhələlərdən fərqlənir.

Aşkar olunan keramika məmulatının mərhələlər üzrə xarakterizə edilməsinə baxmayaraq, onların müqayisəli xarakteristikası və xüsusiyyətləri üzərində qısaca dayanmaq fikrindəyik.

Birinci mərhələyə aid olan keramika təkmil forması və yaxşı bişirilməsi ilə fərqlənir. Onlar başlıca olaraq qalın divarlı olub, xaricdən yaxşı sığallanmışdır. Qablarda çəhrayı astar olmamışdır. Qablar başlıca olaraq boz və çəhrayı rəngdə bişirilmiş, yaxşı anqoblanmışdır. Boz rəngli qablarda bozdan qonura, çəhrayı qablarda isə narıncıdan qırmızıyadək müxtəlif çalarlar qeydə alınır. Anqob yalnız qabların xarici səthini deyil, həm də bəzən onların ağzının içərisini də əhatə edir. Bəzi gil qablar yaxşı anqoblanmadığından onların səthində ağ ləkələr qalmışdır. Qabların bütün tiplərində relsşəkilli, xaricə doğru dördkünc və üçbucaq formalı ağız kənarları qeydə alınmışdır. Ağzının kənarı dəyirmiləşdirilmiş qablar da vardır. Ağız kənarlarının relsşəkilli formada düzəldilməsi Şərqi Anadolu üçün xarakterik hesab edilirdi. Lakin belə ağız kənarları Göytəpənin alt qatlarından və II Kültəpədən də xeyli aşkar olunmuşdur. Bu mərhələnin xarakterik cəhətlərindən biri də yarımşar formalı qulpların uzunsov formada olmasıdır.

Bu mərhələnin qabları çölmək, banka və küpələrlə xarakterizə edilir. Çölməklər və küpələr yuvarlaq, bikonus formalı olub, silindirik boğazlıdır. Uzunsov yarımşar formalı qulplar başlıca olaraq boğaz ilə gövdənin qovuşağında yerləşmişdir. Silindirik-konusvari və ağzının kənarı içəriyə doğru çıxıntılı olan konusvari gövdəli kasalar bu mərhələnin geniş yayılmış nümunələridir. Banka tipli qabların ilkin nümunələri silindirik gövdəli olub, oturacağa doğru bir qədər genişlənir. Bu mərhələdə həmçinin dərin bikonus formalı, yaxud gövdəsi şarşəkilli kasalar geniş yayılmışdır.

Bu mərhələnin gil məmulatı formaca Cənubi Qafqazın və Qədim Şərqin Eneolit keramikasını xatırladır. Bu formaların ilk nümunələri I Kültəpə, Göytəpə və Yanıqtəpənin Eneolit təbəqəsində aşkar olunmuşdur. Gil qabların bəzi nümunələri, xüsusilə vaza tipli qablar və silindirik çıxıntıları olan qablar Mesopotamiyanın keramikası ilə bənzərlik təşkil edir. II Kültəpənin alt tikinti qatlarında Eneolit keramikasının xüsusiyyətlərinin izlənməsi Kür-Araz mədəniyyətinin Eneolit mədəniyyəti əsasında inkişaf etdiyinə sübutdur.

İkinci mərhələdə relsşəkilli ağız kənarları ortadan çıxır. Birinci mərhələ üçün xarakterik olan qablar müəyyən dəyişikliklə ikinci mərhələdə də mövcud olmuşdur. Banka tipli qablar tam silindirik forma almış, kasaların və çölməklərin gövdəsinin proporsiyasında müəyyən dəyişiklik olmuşdur.

Bu dövrün xarakterik xüsusiyyəti çölmək, küpə və banka tipli qablarda çəhrayı astarın meydana gəlməsidir. Astarın rəngi narıncıdan qəhvəyiyədək

dəyişir. Bu mərhələnin qabları yaxşı anqoblanmışdır. Bəzi qabların səthi yüngülcə cilalanmışdır. Ancaq belə qablar olduqca azlıq təşkil edir.

Bikonus gövdəli, yaxud konusvari formalı kasalar bu etapda geniş yayılmışdır. Bu dövrün çölməkləri əvvəlki mərhələnin eyni tipli qablarıyla bənzər olsalar da, onların formasında müəyyən dəyişiklik izlənilir. Mərhələnin sonuna yaxın qısa, silindirik boğazlı, şar gövdəli çölməklər meydana çıxır. Onların qulpları ağzının kənarında yerləşir. Konusvari gövdəli kasalar, vazatipli və bankatipli qablar formaca Eneolit keramikası ilə sıx bağlıdır. Onların bəzisində I Kültəpənin Eneolit keramikası üçün xarakterik olan şüyrələmədən istifadə edilmişdir.

Üçüncü mərhələ üçün nazik divarlı məişət qabları xarakterikdir. Çəhrayı astar bu mərhələdə aradan çıxır, parıldayanadək cilalanmış qablar geniş yayılır. Bəzi qabların səthində cilalayıcı alətin izləri qalmışdır. Bu mərhələyə aid çölməklər formaca əvvəlki mərhələdən xeyli fərqlənir. Bəzi çölməklərdə əvvəlki mərhələ üçün xarakterik olan silindirik boğazlar yoxdur. Bu mərhələdə yuvarlaq-bikonus formalı çölməklər geniş yayılmışdır. Qulplar halqaşəkilli olub, başlıca olaraq qabların ağzının kənarında yerləşmişdir. Qabların dairəvi, yuvarlaq formalı batıqlar, relyef və həndəsi ornamentlə naxışlanması bu dövrün xarakterik xüsusiyyətidir. Bu baxımdan, Kür-Araz mədəniyyətinin tamamlayıcı mərhələsini əks etdirən Yanıqtəpə materialları diqqətəlayiqdir.Əldə olunan materiallar daşişləmə, sümükişləmə və toxuculuq kimi sənət sahələrinin də inkişaf etdiyini göstərir.



Şəkil 57. Eneolit (14-16, 18) və Erkən Tunc dövrünə aid metal məmulatı.
1-6, 8-18 – I Kültəpə; 7, 9-22 – II Kültəpə

İlk Tunc dövründə Azərbaycanda metallurgiya və metalişləmə yüksək inkişaf səviyyəsində olmuşdur. Kür-Araz mədəniyyətinin erkən mərhələsinə aid təkmil metal əşyalar və metal emalı ilə bağlı olan kürələr hələ e.ə. IV minilliyin ortalarında dağ-mədən işinin və metalurgiyanın bir-birindən ayrıldığını göstərir. Lakin, Azərbaycanda indiyədək İlk Tunc dövrünə aid mədənlər aşkar edilməmişdir. Ehtimal ki, onlar sonrakı dövrlərin mədənləri tərəfindən dağıdılmışdır. Bu baxımdan, Naxçıvan ərazisində Vayxır mis yataqlarında aşkar olunan qədim mədənlər diqqəti cəlb edir. Burada, qədim mədənlərin ətrafından daş çəkiclər və gil qab parçaları tapılmışdır.

II Kültəpə və Babadərvişin İlk Tunc dövrü təbəqəsindən aşkar olunan metaləritmə kürəsinin qalıqları metallurgiyanın yüksək inkişaf mərhələsini əks

etdirən yeni, süni üfürmə texnikasının tətbiq edildiyini göstərir. Süni üfürmədə hərarətin yüksəldilməsinə xidmət edən körük ucluqları II Kültəpə və Mişarçayda aşkar olunmuşdur. Yüksək temperaturun alınması və tənzim edilməsi qədim metallurqların iqtisadi imkanlarını artırmış, yataqların dərinliyində yerləşən sulfidli filizlərin əridilməsi üçün şərait yaratmışdır.

II Kültəpənin İlk Tunc dövrü təbəqəsində metalişləmə emalatxanasının qalıqlarının aşkar edilməsi, metallurgiya və metalişləmə sənətinin ayrıca istehsal sahələrinə ayrıldığını göstərir.

Qeyd etmək lazımdır ki, Azərbaycanda metallurgiyanın yüksək inkişaf səviyyəsi heç də təsadüfi olmayıb, qonşu ölkələrdə bu sahənin tərəqqisi ilə bağlıdır. Çatal-Uyuk və Yarımtəpənin mədəni qatlarından e.ə. VII-VI minilliklərə aid edilən filiz qalıqları, artıq bu dövrdə, şübhəsiz ki, filizin əridilmək üçün yaşayış yerlərinə gətirildiyini göstərir. Çatal-Uyukdan aşkar olunan filizin analizi göstərmişdir ki, o praktiki olaraq şlak qalığından başqa bir şey deyil. Qeyuksur vadisinin Eneolit abidələrinin tədqiqi göstərmişdir ki, metal əşyalar təbii mis külçəsindən deyil, filizdən əridilərək hazırlanmışdır. Burada metal əşyaların tökülməsi texnikası e.ə. V minillikdə mövcud olmuşdur. E.ə.V minilliyə aid filiz qalıqları Ovçulartəpəsi yaşayış yerində də aşkar olunmuşdur.

II Kültəpənin XI tikinti qatından aşkar olunan bıçaq, yaxud xəncər tiyəsinin tədqiqi, onun ara qızdırmalarla döyülməyə məruz qaldığını göstərir. Bu, II Kültəpədə metalın təkrar emalı ilə bağlı kürələrin aşkar olunmasıyla da sübut olunur.

Kür-Araz mədəniyyətinin ikinci mərhələsinə aid gil qəliblər bu dövrdə tökmə texnikasının yüksək səviyyədə inkişaf etdiyini göstərir. I Kültəpədən tunc baltalar tökmək üçün qəlibin aşkar edilməsi bu dövrdə ikitaylı qəliblərdə tökmə texnikasının mənimsənildiyini göstərir. I Kültəpə, Göytəpə və Babadərvişdən metal yarımfabrikatlar tökmək üçün qəliblərin tapılması, hazır metal məmulatının əsas istehsal mərkəzlərindən digər rayonlara yayıldığını göstərir. Şübhəsiz ki, metal əşyaların istehsalı ilə yüksək ixtisaslı ustalar məşğul olmuşdur. Belə ki, mürəkkəb konfiqurasiyalı baltalar və nizə ucluqları müəyyən vərdişlərə yiyələnmiş ustalar tərəfindən hazırlana bilərdi.

İkinci və üçüncü mərhələyə aid metal əşyaların hazırlanmasında tökmə, döymə, kəsmə, burma, yastılama, prokat və digər texnoloji üsullardan istifadə edilmişdir.

Metallurgiya və metalişləmə sənətinin meydana gəlməsi və inkişafının xarakterinin müəyyən edilməsində İlk Tunc dövrü abidələrindən aşkar olunan metal əşyaların mühüm əhəmiyyəti vardır. Onlar balta, nizə, xəncər, əmək alətləri və müxtəlif bəzəklərlə təmsil edilmişdir.

Azərbaycanda İlk Tunc dövrünə aid metal əmək alətləri hələlik I Kültəpədən məlumdur. I Kültəpədən aşkar olunan oraq üç yerə parçalanmışdır. Aypara formalı bu oraq mis və mışyak ərintisindən hazırlanmışdır. O, özünün arxaik forması ilə Cənubi Qafqaz və Yaxın Şərqin sinxron əmək alətlərindən

fərqlənir. Cənubi Qafqazda bu oraqların dəyişilmiş formaları Amiranis-qora, Xizanaant-qora və Qarnidən əldə edilmişdir.

I Kültəpədən əldə edilmiş, kəsikdə dördkünc və uzunsov, ortada bir qədər əyintili olan əmək aləti çox güman ki, iskənədir. Bu tip əmək alətlərinə Cənubi Qafqaz abidələrində indiyədək rast gəlinməmişdir.

Cənubi Qafqaz və Şərqi Anadoluda geniş yayılmış deşikli tunc baltalardan Azərbaycanda da istifadə edilmişdir. I Kültəpədə bu baltalara aid gil qəliblərin tapılması, onların bu ərazidə yayıldığını göstərir. Tədqiqatçıların fikrinə görə, belə əşyaların istehsalı Mesopotamiya və İran nümunələrinə əsaslanmışdır. Maykop baltalarının mis-nikel qarışığından hazırlanması bu fikri müəyyən dərəcədə təsdiq edirsə də, Cənubi Qafqaz nümunələrinin mis-mışak ərintisindən istehsal edilməsi onların yerli mədəniyyətə aid olduğunu göstərir.

Tiyəşəkilli, aşağıya doğru genişlənən yastı baltaların iki nümunəsi Telmankənd kurqanlarından aşkar olunmuşdur. Onlar formaca eyni tiplidir. Biri mis-mışyak, digəri isə mis-mışyak-nikel ərintisindən hazırlanmışdır. Belə baltalara Cənubi Qafqazda az rastlanmışdır. Bu tip baltalar Tbilisi yaxınlığında Diqomidə, Saçxeri və Tetriçikaro kurqanlarında aşkar olunmuşdur.

Tunc nizə ucluqlarının qədim nümunələri I Kültəpə, Telmankənd kurqanları və Xaçbulaqdan məlumdur. Bu nizə ucluqları formaca bir-birindən fərqlənir. Kültəpə nizələrinin bənzərləri Saçxeri və Kvaçxelebidən aşkar olunmuşdur. B.A.Kuftin bu nümunələri e.ə. 2400-cü ilə aid etmişdir. Qeyd etmək lazımdır ki, I Kültəpə nümunəsi, kömür analizi ilə tarixi e.ə. 2920 $\pm$ 90-cı ilə aid edilən təbəqədən altda aşkar olunmuşdur. Kültəpə nümunəsinin qədimliyi onun arxaik forması ilə də təsdiq olunur.

Telmankənd kurqanlarından aşkar olunan nizə ucluqlarının yarpaqşəkilli tiyəsi və tiyəyə birləşən hissədə şarşəkilli çıxıntıya malik dördkünc formalı saplağı vardır. Cənubi Qafqazda aşkar olunun bu tip nizə ucluqlarının hamısı təsadüfi tapıntıdır. Bu baxımdan Telmankənd nümunələri olduqca əhəmiyyətlidir. Mis-mışak ərintisindən hazırlanan bu nizə ucluqlarının birinin tərkibində yüksək faizli nikel qarışığının qeydə alınması diqqəti cəlb edir.

Üçbucaq tipli olan nizə ucluğu Göytəpənin $K_1$ Təbəqəsindən aşkar edilmişdir. Bəzi tədqiqatçılar onu xəncər adlandırmışlar. Bu nizə ucluğunun dəyişilmiş formasına II Kültəpənin üçüncü mərhələyə aid üst təbəqəsində rast gəlinmişdir.

Bıçaq tipli tunc alətlər I Kültəpə və II Kültəpədən aşkar olunmuşdur. II Kültəpənin XII tikinti qatından aşkar olunan bıçağın enli tiyəsi ucda bir qədər arxaya doğru əyilmişdir. Dördkünc formalı saplağı qırılmışdır. Bu bıçaq İlk Tunc dövrünə aid ən qədim metal əşyalardan biridir. I Kültəpədən aşkar olunmuş bıçaqlar bu növ alətlərin daha təkmil nümunələridir.

Xəncərlərin qədim nümunələri II Kültəpədən tapılmışdır. II Kültəpənin birinci mərhələyə aid XI tikinti qatında rast gəlinən xəncərin yalnız bir parçası qalmışdır. Onun tiyəsi yarpaqşəkilli, qısa və yastıdır. Xankəndi kurqanlarından

tapılan xəncərlər arxaik formaları ilə fərqlənir və bu tip əşyaların qədim nümunələrindən hesab edilə bilər. Xəncərlərin daha təkmil nümunələri Yanıqtəpədən əldə edilmişdir. Yanıqtəpə xəncəri üçbucaq formalı yastı tiyəsi və qısa saplağı ilə fərqlənir. Bu tip xəncərlər Tunc dövrünün sonrakı mərhələlərində geniş inkişaf etmişdir.

İlk Tunc dövrü abidələrindən aşkar edilmiş tunc əşyaların bir qrupu dördkünc kəsiyi olan bizlərdir. Belə bizlər I Kültəpə, Mişarçay, Qaraköpəktəpə və Astara kupqanlarından aşkar edilmişdir.

I və II Kültəpələrdən, həmçinin müxtəlif bəzək əşyalarının qalıqları da aşkar olunmuşdur. Onlar sancaq, iynə və bilərziklərdən ibarətdir.

Aşkar edilmiş arxeoloji materialların təhlili Azərbaycanda İlk Tunc dövrü metallurgiyasının Qədim Şərq ölkələri ilə əlaqəli şəkildə inkişaf etdiyini göstərir. Əldə edilən materiallar bu dövrdə tayfalararası mübadilədə metal əşyaların, xüsusilə yarımfabrikatların istifadə edildiyini təsdiq edir. Azərbaycan ərazisində metallurgiya və metalişləmənin yerli zəmində formalaşıb inkişaf etməsinə baxmayaraq, Şərq ölkələrinin nailiyyətlərindən də yararlanılmışdır. Azərbaycan eyni zamanda Cənubi Qafqaz və Şərq ölkələrini xammal və hazır metal məmulatı ilə təmin edən başlıca istehsal mərkəzlərindən biri olmuşdur.

**Kür-Araz mədəniyyətinin mənşəyi və xronologiyası.** Kür-Araz mədəniyyəti abidələrinin tədqiqi, onların bilavasitə, Azərbaycanın Eneolit mədəniyyəti ilə bağlı olduğunu göstərir. Bu bağlılıq hər şeydən əvvəl, yaşayış binalarının arxitekturasında özünü göstərir. Kür-Araz mədəniyyətinin erkən mərhələsində iki tip yaşayış evləri aşkar olunmuşdur. Birinci tipə dairəvi formalı binalar daxildir. Bu binalar tikinti texnikası və konstruksiyasına görə, Eneolit dövrünün eyni tipli evlərini xatırladır. Bu tip evlər Azərbaycanda I Kültəpə, Şomutəpə, Töyrətəpə, Qarğalartəpəsi və digər yaşayış yerlərindən aşkar edilmişdir. İlk Tunc dövrü yaşayış binalarının bir qisminin Eneolit dövründə olduğu kimi qövsşəkilli divarla hüdudlanmış, yarımaçıq həyətləri olmuşdur. Düzbucaqlı artırmaları olan dairəvi binalar da öz yaxın bənzərlərini Eneolit abidələrində tapır. Evlərin daxili quruluşundakı bəzi xüsusiyyətlər, xüsusilə, gildən ocaq qurğularının, təsərrüfat quyularının, evin damını saxlayan mərkəzi dirək üçün dayaq daşlarının qeydə alınması, bu əlamətlərdəndir.

Migəçevir yaşayış yerində rast gəlinən yarımqazma tipli evlər Azərbaycanın və Cənubi Qafqazın digər yerlərində qeydə alınmamışdır. Bu tip yaşayış binalarının prototipləri Babadərviş yaşayış yerinin Eneolit dövrü təbəqəsindən məlumdur.

Azərbaycanın bir sıra abidələrində, xüsusilə, I Kültəpə, Göytəpə, Yanıqtəpə, Babadərviş yaşayış yerlərində Kür-Araz mədəniyyətinə aid mədəni təbəqə, bilavasitə Eneolit dövrü təbəqəsinin üzərində yer alır.

Kür-Araz mədəniyyətinin Eneolit mədəniyyəti ilə bağlılığı arxeoloji materiallarda, xüsusilə gil məmulatında aydın şəkildə izlənir. I Kültəpə və II Kültəpədən aşkar olunan silindrik boğazlı, yuvarlaq gövdəli küpələr, konusvari

və bikonik gövdəyə malik dərin kasalar, banka tipli qablar Enolit dövrünə aid öz prototiplərini təkrar edir. Eyni hal Babadərviş və Göytəpədə də izlənir. Babadərvişdən aşkar olunan silindrik boğazlı, yuvarlaq gövdəli küpələr, çəllək tipli qablar, konus gövdəli kasalar, divarları ağzının kənarına doğru genişlənən çölməklər Töyrətəpə, Şomutəpə və I Kültəpədən aşkar olunmuş Eneolit tiplərini təkrar edir.

Göründüyü kimi, Kür-Araz mədəniyyətinin ilk mərhələsinin keramikası tamamilə Eneolit dövrü ilə bağlanır. Birinci mərhələnin qablarında Eneolit dövrü üçün xarakterik olan, qaba hazırlanmış, qeyri-bərabər bişirilmiş qablara rast gəlinir. Bu baxımdan, II Kültəpənin alt qatlarından tapılan keramika diqqəti cəlb edir. Buradan aşkar olunmuş bəzi qab parçalarının tərkibində Eneolit dövrü üçün xarakterik olan saman qarışığına rastlanmışdır. Bu təbəqədən, həmçinin, silindrik çıxıntısı olan gil qapaq tapılmışdır. Eneolit üçün xarakterik olan bu çıxıntılar Kür-Araz mədəniyyətində adətən yarımşar şəkilli qulplarla əvəz edilmişdir. Qeyd etmək lazımdır ki, Eneolit keramikası ilə Kür-Araz keramikası arasında bir sıra texnoloji və tipoloji bənzərliklərin olmasına baxmayaraq, Kür-Araz keramikası formalaşdırılması və bişirilməsinə görə daha yüksək səviyyəli olub, əvvəlki dövrün keramikasından fərqlənir. Bu dövrdə saman qarışığı, qum qarışığı ilə əvəz olunur. Şübhəsiz ki, bu xüsusiyyətlər Kür-Araz mədəniyyəti tayfalarının dulusçuluqda əldə etdiyi bir sıra nailiyyətlərlə bağlıdır.

Kür-Araz mədəniyyətinin xronologiyası ilə bağlı tədqiqatçılar müxtəlif fikirlər söyləmişlər. B.A.Küftin və B.B.Piotrovski bu mədəniyyəti bütünlüklə e.ə. III minilliyə aid etmişlər. O.H.Həbibullayev əvvəlcə, bu mədəniyyətin e.ə. III minilliyin ikinci yarısını, sonra isə öz tədqiqatları əsasında e.ə. III minilliyi bütövlüklə əhatə etdiyini göstərmişdir. R.M.Munçayev apardığı tədqiqatlar zamanı demək olar ki, bu mədəniyyətin yayıldığı bütün arealı nəzərdən keçirmiş, I Kültəpə, Babadərviş, Şulaveri, Amiranisqora və digər yaşayış yerlərinin stratiqrafiyasına əsaslanaraq, Kür-Araz mədəniyyətini e.ə. IV-III minilliklərə aid etmişdir.

Kür-Araz mədəniyyətinin yayılma arealı və xronologiyası K.X.Kuşnaryeva və T.N.Çubinişvilinin əsərində geniş şəkildə nəzərdən keçirilmişdir. Onlar Kür-Araz mədəniyyətini 3 mərhələyə bölərək, birinci mərhələni e.ə. 3000-2700, ikinci mərhələni e.ə. 2700- 2300, üçüncü mərhələni e.ə. 2300-2000 –ci illərə aid etmişlər.

Q.S.İsmayılov Kür- Araz mədəniyyətini e.ə. III minilliyə, daha sonra isə e.ə. IV minilliyin sonu və bütövlükdə üçüncü minilliyə aid etmişdir. O, Kür-Araz mədəniyyətini üç inkişaf mərhələsinə bölmüş və buna uyğun olaraq, birinci mərhələni e.ə. 3200-2800, ikincini e.ə. 2800-2600, üçüncünü isə e.ə. 2600-2300-cü illərə aid etmişdir.

O.M.Çaparidze Kür-Araz mədəniyyətinin ilk mərhələsini e.ə. IV minilliyin ortalarına və sonuna, son mərhələsini isə e.ə. III minilliyin ortalarına

aid etmişdir. D.L.Koridze Kür-Araz mədəniyyətini e.ə. III minilliyin birinci yarısına aid etmişdir.

Son illər qafqazşünas arxeoloqlar Kür-Araz mədəniyyətini e.ə. IV minilliyin sonu və üçüncü minilliyin ortaları ilə tarixləndirməyə meyillidirlər.

Azərbaycanda, xüsusilə Naxçıvanda yerləşən Kür-Araz mədəniyyəti abidələrinin tədqiqi, bu mədəniyyətin tarixləndirilməsi üçün yeni faktlar ortaya çıxarmışdır. Bu dəlillər Kür-Araz mədəniyyətinin Azərbaycanda daha qədim tarixə malik olduğunu göstərir. Kür-Araz mədəniyyətinin Azərbaycanda qədim tarixə malik olması fikri, vaxtı ilə O.H.Həbibullayev tərəfindən söylənmişdir. O, Kültəpənin İlk Tunc dövrü təbəqəsini iki mərhələyə bölərək, ilk mərhələnin olmadığını qeyd etmişdir. Bu zaman tədqiqatçı I Kültəpədə Eneolit və Kür-Araz təbəqələri arasındakı steril layın olmasına əsaslanmışdır. Lakin yuxarıda qeyd etdiyimiz kimi, bu iki təbəqə arasında böyük kəsinti olmamışdır. Q.S.İsmayılov Kür-Araz mədəniyyətinin ilk mərhələsini e.ə. IV minilliyin sonuna aid etmiş və daha erkən mərhələnin ola biləcəyi ehtimalını irəli sürmüşdü. Tədqiqatçıların bu fikri Kür-Araz mədəniyyətinin inkişaf etmiş formada ortaya çıxması ilə bağlı olmuşdur. Qeyd etmək lazımdır ki, bu inkişaf səviyyəsi Eneolit mədəniyyətinin uzunmüddətli tərəqqisi sayəsində yaranmışdır. Son illərin tədqiqatları, xüsusilə I Kültəpənin alt laylarında Kür-Araz keramikasına Eneolit keramikası ilə birlikdə rast gəlinməsi bu mədəniyyətin ilk mərhələsini xarakterizə etməyə imkan verir. Demək olar ki, Kür-Araz mədəniyyətinin ilk mərhələsi II Kültəpədə bütövlükdə əks olunmuşdur.

Kür-Araz mədəniyyəti abidələrinin tarixləndirilməsinin başlıca kriteriyalarından biri, digər tapıntılara nisbətən daha çox olan və mədəniyyətin inkişafındakı dəyişiklikləri daha aydın əks etdirən keramika, xüsusilə gil qabların təhlilidir. Gil məmulatlarının inkişaf xüsusiyyətləri onların üçmərhələli xarakteristikasında özünü aydın göstərir.

Yuxarıda qeyd edildiyi kimi, birinci mərhələyə aid bir sıra materiallar, xüsusilə gil qablar öz yaxın bənzərlərini Eneolit abidələrində tapır. Bu mərhələnin qədimliyi həm də aşkar olunan metal əşyaların arxaik forması ilə təsdiq edilir. Belə ki, I Kültəpədə aşkar olunan iskənə tipli alətin, həmçinin II Kültəpənin alt laylarından əldə edilən bıçağın bənzərləri indiyədək Cənubi Qafqaz abidələrindən bəlli deyil. I Kültəpənin XII tikinti qatından 8,5 m dərinlikdən götürülmüş kömürün analizi e.ə. 2920 $\pm$ 90-cı ili göstərmişdir. Bu səviyyədən aşağıdakı 4 m qalınlığında olan mədəni təbəqədə tikinti qatlarının olduğu müəyyən edilmişdir. Buna görə də, I Kültəpənin alt qatlarını e.ə. IV minilliyin ikinci yarısına aid etmək olar. Fikrimizcə, I Kültəpənin alt qatları Kür-Araz mədəniyyətinin ilk mərhələsinə aiddir. Bu mərhələyə, həmçinin I Kültəpə, Göytəpə, Babadərviş və Qaraköpəktəpənin alt qatları aiddir. II Kültəpədə aşkar olunan arxeoloji materialların arxaik formasını nəzərə alaraq Kür-Araz mədəniyyətinin ilk mərhələsini e.ə. IV minilliyin ortaları və III minilliyin əvvəlinə aid edirik. Belə hesab edirik ki, Kür-Araz mədəniyyətinin meydana

gəlməsi ilə bağlı proseslər e.ə. IV minilliyin əvvəllərindən başlamışdır. Mingəçevir yaşayış yerinin İlk Tunc dövrü kompleksi, o cümlədən buradan aşkar edilən qəbirlər də arxeoloji materialların arxaik xüsusiyyətlərinə əsasən, birinci mərhələyə aid edilə bilər. Bizim fikrimizcə, Astara rayonunda tədqiq edilən Telmankənd kurqanları da bu mərhələyə aiddir. Bu kurqanların tarixləndirilməsində saplaqlı nizə ucluqları və tiyəşəkilli yastı baltaların mühüm əhəmiyyəti vardır.

Zaqafqaziyada aşkar olunan tunc nizə ucluqları B.A.Kuftindən başlayaraq e.ə. III minilliyə aid edilmişdir. Ur nekropolundan əldə edilən bu cür nizə ucluqları e.ə. III minilliyin birinci yarısına aid edilir. Həmin tarix Suriyanın Karxemiş və Amor abidələrindən aşkar olunan nümunələr üçün də qəbul edilmişdir. Telmankənd kurqanında nizə ucluqları yastı baltalarla birlikdə tapılmışdır. Bu tip baltalar Mesopotamiya və İranla e.ə. IV-III minilliklərdə geniş yayılmışdır. Xarakterik haldır ki, e.ə. IV-III minilliklərdə yastı baltalar nizə ucluqları ilə eyni kompleksdə aşkar olunmuşdur. Telmankənd kurqanından aşkar olunan nizə ucluğu və yastı baltalardan birinin tərkibində yüksək nikel qarışığının olması, onların Mesopotomiya ilə bağlılığına dəlalət etməkdədir. Buna görə də bu abidələrin qədim tarixi heç bir şübhə doğurmur.

İkinci mərhələnin tarixləndirilməsi üçün I Kültəpə və Göytəpədən götürülmüş kömür analizlərinin mühüm əhəmiyyəti vardır. Belə ki, I Kültəpənin ikinci mərhələyə aid edilən tikinti qatları, kömür analizi ilə e.ə. 2920 $\pm$ 90 –cı ildə müəyyən edilmiş səviyyədən aşağıda yerləşir. Göytəpənin $K_3$ təbəqəsindən götürülmüş kömürün analizi e.ə. 2574 $\pm$ 146-cı ili göstərmişdir. Beləliklə, Kür-Araz mədəniyyətinin ikinci mərhələsini, təqribən e.ə. 3000-2600-cü illərə aid etmək olar. Fikrimizcə, ikinci mərhələnin tarixini bir qədər də qədimləşdirərək, e.ə. 3200-cü ilə aid etmək mümkündür.

I Kültəpənin sonuncu mərhələyə aid 3 m qalınlığındakı təbəqəsindən iki tikinti qatı, II Kültəpədə isə altı tikinti qatı aşkar edilmişdir. Qeyd edildiyi kimi, bu mərhələnin keramikası Urmiya hövzəsi, Quruçay və Göndələnçay hövzəsinin materialları ilə bənzərlik təşkil edir. Gil məmulatının bəzi nümunələri öz bənzərlərini Amiranisqora, Kvaçxelebi, Xizanaantqora və Şenqavitdə tapır. Bu baxımdan II Kültəpənin üst qatlarından aşkar olunan kasalar, Araqaçın daş qutu qəbirlərinin materialları ilə bənzərlik təşkil edir. Belə bənzəyiş Şenqavitdə də izlənir. Bəlli olduğu kimi, bu abidələr Erkən Tuncla Orta tunc dövrünün qovşağında yerləşir. Kür-Araz mədəniyyətinin son dövrü Qobustanda da izlənir. Lakin bu mərhələnin sonu üçün xarakterik materiallar Yanıqtəpədən məlumdur.

Kür-Araz mədəniyyətinin son mərhələsini əks etdirən Şenqavit yaşayış yerinin üst qatlarından götürülmüş kömürün analizi e.ə. 2020 $\pm$ 80-ci ili göstərmişdir. Bu, Kür-Araz mədəniyyətinin Orta Tunc dövründə də davam etdiyini göstərir. Həmçinin tədqiqatlar göstərir ki, Kür-Araz mədəniyyəti bir qrup abidələrdə davam etdiyi halda, digərlərində kəsilmişdir. Bizim fikrimizə görə, bu, Kür-Araz mədəniyyətini əvəz edən Orta tunc dövrü mədəniyyətinin yayılması ilə

bağlı olmuşdur. Deyilənlər, Naxçıvan və Urmiya hövzəsi abidələrində daha yaxşı izlənmişdir. Bu regionda Orta tunc dövrünün ilk mərhələsi boyalı qabların yayılması ilə xarakterikdir. Bu mədəniyyət isə Cənubi Qafqaz abidələrində eyni şəkildə yayılmamışdır. Bu barədə növbəti başlıqda geniş məlumat veriləcəkdir.

Araşdırmalara əsaslanaraq, Kür-Araz mədəniyyətinin sonuncu mərhələsini e.ə. 2600-2300-cü illərə aid etmək olar. Nəzərə alınmalıdır ki, Azərbaycanın bir sıra abidələrində Kür-Araz təbəqəsi aşağıdan Enolit, yuxarıdan isə Orta Tunc dövrü təbəqəsi ilə məhdudlaşır. Şübhəsiz ki, bu fakt Kür-Araz mədəniyyətinin tarixləndirilməsinin Eneolit və Orta Tunc dövrü mədəniyyəti ilə bağlı olduğunu göstərir. Qafqazşünas arxeoloqlar Orta Tunc dövrü mədəniyyətinin ilk mərhələsini e.ə. III minilliyin ortaları və ikinci yarısı ilə tarixləndirməyə meyl edirlər.

Qeyd etmək olar ki, ilk mərhələdə Kür-Araz tayfaları Azərbaycanın bütün ərazisində eyni şəkildə yayılmamışdır. Fikrimizcə, bu mədəniyyətin erkən meydana çıxdığı ərazi Naxçıvan-Urmiya bölgəsi olmuşdur. İlk mərhələdə Kür-Araz mədəniyyətinin meydana gəldiyi areal Şərqi Anadolu və Gəncə-Qazax zonasını da əhatə etmişdir.

Cənubi Azərbaycanda arxeoloji abidələrin yaxşı öyrənilməməsi, bu mədəniyyətin cənub sərhədlərini izləməyə imkan vermir. Ehtimal ki, ilk vaxtlar bu mədəniyyət Muğan düzünə qədər yayılmışdır. Kür-Araz mədəniyyəti ikinci mərhələdə xüsusilə geniş inkişaf edərək, Azərbaycanın bütün ərazisinə yayılmışdır. Yarımköçəri maldarlığın inkişafı ilə bağlı olaraq, dağətəyi və dağlıq rayonlarda intensiv məskunlaşma olmuşdur. Kür-Araz mədəniyyəti Azərbaycandan Cənubi Qafqaz, Şimali Qafqaz və Şərqi Anadoluya yayılaraq, geniş ərazini əhatə etmişdir.

**İctimai quruluş, mədəni əlaqələr, inamlar.** Azərbaycan ərazisində yerləşən İlk Tunc dövrü abidələrinin tədqiqi Kür-Araz mədəniyyəti tayfalarının ictimai münasibətlərini müəyyn dərəcədə öyrənməyə imkan verir. Bu dövrdə əkinçilik, maldarlıq, dulusçuluq, metallurgiya və ev sənətkarlığının yüksək səviyyədə inkişaf etməsi, ictimai münasibətlərdə müəyyən irəliləyiş olduğunu göstərir. Əkinçilik və maldarlığın inkişafı əmək məhsuldarlığının artmasına, istehsal prosesinin mürəkkəbləşməsi ilə müşayiət olunan əmək bölgüsünə səbəb olmuş və onların müstəqil istehsal sahəsinə çevrilməsinə gətirib çıxarmışdır. Kür-Araz mədəniyyətinin cəmiyyəti inkişaf etmiş patriarxal münasibətlərlə xarakterizə edilir. Belə hesab edirik ki, cəmiyyətdə patriarxal başlanğıcın meydana çıxması, şumlama əkinçiliyinin yaranması və yarımköçəri maldarlığın inkişafı ilə bağlı olmuşdur. Bəzi tədqiqatçılar əkinçiliyi yalnız qadınlara məxsus peşə hesab edir. Lakin qeyd etmək lazımdır ki, istehsal prosesinin mürəkkəbləşməsi qadın əməyini ikinci yerə sıxışdırmışdır.

Kür-Araz yaşayış yerlərində tədqiq edilən binalar olduqca kiçik həcmlidir. Bu baxımdan, Mingəçevirdə tədqiq olunan sahəsi 112 $m^2$ olan bina istisnalıq təşkil edir. II Kültəpədə aşkar edilmiş evlərin ən kiçiyinin diametri 4,6 m, ən

böyüyününkü isə 7 m-dir. Yaşayış binalarının sahəsi ortalama 25-30 $m^2$-dir. Hər bir evin öz ocağı, taxıl quyusu və köməkçi tikintiləri vardır. Belə vəziyyət Babadərviş və I Kültəpədə də izlənmişdir. I Kültəpədə ən böyük evin sahəsi 30,5 $m^2$-dir. Ehtimal ki, bu evlərdə 5-6 nəfərdən ibarət olan bir ailə yaşamışdır. Qeyd etmək lazımdır ki, yaşayış yerlərində həm də böyük evlərə rast gəlinmişdir. Burada dairəvi planlı evlərdən birinin sahəsi 59 $m^2$ -dir. Şübhəsiz ki, bu dövrdə iki-üç ailədən ibarət patriarxal kollektivlər də olmuşdur.

O.H.Həbibullayevin fikrincə, dairəvi planlı böyük evlər daxili divarla iki hissəyə ayrılmışdır. Bu bölümlərdən birində xeyli miqdarda kömürləşmiş taxıl dənləri aşkar olunmuşdur. Onun fikrinə görə, burada saxlanan taxıl bütün əhaliyə aid olmuşdur. Bizim fikrimizcə, belə taxıl anbarlarında böyük ailələrin ərzaq ehtiyatı saxlana bilərdi. Bütün qəbiləyə aid edilə biləcək ümumi ərzaq anbarları Babadərviş və Yanıqtəpədə də aşkar olunmuşdur.

İstehsalın intensivləşməsi, şübhəsiz ki, ailələrin daha böyük kollektivlərdə birləşməsinə səbəb olmuşdur. Faktlar bu dövrdə suvarma əkinçiliyinin mövcud olduğunu göstərir. Bu isə müəyyən qrup insanların əməyinin birləşdirilməsini tələb edirdi. Ümumi yığıncaqların keçirildiyi ictimai binaların meydana çıxması ictimai idarə təşkilatlarının olduğunu göstərir. Bu baxımdan Kür-Araz mədəniyyətinin sonuncu dövrünə aid tapıntılar xüsusi əhəmiyyətlidir. II Kültəpə, Qaraköpəktəpə, Yanıqtəpə, Qobustanda müdafiə divarının qalıqları, bir sıra yaşayış yerlərində isə patriarxal ailələrinin yaşadığı çoxotaqlı evlərin qalıqları aşkar olunmuşdur. Bu dövrün yaşayış yerlərində rast gəlinən yanğın izləri, artıq tayfalararası münasibətlərin kəskinləşdiyini, basqınların gücləndiyini göstərir. Şübhəsiz ki, bu dövrdə müəyyən idarəetmə, yaxud ilkin dövlət qurumları mövcud olmuşdur. Bu dövrdə qəbilə üzvləri arasında ictimai bərabərsizliyin olduğunu Telmankənd kurqanlarının tədqiqi də sübut edir.

Arxeoloji materiallar Kür-Araz tayfaları ilə Yaxın Şərq ölkələri arasında mübadilənin inkişaf etdiyini göstərir. Bu münasibətlər Eneolit dövründən mövcud olmuş, İlk Tunc dövründə isə daha da genişlənmişdir. Şübhəsiz ki, ticarət münasibətlərində iribuynuzlu heyvan və metal əsas yer tutmuşdur. Azərbaycan abidələrində yarımfabrikatlar tökmək üçün qəliblərin aşkar edilməsi hazır metal məmulatının ticarət münasibətlərində istifadə olunduğunu göstərir. İlk Tunc dövrünə aid, tərkibində yüksək nikel qarışığı olan metal əşyalar da belə mübadilənin olduğuna sübutdur. Azərbaycanda nikel yataqları olmadığından, nikelli tuncun Mesopotamiyadan gətirildiyi düşünülməkdədir.

Kifayət qədər dəlillər olmasa da, bu dövrdə obsidian ticarətinin müəyyən yer tutduğunu söyləmək olar. Kür-Araz abidələrində obsidianın emalı ilə bağlı istehsal artıqlarına rast gəlinmişdir.

Araşdırmalar göstərir ki, mübadilə Kür-Araz mədəniyyətinin üçüncü mərhələsində intensiv xarakter almışdır. Bunun nəticəsində sərvət müəyyən qrup insanların əlində toplanmış və ictimai münasibətlərdə əsaslı dəyişiklik yaranmışdır.

Kür-Araz abidələrindən aşkar olunan bir sıra materiallar, xüsusilə vaza tipli hündür dabanlı qablar silindrik çıxıntıları olan ortası çökük qapaqlar Kür-Araz mədəniyyəti tayfalarının qədim Mesopotamiya ilə əlaqələrinin olduğunu göstərir. Böyük ehtimalla bu qablar Qədim Şərq nümunələrinə bənzətmələr əsasında hızırlanmışdır. Şübhəsiz ki, belə münasibətlər birtərəfli deyil, ikitərəfli xarakter daşımışdır. I Kültəpədən aşkar olunan arxaik formalı oraq və dördtilli nizə ucluğu, bu tip əşyaların qonşu ölkələrə Azərbaycandan yayıldığını göstərir. Balta tökmək üçün istifadə olunan ikitaylı gil qəliblərin də tədqiqi anoloji nəticələrə gətirib çıxarır.

Yaxın Şərq ölkələri ilə mübadilənin mövcudluğunu Kür-Araz abidələrindən aşkar olunan göy şirli pasta muncuqlar da sübut edir. Məlum olduğu kimi, belə muncuqlar Mesopotomiyadan gətirilmişdir.

Azərbaycanın arxeoloji abidələrində aşkar olunan materiallar Kür-Araz mədəniyyəti tayfalarının ideoloji təsvirlərini müəyyən dərəcədə bərpa etməyə imkan verir. Abidələrin tədqiqi göstərir ki, bu dövrdə, xüsusilə iribuynuzlu heyvanlara sitayiş müəyyən yer tutmuşdur. Bu adətən tədqiqatçılar tərəfindən öküz kultu ilə bağlanır. Öküz kultunun mövcudluğu, öküz başı formalı ocaq qurğuları və öküz fiqurları ilə də təsdiq olunur. Öküz başı formalı ocaq qurğuları II Kültəpədə ictimai binaların içərisində aşkar olunmuşdur. XI tikinti qatında onlar qəbilənin ümumi toplantı yeri olan ziyarətgahdan tapılmışdır.

II Kültəpənin VI tikinti qatında aşkar olunan ziyarətgah dördkünc planlı olmuşdur. Burada dairəvi formalı ocağın yaxınlığında dördkünc formalı postament, onun üzərində isə öküz başı formalı sitayiş əşyaları aşkar olunmuşdur. Şübhəsiz ki, burada öküz kultu ilə bağlı müəyyən ayinlər icra edilmişdir. Gil qabların üzərində rast gəlinən yarımşar formalı qulplar da öküz kultu ilə bağlıdır. Onların praktiki, dekorativ və ritual mənası olmuşdur. Q.S.İsmayılovun fikrinə görə, onlar mühafizə məqsədi daşımışdır.

Qeyd etmək lazımdır ki, Kür-Araz mədəniyyətinin ilk mərhələsində öküz başı formasında hazırlanmış ocaqlar daha realist, son mərhələdəkilər isə sxematikdir. Bu dəyişiklik gil qabların qulplarının formasında da özünü göstərir. Ehtimal ki, bu, Kür-Araz mədəniyyətinin üçüncü mərhələsində xırdabuynuzlu heyvanların artaraq, üstünlük təşkil etməsi ilə bağlıdır. Bu dövrdə gil qabların üzərində xırdabuynuzlu heyvanlarla bağlı təsvirlərə rastlanır.

Kür-Araz mədəniyyəti tayfalarının sitayiş əşyalarından biri də nalşəkilli ocaq qurğuları olmuşdur. II Kültəpədən aşkar olunan bu tip ocaq qurğularının mərkəzi hissəsi insan başının təsviri ilə tamamlanır. Yuxarıda qeyd etmişdik ki, bu ocaqlar oturmuş insan fiqurlarına bənzədilmişdir. Fikrimizcə, bu qurğular ev ocağının himayədarını əks etdirir. K.X.Kuşnaryeva və T.N.Çubinişvilinin fikrinə görə, bu ocaq qurğuları ocağın ətrafında oturmuş kişi fiqurunu təcəssüm etdirir və ev ocağının bərəkətləndirilməsi ritualının rəmzidir.

Bu cür ocaq qurğularının hər bir evdə aşkar olunması, cəmiyyətdə inanc birliyinin olduğunu göstərməklə, ümumi ziyarətgahlarla yanaşı, hər bir evdə

bərəkət Tanrısına sitayiş edildiyini göstərir. Şübhəsiz ki, dua mərasimləri müəyyən ritualın icrası ilə müşayiət olunmuşdur. Duaların məzmunu, ehtimal ki, ailənin müvəffəqiyyətini təmin edən ev ocağının saxlanması və onun himayədarı ilə bağlı olmuşdur.

Gil qabların üzərində rast gəlinən müəyyən təsvirlər də şübhəsiz ki, insanların dini inamları ilə bağlıdır. Daha çox rastlanan spiral və aypara təsvirləri Kür-Araz tayfaları arasında astral inancların yayıldığını göstərir. Tədqiqatçıların fikrinə görə, aypara təsvirləri Tanrının kişi ilə bağlılığını göstərməklə, patriarxal münasibətlərin olduğunu təsdiq edir.

Araşdırmalar göstərir ki, əvvəlki Eneolit dövründən fərqli olaraq, bu dövrdə dəfnlər yaşayış binasından kənara çıxarılmışdır.

## ORTA TUNC DÖVRÜ

Azərbaycanın Orta Tunc dövrü abidələrindən aşkar olunan arxeoloji materiallar regional xüsusiyyətlərinə görə bir-birindən kəskin şəkildə fərqlənir. Bu dövrün arxeoloji abidələri həm tipoloji, həm də regional xüsusiyyətlərinə görə xarakterizə edilmişdir. Orta Tunc dövrünün abidələri başlıca olaraq iki böyük qrupa bölünür. Birinci qrupa boyalı qablarla, ikinci qrupa isə qara cilalı, basma naxışlı keramika ilə xarakterizə edilən abidələr daxildir.

**Boyalı qablar mədəniyyətinin arxeoloji abidələri.** Bu mədəniyyətə aid abidələr Azərbaycanda başlıca olaraq Naxçıvan və Urmiya hövzəsini əhatə etmişdir. Lakin Azərbaycanın digər regionlarında da bu mədəniyyətin izlərinə rast gəlinmişdir. Naxçıvan ərazisində yerləşən Orta Tunc dövrü abidələrini iki qrupa ayırmaq olar. Birinci qrupa daxil olan yaşayış yerləri əkinçilik və maldarlıq üçün əlverişli olan ovalıqlarda yerləşir. Bu qrupa aid abidələr mədəni təbəqənin daha qalın olması ilə fərqlənir. Belə abidələr sırasına I Kültəpə, II Kültəpə, Şahtaxtı, Qızılburun, Şortəpə yaşayış yerləri daxildir. İkinci qrupa daxil olan abidələr dağlıq və dağətəklərində yerləşir. Onların bir qismində mədəni təbəqə olduqca az yığılmış, bəzilərində isə Orta Tunc dövrü yalnız yerüstü materiallarla təmsil edilmişdir. Sarıdərə, Qulalıtəpə, Qalacıq, Oğlanqala, Qazançı, Quyuludağ, Kərki, Kükü və b. abidələr bu sıraya daxildir. İkinci qrup

abidələrin meydana çıxması Orta Tunc dövründə əhalinin yarımoturaq və yarımköçəri həyat tərzi ilə bağlı olmuşdur. Bu barədə aşağıda bir qədər geniş məlumat veriləcəkdir.

I Kültəpə yaşayış yerinin Orta Tunc dövrü təbəqəsi 2 m qalınlığındadır. Bu təbəqə abidənin üzərindən 1,5-2,5–3,5-4,5 m dərinlikdə yerləşir. Bu dövrə aid tikinti qalıqları olduqca pis qaldığından, onların ölçülərini müəyyən etmək mümkün olmamışdır. Salamat qalmış divar qalıqlarından binaların dördkünc planda olduğu, tikintidə çiy kərpic və daşdan istifadə edildiyi müəyyənləşdirilmişdir. Evlərin döşəməsi gillə suvanmışdır. Bəzi yerlərdə daş döşəmə qalıqları da qeydə alınmışdır. O.H.Həbibullayev daş döşənmiş binadan anbar kimi istifadə edildiyini söyləmişdir.

Arxeoloji tədqiqatlar zamanı yaşayış yerindən zəngin maddi-mədəniyyət nümunələri, o cümlədən daş, sümük və tuncdan hazırlanmış müxtəlif əmək alətləri tapılmışdır. Aşkar olunan gil məmulatı, başlıca olaraq, çəhrayı, bəzən isə boz və qara rəngdə, yaxşı bişirilmişdir. Çəhrayı rəngdə bişirilmiş gil məmulatı içərisində boyalı qablar üstünlük təşkil edir. Onlar küpə, kasa, badya və çaynik tipli qablardan ibarətdir. O.H.Həbibullayev I Kültəpənin Orta və Son Tunc dövrünə aid boyalı qablarını üç tipə bölərək, birinci tipə monoxrom boyalıları, ikinci tipə polixrom boyalıları, üçüncü tipə isə monoxrom və polixrom boyalı qabları daxil etmişdir.

II Kültəpə yaşayış yerinin Orta Tunc dövrü təbəqəsi abidənin müxtəlif yerlərində, dörd qazıntı sahəsində öyrənilmişdir. Birinci qazıntı sahəsində aparılan tədqiqatlar əhəmiyyətli nəticələr vermişdir. Bu sahədə dörd tikinti qatı aşkar olunmuşdur. Orta Tunc dövrünə aid mədəni təbəqə abidənin üzərindən 0,5-4,5 m dərinlikdə yerləşir. Tikinti qatları V.H.Əliyev tərəfindən aşağıdan yuxarıya doğru sıralanmışdır.

Birinci tikinti qatı 1-1,2 m qalınlığındadır. Bu tikinti qatında aşkar olunan müdafiə divarının uzunluğu 35 m, eni 2-2,5 m, hündürlüyü 1,4 m-dir. Divar gil məhlulu ilə bərkidilmiş iri çay daşlarından tikilmişdir. Müdafiə divarı dördkünc formalı bürclər və kontrforslarla möhkəmləndirilmişdir. Müdafiə divarının şimal-şərq hissəsindəki bürcün uzunluğu 7,4, eni 2,6, hündürlüyü 1,4-2,3 m-dir. Cənub-şərqdəki bürcün uzunluğu 1,2, eni 2, hündürlüyü 0,8 m-dir. Göründüyü kimi müdafiə divarının bürcləri həcminə görə müxtəlif olmuşdur. Şimal-şərq tərəfdəki bürcün yaxınlığında daş döşənmiş küçə aşkar edilmişdir.

Birinci tikinti qatından əldə edilən materiallar, başlıca olaraq, keramika, oraq dişləri, daş çəkic, dən daşları, həvənglər, dəstələr, ox ucluqları və s. maddi-mədəniyyət qalıqlarından ibarətdir. Arxeoloji materialların əksəriyyətini təşkil edən keramika boz, qara və çəhrayı rənglidir. Keramika məmulatı Kür-Araz mədəniyyətinin xüsusiyyətlərini daşımaqdadır. Çəhrayı rəngli gil məmulatının bir qismi monoxrom boyalı qablardan ibarətdir. Birinci tikinti qatında aparılan tədqiqatlar zamanı müdafiə divarının hər iki tərəfindən xeyli miqdarda monoxrom boyalı qab parçaları aşkar edilmişdir.

V.H.Əliyevin fikrincə, birinci qatda aşkar olunan müdafiə divarı bir neçə tikinti dövrü ərzində mövcud olmuşdur.

İkinci tikinti qatı da 1-1,2 m qalınlığındadır. Buradan Narınqalaya aid divar, yaşayış evləri, təsərrüfat binalarının və dulus kürəsinin qalıqları aşkar olunmuş, həmçinin keramika məmulatı və digər maddi-mədəniyyət nümunələri tapılmışdır.

Bu tikinti qatından dördkünc formalı dörd bina qalığı aşkar olunmuşdur. Binaların divarı güclü dağıntıya məruz qaldığından, onların ümumi sahəsini hesablamaq mümkün olmamışdır. Onların içərisində nisbətən yaxşı qalan ikinci binanın sahəsi 30 $m^2$-dir. Binalardan birinin içərsində bazalt tipli daşın qəlpələrinə, zərb alətlərinə, dən daşlarına, daş çəkiclərə rast gəlinməsi göstərir ki, həmin binadan istehsal emalatxanası kimi istifadə edilmişdir. İkinci və dördüncü binaların arasında, sahəsi 25 $m^2$ olan, daş döşənmiş küçənin bir hissəsi aşkar olunmuşdur.

Bu tikinti qatından tapılmış monoxrom boyalı qablar formasına və naxışlanma texnikasına görə, birinci tikinti qatının eyni tipli qablarını təkrar edir. Boz və qara rəngli qabların bir qismi Kür-Araz mədəniyyətinin xüsusiyyətlərini daşımaqdadır. Bəzi qablarda İlk Tunc dövrü üçün xarakterik olan yarımşarşəkilli qulplar da var.

Tikinti qatının üst laylarında həndəsi motivlə və heyvan şəkilləri ilə naxışlanmış polixrom boyalı qablara da rast gəlinmişdir. Bu təbəqədən götürülən kömür analizi e.ə. 1800-cü ili göstərmişdir.



Şəkil 58. Qazançıqalanın monoxrom boyalı keramikası

Üçüncü tikinti qatının qalınlığı 1-1,3 m-dir. Mədəni təbəqə tikinti qalıqları, gil qab parçaları, kül layları, kömür və osteoloji qalıqlardan ibarət olmuşdur. Birinci qazıntı sahəsində yerləşən bu tikinti qatında tək və çoxotaqlı bina qalıqları, gil ocaq qurğuları aşkar olunmuşdur. Birinci və ikinci binalar tamamilə dağılmışdır. Divarların salamat qalmış hissələrinə əsasən demək olar

ki, onlar dördkünc formalı olmuşdur. Divarlar çay daşlarından hörülərək, gil məhlulu ilə bir-birinə bərkidilmişdir. İkinci binanın yaxınlığında silindrik formalı, divarları hamarlanmış təsərrüfat quyusu aşkar edilmişdir. Onun içərisindən və ətrafından aşkar olunan arpa dənləri, quyudan taxıl ehtiyatı saxlamaq üçün istifadə olunduğunu göstərir.

Üçüncü binanın yalnız iki divarının qalığı aşkar olunmuşdur. Onun gillə suvanmış döşəməsində həsir qalıqlarının və təsərrüfat quyusunun olduğu müəyyən edilmişdir. Binaların içərisindən daş əmək alətləri, monoxrom boyalı qab parçaları tapılmışdır.

Çoxotaqlı beşinci binanın yalnız təməlinin bir hissəsi qalmışdır. O arakəsmə divarla bir neçə hissəyə bölünmüşdür. Yaşayış binasının ümumi sahəsi 50 $m^2$-dir. Binanın döşəməsinə çay daşları düzülərək, döyəclənmişdir. Bu binaya aid otaqlardan birinin içərisindən daş büt və ortasında nov açılmış uzunsov daş aşkar olunmuşdur. V.H.Əliyevin fikrinə görə, bu tikinti ziyarətgaha aid binanın qalıqlarıdır. Onun ətrafından dən daşları, həvəng dəstələrinin qırıqları, ox ucluqları və keramika tapılmışdır.

Bu tikinti qatında, yaşayış binalarının arasında xeyli miqdarda gil ocaq qalıqları aşkar olunmuşdur. Onların biri dördkünc formalı, qalanları isə «P» şəkillidir. Ocaqlardan uzun müddət istifadə olunduğuna görə, divarları qızarmışdır. Onların ətrafından gil butə parçaları, bazalt cinsli daşdan çəkiclər aşkar olunmuşdur. Şübhəsiz ki, yaşayış yerinin bu hissəsi sənətkarların-metallurqların məskəni olmuşdur.

Birinci qazıntı sahəsində qeydə alınan dulusçuluq emalatxanasının sahəsi 15 $m^2$-dir. Onun içərisindən kül, kömür qalıqları, monoxrom boyalı və sadə qab parçaları aşkar olunmuşdur.

İkinci qazıntı sahəsindən üç bina qalığı aşkar olunmuşdur. Bu binalar dördkünc formalı olub, çay daşlarından hörülmüş təməl üzərində, çiy kərpiclərdən tikilmişdir. Üçüncü binanın yaxınlığında ocaq qalıqları və onun üzərində yerləşdirilmiş gil tava aşkar olunmuşdur. Şübhəsiz ki, bu ocaq çörək bişirmək üçün olmuşdur. Ocağın ətrafında döşəməyə dağılmış taxıl dənləri tapılmışdır.

Üçüncü tikinti qatında, Narınqalanın içəri tərəfində üçotaqlı bina qalıqları aşkar olunmuşdur. Şimal tərəfdən müdafiə divarına söykənən bu binanın təməli çay daşlarından tikilmişdir. Binanın bir hissəsi qazıntı sahəsindən kənara çıxır. Onun qeydə alınan hissəsinin sahəsi 30 $m^2$-dir. Üçüncü tikinti qatından aşkar olunan arxeoloji materiallar dən daşları, çəkic, sürtkəc, bülöv, həvəng dəstələri, sümükdən hazırlanmış əmək alətləri, monoxrom və polixrom boyalı qablar, boz, qara və çəhrayı rəngli sadə qablardan ibarətdir. Bu tikinti qatında monoxrom boyalı qablar sayca azalır. Heyvan şəkilləri ilə bəzədilmiş polixrom boyalı qablara isə daha çox rastlanır. Yaşayış yerinin ən üst təbəqəsində yerləşən dördüncü tikinti qatı



Şəkil 59. Orta Tunc dövrünə aid monoxrom boyalı kasalar:
1,2 - Yayıcı, 3, 4 - Çalxanqala, 5, 6 - Qaraçuq,
8 - Qıvraq, 7 - Şahtaxtı

70-80 sm qalınlığındadır.

Bu təbəqədə müxtəlif yaşayış binalarının və dulus emalatxanalarının qalıqları, heyvan sümükləri, əmək alətləri aşkar olunmuşdur.

Tikinti qatından aşkar olunan birinci bina dulus emalatxanasının qalıqlarından ibarətdir. Onun divarları iri çay daşlarından hörülmüşdür. Binanın içərisindəki dulus kürəsinin yalnız odluğu salamat qalmışdı. Dairəvi formalı

kürənin diametri 1,2 m-dir. Onun ətrafında 9 $m^2$ sahəyə yayılmış kül və kömür qalıqları izlənmişdir. Bu tikinti qatından aşkar olunan üçüncü, beşinci və yeddinci bina çoxotaqlı, digərləri isə birotaqlıdır. Binaların içərisindən əmək alətləri, gil qab parçaları tapılmışdır.

Birinci qazıntı sahəsinin şərq hissəsində silindrik formalı 4 təsərrüfat quyusunun olduğu müəyyən edilmişdir. Onların dərinlikləri 0,9-1,6 m arasındadır. Quyuların dibində çürümüş taxıl qalıqları aşkar edilmişdir.

İkinci qazıntı sahəsinin 4-cü tikinti qatında şimal-cənub istiqamətində inşa edilmiş müdafiə divarının qalıqları qeydə alınmışdır. Divar iri həcmli çay daşlarından hörülmüş təməl üzərində kvadrat formalı çiy kərpiclərdən tikilmişdir. O, tikinti texnikasına görə birinci ilə eyni olub ondan bir qədər içəridə yerləşir. Arxeoloji materiallara əsaslanaraq demək olar ki, ikinci müdafiə divarı e.ə. XVII-XVI əsrlərə aiddir. Bu dövrdə əvvəlki müdafiə divarının üzərində dulus kürəsinin qalıqlarına rast gəlinməsi onun əhəmiyyətini itirdiyinə sübutdur.

İkinci müdafiə divarından xaricdə çiy kərpicdən hörülmüş, dördkünc formalı bina qalıqları qeydə alınmışdır. Onun yaxınlığından kül yığını, yanmış sümüklər, buynuz və keramika parçaları əldə edilmişdir. Yaxınlıqda gil ocağın qalıqlarının olması və tavaşəkilli, qalın divarlı gil əşyalara, taxıl dənlərinə təsadüf edilməsi, burada çörək bişirildiyini söyləməyə imkan verir.

II Kültəpənin dəqiq stratiqrafiyası yalnız Azərbaycanın deyil, bütün Cənubi Qafqazın Orta Tunc dövrü mədəniyyətinin öyrənilməsi üçün əhəmiyyətlidir. Bu abidənin Orta Tunc dövrü təbəqəsi V.H.Əliyev tərəfindən 4 dövrə bölünmüşdür. Birinci dövr e.ə. XX-XIX, ikinci e.ə. XVIII-XVII, üçüncü e.ə. XVII-XVI, dördüncü e.ə. XV-XIV əsrlərə aid edilmişdir. Aşkar edilmiş arxeoloji materiallara və yaşayış yerinin planına əsaslanaraq, V.H.Əliyev II Kültəpəni şəhər tipli yaşayış məskəni kimi xarakterizə etmişdir.

Şahtaxtı yaşayış yeri Kəngərli rayonunun Şahtaxtı kəndi yaxınlığında, Qıvraq yaylasının cənub qurtaracağında, əlverişli coğrafi mövqedə salınmışdır. Ə.K.Ələkbərov tərəfindən 1936-cı ildə yaşayış yerində aparılan kiçik qazıntı işləri zamanı 3 m qalınlığı olan mədəni təbəqəyə rastlanmışdır. 1979-1981-ci illərdə Şahtaxtı yaşayış yerində 100 $m^2$ sahədə arxeoloji qazıntı işləri aparılmışdır. Qazıntılardan Orta Tunc dövrünə aid müdafiə divarının qalıqları, dən daşları, gil məmulatı aşkar olunmuşdur. Tapıntılar arasında monoxrom boyalı qablar və basma naxışlı gil qab parçaları da vardır. Burada aşkar olunan yaşayış binaları dağıldığından, onların planını müəyyən etmək mümkün olmamışdır. Salamat qalmış divar qalıqlarına əsasən demək olar ki, onların tikintisində çay daşı və kərpicdən istifadə edilmişdir. Müdafiə divarının uzunluğu 20, eni 2,3, hündürlüyü 1,2 m-dir.



Şəkil 60. II Kültəpə və Şahtaxtıdan aşkar olunmuş boyalı qablar.
1, 5, 6, 7, 8 - II Kültəpə, 2, 3, 4, 9, 10 - Şahtaxtı

Şahtaxtı yaşayış yerinin yaxınlığında iki böyük nekropol yerləşir. Onlardan biri yaşayış yerinin şimal-şərq, digəri isə cənub-qərb tərəfindədir. Hər iki nekropolda Tunc dövrünün müxtəlif mərhələlərinə və Erkən Dəmir dövrünə aid qəbir abidələri öyrənilmişdir. Şimal-şərqdə yerləşən nekropolda Orta Tunc dövrünə aid qəbirlər çoxluq təşkil edir. Qəbirlər daş qutu tiplidir. Onlar yanlarda

iri sal daşlarla qurularaq üzəri iki, yaxud bir neçə yastı daşla qapadılmışdır. Bəzi daş qutularda örtük daşlarının olduğu qeydə alınmamışdır. Qəbirlərin bir qrupu kromlexlə əhatə olunmuş və üzərində kurqan düzəldilmişdir. Kurqanlar daş qarışıq torpaq örtüyündən ibarətdir.

1936-cı ildə bu nekropolda Ə.K.Ələkbərov tərəfindən tədqiq edilən kromlexli daş qutu tipli qəbirdən bütöv at skeleti, 1 ədəd polixrom boyalı küpə, 29 ədəd boz rəngli sadə qab və başqa əşyalar aşkar edilmişdir. Digər qəbirlərin tədqiqi zamanı, monoxrom və polixrom boyalı qablar kompleks şəkildə aşkar olunmamışdır.

Şahtaxtı nekropolunun Orta Tunc dövrü dəfnlərinin xarakterik cəhətlərindən biri qəbirlərdə insan skeletinin olmamasıdır.

İkinci nekropoldakı qəbirlər də daş qutu tiplidir. Lakin buradakı daş qutular yerüstü əlamətlərə malik deyil. Bu nekropol təsərrüfat işləri görülərkən, təsadüfən aşkar olunmuşdur. Bu nekropolda qeydə alınan qəbirlərdən bir qisminin materialları V.H.Əliyev tərəfindən nəşr edilmişdir. Qəbirlərdən polixrom boyalı qablar, tunc əşyalar, bir ədəd silindrik möhür tapılmışdır. Bu nekropolda tədqiq edilən qəbirlərin əksəriyyəti Son Tunc və Erkən Dəmir dövrünə aiddir. Qəbir abidələri, başlıca olaraq, daş qutu tiplidir. Bu qəbirlərdə insan skeletinə rast gəlinməmiş, bəzilərində kül qalıqları izlənmişdir.

Qızılburun yaşayış yeri Naxçıvan şəhərindən 18 km cənubda, Araz çayının sol sahilində, Qızılburun adlanan ərazidə yerləşir. Yaşayış yerinin salamat qalan hissəsinin sahəsi 2 ha-dır.

Burada, 1969-cu ildə iki sahədə arxeoloji qazıntı işləri aparılmışdır. Birinci sahədəki kəşfiyyat xarakterli qazıntı işlərinin sahəsi 3 x 3,5 m olmuşdur. Buradan boz və çəhrayı rəngli keramika, monoxrom boyalı qab parçaları, qurama oraq dişləri aşkar edilmişdir. İkinci qazıntı sahəsində (10 x 10 m) 3 metr qalınlığında olan mədəni təbəqənin daha yaxşı qaldığı müəyyən edilmişdir. Qazıntılar zamanı, 1,6 m dərinlikdən Orta Tunc dövrünə aid dördkünc və oval formalı bina qalıqları aşkar edilmişdir.

Dairəvi formalı binanın divarları çay daşlarından hörülərək, gil məhlulla bərkidilmişdir. Dördkünc planlı binanın divarları isə çay daşları və möhrədən tikilmişdir. Araşdırma zamanı binalardan boz və çəhrayı rəngli sadə keramika, monoxrom boyalı qab parçaları, obsidian plastinkalar, oraq dişləri, dən daşları, ox ucluqları, sümük bizlər aşkar olunmuşdur. Tapıntılar içərisində iri və xırdabuynuzlu heyvanlara aid xeyli miqdarda osteoloji qalıqlara da rast gəlinmişdir. Bəzək əşyasının tökülməsi üçün istifadə olunan gil qəlibin tapılması, xüsusilə diqqətəlayiqdir. Arxeoloji materiallara əsasən




Şəkil 61. Orta Tunc dövrünün monoxrom boyalı qablarından nümunələr.
1, 2 - Şortəpə, 3, 4, 6, 7 - Yaycı, 5 - II Kültəpə

demək olar ki, Qızılburun yaşayış yeri Orta Tunc dövründə Azərbaycanın başlıca istehsal mərkəzlərindən biri olmuşdur.




Şəkil 62. II Kültəpə və Şahtaxtıdan aşkar olunmuş boyalı qablar.
1, 3, 4 - Şahtaxtı, 2, 5, 6 - II Kültəpə

Qızılburun nekropolu yaşayış yerinin yaxınlığında yerləşir. Nekropol 1895-ci ildə daş qutu tipli qəbirlərin təsadüf nəticəsində dağılması ilə qeydə alınmışdır.

N.V.Fyodorovun və İ.İ.Meşaninovun apardığı qazıntılar nəticəində nekropolda Orta Tunc dövrünə bir neçə qəbir abidəsi öyrənilmişdir. N.V.Fyodorov qazıntılardan əldə etdiyi materialları kompleks şəkildə toplamadığından və qəbirlərin təsvirini vermədiyindən, onların haqqında geniş fikir söyləmək mümkün deyil.



Şəkil 63. Qızılburundan aşkar olunmuş polixrom boyalı küpə

İ.İ.Meşaninovun açdığı daş qutu qəbirlər üçün başlıca olaraq kollektiv dəfnlər xarakterikdir. Skeletlər müxtəlif istiqamətlərə yönəlmiş vəziyyətdə, bükülü halda dəfn edilmişdir. Qəbir avadanlığı tunc silah, bəzək əşyaları, gil

qablardan ibarət olmuşdur. Gil qablar, başlıca olaraq, çəhrayı, bəzən boz rəngdə bişirilmişdir. Çəhrayı rəngli qabların bir qismi monoxrom və polixrom boyalarla naxışlanmışdır.



Şəkil 64. Şahtaxtı və Qızılburundan aşkar olunmuş boyalı qablar.
1, 2, 3 - Şahtaxtı, 4, 5, 6 - Qızılburun

Arxeoloji ədəbiyyatda Qızılburun daş qutularının tarixləndirilməsi ilə bağlı müxtəlif fikirlər mövcuddur. Hazırda V.H.Əliyev Qızılburun nekropolunun Orta Tunc dövrü materiallarını e.ə. XVII-XIV əsrlərə aid edir.

Nəhəcir yaşayış yeri Naxçıvan şəhərindən 30 km şimal-şərqdə, Culfa rayonunun eyni adlı kəndi ərazisində yerləşir. Yaşayış yeri Nəhəcir dağının ətəyi boyunca cənub-şərq istiqamətində uzanır. Yerüstü materiallar içərisində Orta Tunc dövrünə aid boz və çəhrayı rəngli keramika ilə bərabər, bu dövrə aid boyalı qablar, həmçinin Orta əsr materialları da tapılmışdır. Təbii aşınma nəticəsində Nəhəcir yaşayış yerində meydana gələn kəsiklərdə daşdan hörülmüş tikinti qalıqları, boyalı qablar, əmək alətləri və osteoloji qalıqlar aşkara çıxmışdır. Yaşayış yerində mədəni təbəqənin qalınlığı 3 metrdən artıqdır. Abidənin üzərindən toplanan materiallar həvənglər, dəstələr, dən daşları, oraq dişləri, monoxrom boyalı qablardan ibarətdir.

Nəhəcir nekropolu yaşayış yerinin şərq qurtaracağında yerləşir. Nekropol şimaldan Nəhəcir dağı, qərbdə Tunc dövrünün yaşayış yeri, cənubda Nəhəcir kəndi, şərqdə torpaq yolla məhdudlaşır. Buradakı qəbirlərin bir çoxunun yerüstü əlamətləri itmişdir. Lakin diametri 9-11 metr olan kromlexlər indi də qalmaqdadır. Nekropoldakı qəbirlərin bir neçəsi vaxtilə qazılıb, dağıdılmışdır. Nekropoldakı kromlexlərdən birinin tədqiqi
göstərdi ki, qəbir kamerası torpaqda qazılmış oval çaladan ibarətdir. Nəhəcir nekropolundan aşkar olunan materiallar monoxrom boyalı küpə və kasa tipli qablardan ibarətdir. Bizim A.Q.Seyidovla apardığımız araşdırmalar zamanı həmçinin basma naxışlı keramika məmulatı da aşkar olunmuşdur.

Şortəpə yaşayış yeri Şərur rayonunun İbadulla kəndi yaxınlığında, Araz çayının sol sahilində yerləşir. Abidə yer səviyyəsindən 1,5-2 metr hündürlükdə yerləşən oval təpədən ibarət olub, sahəsi 1500 $m^2$-dir. 1936-cı ildə Ə.K.Ələkbərov Şortəpədə kəşfiyyat xarakterli qazıntı işləri aparmışdır. Qazıntı işləri 3 metr dərinliyədək davam etdirilmişdir. Yaşayış yerində İlk, Orta və Son Tunc dövrlərinə aid mədəni təbəqələrin olduğu müəyyən edilmişdir. Abidənin Orta Tunc dövrünə aid təbəqəsindən sadə və boyalı qablar aşkar olunmuşdur. Abidə geniş qazıntı işləri ilə öyrənilmədiyindən, onun planı və tikintilərin xarakteri haqqında elmi fikir söyləmək çətindir.

Şortəpə nekropolu yaşayış yerinin cənub-qərbində yerləşir. 1939-cu ildə bu ərazidə kanal qazılarkən nekropol dağıdılmış, buradan xeyli monoxrom boyalı qablar aşkar edilmişdir. Başlıca olaraq küpə, çölmək və kasa tipli qablardan ibarət olan arxeoloji materiallar hazırda Naxçıvan Dövlət Tarix Muzeyində saxlanılır. Qəbirlərin forması və dəfnlər haqqında heç bir məlumat qalmamışdır.

Yuxarıda qeyd etdiyimiz kimi, ikinci qrupa daxil olan yaşayış yerlərində mədəni təbəqə az yığılmış, bəzilərində isə yığılmamışdır. Yerüstü materiallar arasında Orta Tunc dövrü üçün xarakterik olan boyalı qablar, dən daşları, sürtgəc və digər maddi mədəniyyət nümunələri qeydə alınmışdır. Bu qrupa daxil olan yaşayış yerlərinin bəzisinin yaxınlığında Orta Tunc dövrünə aid böyük nekropola rast gəlinmişdir. Belə abidələrdən biri Kükü yaşayış yeridir.

Kükü yaşayış yeri eyni adlı kəndin girəcəyində, Küküçayın sağ sahilində yerləşir. Yaşayış yeri nalşəkilli formaya bənzəyən iki təpədən ibarətdir. Abidənin

üzərində daş yığınlarına, bəzi yerlərdə daşdan tikilmiş divar qalıqlarına rastlanmışdır. Yerüstü materiallar arasında çəhrayı və boz rəngli keramikaya, daşdan hazırlanmış müxtəlif əmək alətlərinə rast gəlinmişdir.

Kükü nekropolu yaşayış yerinin şimal-şərqində, Kükü kəndinin içərisində yerləşir. Nekropoldakı qəbirlər kurqanlardan ibarətdir. Bu kurqanlardan ikisi yol çəkilərkən dağıdılmışdır. Dağıdılmış kurqanlar V.B.Baxşəliyev tərəfindən tədqiq edilərək, nəşr olunmuşdur. Kurqanaltı qəbirlər küncləri dəyirmiləşdirilmiş dördkünc formalı torpaq çaladan ibarət olmuşdur. Qəbir avadanlığını örtən torpaq üzərində nazik kül qatına rastlanmışdır. Mərasimdən sonra qəbirin üzəri nəhəng torpaq kurqanla örtülmüşdür. Qəbirlərdə insan skeleti qeydə alınmamışdır. Birinci qəbirdən bir böyük monoxrom boyalı küpə və xeyli miqdarda boz, qara rəngdə bişirilmiş, cilalanmış və cızma ornamentlə naxışlanmış gil qablar aşkar edilmişdir. Kükü nekropolundakı 2-ci qəbirdə bütöv öküz skeletinə təsadüf edilmişdir. İkinci qəbirdən yalnız boz rəngli gil qablar aşkar olunmuşdur. Onların bir qismi naxışlıdır. Kükü nekropolu e.ə. III minilliyin sonu və II minilliyin əvvəllərinə aid edilir.

Sarıdərə yaşayış yeri Şahbuz rayonunun Qızıl Qışlaq kəndindən cənub-qərbdə, Küküçayın sağ sahilində, hündür təbii təpənin üzərində yerləşir. Sahəsi 1500 $m^2$-dir. Yaşayış yerində mədəni təbəqə qeydə alınmamışdır. Orta Tunc dövrünə aid yerüstü materiallar dən daşları, həvənglər, dəstələr, monoxrom boyalı və sadə qab parçalarından ibarət olmuşdur.

Sarıdərə yaşayış yerinin yaxınlığında üç nekropol qeydə alınmışdır. Bu nekropollardan biri Orta Tunc dövrünə aiddir. Nekropol yol çəkilərkən, demək olar ki, tamamilə dağıdılmış, qəbirlərin formasını və dəfn adətini izləmək mümkün olmamışdır. Qəbir avadanlığından yalnız üç ədəd çəhrayı rəngli kasa tipli qab qalmışdır. Onlar naxışsız olub, üzəri yaxşı sığallanmışdır.

Kərki yaşayış yeri Sədərək rayonunun Kərki kəndindən cənubda, Tejkar dağının üzərində yerləşir. Yaşayış yerində kobud yonulmuş iri qaya parçalarından tikilmiş divar qalıqları qalmışdır. Yerüstü materiallar Orta Tunc dövrünə aid çəhrayı rəngli monoxrom boyalı gil qablar, dən daşları, həvəng və dəstələrdən ibarətdir.

Kərki nekropolu yaşayış yerinin yaxınlığında yerləşir. Qəbirlər daş qutu tipli olub, yanlarda iri daşlarla tikilmiş, üstü böyük sal daşlarla qapadılmışdır. Bəzi qəbirlərin ətrafında kromlexlərə təsadüf olunur. Aşınma nəticəsində bəzi qəbirlər üzə çıxmış və dağıntıya məruz qalmışdır. 1979-cu ildə nekropolun ərazisində təsərrüfat işləri görülərkən, dağılmış qəbirlərdən tapılan materiallar Naxçıvan Dövlət Tarix Muzeyinə verilmişdir. Onlar monoxrom boyalı küpə və kasa tipli qablardan ibarətdir.

Quyuludağ yaşayış yeri Babək rayonunun Məzrə kəndindən şimalda yerləşir. Yaşayış yeri hündür dağın ətəyində salınmışdır. 1999-cu ildə burada




Şəkil 65. II Kültəpədən aşkar olunmuş polixrom boyalı qablar




Şəkil 66.  Kükü kurqanlarından aşkar olunmuş cızma naxışlı qablar

bizim tərəfimizdən aparılan kəşfiyyat qazıntısı zamanı xeyli miqdarda monoxrom boyalı gil qab nümunələri, həvənglər və dəstələr əldə edilmişdir. Yaşayış yerində mədəni təbəqə aşkar olunmamışdır. Bu qrupa daxil olan yaşayış yerlərinin bir qismində aparılan qazıntılar zamanı Orta Tunc dövrünə aid təbəqə aşkar olunmamış, Oğlanqala yaşayış yerindən isə yalnız inkişaf etmiş Dəmir dövrünə aid materiallar əldə edilmişdir.

Qulalıtəpə, Qalacıq, Qazançı yaşayış yerləri yalnız kəşfiyyat xarakterli tədqiqatlarla öyrənilmişdir. Burada Naxçıvanın Orta Tunc dövrü üçün




Şəkil 67. Nəhəcirdən aşkar olunmuş basma naxışlı qablar

xarakterik hesab edilən boyalı qab parçalarına rast gəlinsə də, arxeoloji materialların əksəriyyəti Tunc dövrünün sonrakı mərhələsinə aiddir.

Ağsal yaşayış yeri Culfa rayonunun Ərəfsə kəndi yaxınlığında yerləşir. Abidə yalnız kəşfiyyat xarakterli tədqiqatlarla öyrənilmişdir. Buradan Orta Tunc dövrünə aid gil qab parçaları, dən daşları aşkar olunmuşdur. Tapıntılar arasında boyalı qab parçaları da vardır.

Naxçıvan nekropolu Naxçıvın şəhərinin şimalında, Naxçıvan-Şahbuz şose yolunun sol tərəfində yerləşir. Nekropolun ərazisi hazırda müasir tikililərlə

örtülmüşdür. Qəbirlər tikinti işləri aparılarkən təsadüfən dağılmış və V.Ə.Əliyev tərəfindən tədqiq edilmişdir.



Şəkil 68. Quyuludağdan aşkar olunmuş Orta Tunc dövrü keramikası

Torpaqda qazılan qəbirlər dördkünc formalı olub, şimal-cənub, şərq-qərb istiqamətinə yonəlmişdir. Qəbirlərin ölçüləri 1,3-1,5 x 0,8 x 1 x 0,6 metrdir.

Onların üzəri 3-4 yastı daş piltələrlə örtülmüşdür. Qəbirlərdə cüt və kollektiv dəfnlər olmuşdur.

Naxçıvan nekropolunun dağılmış qəbirlərindən qara, boz, polixrom boyalı gil qablar, tunc bilərzik, üzük, sırğa və müxtəlif minerallardan hazırlanmış muncuqlar tapılmışdır. Qara və boz rəngli qabların bir qismi çəhrayı astarlı, bir qismi isə hündür ayaqlı, tək qulplu, qədəh tiplidir. Onların üzəri yüngülcə cilalanmış, bəzilərində cilalayıcı alətin izləri qalmışdır. Arxeoloji materiallara əsasən, nekropol e.ə. XVII-XV əsrlərə aid edilmişdir.

Çalxanqala kurqanları Naxçıvan şəhərindən 30 km şimal-qərbdə, Kəngərli rayonunun indiki Çalxanqala kəndi yaxınlığında yerləşir. Bu kurqanlar üçün tək dəfnlər xarakterikdir. Nekropolda olan kurqanların üçü tikinti işləri aparılarkən dağıdılmışdır. Dağılmış kurqanlar V.H.Əliyev tərəfindən tədqiq olunmuşdur. Kurqanlar güclü dağıntıya məruz qaldığından, qəbir kamerasının formasını müəyyən etmək mümkün olmamışdır. Kurqanların birindən (kurqan № 1) boz və monoxrom boyalı qablar, yarpaqşəkilli tunc nizə ucu, ikincidən (kurqan № 2) boz rəngli, monoxrom boyalı qablar, tunc xəncərlər, boru dəstəkli nizə ucluğu, tunc sancaqlar, muncuqlar və lentşəkilli tunc əşyanın parçası aşkar edilmişdir.

Üçüncü kurqan (kurqan № 3) tamamilə dağıdıldığından, qəbir avadanlığı kurqanın torpaq örtüyü ilə qarışmış vəziyyətdə aşkar olunmuşdur. Burada boz rəngli və monoxrom boyalı qabların parçaları, muncuqlar aşkar olunmuşdur.

Nekropolda V.H.Əliyev tərəfindən tədqiq edilən dördüncü kurqanın (kurqan № 4) örtüyü daş qarışıq torpaqdan ibarət olmuşdur. Onun diametri 10 m, hündürlüyü 1,2 metrdir. Kurqan örtüyünün altındakı torpaq qəbir dördkünc formalı olub, şərq-qərb istiqamətinə yönəlmişdir. Qəbirin ölçüləri 1,3 x 0,6 x 1 metrdir. Oradan yalnız qara cilalı bir neçə qab parçası aşkar edilmişdir. Çalxanqala kurqanları V.H.Əliyev tərəfindən e.ə. XVIII-XVII əsrlərə aid edilmişdir.

Yaycı nekropolu Şərur rayonunun Aşağı Yaycı kəndi yaxınlığında yerləşir. Su anbarı tikilərkən nekropoldakı qəbirlərin bir qrupu dağıdılmış, monoxrom boyalı qablar aşkar edilmişdir. Qəbirlər zamanında tədqiq olunmadığından, onların forması və dəfn adəti haqqında müəyyən fikir söyləmək çətindir. Ehtimal ki, Yaycı nekropolunun qəbirləri daş qutu tipli olmuşdur.

Azərbaycanın cənubunda, Urmiya hövzəsində yerləşən Orta Tunc dövrünə aid arxeoloji abidələr stratiqrafiyasına və mədəni mənsubiyyətinə görə Naxçıvan abidələrinə bənzərdir. Bu rayonda Orta Tunc dövrü abidələri boyalı qabların geniş yayılması ilə xarakterizə edilir. Lakin Urmiya hövzəsinin abidələri Naxçıvanda olduğu qədər geniş öyrənilməmişdir. Odur ki, Orta Tunc dövrünün abidələri Haftavantəpə, Göytəpə, Qordlartəpə və Dinkatəpə ilə məhdudlaşır.




Şəkil 69. Orta Tunc dövrünün boyalı keramikası. 1-5 – Göytəpə;
6 -10 – Naxçıvan abidələri

Haftavantəpə yaşayış yeri Cənubi Azərbaycanda, Urmiya gölünün cənub-qərbində, Səlmas ovalığında yerləşir. Yaşayış yeri 1968-1978-ci illərdə



Şəkil 70. Göytəpə. Orta Tunc dövrünə aid boyalı keramika




Şəkil 71. Havtavantəpə. Orta Tunc dövrü

Ç.A.Barney tərəfindən qazılıb, öyrənilmişdir. Yaşayış yerində müəyyən edilən səkkiz mədəni təbəqə içərisində daha çox İlk Tunc, Orta Tunc və Erkən Dəmir dövrü daha yaxşı tədqiq edilmişdir. Yaşayış yerinin Orta Tunc dövrünə aid edilən VI təbəqəsi –VI C, Erkən VI B və SonVI B olmaqla üç tikinti qatına ayrılmışdır.

Yaşayış yerinin zirvəsində salınan qazıntı sahəsində öyrənilən VI C təbəqəsi, İlk Tunc dövrü təbəqəsinin üzərində yerləşir. Qalınlığı 1 metr olan bu layda düzgün təbəqələşməyə rast gəlinməmişdir. Lakin buna baxmayaraq, bu tikinti qatında üç mərhələnin olduğu qəbul edilmişdir. Tədqiqat zamanı bir neçə təsərrüfat quyusu və bəzi yerlərdə daş yığıntısı aşkar olunmuşdur. Düzgün tikinti qalıqlarının qeydə alınmaması bu tikinti qatının uzunmüddətli olmadığını göstərir.

Yaşayış yerinin şərqində aparılan qazıntı sahəsində izlənən Erkən VI B təbəqəsində səkkiz mərhələ olduğu müəyyən edilmişdir. Birinci və ikinci mərhələyə aid üç bina qalığı qeydə alınmışdır. Yeddinci, səkkizinci mərhələdə bu divarlar dağılmışdır. Bu tikinti qatının sonu yanğınla başa çatmışdır. Erkən və Son VI B təbəqəsinin materialları M.Edvards tərəfindən tədqiq edilərək, nəşr olunmuşdur.

Bizim fikrimizcə, abidənin Erkən VI B təbəqəsinin keramikası arasında İlk Tunc dövründən Orta Tunc dövrünə keçid mərhələsi üçün xarakterik olan qab formaları vardır. M.Edvards onları e.ə. 1900-1550-ci illərə aid etmişdir.

Son VI B mərhələsinə aid tikinti qatı, başlıca olaraq, yaşayış yerinin cənub və şərq ətəklərində aparılan qazıntı sahələrində izlənmişdir. Bu tikinti qatında daş təməl üzərində tikilmiş kərpic divarlar aşkar olunmuşdur. Haftavantəpənin VI təbəqəsində tikinti qalıqları yaxşı qalmasa da, buradan Orta Tunc dövrünə aid zəngin maddi-mədəniyyət qalıqları, o cümlədən dən daşları, müxtəlif alətlər, tunc iynələr, muncuqlar, heyvan fiqurları, sümük və gil iy başlıqları aşkar edilmişdir. Tapıntıların əksəriyyəti gil məmulatı ilə təmsil olunmuşdur. Aşkar edilmiş keramika, başlıca olaraq boyalı qablardan ibarətdir. VI C təbəqəsinin gil məmulatı, əsasən, monoxrom boyalıdır. Erkən VI B təbəqəsində monoxrom boyalı qablarla yanaşı, polixrom boyalı qablara da rast gəlinmişdir. Son VI B təbəqəsində polixrom boyalı qablar üstünlük təşkil etsə də, əvvəlki dövrlərdən məlum olan monoxrom boyalı qablar da aşkar olunmuşdur.

Haftavantəpənin C 14 metodu ilə tarixləndirilməsi aşağıdakı nəticələri vermişdir: VI C təbəqəsi- e.ə. 2200-2000, Erkən VI B – e.ə. 1900-1550, Son VI B – e.ə. 1600-1450-ci illəri göstərmişdir.

Qordlartəpə yaşayış yerində Orta Tunc dövrünə aid arxeoloji materiallar abidənin şərq ətəyində aparılmış kəşfiyyat qazıntısı zamanı aşkar edilmişdir. Qazıntı sahəsi kiçik olduğundan, burada aşkar olunan tikinti qalıqları və gil məmulatı haqqında geniş məlumat verilməmişdir. Yaşayış yerinin üst hissəsində aparılan qazıntılar zamanı isə Orta Tunc dövrünə aid materiallar Dəmir dövrü təbəqəsinin materialları ilə qarışıq halda aşkar edilmişdir.

Yaşayış yerində aparılan kəşfiyyat qazıntısı zamanı əldə edilmiş maddi-mədəniyyət qalıqları «üst», «orta», «alt» olmaq üzrə, üç təbəqəyə ayrılmışdır. Orta Tunc dövrünə aid edilən orta təbəqə e.ə. 2300-1300-cü illərə aid edilmişdir. Bu təbəqədən çəhrayı və qara rəngdə bişirilmiş, cilalı gil qab parçaları aşkar olunmuşdur. Çəhrayı rəngdə bişirilən qablar arasında monoxrom və polixrom boyalı keramika üstünlük təşkil edir.

Göytəpə yaşayış yerində Orta Tunc dövrü təbəqəsi İlk Tunc, Son Tunc və Erkən Dəmir dövrü təbəqələrinin arasında yerləşir. Göytəpənin Orta Tunc dövrünə aid təbəqəsi D və C olmaq üzrə iki dövrə bölünmüşdür. Lakin qəbul edilmişdir ki, bu dövrlər eyni mədəniyyətin müəyyən mərhələlərini əks etdirir.

Göytəpənin D təbəqəsi I, III, IV və VIII qazıntı sahələrində aparılan arxeoloji tədqiqatlarla öyrənilmişdir. Burada daş təməl üzərində aşkar olunan kərpic divar müdafiə divarı kimi xarakterizə edilmişdir. Bu divarın yaxınlığında, yenə də daş təməl üzərində kərpicdən tikilmiş iki binanın və ocağın qalıqları aşkar olunmuşdur. Orta Tunc dövrünə aid gil məmulatı başlıca olaraq dördüncü qazıntı sahəsində aşkar olunmuş, D və C olaraq iki mərhələyə ayrılmışdır. Burada qeydə alınan və müdafiə tikintisi kimi xarakterizə edilən divarın eni 1,85, hündürlüyü 0,45 metrdir.

Göytəpənin Orta Tunc dövrünə aid gil məmulatı çəhrayı və qəhvəyi rəngdə bişirilmiş, boyasız və boyalı gil qab parçaları ilə təmsil olunmuşdur. İlk dövrlərə aid edilən boyalı qablar çəhrayı rəng üzərinə qara, qırmızı, ya da yalnız ağ boya ilə çəkilmiş ornamentlə naxışlanmışdır. Daha sonrakı mərhələdə gələn boyalı qablar, gövdənin yuxarısına ağ-sarı rəngdə çəkilmiş zolaq üzərində qara və qırmızı rənglə naxışlanmışdır. Ən geniş yayılmış motivlər, içərisi tamamilə doldurulmuş torlu ya da nöqtəli üçbucaq və romb düzümləridir.

Barton Braun Göytəpənin D təbəqəsini e.ə. 2400-2000-ci illərə, C təbəqəsini isə e.ə. II minilliyin birinci yarısına aid etmişdir.

Dinkatəpə yaşayış yeri Urmiya gölünün şimal-qərbində, Qadar çayının sağ sahilində yerləşir. Yaşayış yerində geniş arxeoloji qazıntı işləri 1966-1968-ci illərdə R.H.Dyson tərəfindən aparılmışdır. Yaşayış yerində Orta Tunc, Son Tunc və Erkən Dəmir, həmçinin Orta əsrlərə aid mədəni təbəqə aşkar olunmuşdur. Dinkatəpənin Orta Tunc dövrü təbəqəsi iki hissəyə ayrılmışdır. Abidənin IV A-C adlandırılan təbəqələrində yalnız Xabur keramikasına rast gəlinmişdir. Bu təbəqədən üstdə yerləşən IV D təbəqəsindən Naxçıvan və Urmiya hövzəsinin Orta Tunc dövrü üçün xarakterik olan polixrom boyalı qablar əldə edilmişdir. Yaşayış yerindən tapılmış boyalı qablar çölmək və kasa tiplidir. Onların gövdəsinin yuxarı hissəsi ağ-sarı boya üzərinə qırmızı və qara rəngdə çəkilmiş torlu romb və üçbucaqlarla naxışlanmışdır. Yaşayış yerinin IV D təbəqəsində heç bir tikinti qalığına rastlanmamışdır. Bu təbəqə tədqiqatçılar tərəfindən e.ə. 1600-1450-ci illərə aid edilmişdir.

Yuxarıda qeyd olunanlardan göründüyü kimi, I Kültəpə, II Kültəpə, Haftavantəpə, Göytəpə kimi yaşayış yerlərində Orta Tunc dövrünə aid mədəni

təbəqə kifayət qədər yığıldığından bu abidələrdə Orta Tunc dövrünün bütün mərhələləri izlənmişdir. Digər yaşayış yerlərində mədəni təbəqə az yığılmışdır. Faktların araşdırılması göstərir ki, bu regionda Orta Tunc dövrünün başlanğıcından etibarən, bir qismi oturaq, digər bir qismi köçəri, yaxud yarımköçəri həyat sürən tayfalar məskunlaşmışdır. Bu regionda meydana gələn Orta Tunc dövrü mədəniyyəti Kür-Araz mədəniyyətindən boyalı qabların meydana çıxması və istifadə edilməsi ilə fərqlənir. Bu mədəniyyətin Kür-Araz mədəniyyətindən törəməsi ilə bağlı bəzi tədqiqatçıların mülahizələri, fikrimizcə doğru deyil.

**Qarabağ mədəniyyətinin arxeoloji abidələri.** Bu qrupa daxil olan abidələr Mil-Qarabağ düzü, Quruçay və Köndələnçay vadisini əhatə etmişdir. Bu qrupa aid abidələrdə qara rəngli cilalı və basma naxışlı keramika üstünlük təşkil edir. Azərbaycanın cənub rayonları üçün xarakterik olan boyalı keramika bu qrupda az yayılmışdır.

Mil düzünün arxeoloji cəhətdən tədqiq olunmuş yeganə qədim yaşayış yeri Üzərliktəpədir. Bu abidə Ağdam şəhərindən şərqdə, coğrafi cəhətdən əlverişli mövqedə yerləşir. Yaşayış yeri düzgün olmayan oval plana malikdir. Onun şimaldan cənuba doğru ən geniş dairəsinin diametri 202 m-dir. Arxeoloji qazıntılar 484 $m^2$ sahədə aparılmışdır. Təbii təpə üzərində salınan yaşayış yerində mədəni təbəqənin qalınlığı 3 m-dir. Arxeoloji qazıntılar zamanı 3 tikinti qatı aşkar olunmuşdur. Birinci tikinti qatı müxtəlif məqsədli çalaların olması ilə xarakterizə edilir. Onların bir hissəsi mətbəx artıqları və küllə dolmuşdur. İçərisinə saman döşənmiş çalalardan isə heyvanları saxlamaq üçün istifadə olunmuşdur. Bu təbəqədə dirəklərdən düzəldilmiş yaşayış binasının qalıqları aşkar olunmuşdur. Onun divarları qalın çubuqlardan toxunmuş və gillə suvanmışdır. Binanın dam örtüyü ağac qabıqları ilə, torpaq döşəməsi isə həsirlə örtülmüşdür. Döşəmədə gil qab qırıqları, dağılmış ocağın içərisində gil soba qalıqları aşkar olunmuşdur. Ocaqdan tapılan gil butənin içərisində donmuş metal ərintisi olduğu müəyyən edilmişdir.

Ocağın yaxınlığından çay daşından dəstələr, sürtgəclər və daş qəliblər əldə edilmişdir. Bu ev K.X.Kuşnareva tərəfindən «tökməçi evi» kimi xarkterizə edilmişdir.

Bu təbəqədən aşkar olunan gil əşyalar mətbəx və məişət qabları olmaqla 2 qrupa bölünmüşdür. Keramika məmulatı boz və ya qara rəngdə bişirilmişdir. Məişət qabları yaxşıca cilalanmışdır. Qablar müxtəlif motivli cızma ornamentlərlə naxışlanmışdır.



Şəkil 72. Üzərliktəpənin qara cilalı basma
naxışlı keramikası

Ocaq qalıqları, təsərrüfat quyuları və arxeoloji materialların zənginliyi ilə seçilən orta təbəqənin qalınlığı 1,5 m-dir. Bu təbəqədə bütün yaşayış yerini çevrələyən möhtəşəm müdafiə divarının qalıqları aşkar edilmişdir. Çiy kərpicdən hörülən müdafiə divarının uzunluğu 35 m, eni 3 m, hündürlüyü 1 m-dir. Onun giriş qapılarından biri kontrforslarla möhkəmləndirilmişdir. Torpaq döşəməli və ağac örtüklü evlərin qalıqları müdafiə divarının içəri tərəfində aşkar olunmuşdur. Bu dövrdə yaşayış yeri iki dəfə güclü yanğına məruz qalmışdır.

Evlərin dağılması və mədəni təbəqənin yığılması nəticəsində müdafiə divarı öz əhəmiyyətini itirmiş və düzənlənmişdir. Üçüncü tikinti dövrü müdafiə divarının üzərində yer almışdır. Olduqca pis qalmasına baxmayaraq, bu təbəqədə torpaq döşəmələr və onların üzərində saxlanılan məişət əşyaları aşkar edilmişdir.

İkinci və üçüncü təbəqənin keramikası K.X.Kuşnaryeva tərəfindən vahid kompleks kimi qəbul edilmişdir. Bu dövrdə gil məmulatının hazırlanmasında xeyli irəliləyiş olmuşdur. Alt təbəqədə istifadə olunan cızma ornament daha mükəmməl ornamentlə əvəz olunmuşdur. Bu dövrdə Üzərliktəpənin qara rəngli keramikasından tamamilə fərqlənən boyalı qablar meydana çıxır. K.X.Kuşnaryeva boyalı qabların meydana gəlməsini dulusçuluğun inkişafında yaranan tərəqqi ilə bağlayır. Fikrimizcə, bu heç də doğru deyildir. Üzərliktəpənin qara cilalı keramikasından fərqlənən monoxrom boyalı qablar, fikrimizcə, başqa bir mədəniyyətin təsirini əks etdirir və bu haqda aşağıda daha ətraflı məlumat veriləcəkdir. Hazırda isə söyləmək olar ki, bu mədəniyyət Naxçıvan-Urmiya hövzəsi boyalı qablarının şimala doğru irəliləməsinin sübutu olaraq qəbul edilə

bilər. Üzərliktəpənin gil məmulatı içərisində boyalı qabların olduqca az (2%) olması bunu bir daha təsdiq edir.



Şəkil 73. Çinartəpənin Orta Tunc dövrü keramikası

Mil-Qarabağ düzünün digər yaşayış yerləri kəşfiyyat xarakterli araşdırmalarla öyrənilmişdir. Onlar arasında Rəsultəpə, Çinartəpə, Toxmaxtəpə, Ağtəpə və digər abidələr vardır. H.F.Cəfərov bu abidərdən aşkar olunan keramika məmulatını üç qrupa ayırmışdır. Bu yaşayış yerlərinin kompleksində qara cilalı basma naxışlı və boyalı keramika məmulatı vardır.

Qaraköpəktəpədən aşkar olunmuş arxeoloji materialların əksəriyyəti gil məmulatından ibarətdir. Onların çoxu boz və qara cilalı, ştamp naxışlı qablarla təmsil olunmuşdur. Bu təbəqədə aşkar olunan boyalı qablar sayca olduqca azdır. Q.S.İsmayılovun fikrincə, bu vəziyyət Quruçay və Göndələnçay vadisinin digər Orta Tunc dövrü abidələri üçün də xarakterikdir.

Quruçay və Göndələnçay vadisində Orta Tunc dövrünə aid maddi-mədəniyyət qalıqları Günəştəpə, Xantəpə, Uzuntəpə, Meynətəpə, Şomulutəpə, Kültəpə yaşayış yerlərində də aşkar olunmuşdur. Qeyd edildiyi kimi, bu yaşayış yerlərinin keramikası boz, ya da qara cilalı basma naxışlı qablarla xarakterizə edilir. Azlıqda qalan monoxrom və polixrom boyalı qablar Naxçıvan-Urmiya regionunun keramikası ilə bənzərdir.



Şəkil 74. 30 № - li Borsunlu kurqanının planı və kəsiyi

Bu regionda qəbir abidələri Qarabulaq nekropolunda və Günəştəpə yaşayış yerində aşkar olunmuşdur.

Qarabulaq nekropolu Füzuli şəhəri yaxınlığında, Köndələnçayın sağ sahilində yerləşir. Burada aşkar olunan qəbir abidəsi hədsiz dağıntıya məruz qaldığından, onun formasını və dəfn adətini müəyyən etmək mümkün olmamışdır. Skelet tamamilə dağılmışdır. Qəbirdən iki bütöv qab və gil qablara aid bir neçə parça əldə edilmişdir. Bütöv qablar qara rəngli küpə və qırmızı rəngli badyadan ibarətdir. Qara rəngli küpə tipli gil qab parçalarının üzəri cızma və basma ornamentlə naxışlanmışdır.

Günəştəpə yaşayış yerində aşkar olunan qəbirlər də tamamilə dağıdıldığından onların formasını və dəfn adətini müəyyən etmək mümkün olmamışdır. Boz və qara rəngli kasa tipli qablar basma ornamentlə naxışlanmışdır. Bu tip ornamentli keramika məmulatı Quruçay və Köndələnçay vadisinin abidələri üçün xarakterikdir.

Qarabağ mədəniyyətinin qəbir abidələri başlıca olaraq Borsunlu kupqanları ilə təmsil olunmuşdur. Borsunlu nekropolunda tədqiq olunan 1 №-li kurqanın qəbir kamerası dairəvi, 30 №-li kurqanın qəbir kamerası isə dördkünc formalıdır. Qəbirlərdən insan skeletinə aid qalıqlar, qara cilalı gil qablar və digər maddi-mədəniyyət qalıqları aşkar olunmuşdur.

Gəncə-Qazax zonasında Orta Tunc dövrünə aid aydın stratiqrafiya verən yaşayış yerinə rast gəlinməmişdir. Bu regionda aşkar olunan qəbir abidələrinin materialları Mil-Qarabağ zonasının dulusçuluq məmulatı ilə bənzərlik təşkil edir.

Babadərviş yaşayış yerinin Orta Tunc dövrü təbəqəsindən aşkar olunan qəbir düzgün olmayan, ucları dəyirmiləşdirilmiş dördkünc formaya malikdir. O şərq-qərb istiqamətindədir. Qəbrin qərb tərəfində dağınıq halda olan insan skeletinin qalıqları aşkar olunmuşdur. Şərq tərəfdə iribuynuzlu heyvan balasının skeleti və bu heyvana aid lülə sümüyü aşkar olunmuşdur. Qəbrin cənub divarı boyunca gil qablar və tunc xəncər tiyəsi qoyulmuşdur.

Bu qəbirdən aşkar olunan üç ədəd qara cilalı qab çəhrayı astarlı olmaqla, naxışlanma motivi və formasına görə Azərbaycanın həmdövr materiallarından fərqlənir. Onların naxışlanmasında iki sıra cızma xətdən və yapma ornamentlərdən istifadə olunmuşdur. Qəbirdən əldə edilmiş, kobud hazırlanmış qablar Üzərliktəpə, II Kültəpə və Çalxanqala kurqanlarından aşkar edilmiş materiallarla bənzərdir. Bu qəbir e.ə. XVI əsrə aid edilmişdir.

Şamxor (Şəmkir) rayonunun Keçili kəndi yaxınlığında H.P.Kəsəmənli tərəfindən tədqiq olunan 5 №-li Keçili torpaq qəbiri tamamilə dağıdıldığından onun formasını və dəfn adətini müəyyən etmək mümkün olmamışdır. Bükülü vəziyyətdə olan skelet şimal-qərb istiqamətində olmuşdur. Onun şimal tərəfdə olan kəlləsinin ətrafından dörd gil qab aşkar edilmişdir. Qara cilalı qabların çiyin hissəsi basma ornamentlə naxışlanmışdır. Bu qablar bəzəmə texnikasına görə Üzərliktəpə materialları ilə oxşardır. Analoji materiallar əsasında Keçili qəbiri e.ə. XVII-XVI əsrlərə aid edilmişdir.

Şamxor-Gədəbəy şose yolunun yaxınlığında yerləşən nekropolda 1983-cü ildə tədqiq edilən 4 №-li kurqan Orta Tunc dövrünün son mərhələsinə aid material vermişdir. Torpaqda qazılmış qəbir keramikası kromlexlə əhatə edilmiş və torpaq kurqanla örtülmüşdür. Kurqan örtüyünün altında kül layı içərisində uşaq skeletinə, onun ətrafında saplaqlı tunc xəncər və Orta Tunc dövrü üçün xarakterik 3 gil qab aşkar olunmuşdur. Bundan aşağıda aşkar olunan qəbir kamerasında yanmış sümüklər dəfn edilmişdir. Buradan obsidiandan hazırlanmış bıçaq tipli alət də tapılmışdır. Kurqan e.ə. XVII-XVI əsrlərə aid edilmişdir.

Xaçbulaq kurqanları. Orta Tunc dövrünə aid kurqanların bir qrupu Daşkəsən rayonunda, Xaçbulaq yaylağında yerləşir. Xaçbulaqdakı 1 №-li kurqan Qoşqarçayın sol sahilində, Zağalı kəndinin müasir qəbirstanlığından şərqdə yerləşir. Dairəvi formalı kurqanın hündürlüyü 0,75, diametri şimal- cənub istiqamətində 11,5, şərq-qərb istiqamətində isə 10 metr olmuşdur. Kurqanın əsas qəbiri İlk Tunc dövrünə aid edilmişdir. Buradan yarımşar formalı qulpu olan küpə, sümükdən hazırlanmış muncuqlar tapılmışdır. Kurqanın torpaq örtüyündə, 1,45 və 1,7 metr dərinlikdə aşkar olunan iki qəbir Orta Tunc dövrünə aiddir. Torpaqda qazılmış qəbirin forması müəyyən edilməmişdir. Birinci qəbirdəki skelet tamamildə çürümüşdür. O, şimal-qərbdən cənub-şərqə doğru, bükülü vəziyyətdə dəfn edilmişdir. Skeletin ayaq tərəfinin yaxınlığında iribuynuzlu heyvan sümüklərinə, ağac kömürünə rast gəlinmişdir. Kəllənin ətrafından qara, qəhvəyi, çəhrayı rəngli cızma naxışlı gil qablar, daş toppuz, borudəstəkli nizə ucluğu, obsidian və çaxmaqdaşından ox ucluqları, tunc xəncər aşkar olunmuşdur.

İkinci qəbirdən şimal-qərb və cənub-şərq istiqamətində, bükülü vəziyyətdə çürümüş insan skeleti, onun ayaqlarının yaxınlığında isə xırdabuynuzlu heyvan skeleti aşkar olunmuşdur. Heyvan skeleti kömür qalıqlarının arasında idi. İnsan və heyvan skeletlərinin ortasında gil qab parçalarına rast gəlinmişdir. Bu qəbirlərdən aşkar olunan gil qabların bənzərləri Üzərliktəpə, Qaraköpəktəpə, Babadərviş və II Kültəpədən məlumdur.

1959-cu ildə, Xaçbulaq yaylağında, «Hamamdüzü» adlanan yerdə üç kurqan tədqiq edilmişdir ki, onların da ikisi Orta Tunc dövrünə aiddir. Həmin kurqanlardan birincisi dairəvi olub, diametri 8,6, hündürlüyü 0,6 m-dir. Qəbir kamerası kurqanın cənub tərəfində aşkar edilmişdir. Qəbirin üzərini örtən daş kurqan götürülərkən, obsidian parçalarına və kömür qalıqlarına rast gəlinmişdir. Kurqanın altında yerləşən torpaq qəbirin ölçüləri 2,9 x 1,3 x 0,8 m-dir. Qəbir kamerası şimal-qərbdən cənub-şərqə doğru yönəlmişdir. Skelet olduqca pis qaldığından, onun yalnız lülə sümüklərinə və dişlərinə aid qalıqlar aşkar olunmuşdur. Qəbirdən müxtəlif muncuqlar və saç üçün spirallar, 16 ədəd qara və boz rəngli gil qab aşkar olunmuşdur. Bu kurqanın materialları Üzərliktəpənin ikinci qrup keramikası ilə bənzərdir. Aşkar olunmuş materiallara əsasən, kurqan e.ə. II minilliyin ortalarına aid edilmişdir.

Kurqanın ikinci əsas qəbrindən uzunluğu 33 sm olan dördtilli süngü tipli nizə ucu tapılmışdır. Arxeoloq H.P.Kəsəmənli həmin nizə ucunu Zaqafqaziya və Ön Asiyadan tapılmış analoji nizə ucları ilə müqayisə edərək, e.ə. III minilliyin sonlarına aid etmişdir.

Xaçbulaqda tədqiq olunan Orta Tunc dövrünə aid digər kurqan 1962-ci ildə açılmışdır. Həmin kurqan əvvəlkinin yaxınlığında yerləşir. Kurqanın hündürlüyü 1,8, diametri 15 m olmuşdur. Onun örtüyü çay daşlarından qurulmuşdur. Kurqan örtüyünün altından cənub-şərq tərəfdə qara rəngli torpaq qatı, tunc nizə ucluğu, gümüş düymə və qara rəngli gil qab parçaları aşkar olunmuşdur. Bu təbəqədən altda yerləşən qəbir kamerasının uzunluğu 1,6, eni

0,9, dərinliyi 0,8 m olmuşdur. Qəbir kamerası cənub-qərbdən şimal-şərqə doğru yönəlmiş, qara rəngli torpaqla dolmuşdu. Qəbirdə bir ədəd sırğadan başqa, skeletə və dəfn avadanlığına rast gəlinməmişdir. Bu kurqan e.ə. XVI-XV əsrlərə aid edilir.

Zurnabad kurqanı Gəncəçay vadisində, Xanlar şəhəri yaxınlığında, Zurnabad adlı yerdə aşkar olunmuşdur. Kanal qazılarkən kurqan tamamilə dağıdıldığından, onun haqqında ətraflı məlumat yoxdur. Daş qarışıq torpaq kurqanın altında aşkar olunan qəbirdə insan skeleti qalıqlarına, onun ətrafında isə monoxrom boyalı qablar, gil qab parçaları, tunc bəzək əşyaları və obsidian qəlpələri aşkar olunmuşdur. Kurqanın kənara atılmış torpağında insan skeletinin qalıqları, gil qab parçaları, spiralşəkilli əşyalar, obsidian ox ucluğu aşkar olunmuşdur. Zurnabad kurqanından əldə edilmiş monoxrom boyalı küpələr Naxçıvan abidələrindən tapılmış eyni tipli qabları xatırladır. Zurnabad kurqanı H.P.Kəsəmənli tərəfindən e.ə. XVIII-XVII əsrlərə aid edilmişdir. Son illərin araşdırmaları Zurnabad kurqanının daha qədim tarixə malik olduğunu deməyə imkan verir.

Gəncəçay rayonunda Y.Hümmel tərəfindən qazılan 12 №-li kurqan da Orta Tunc dövrünə aiddir. Kurqanaltı qəbir kamerası dördkünc formalı olub, cənub-qərb istiqamətində qazılmışdır. Qəbirin ölçüləri 2,60 x 1,55 x 1,40 m-dir. Qəbir kamerasının üzəri taxta parçaları ilə örtülmüşdür. Skelet olduqca pis qaldığından, onun istiqaməti müəyyən edilməmişdir. Kameranın cənub-şərq hissəsində qoyun skeletinin qalıqları aşkar olunmuşdur. Qəbir avadanlığı 1 ədəd mis əşya, 18 gil qab və bir neçə çaxmaqdaşı parçalarından ibarət olmuşdur.

Bu qəbirdən aşkar olunan gil qablar qara rəngdə yaxşı bişirilərək, cilalanmışdır. Bəzi qabların üzəri Üzərliktəpənin ikinci qrup keramikası üçün xarakterik olan basma ornamentlə naxışlanmışdır. Kurqan e.ə. II minilliyin birinci yarısına aid edilmişdir.

Azərbaycanın cənub-şərqində yerləşən abidələrin bir qrupu Qobustanda yerləşir. Qobustanda yaşayış yerləri, başlıca olaraq, qayaaltı sığınacaqlarla təmsil olunmuşdur. Arxeoloji tədqiqatlar bu sığınacaqlardan uzun müddət istifadə olunduğunu göstərir. Burada Böyükdaş dağı üzərində yerləşən yaşayış yerində Orta Tunc dövründə yaşayış davam etmişdir. Oradan aşkar olunmuş tikinti qalıqları yuxarıda təsvir edildiyindən, onlar üzərində dayanılmayacaqdır.

Qobustan arxeoloji abidələrinin əksəriyyəti qəbir abidələrindən ibarətdir. Onların bir qismi C.N.Rüstəmov və F.M.Muradova tərəfindən öyrənilmişdir.

Daş və torpaq örtüklü Qobustan kurqanlarının hündürlüyü 0,8-1,1 m, diametri 5-11 m-dir. Kurqanlar qəbir kamerasının quruluşuna görə xəndəksiz, xəndəkli və daş qutulara ayrılır.

Qəbir abidələrinin əksəriyyətini xəndəksiz kurqanlar təşkil edir. Bu tip qəbirlərdə dəfn yer səthində mövcud olan çuxurda, qaya dibində aparılmış, üzəri yastı əhəngdaşı layı ilə örtülmüşdür. Qəbirlər kromlexlə əhatə edilmişdir. Bu

qrupa daxil olan qəbirlərin əksəriyyətində insan skeletinə və arxeoloji materiallara rast gəlinməmişdir.

7 №-li kurqanda dəfn mərkəzdə aparılmışdır. Qəbirin üzəri bir ədəd iri daşla örtülmüş, ətrafında diametri 5 m olan kromlex qurulmuşdur. Olduqca pis qalmış skelet qalıqları, onun bükülü vəziyyətdə, şimal-şərq istiqamətində dəfn edildiyini göstərir. Skeletin ətrafından sarı rəngli, qazan tipli qab, çəhrayı rəngli, üzərində aypara təsviri olan xeyrə tipli qab, dən daşı və qəhvəyi rəngli daş qəlpəsi aşkar edilmişdir. Arxeoloji materialların tapıldığı yerdən xırdabuynuzlu heyvana aid çənə sümüyü də əldə edilmişdir. Qəbirin üzərini örtən daşda, kromlex daşlarından birində və kurqan örtüyünün daşlarının üçündə rəsmlərə rast gəlinmişdir.

Qobustandakı 13 №-li kurqanın diametri 12 m-dir. Torpaq qarışıq daş kurqanın altında üç qəbir qeydə alınmışdır. Hər qəbirin üzərində kiçik daş topasının olduğu müəyyən edilmişdir. Birinci qəbirdəki skelet olduqca pis qalmışdır. O, başı şimala olmaqla, tam bükülü vəziyyətdə dəfn edilmişdir. Skeletin baş tərəfində qara cilalı gil qab, bel tərəfində isə tunc xəncər aşkar olunmuşdur.

İkinci qəbirdə skelet olmamış, qəbirin örtük daşı yana sürüşmüşdür. Qəbir avadanlığı sarı rəngli bir ədəd gil qabdan ibarətdir. Üçüncü qəbirin üstü bir yastı daşla örtülmüşdü. Qəbirdə skelet qeydə alınmamışdır. Qəbir avadanlığı bir ədəd gil qabdan ibarət olmuşdur ki, o da olduqca pis qaldığından, götürmək mümkün olmamışdır.

Bu kurqanın tarixləndirilməsi üçün birinci qəbirdən aşkar olunan tunc xəncər olduqca əhəmiyyətlidir. Xəncərin bənzərləri 13 №-li kurqanı e.ə. III minilliyin sonu- II minilliyin əvvəllərinə aid etməyə imkan verir.

Xəndəkli kurqanlarda qəbirlər dairəvi quyu və küncləri dəyirmiləşdirilmiş düzbucaqlı formaya malikdir. Dairəvi qəbirlərin diametri 0,95-1 m, dərinliyi 0,45-0,50 m, düzbucaqlı qəbirlərin ölçüsü 1,2 x 0,7 x 0,3 m; 2,8 x 1,2 x 2 m arasındadır.

Böyükdaş və Kənizə dağları arasında yerləşən 9 №-li kurqanın qəbir kamerası quyu şəklində qazılmış, ətrafına altı ədəd iri daş qoyulmuşdur. Olduqca pis qalmış skelet başı qərbə olmaqla, sol böyrü üstə, bükülü vəziyyətdə dəfn olunmuşdur. Üzəri qırmızı oxra ilə örtülmüşdür. Onun baş tərəfindən təkqulplu, armudvari gil qab, bel tərəfindən yarpaqşəkilli tunc nizə ucluğu aşkar olunmuşdur. Bu nizə ucluğunun bənzərləri Cənubi Qafqazın e.ə. III minilliyə aid abidələrindən bəllidir. F.M.Muradova bu kurqanı e.ə. XX-XVIII əsrlərə aid etmişdir.

Diametri 10 metrə bərabər olan kromlexlə əhatə olunmuş 25 №-li kurqanın kromlex daşlarından biri dikinə qoyulmuş və xarici tərəfinə keçi rəsmi çəkilmişdir. Kurqanın mərkəzində şərq-qərb istiqamətində qazılan qəbir dördkünc formalıdır. Onun kənarı səkkiz iri daşla əhatə olunmuşdur. Qəbir qarət edildiyindən, onun örtük daşlarından biri içəri düşmüş, ikisi isə kənara atılmışdır.

Qəbirdə qoyun skeleti, iribuynuzlu heyvan sümükləri, tunc xəncər, boru dəstəkli tunc nizə ucu və gil qab parçaları aşkar olunmuşdur. Qablardan birinin üzərində qırmızı boya izləri qalmışdır. Qəbirdən aşkar olunan xəncər tiyəsi və boru dəstəkli nizə ucluğunun tipoloji analizi bu kurqanı e.ə. XX-XVIII əsrlərə aid etməyə imkan verir.

Kromlexlə əhatə olunmuş 17 №-li kurqanda qəbir kamerası cənub-qərbdən şimal-şərqə doğru qazılmış, üzəri 1 ədəd yastı daşla örtülmüşdür. Skelet sol böyrü üstə, bükülü vəziyyətdə aşkar olunmuşdur. Skeletin ətrafından bir ədəd çəhrayı rəngli çölmək, boz rəngli bir kasa və bir küpə əldə edilmişdir. Aşkar olunmuş materiallar Böyükdaş yaşayış yerinin materialları ilə bənzər olduğundan, bu kurqan Orta Tunc dövrünün ilk mərhələsinə aid edilmişdir.

Muğan düzündə, Azərbaycanın cənub-şərqində Orta Tunc dövrünə aid yaşayış yerləri az öyrənilmişdir.

Mişarçay yaşayış yeri Cəlilabad şəhərindən 1,5 km şimal-şərqdə, eyni adlı çayın sahilində yerləşir. Mişarçayın alt təbəqəsi Kür-Araz mədəniyyətinə, onun üzərində yerləşən təbəqəsi isə Orta Tunc dövrünə aid material vermişdir. Kür-Araz təbəqəsindən fərqli olaraq (4,5 m) Orta Tunc dövrü təbəqəsinin olduqca az yığılması, bu dövrdə yaşayış yerində həyatın yarımköçəri maldarlığa əsaslandığını göstərməkdədir. Yaşayış yerinin bu təbəqəsindən daş və sümük əmək alətləri, keramika məmulatı aşkar olunmuşdur. Keramika məmulatı morfoloji və texnoloji xüsusiyyətlərinə görə iki qrupa bölünür. Birinci qrupa qəhvəyi rəngli, tünd ləkəli, kifayət qədər qaba hazırlanmış mətbəx qabları daxildir. Onların gilinin tərkibinə qum, çınqıl və gil ovuğu qatılmışdır. Bu qrupdakı qablar içərisində genişağızlı, silindr boğazlı, cüt qulplu küpələr fərqlənirlər. Onların üzəri sığallanaraq, yüngülcə cilalanmışdır. Gövdəsinin yuxarı hissəsi və çiyni cızma üsulu ilə həndəsi motivdə naxışlanmışdır. Boğazının altında yolkaşəkilli ornament, ondan altda isə ştrixlənmiş üçbucaqlar yerləşdirilmişdir.

İkinci qrupa boz və qara rəngli nazik divarlı keramika daxildir. Onların gilinə narın qum qatılmış, yaxşı sığallanmış və parıldayanadək cilalanmışdır. Bu qrupa daxil olan qablar arasında incə cızma bəzəməli, konnelyur ornamentli küpələr diqqətəlayiqdir. Bu qrupdakı keramikanın naxışlanmasında cızma xətlər və nöqtələrin kominasiyasından geniş istifadə edilimşdir. Gil qabların naxışlanma motivi Trialeti, Üzərliktəpə və Lçaşen keramikası ilə bənzərlik təşkil edir. Bu qrupa daxil olan bikonus formalı qablar, üfiqi qulaqcıqları olan kasalar, üçayaqlı qablar xüsusilə fərqlənirlər. F.R.Mahmudov Mişarçay yaşayış yerinin Orta Tunc dövrü təbəqəsindən aşkar edilən və Kür-Araz mədəniyyətinin son mərhələsi üçün xarakterik olan, dekorativ elementlərə malik keramikanı e.ə. III-II minilliklərin qovşağına aid etmişdir.

Cəfərxanlı yaşayış yeri Cəlilabad rayonunun eyniadlı kəndi yaxınlığında, İncəçayın sağ sahilində yerləşir. Yaşayış yerinin yerləşdiyi ərazinin dəfələrlə şumlanması abidənin dağılmasına və planının itməsinə səbəb olmuşdur.

Arxeoloji tədqiqatlarla, yaşayış yerinin 2 hektardan artıq sahəni əhatə etdiyi müəyyən edilmişdir. Yaşayış yerinin bəzi hissələrində gil qatları, daş və çiy kərpicdən tikinti qalıqları görünməkdədir. Kəşfiyyat qazıntıları ilə daşdan əmək alətləri və keramika məmulatı aşkar olunmuşdur.

Yaşayış yerindən aşkar olunmuş keramika üç qrupa bölünür. Birinci qrupa daxil olan küpə, çölmək və banka tipli qablar cilalama üsulu ilə, həndəsi motivdə naxışlanmışdır. Bəzi qabların gövdəsi konnelyur ornamentlidir. İkinci qrupa sarı-qəhvəyi rəngli, qaba hazırlanmış qalın divarlı qablar daxildir. Gilinin tərkibinə qum və çınqıl qatılan bu qabların əksəriyyəti uzun boğazlı, genişağızlı küpələrdir. Qabların boğazı çəpinə çərtmələr və sünbülşəkilli ornamentlə naxışlanmışdır. Üçüncü qrupa monoxrom boyalı qablar daxildir. Onlar qırmızı rəng üzərindən qara rənglə lanmışdır.

Yaşayış yerinin dövrünün müəyyənləşdirilməsində Orta Tunc dövrünün erkən mərhələsində meydana çıxan və Kür-Araz mədəniyyəti ilə bağlantılı olan dirsəkşəkilli qulplar əhəmiyyətlidir. Bəzi qulpların yuxarı hissəsi zoomorf fiqurlarla tamamlanır. Aşkar olunmuş materiallar Cəfərxanlı yaşayış yerini e.ə. III-II minilliklərin qovşağına aid etməyə imkan verir.

Azərbaycanın şimal-şərqində Orta Tunc dövrünə aid arxeoloji abidələr az öyrənilmişdir. Bu regionda Orta Tunc dövrü yaşayış yerləri Quba rayonunda İbrahimxəliltəpə, Xaçmaz rayonunda Sərkərtəpə, Borispoltəpə kimi abidələrlə təmsil edilməkdədir. Aşkar olunmuş arxeoloji materiallar daş əmək alətləri və keramika məmulatı ilə xarakterizə olunur. Bu yaşayış yerlərinin keramikası başlıca olaraq qonur və boz rəngli sığallanmış qab parçalarından ibarətdir. Bəzi qabların üzəri cızma və yapma ornamentlə naxışlanmışdır.

Tapıntılar arasında sümükdən bizlər, iynələr, cilalayıcı alətlər, oraq dişləri və metal əşyalar da əhəmiyyət kəsb edir.

Azərbaycanın şimalında yerləşən abidələr qrupuna Şəkidə Əyriçay vadisində yerləşən Küdürlü kurqanları da daxildir. Küdürlüdə aşkar olunan səkkiz kurqan e.ə. II minilliyin birinci rübbünə aid edilmişdir. Kurqanlarda arxası üstə, bükülü vəziyyətdə dəfn edilmiş skeletlər aşkar olunmuşdur. Tədqiqatlar zamanı qəbirlərdən zəngin maddi-mədəniyyət nümunələri aşkar edilmişdir.

İlk Tunc dövrü yaşayış yerlərinin bir neçəsində həyatın e.ə. II minilliyin ortalarına qədər davam etməsi bu ərazidə Orta Tunc dövrü tayfalarının məskunlaşdığını göstərir. Yaşayış məskənlərinin azlığı bir tərəfdən regionun az öyrənilməsi ilə bağlıdırsa, digər tərəfdən də ehtimal ki, Orta Tunc dövründə burada həyatın yarımköçəri maldarlığa bağlanması ilə əlaqədardır. Regionun arxeoloji abidələri başlıca olaraq kəşfiyyat xarakterli tədqiqatlarla öyrənilmişdir.

Orta Tunc dövrünə aid yaşayış yerlərinin bir neçəsi özündən əvvəlki İlk Tunc dövrü məskənlərində salınmışdır. Bunların sırasına I Kültəpə, II Kültəpə, Şortəpə, Göytəpə, Qordlartəpə, Haftavantəpə kimi abidələr daxildir. Bu yaşayış yerləri öz topoqrafik xüsusiyyətlərinə görə, İlk Tunc dövrü yaşayış yerlərindən fərqlənmirlər. Onlar gur sulu çayların sahilində, əkinçilik və maldarlıq üçün

əlverişli ərazilərdə salınmışdır. İkinci qrup abidələr strateji cəhətdən və ticarət baxımından əlverişli mövqelərdə salınmışdır ki, bu da Orta Tunc dövründə ticarət əlaqələrinin insanların həyatında böyük rol oynadığını göstərir. Belə abidələr sırasına Şahtaxtı və Qızılburun yaşayış yerləri aid edilə bilər. Qeyd etmək lazımdır ki, Qızılburun və Şahtaxtı ərazisi indi də beynəlxalq ticarət yollarının qovşağında olmaqla böyük əhəmiyyət daşımaqdadır. Şübhəsiz ki, ərazinin əlverişli coğrafi mövqeyi qədim dövrlərdən insanların diqqətini cəlb etmişdir.

Quruçay və Köndələnçay vadisinin abidələri də oturaq və yarımköçəri həyat üçün əlverişli ərazilərdə salınmışdır. Bu yaşayış yerləri başlıca olaraq, su mənbələrinin, bulaqların yaxınlığında yerləşmişdir. Onların bəzisində az da olsa mədəni təbəqə yığılmış, digərlərində isə heç yığılmamışdır. Sonuncular sırasına Naxçıvanda yerləşən Quyuludağ, Kərki, Kükü, Ağsal, Qazançı və digər abidələri də aid etmək olar.

Orta Tunc dövrü abidələrinin tədqiqi bu dövrdə Azərbaycanda əhalinin oturaq və yarımköçəri həyat sürən tayfalardan ibarət olduğunu göstərir. Azərbaycanın cənub-şərq və şimal-şərqində yerləşən abidələrdə Orta Tunc dövrü təbəqəsinin az yığılması, yaxud heç yığılmaması tayfaların köçəri həyat tərzi ilə bağlı olmuşdur. Azərbaycanın bu rayonlarının maldarlıq üçün əlverişli olması buna müəyyən dərəcədə şərait yaratmışdır. Şimal-şərqi Azərbaycanda Orta Tunc dövrü abidələrinə az rast gəlinməsi də ehtimal ki, bununla bağlıdır.

Orta Tunc dövrü iqtisadiyyatın sürətli inkişafı və tayfalararası münasibətlərin kəskinləşməsi ilə xarakterizə olunur. Bu dövrə aid yaşayış yerlərinin ətrafında müdafiə divarlarının çəkilməsi də bununla bağlıdır. Belə müdafiə divarları II Kültəpə, Qaraköpəktəpə, Üzərliktəpə, Göytəpə yaşayış yerlərində aydın şəkildə izlənmişdir. Bu dövrdə meydana çıxan, düşünülmüş planla inşa edilmiş yaşayış yerlərinin bir qrupu V.H.Əliyev tərəfindən ilkin şəhərlər kimi xarakterizə edilmişdir. Bu baxımdan II Kültəpə xüsusi diqqətə layiqdir.

II Kültəpə yaşayış yeri Narınqala və onu əhatə edən yaşayış məskənindən ibarət olmaqla iki hissəyə bölünür. Narınqala yaşayış yerinin mərkəzində yerləşir. O, dördkünc bürc və kontrfoslarla möhkəmləndirilmiş möhtəşəm müdafiə divarı ilə əhatə edilmişdir. Yaşayış yerinin bu quruluşu cəmiyyətdə meydana gələn ictimai bərabərsizliklə bağlı olmuşdur. Əsilzadə, varlı ailələr Narınqalada, istehsalla məşğul olan əhali isə kənarda yaşamışdır. Ola bilsin ki, təhlükəli zamanlarda əhali Narınqalaya toplaşaraq, müdafiə olunmuşdur.

Yaşayış yerində aşkar olunmuş binaların tədqiqi göstərir ki, onlar bir-birindən müəyyən məsafələrdə tikilmiş, bəzən düz, bəzən isə əyri küçələrlə ayrılmışdır. Qala divarının yaxınlığında, bir neçə yerdə küçələrdə daş döşəmənin qalıqları aşkar edilmişdir.

Yaşayış yerində aşkar olunan 2, 3, 4 otaqlı evlər, ehtimal ki, varlı, əsilzadə ailələrə mənsub olmuşdur.

Narınqaladan kənarda böyük dulusçuluq emalatxanasının, metaləritmə ocaqlarının qalıqlarının aşkar olunması, II Kültəpənin mühüm sənətkarlıq mərkəzi olduğunu göstərir. Yaşayış yerindən tapılan Misir pastasından hazırlanmış muncuqlar, uzaq ölkələrlə ticarət əlaqələrinin olduğuna işarədir.

Müdafiə divarı ilə əhatə olunmuş Narınqalanın meydana çıxması, Orta Tunc dövrü yaşayış yerlərinin xarakterik cəhətlərindən biridir. Lakin yaşayış yerlərinin hamısı geniş tədqiqatlarla öyrənilmədiyindən, ətraflı fikir söyləmək mümkün deyilidir. Narınqalanın mövcudluğu, cəmiyyətdə sosial bərabərsizliyin dərinləşdiyini, tayfa başçılarının müdafiə olunan binalarda yaşadığını göstərir.

II Kültəpə yaşayış yerində aşkar olunan müdafiə divarı çay daşlarından hörülmüş, arası kiçik daşlarla doldurulmuşdur. Çiy kərpiclər bir neçə sıra düzülərək, gil məhlulla möhkəmləndirilmişdir.

Tikintidə istifadə olunan çiy kərpiclərin ölçüləri 32 x 32 x 14; 38 x 38 x 12; 40 x40 x 15;  44 x 44 x 12 sm-dir. Müdafiə divarının əhəmiyyətli yerləri, xüsusilə giriş qapısının ağzı daş bloklarla möhkəmləndirilmişdir. Narınqalanın divarı ümumi planda beşkünc formalı olub küncləri dəyirmiləşdirilmişdir .

Qaraköpəktəpə yaşayış yerinin müdafiə divarı da eyni texnika ilə tikilmişdir. Divar yanlarda iri qaya parçalarından hörülmüş, onların arasına isə kiçik həcmli daşlar doldurularaq, gil məhlulu ilə bərkidilmişdir.

Göytəpə və Üzərliktəpədə müdafiə divarı çiy kərpiclə tikilmişdir. Üzərliktəpənin müdafiə divarı daha yaxşı qaldığından, divardakı kərpiclərin ölçülərini tam müəyyən etmək mümkün olmuşdur. Onlar 38 x 38 x8; 40 x 40 x 8; 42 x 42 x 8; 46 x 46 x 8; 48 x 48 x 8 sm ölçülərindədir. Kvadrat formalı kərpiclər 7 sıra düzülərək, gil məhlulu ilə bərkidilmişdir.

Orta Tunc dövrü yaşayış yerlərində aşkar olunan yaşayış binaları dördkünc formalıdır. Lakin onlar tikinti texnikasına görə bir-birindən fərqlənirlər. Naxçıvan-Urmiya qrupunun yaşayış binaları II Kültəpədə daha yaxşı öyrənilmişdir. Onlar daş təməl üzərində tikilmiş kərpic binalardan ibarətdir. Binaların döşəməsi gillə suvanmış, bəzi hallarda kərpiclə örtülmüşdür. Bəzi binaların içərisində təsərrüfat quyuları olmuşdur. Binaların bəzisinin içərisində soba tipli ocaqların olduğu müəyyən edilmişdir.

II Kültəpədəki çoxotaqlı binalardan birinin içərisində daş büt və ortasında novu olan daş blok aşkar edilmişdir. Bu binanın içərisində aşkar olunan arxeoloji materiallar, onu ziyarətgah kimi xarakterizə etməyə imkan vermişdir. Digər binaların daxili quruluşu ilə bağlı ətraflı məlumat yoxdur.

Üzərliktəpədə aşkar olunan dördkünc planlı evlər tikinti texnikasına görə fərqlənir. Ağacdan qurulan bu evlərin divarları qalın çubuqlardan düzəldilmiş və gillə suvanmışdır. Evin torpaq döşəməsi həsirlə örtülmüşdür. Araşdırmalar göstərir ki, bu tip evlərdən Üzərliktəpədə uzun müddət istifadə olunmuşdur.

Azərbaycanın Orta Tunc dövrü abidələrinin tədqiqi göstərir ki, Naxçıvan-Urmiya qrupunun abidələri daha aydın stratiqrafiyaya malik olmaqla, bu dövrün bütün mərhələlərini ardıcıllıqla özündə əks etdirir. Bu regionda əhalinin uzun

müddət məskunlaşması, şübhəsiz ki, ərazinin əkinçi və maldar tayfaların yaşaması üçün əlverişli olması, həmçinin Yaxın Şərqin qədim mədəniyyət mərkəzlərinə yaxın yerləşməsi ilə bağlı olmuşdur.

Azərbaycanın digər rayonlarında aşkar olunan arxeoloji abidələr Orta Tunc dövrü mədəniyyətinin öyrənilməsi üçün olduqca əhəmiyyətlidir. Lakin bunların heç birində Orta Tunc dövrünün mədəniyyəti ardıcıl olaraq izlənməmişdir.

Azərbaycanda Orta Tunc dövrünə aid tədqiq edilmiş qəbir abidələri onların regional xüsusiyyətlərini aydınlaşdırmaq və geniş nəticələr çıxarmaq üçün kifayət deyildir. Orta Tunc dövründə daş qarışıq torpaq kurqanlara və onların kromlexlə əhatə olunmasına Azərbaycanın hər yerində rast gəlinmişdir. Lakin Orta Tunc dövründə daş qutu tipli qəbir abidələrinin hələlik, yalnız Naxçıvanda geniş yayıldığı müəyyən edilmişdir.

**İqtisadiyyat.** Arxeoloji tədqiqatlar Orta Tunc dövründə Azərbaycanda iqtisadiyyatın xeyli inkişaf etdiyini göstərir. Bu dövrdə təsərrüfatın inkişaf səviyyəsi şübhəsiz ki, İlk Tunc dövründə əldə edilən nailiyyətlərlə də bağlıdır. Orta Tunc dövründə təsərrüfatın başlıca sahələri əkinçilik və maldarlıq olmuşdur. Suvarma əkinçiliyinin və qoşqu qüvvəsinin tətbiqi, əkinçilik məhsullarının istehsalını artırmağa imkan vermişdir. Orta Tunc dövründə qazılmış kanalların qalıqları indiyədək qalmasa da, yaşayış yerlərinin topoqrafiyası süni kanallardan istifadə edildiyini göstərməkdədir. Orta Tunc dövründə əkinciliyin inkişafını göstərən dəlillərdən biri yaşayış yerlərindən aşkar olunan taxıl dənləridir. I Kültəpədən Triticum Sativum L və Triticum comractum Hest buğda növləri, Hordeum sativum L növlü arpa dənləri aşkar olunmuşdur. II Kültəpədən yumşaq buğda (F.Aestivum) və gənəgərcək (Ricinus Communis) toxumları aşkar olunmuşdur (85,130). Üzərliktəpə yaşayış yerindən darı qalıqları, yanmış buğda (Tritucum Sativum L, Triticum durum Dest) və arpa (Hordeum Lagun culiforme) dənləri tapılmışdır.

Orta Tunc dövrünün yaşayış yerlərindən taxılın emalı ilə bağlı xeyli dən daşları, sürtgəc, həvəng və dəstələr aşkar edilmişdir. Bu tip alətlər demək olar ki, bütün yaşayış yerlərindən aşkar olunmuşdur. Bu dövrə aid əmək alətləri içərisində daşdan hazırlanmış taxıl döymə alətləri diqqəti cəlb edir. Bu tip əmək alətləri Qarabağdan, Qaraköpəkdən və II Kültəpədən aşkar olunmuşdur. Taxıldöyən daşlar ağır olduğundan, onlardan yalnız qoşqu qüvvəsi tətbiq etməklə istifadə edilmişdir. Onların ön tərəfində qayış bağlamaq üçün nov, ya da deşik açılmışdır. II Kültəpədən aşkar olunan daş alət arxaik formalıdır. Onun tapıldığı arxeoloji materialların kompleksi e.ə. XVIII-XVII əsrlərə aid edilir. Bu dövrdə ehtimal ki, ağac vəllərdən də istifadə edilmişdir. Son Tunc dövrünə aid olan belə vəllər Xanlar şəhəri yaxınlığındakı kurqandan aşkar olunmuşdur.

Əkinçilikdə istifadə olunan əmək alətlərindən biri də oraqlardır. Arxeoloji tapıntılara əsasən demək olar ki, Azərbaycanda hələ İlk Tunc dövründən başlayaraq, metal oraqlardan istifadə olunmuşdur. Lakin, Orta Tunc dövrünə aid

belə əmək alətləri Azərbaycanda indiyədək qeydə alınmamışdır. Bunun əksinə olaraq, obsidian və çaxmaqdaşından hazırlanmış xeyli miqdarda oraq dişləri aşkar olunmuşdur. Belə oraq dişləri I Kültəpə, II Kültəpə, Üzərliktəpə, Qaraköpəktəpə, Qobustan və digər yaşayış yerlərindən məlumdur.

İstehsal olunmuş taxıl məhsulları böyük təsərrüfat küpələrində və təsərrüfat quyularında saxlanmışdır. II Kültəpə və Üzərliktəpə yaşayış yerlərində aşağıya doğru genişlənən, silindrik formalı təsərrüfat quyuları aşkar olunmuşdur. Üzərliktəpənin alt tikinti qatında müxtəlif formalı təsərrüfat quyuları qeydə alınmışdır. Buradakı quyulardan bəzisinin diametri 1,4 metrə çatır. Onların divarları yaxşı suvanmış, içərisində taxıl çürüntüsünün qalıqları qalmışdır. Bu quyularda buğda, arpa və taxıl dənlərinin qalıqları aşkar olunmuşdur.

Orta Tunc dövrünün təsərrüfatında üzümçülük də müəyyən yer tutmuşdur. Tədqiqatlar zamanı Azərbaycan ərazisində yabanı üzümlüklərin olduğu müəyyən edilmişdir. Bunlara Ağdam, Şəki, Talış, Zəngilan, Qarabağ və Naxçıvanda rastlanmışdır. Arxeoloji materiallar üzümçülüyün Azərbaycanda e.ə. III minillikdən gec olmayaraq meydana çıxdığını göstərir.

Azərbaycanda e.ə. II minilliyin birinci yarısında üzümçülüyün inkişafını üzüm toxumları, üzüməzən daşların mövcudluğu göstərir. Üzərliktəpənin e.ə. II minilliyin əvvəli ilə tarixləndirilən alt təbəqəsindən mədəni üzüm çəyirdəyi aşkar olunmuşdur. Bu üzüm növü (Vitis vinera) Cənubi Qafqaz və İranda ən qədim mədəni bitki qalıqlarından biridir.

Orta Tunc dövründə təsərrüfatın başlıca sahələrindən biri maldarlıq olmuşdur. Abidələrin tədqiqi zamanı əldə edilən osteoloji materiallardan görünür ki, bu dövrdə xırdabuynuzlu heyvanlar sayca artmış, yarımköçəri yaylaq maldarlığı inkişaf etmişdir. Azərbaycanın yüksək dağlıq və dağ ətəklərində yerləşən abidələr bununla bağlıdır. Naxçıvan ərazisindəki yaşayış yerlərinin tədqiqi, onların bir qismində həyatın mövsümi xarakterdə olduğunu, mədəni təbəqənin az yığıldığını göstərir. Bu tip yaşayış yerləri yarımköçəri həyat tərzi keçirən maldar tayfaların həyat tərzi ilə bağlı olmuşdur. Kəlbəcər, Gəmiqaya və Xaçbulağın yüksək dağlıq zonasında Orta Tunc dövrü abidələrinə rast gəlinməsi, bu dövrdə Azərbaycanda məskunlaşan tayfaların bir qisminin yarımköçəri həyat tərzi keçirdiyini göstərir.

Azərbaycanın dağlıq və yüksək dağlıq zonasında əhalinin tamamilə məskunlaşması Orta və Son Tunc dövründə baş vermişdir. Bu dövrdə Araz çayı ətrafında, Mil-Qarabağ düzündə, Muğanda, Cənub-Şərqi Azərbaycanda güclü maldar tayfalar təşəkkül tapmışdır. Azərbaycanın qayaüstü təsvirlərində xırdabuynuzlu heyvan rəsmlərinin üstünlük təşkil etməsi, maldar tayfaların cəmiyyətdə üstün mövqeyinə işarədir. Gəmiqaya rəsmlərində öküz qoşulmuş araba təsvirlərinə rast gəlinməsi, bu dövrdə qoşqu qüvvəsinin inkişafı və bunun maldar tayfaların həyatındakı əhəmiyyəti ilə bağlıdır.

Üzərliktəpə və Günəştəpədən öküz (Bos taurus), qoyun (ovis), keçi (Capra), ev donuzu (Sus domestika), at (Equs Caballus) və köpək (Cavis Fanu

liavis) sümükləri aşkar edilmişdir. Üzərliktəpənin heyvandarlığında başlıca yer iribuynuzlu heyvanlara məxsus olmuş, burada yarımköçəri maldarlıq hökmran mövqe tutmamışdır. Şübhəsiz ki, burada maldarlığın oturaq forması daha çox inkişaf etmişdir.

Yaşayış yerlərindən aşkar olunan osteoloji materialların təhlili bu dövrdə xırdabuynuzlu heyvanların üstünlük təşkil etdiyini göstərir. II Kültəpədə aparılan tədqiqatlar zamanı qoyun (Ovis), keçi (Capra), inək, öküz (Bos taurus), donuz (Sus domestika), at (Equs Caballus) sümükləri aşkar olunmuşdur.

Maldarlığın inkişafı, əkinçiliyə nisbətən daha çox izafi məhsul əldə edilməsinə, sərvətin müəyyən qrup adamların əlində toplanmasına imkan yaratmışdır. Bu, son nəticədə əmlak bərabərsizliyinə gətirib çıxarmışdır. Tayfa başçılarına aid zəngin qəbirlərin meydana çıxması, şübhəsiz ki, bununla bağlıdır.

Bu dövrdə heyvandarlığın müəyyən sahəsini də atçılıq təşkil etmişdir. Muğanda Əliköməktəpəsindən aşkar olunan at sümükləri, atın hələ Eneolit dövründə əhliləşdirildiyini göstərir.

Üzərliktəpə, II Kültəpə və Şahtaxtıdan xeyli at sümüyünün aşkar olunması, Qobustan rəsmlərində, Şahtaxtı və II Kültəpə boyalı qablarında atlı təsvirləri olması atçılığın yüksək inkişaf səviyyəsində olduğunu və qədim tayfaların həyatında mühüm rol oynadığını göstərir.

Arxeoloji tədqiqatlar zamanı aşkar olunan dulusçuluq emalatxanasının qalıqları, dulus kürələri, gil qabların istehsalında tətbiq olunan əmək alətləri, müxtəlif formalı və naxışlı gil qablar Orta Tunc dövründə dulusçuluğun sənətkarlıqda başlıca sahələrindən biri olduğunu göstərir.

Azərbaycanın Orta Tunc dövrü abidələrindən aşkar olunan arxeoloji materialların əksəriyyəti gil məmulatı ilə təmsil olunmuşdur. Gilinin rənginə, tərkibinə və bəzəmə texnikasına görə, onları bir-birindən fərqlənən iki böyük qrupa bölmək olar. Çəhrayı rəngdə bişirilmiş birinci qrup keramika məmulatı üçün boyama bəzəmələr xarakterikdir. Bu tip keramika Azərbaycan arxeologiyasında Boyalı qablar mədəniyyəti adı ilə tanınmışdır. İkinci qrup keramika boz və qara rəngli, bəzən basma naxışlı qablarla xarakterizə olunur. Bu tiplərin yayılma arealının nəzərdən keçirilməsi göstərir ki, boyalı qablar, başlıca olaraq, Naxçıvan-Urmiya qrupunun arxeoloji abidələri üçün xarakterik olmuşdur. Azərbaycanın digər regionlarında isə, əsasən ikinci qrupa aid etdiyimiz qara cilalı cızma və basma ornamentli qablar geniş yayılmışdır. Burada boyalı qablara az rast gəlinmişdir. Azərbaycanın Orta Tunc dövrü mədəniyyətinin formalaşmasının xarakterini müəyyən etmək üçün, hər iki qrupa daxil olan gil məmulatının ətraflı təhlil edilməsi vacibdir.

Qeyd etdiyimiz kimi, Naxçıvan-Urmiya qrupunun arxeoloji abidələri, başlıca olaraq, boyalı qablarla xarakterizə edilir. Naxçıvan arxeoloji abidələrinin, xüsusilə II Kültəpənin stratiqrafiyasına əsasən, Orta Tunc dövrünün boyalı qabları 4 mərhələyə bölünmüşdür. İlk mərhələ üçün monoxrom boyalı qablar xarakterikdir.

II Kültəpənin Orta Tunc dövrü təbəqəsinin alt qatlarından bəlli olan bu tip qablar, qırmızı üzərinə qara rənglə çəkilmiş düz və dalğalı xətlərlə naxışlanmışdır. II Kültəpənin bu mərhələyə aid qabları küpə və badya tiplidir. Ağız kənarı geri qatlanan küpələrin boğazı qısa, gövdəsi qabarıq və simmetrikdir. Badya tipli qabların ağzı bir qədər içəri yığılmışdır. Gövdəsi çiyin hissədə qabarıq olub, oturacağa doğru getdikcə daralır.

Bu mərhələ üçün xarakterik olan qablar Göytəpənin D təbəqəsində, Haftavantəpənin VI C, VI B təbəqəsində də aşkar olunmuşdur. Göytəpənin erkən mərhələyə aid D təbəqəsindəki qabların bir qrupu qırmızı üzərinə qara və ağ rənglərlə çəkilmiş ornamentlərlə naxışlanmışdır. Qırmızı boya üzərinə ağ rənglə çəkilmiş naxışlar II Kültəpə keramikasında da qeydə alınmışdır.

İkinci mərhələ üçün daha təkmil və mürəkkəb kompozisiyalı boyalı qablar xarakterikdir. Onların başlıca ornamental motivləri dairələrlə tamamlanan sınıq xətlər, romb, üçbucaqların arasına çəkilən kiçik dairələr, bəzən isə insan, quş və heyvan rəsmlərindən ibarətdir. Bu motivdə naxışlanmış qablar Göytəpənin D təbəqəsində, Haftavantəpənin VI C, VI B təbəqəsində, I Kültəpənin üçüncü təbəqəsində, II Kültəpədə, Nəhəcir, Yaycı, Çalxanqala, Şahtaxtı və digər abidələrdən məlumdur.

İkinci mərhələyə aid olan monoxrom boyalı qabların əksəriyyəti küpə, kasa və çölməklərlə təmsil olunmuşdur. Olduqca müxtəlif tipləri olan qablar narın qum qarışığı olan gildən hazırlanaraq, yaxşı bişirilmişdir.

E.ə. II minilliyin ikinci rübündə boyalı qabların istehsalında böyük irəliləyiş nəzərə çarpır. Bu dövrdən etibarən, polixrom boyalı qablar geniş yayılmağa başlayır. Gil qablar yüksək bədii zövqlə bəzənməsi ilə fərqlənirlər. Naxışlar qabların gövdəsinin yuxarısını əhatə edən narıncı-sarı və ağ fon üzərinə, başlıca olaraq qara, qırmızı, bəzən isə qəhvəyi, ağ və yaşıl rənglə çəkilir.

Polixrom boyalı qablar Cənubi Qafqazda və Azərbaycanda, başlıca olaraq Naxçıvan-Urmiya qrupunun arxeoloji abidələrindən aşkar edilmişdir. Azərbaycanın digər rayonlarında, Gürcüstanda polixrom qablar tək-tək nümunələrlə bəllidir. Bunun əksinə olaraq Şərqi Anadoluda polixrom qablar geniş şəkildə yayılmışdır. Bu mərhələ üçün xarakterik olan polixrom boyalı qablar I Kültəpədən, II Kültəpədən, Göytəpənin D və C təbəqələrindən, Haftavantəpənin VI və V təbəqəsindən, Dinkatəpənin IV təbəqəsindən aşkar olunmuşdur. Yaşayış yerlərindən başqa, polixrom boyalı qablar, həmçinin Naxçıvan ərazisindəki Şahtaxtı, Qızılburun və Naxçıvan nekropolundan da əldə edilmişdir. Bu mərhələyə aid boyalı qablar küpə, kasa, badya və çölməklərlə təmsil olunmuşdur.

Qızılburun nekropolundan aşkar olunmuş küpə tipli qabların biri zəngin bəzəməsi ilə fərqlənir. O əsasən həndəsi ornamentlə naxışlanmışdır. Naxışlar başlıca olaraq aşağıdan və yuxarıdan düz xətlərlə məhdudlaşdırılmış torlu üçbucaqlardan ibarətdir. Üçbucaqların arasında boş qalmış sahəyə bir yerdə həndəsi fiqurlar, digər yerdə isə rəqs edən qadın və kişi şəkli çəkilmişdir. Qara

rəngdə çəkilən kişi şəklinin qurşağı və papağı qırmızı rəngdədir. Onun bir əlində qırmızı rəngli dəsmal vardır. Qadın şəkli qırmızı rəngdə təsvir edilmişdir. Onun çiyni lələk şəkilli incə bəzəmələrlə naxışlanmışdır. İstər qadın, istərsə də kişi rəsminin geyimi milli Azərbaycan geyimlərini xatırladır. Rəqs səhnəsi də Azərbaycan və digər Şərq xalqları üçün xarakterikdir. Bəzi Qızılburun küpələri iti uclu üçbucaqlar, toplu romblar və baş-başa yerləşdirilmiş qoşa üçbucaqlarla naxışlanmışdır. Qeyd etmək lazımdır ki, qoşa üçbucaq motivinə, Cənubi Qafqazın boyalı qabları içərisində olduqca az rastlanmışdır. Bu motivin Qızılburun üçün xarakterik olduğunu söyləmək olar. Bu motivdə naxışlanmış polixrom boyalı küpələr Göytəpənin D və C təbəqələrindən də aşkar olunmuşdur.

Şahtaxtının polixrom boyalı küpələrinin biri yüksək zövqlə, incə naxışlarla bəzənmişdir. Onun gövdəsinin mərkəzi hissəsi qara rənglə çəkilmiş üfüqi xətlərlə üç zolağa ayrılmışdır. Birinci zolaqda qara və qırmızı rənglərlə bir-birinin ardında yerləşdirilmiş qu quşu təsvirləri verilmişdir. Orta qurşaqda dağ keçilərinə hücum edən canavar, sxematik quş və ceyran təsvirləri də bir-birinin ardında yerləşdirilmişdir. Şəkillərin arasında boş qalan sahə həndəsi motivdə bəzədilmişdir. Üçüncü zolaqdakı naxışlar həndəsi motivdə olub, bitişik rombları xatırladır. Bu küpənin bənzərinə indiyədək rastlanmamışdır.

II Kültəpədən aşkar olunan küpə tipli qabın gövdəsinin parçası orijinal bəzəmə motivi ilə fərqlənir. Küpənin üzərindəki bəzəmələr olduqca mürəkkəb kompozisiyada verilmişdir. Qabın gövdəsi qara rəngdə çəkilmiş enli xətlərlə üç qurşağa bölünmüşdür. Birinci qurşaq enli qırmızı xətt bucaqşəkilli şəkillərlə naxışlanmışdır. Naxışlar, başlıca olaraq, ikinci və üçüncü qurşaqda yerləşdirilmişdir. İkinci qurşaqda vertikal xətlərlə məhdudlaşdırılan romblar, rombların ətrafında realist və sxematik quş şəkilləri, vertikal xətlərin arasında isə qırmızı və qara rənglə doldurulmuş romb düzümləri çəkilmişdir. Üçüncü qurşaq, başlıca olaraq, romblarla doldurulmuş üçbucaq, baş-başa yerləşdirilmiş qoşa torlu üçbucaqlarla naxışlanmış, üçbucaqların ətrafına quş rəsmləri çəkilmişdir.

Bu motivdə naxışlanmış polixrom boyalı küpəyə Göytəpənin D təbəqəsindən də aşkar olunmuşdur. Onlar bəzəmə motivinə görə Naxçıvan boyalı qabları ilə bənzərlik təşkil edirlər.

I Kültəpə, II Kültəpə, Göytəpə, Haftavantəpə, Şahtaxtı, Qızılburun və Naxçıvan nekropolundan aşkar olunan polixrom boyalı küpələrin naxışları həndəsi motivdədir.

Azərbaycanın cənub rayonlarında boyalı qablar dördüncü mərhələdə geniş inkişaf tapmışdır. Bu dövr üçün xarakterik olan çayniktipli qablar diqqəti cəlb edir. Tədqiqatçıların fikrinə görə, çayniktipli qablar Orta Tunc dövrünün ikinci mərhələsində meydana gəlmişdir. Lakin Orta Tunc dövrünün sonunda bu tip qablar Naxçıvanda geniş inkişaf tapmışdır. Boyalı çayniklər formaca boz rəngdə olan, eyni tip qabları xatırladır. Onların ağzının kənarı xaricə qatlanmışdır. Gövdəsi qabarıq olub, bikonik formalıdır. Bəzi çayniklərin lüləyinin əks tərəfində deşikli, qulaqcıqşəkilli çıxıntılar vardır. Onların gövdəsinin yuxarı

hissəsi narıncı-sarı boya üzərinə, qırmızı və qara rənglə çəkilmiş xətlərlə naxışlanmışdır.

Geniş yayılmış naxış motivlərindən biri də, qoşa qara xətlərin arasına alınaraq, bir-birinin içərisində yerləşdirilmiş toplu üçbucaqlardır. Polixrom boyalı, çaynik tipli qablar II Kültəpə, Şortəpə, Qızılburun, Şahtaxtı və Naxçıvan nekropolundan məlumdur. Naxçıvan nekropolundan aşkar olunan çayniktipli qabların biri hünüdürayaqlıdır. Qeyd etmək lazımdır ki, çayniktipli qablar Naxçıvan üçün xarakterikdir. Bu tip qabların boyalılarına Azərbaycanın başqa yerlərində indiyədək rast gəlinməmişdir. Onlar Son Tunc və Erkən Dəmir dövründə geniş inkişaf etmiş, ehtimal ki, qonşu rayonlara da yayılmışdır.

Bu mərhələdə orijinal formaya malik, konusvari-qabarıq gövdəli, ağzının kənarı iki yandan içəri batıq olan kasalar meydana çıxır. Bu tip qablar II Kültəpə və Culfadan aşkar olunmuşdur. II Kültəpədən tapılmış kasanın üzəri yaxşı sığallanmış, içəridən açıq çəhrayı, xaricdən sarı rənglə örtülmüşdür. Ağzının kənarı qara rəngli üfüqi xətlə əhatələnmişdir. Gövdəsi torlu üçbucaqla naxışlanmışdır. Culfadan  aşkar olunmuş kasalar içəridən qırmızı, xaricdən sarı rənglə örtülmüşdür. Onun gövdəsi torlu romblar, gövdəsinin yan tərəfləri isə qara rənglə çəkilmiş üçbucaqlarla naxışlanmışdır. Oturacağı qara rənglə çəkilmiş dördbucaq və üçbucaqlarla bərabər hissələrə bölünmüşdür.

Qeyd olunduğu kimi, Naxçıvan-Urmiya abidələrindən başqa, Azərbaycanın digər yerlərində boyalı qablar çox az aşkar olunmuşdur. Boyalı qablar Azərbaycanın digər rayonlarında forma verməyən parçalarla və az miqdarda təmsil edildiyi üçün, Boyalı qablar mədəniyyətinin bütün mərhələləri təmsil olunmamışdır. Cənubi Qafqazda, Gürcüstan ərazisində, əsasən, monoxrom boyalı qablar yayılmışdır. Boyalı qablar mədəniyyətinin digər mərhələləri burada izlənməmişdir. Odur ki, boyalı qabların başlıca istehsal mərkəzinin Naxçıvan-Urmiya rayonunda yerləşdiyini söyləmək olar.

İkinci qrupa daxil etdiyimiz boz, bəzən isə qırmızı rəngli keramikaya Azərbaycanın hər yerində rast gəlinmişdir. Belə keramika boyalı qabların geniş yayıldığı Naxçıvan-Urmiya qrupunun abidələrindən də aşkar olunmuşdur. Lakin Naxçıvan-Urmiya qrupundan fərqli olaraq, digər rayonlarda boz və qara rəngli keramika gil məmulatının əsasını təşkil edir. Bu qrupa daxil olan keramikanın əksəriyyəti Mil düzü, Quruçay və Köndələnçay vadisinin abidələrindən tapılmışdır.

Bu qrupa daxil olan gil məmulatı hazırlanma texnikası və təyinatına görə iki qrupa ayrıla bilər. Birinci qrup qalın divarlı mətbəx və təsərrüfat qablarından ibarətdir. Bu tip qabların gilinə narın və iri qum qatılaraq, qeyri-bərabər bişirilmişdir. Qabların divarları yüngülcə sığallanmışdır. Onlar çölmək, qazan, küp tipli qablardan ibarətdir. Təsərrüfat və mətbəx qabları arasında, bəzən çəhrayı rəngdə bişirilmiş qablara da rast gəlinir.

İkinci qrupa daxil olan keramika məmulatı yüksək keyfiyyətli bişirilmə və naxışlanma kompozisiyasının mürəkkəbliyi ilə fərqlənir. Belə keramika, başlıca

olaraq, Mil-Qarabağ-Naxçıvan və Muğanda istehsal olunmuşdur. Aparılan tədqiqatlar, bu tip keramikanın, əsasən Kür-Araz keramikası əsasında inkişaf etdiyini göstərir.

Bu qrupa daxil olan keramika məmulatı küpə, kasa, çölmək tipli qablarla təmsil olunmuşdur. Küpələrin ağzının kənarı xaricə qatlanmışdır. Boğazları qısa, gövdələri şar şəkillidir. Qara rəngli küpələr parıldayanadək cilalanmışdır. Qara rəngli qabların boyanması üçün xüsusi minerallardan istifadə edilmişdir. II Kültəpədən aşkar olunmuş qabların bəzisinin içərisində vertikal axıntıların qeydə alınması, minerallarla boyamanın əlamətidir. V.H.Əliyev E.P.Maysuradzenin qabların hisə verilməklə qaradılması fikrini inkar edərək, göstərmişdir ki, qabların xaricinin və daxilinin müxtəlif rənglərdə olması, onların xarici səthinin bişirilməzdən əvvəl qara rənglə boyanmasının nəticəsidir.

Kükü nekropolundan aşkar olunmuş, ağzının kənarı geriyə qatlanan, silindir boğazlı və şargövdəli küpələrin unikal naxışlanma motivinə indiyədək Azərbaycan və Cənubi Qafqaz abidələrində rast gəlinməmişdir. Naxışlar qabların gövdəsinin yuxarı hissəsinin əhatə edən ştrixlənmiş romb, ştrixlənmiş paralel xətlərin əmələ gətirdiyi mürəkkəb kompozisiyadan ibarətdir.

Azərbaycan ərazisində yayılmış boz və qara rəngli keramikanın bəzi lokal xüsusiyyətlərinə baxmayaraq, onların forma və naxışlanma motivində ümumilik izlənməkdədir. Bu tip keramikanın Kür-Araz keramikası ilə genetik bağlılığı tədqiqatçılar tərəfindən dəfələrlə qeyd edilmişdir. Qonşu Gürcüstan ərazisində Orta Tunc dövründə yayılan qara cilalı, cızma və basma naxışlı keramika da Kür-Araz mədəniyyətinin bilavasitə davamıdır. Azərbaycanda bu keramikanın geniş yayıldığı Mil-Qarabağ, Talış- Muğan, Qobustan və Şimal-Şərqi Azərbaycanda boyalı qablar olduqca az aşkar olunmuş, yaxud heç aşkar olunmamışdır. Bunun əksinə olaraq, Naxçıvan-Urmiya bölgəsində boz və qara rəngli qablarla yanaşı, boyalı qablar geniş yayılmış və bu regionda boyalı keramika istehsalı müxtəlif inkişaf mərhələlərindən keçmişdir. Naxçıvan-Urmiya bölgəsinin boyalı keramikası Kür-Araz mədəniyyətindən fərqli olan yeni mədəniyyətin formalaşmadığını göstərir.

Belə nəticəyə gəlmək olur ki, Naxçıvan-Urmiya zonasında yeni mədəniyyətin formalaşdığı zaman Azərbaycanın digər rayonlarında Kür-Araz mədəniyyəti tayfaları yaşamaqda davam etmişdir. Ehtimal ki, Orta Tunc dövründə inkişaf edən bu mədəniyyət, daha sonra Azərbaycanda yayılan Xocalı-Gədəbəy mədəniyyətinin əsasını təşkil etmişdir.

Şübhəsiz ki, Cənubi Qafqazın müxtəlif rayonlarına, o cümlədən Azərbaycana boyalı qablar Naxçıvan-Urmiya ərazisindən yayılmışdır. Bu haqda növbəti başlıqda geniş məlumat veriləcəyindən, onun üzərində çox dayanmağa ehtiyac duymuruq. Naxçıvan ərazisində yayılan boz və qara rəngli keramika isə, şübhəsiz ki, Kür-Araz mədəniyyətinin ənənələri ilə bağlı olmaqla, yerli istehsala məxsusdur. Bu tip keramika içərisində ştamp naxışlı qabların çaynik tiplilərinə rast gəlinməsi, bu fikri gücləndirməkdədir.

Şübhəsiz ki, Naxçıvan-Urmiya istehsal ərazisi ilə Azərbaycanın digər regionları arasında sıx mədəni əlaqə və mübadilə də olmuşdur.

Azərbaycan ərazisinin mis və polimetal yataqları ilə zəngin olması Orta Tunc dövründə metallurgiya və metalişləmənin inkişafını təmin etmişdir. Metallurgiya və metalişləmə hələ İlk Tunc dövründə müəyyən inkişaf səviyyəsinə çatmışdı. Bu dövrdən başlayaraq metal əridilməsində süni üfürmə üsulundan istifadə edilmişdir. Orta Tunc dövrünə aid metaləritmə



Şəkil 75. Orta Tunc dövrünə aid metal məmulatı.
1, 7 - Çalxanqala, 10 – Şahtaxtı

kürələrinin qalıqları II Kültəpə yaşayış yerində aşkar edilmişdir. Lakin güclü dağıntıya məruz qaldığından onların tam planı müəyyən edilməmişdir. Dairəvi

formalı, diametri 50 sm olan kürələrin tikintisində odadavamlı gildən istifadə edilmişdir. Kürənin yaxınlığından körük ucluğu və metal şlak qalığı aşkar edilmişdir. Tədqiqatlar zamanı müəyyən edilmişdir ki, II Kültəpə sakinləri Naxçıvan ərazisində yerləşən mis yataqlarından istifadə etmişdir.



Şəkil 76. Orta Tunc dövrünə aid metal məmulatı. 19, 20 – Çalxanqala, 1, 2, 3, 6, 9, 11 - 18, 21,22 - Qızılburun 4, 5, 7, 8, 10 - Şahtaxtı

Arxeoloji abidələrin tədqiqi zamanı əldə edilən dağ-mədən alətləri, II Kültəpə, Üzərliktəpə, Qaraköpəktəpə, Qobustan və digər yaşayış yerlərindən aşkar olunan gil butələr, körük ucluğu və qəliblər metallurgiya və metalişləmə sənəti arasında differensasiyanın artdığını göstərir.

Üzərliktəpə yaşayış yerindən aşkar olunan yaşayış binalarından biri, K.X.Kuşnaryeva tərəfindən, «tökməçi evi» kimi xarakterizə edilmişdir. Metal emalı ilə bağlı olan binanın qalıqları II Kültəpə yaşayış yerində də aşkar olunmuşdur. Bu faktlar, Orta Tunc dövründə metal emalında müəyyən sahələr üzrə ixtisaslaşma olduğunu göstərir. Bu dövrdə tuncdan hazırlanmış müxtəlif

əmək alətləri, silah və bəzək əşyalarının mövcudluğu, metal emalının çoxsahəli xarakter daşıdığını göstərir.

Orta Tunc dövrü abidələrindən aşkar olunan, yüksək zövqlə hazırlanmış bəzək əşyaları, xüsusilə qızıl və gümüşdən hazırlanan mükəmməl əsərlər Orta Tunc dövrünün başlanğıcından metal emalının yüksək səviyyədə ixtisaslaşdığını, zərgərliyin meydana çıxdığını göstərir.

Arxeoloji abidələrin tədqiqi göstərir ki, Orta Tunc dövrünün əvvəlindən başlayaraq, Azərbaycan ərazisində qalaylı tuncdan geniş istifadə edilmişdir. Lakin, M.Ə.Qaşqay və İ.R.Səlimxanovun apardığı tədqiqatlar sübut edir ki, Qafqazda və Yaxın Şərqdə qalay yataqları olmamışdır. Tədqiqatçıların fikrincə, qalay Qafqaza və Yaxın Şərq ölkələrinə Cənub-Şərqi Asiyadan gətirilmişdir. Qeyd etmək lazımdır ki, Yaxın Şərqdə qalay yataqları olmasa da, burada qalaydan istifadə çox erkən başlanmışdır.

Cənubi Mesopotomiyada Ur və Kiş qəbirlərindən aşkar olunan tunc əşyaların tərkibində 14,5 %-ə qədər qalay aşkar edilmişdir. Azərbaycanın Mesopotomiya ilə coğrafi baxımdan yaxınlığı, habelə, bu ölkələr arasında Eneolit dövründən mövcud olan iqtisadi-mədəni əlaqələr ehtimal etməyə imkan verir ki, qalay Azərbaycana Mesopotomiyadan gətirilmişdir. E.ə. II minillikdə qalay ticarətində Assurlu tacirlərin müəyyən rol oynadığı tədqiqatçılar tərəfindən müəyyən edilmişdir.

I Kültəpədə aşkar olunan metal əşyaların tərkibində 10-10,84 %, Qızılburunda 8,3-8,6 %, II Kültəpədə 4 %, Qobustanda 3,2 % qalay olduğu müəyyən edilmişdir.

Muğanda, Əliköməktəpədə F.R.Mahmudov tərəfindən tədqiq edilən 79 və 80 №-li qəbirlərdən xeyli miqdarda tunc əşyanın, o cümlədən yastı balta, borudəstəkli nizə ucluğu, qazan, dördkünc bizlər, xəncər tiyəsi və müxtəlif bəzək əşyalarının tapılması, metal emalının yüksək inkişaf səviyyəsinə qalxdığını göstərir.

Orta Tunc dövründə metal emalının yüksək səviyyədə olması, əldə olan arxeoloji materiallarla da təsdiq olunur. Onlar əmək alətləri, silah və bəzək əşyalarından ibarətdir. Əmək alətləri başlıca olaraq iynə və bizlərlə təmsil olunmuşdur. Dördkünc formalı bizlər, əsasən Qızılburundan məlumdur. Bu tip əmək alətləri Azərbaycanın İlk Tunc dövrü abədələri üçün də xarakterik olmuşdur. Silahlar xəncər, nizə, ox ucluğu və baltalarla təmsil olunmuşdur.

Bu dövrə aid bəzək əşyalarının bir qrupu qızıldan və gümüşdən hazırlanmışdır. Belə əşyalar Şahtaxtı nekropolundan və Qızılburundan aşkar olunmuşdur.

Metal emalının inkişafı Azərbaycanın Yaxın Şərq və Qafqaz xalqları ilə iqtisadi-mədəni əlaqələrinin genişlənməsində və artmasında mühüm rol oynamış, cəmiyyətin inkişafına böyük təsir göstərmişdir.

Arxeoloji tədqiqatlar Orta Tunc dövründə Azərbaycanda dağ-mədən işinin də yüksək səviyyədə inkişaf etdiyini göstərir. Naxçıvan şəhərindən 12 km şimal-

qərbdə, Duzdağda aşkar olunan qədim duz mədənləri bunu bir daha sübut edir. Hələ keçən əsrin ikinci yarısında Duzdağdan tapılmış daş çəkiclərin duz çıxarılması üçün istifadə olunduğu K.A.Nikitin tərəfindən söylənmişdir.

1897-ci ildə İ.S.Polyakovun Duzdağda apardığı arxeoloji kəşfiyyat işləri zamanı xeyli miqdarda daş çəkic aşkar olunmuşdur. Onun fikrinə görə, bu daş çəkiclərdən duzun parçalanması üçün istifadə olunmuşdur.

1967-ci ildə Duzdağın cənub ətəyində aparılan inşaat işləri zamanı qədim şaxtanın girişi aşkar olunmuşdur. Şaxtadan xeyli miqdarda daş çəkic, o cümlədən 30 kq ağırlığında daş kürz tapılmışdır. Çox güman ki, bu alətlərdən duzun parçalanması və çıxarılması üçün istifadə olunmuşdur.

1976-cı ildə müasir tunel tikilərkən Duzdağda qədim duz mədəni aşkar olunmuşdur. Bu mədən olduqca mürəkkəb plana malikdir. Qədim tunelin uzunluğu 70 m, eni 6-20 m, hündürlüyü 10-15 m-dir. Tunel müxtəlif ölçülü 10 salondan ibarətdir. Bu salonların ən böyüyündə duzdan kəsilmiş 5 sütun vardır. Onlar mədənin divarları ilə tağ şəklində birləşir. Mədənin divarları ustalıqla işlənərək, hamarlanmışdır. Salonların bəzisinin divarlarında his izləri, bəzisində isə ocaq qalıqları qalmışdır. Duz laylarının arasında yerləşən meqrel təbəqələrə çalınmış ağac pazların qalıqları, duzun hansı üsulla çıxarılması haqqında məlumat almağa imkan verir. 10 №-li zalda divarın dibində uzunluğu 3-5 m olan səki, şübhəsiz ki, mədənçilərin dincəlməsi və oturması üçün nəzərdə tutulmuşdur. 5-ci zalda qrup halında rastlanan vertikal xətlər diqqəti cəlb edir. İşarələrin yerləşmə ardıcıllığının müşahidəsi onluq say sisteminin mövcudluğunu göstərir. Ən böyük qrupda hər birində 10 işarə olan 5 sıra vardır. Ehtimal ki, bu işarələr çıxarılan duzun miqdarını, ya da şaxtada işlənən günlərin sayını göstərir.

Tunelin cənub tərəfində daş çəkiclər, maral buynuzu, ağac və samandan hörülmüş ip qalığı aşkar olunmuşdur. Buradan həmçinin iki qara cilalı gil qab da əldə edilmişdir. Tuneldən tapılmış daş çəkiclər, maral buynuzundan hazırlanmış alətlər, I Kültəpə və II Kültəpə yaşayış yerlərindən bəllidir. Bu alətlər həm qədim duz mədəninin tarixləndirilməsi, həm də duzun çıxarılma üsullarını müəyyən etmək baxımından əhəmiyyətlidir. Müəyyən edilmişdir ki, buynuz alətlərlə duz layları arasındakı meqrel təbəqəsi təmizlənmiş, sonra yaranan boşluqlara ağac pazlar çalınaraq duz parçaları qoparılmışdır.

Araşdırmalar göstərir ki, qədim dövrdə duzun çıxarılması üçün, başlıca olaraq, şaxta və tunellərdən istifadə olunmuşdur. Əldə edilən arxeoloji materiallara əsasən qədim Orta Tunc dövrünə aid mədənlər e.ə. III-II minilliklərə aid edilmişdir. Qeyd etmək istəyirik ki, 2006-2007-ci illərdə V.B.Baxşəliyev, Catherine Marro və S.H.Aşurovun rəhbərliyi ilə aprılan araşdırmalar zamanı Eneolit və Erkən Tunc dövrünə aid xeyli keramika və əmək alətləri tapılmışdır.

**Mədəniyyət və incəsənət.** Orta Tunc dövründə Azərbaycanda yaşayan qədim tayfaların mədəni inkişafında da xeyli irəliləyişlər olmuşdur. Bu irəliləyişlər düzgün və mürəkkəb arxitekturası olan yaşayış binaları və müdafiə sistemlərinin tikilməsində, yüksək zövqlə hazırlanmış gil məmulatı və metal

əşyalarda özünü daha aydın göstərməkdədir. Bu dövrün mənəvi xüsusiyyətinin öyrənilməsində gil qablar üzərindəki təsvirlərin böyük əhəmiyyəti vardır. Qədim tayfaların min illərdən bəri formalaşan ideologiyası ilə bağlı olan bu təsvirlər, həm də yüksək sənət əsərləridir. Bu baxımdan, boyalı qabların üzərində rast gəlinən rəsmlər diqqətəlayiqdir. İlk mərhələdə qabların üzəri qırmızı boya ilə örtülərək, anqoblanmış, qara rənglə yüksək zövqlə naxışlanmışdır. Naxışlar, başlıca olaraq, həndəsi motivdədir. Naxışlanma motivinə görə mürəkkəb kompozisiyaya malik olan Şortəpə, Şahtaxtı, Yaycı monoxrom boyalı qabları, xüsusilə fərqlənir. Həndəsi ornamentlər arasında verilən quş və heyvan rəsmləri olduqca realistik olmaqla, yüksək sənətkarlığın məhsuludur. Bu mərhələyə aid boz-qara rəngli gil qablar da yüksək zövqlə naxışlanmışdır. Bunların arasında Üzərliktəpə yaşayış yeri və Kükü kurqanlarından aşkar olunan nümunələr naxışların orijinallığı ilə diqqəti cəlb edir.

Polixrom rənglərlə boyama Orta Tunc dövrü mədəniyyətinin xüsusi mərhələsini təşkil edir. Bu dövrdə qabların gövdəsinin mərkəzi hissəsi ağ-sarı rənglə boyanaraq, qara və qırmızı rənglə naxışlanmışdır. Bu mərhələyə aid qabların naxışlanmasında həndəsi ornamentlər və rəqs səhnələrindən istifadə edilmişdir.

Orta Tunc dövrünün son mərhələsində qabların naxışlanmasında daha mürəkkəb kompozisiyalardan istifadə olunmuşdur. Şahtaxtı və II Kültəpədən aşkar edilmiş polixrom boyalı qablar ornamental motivin mürəkkəbliyi ilə fərqlənirlər. Onların naxışlanmasında həndəsi fiqurlarla bərabər, realist heyvan fiqurlarından da istifadə olunmuşdur. Naxışlar paralel xətlərlə məhdudlaşdırılan üç qurşaqda verilmiş, təkrarolunmaz gözəllik yaradılmışdır. İstər Şahtaxtı, istərsə də II Kültəpənin polixrom boyalı qablarında rast gəlinən sxematik, ya da mifik insan və heyvan təsvirləri qədim insanların dünyagörüşünü əks etdirir.

Orta Tunc dövrü təsviri sənətinin əsas növlərindən biri də qayaüstü rəsmlərdir. Bu dövrdə qayaüstü təsvirlərin geniş ərazilərə yayılmasını tədqiqatçılar yarımköçəri və köçəri maldarlığın inkişafı ilə bağlamışlar. Azərbaycanda qayaüstü rəsmlərə yüksək dağlıq ərazilərdə (Gəmiqaya, Kəlbəcər, Göyəm dağları) və ovalıqlara yaxın dağ ətəklərində (Qobustan, Abşeron) rastlanmışdır.

Orta Tunc dövrünün təsviri incəsənəti üçün siluet insan və heyvan rəsmləri və müxtəlif simvolik işarələr xarakterikdir. Bu baxımdan, Gəmiqayada aşkar olunan qayaüstü təsvirlər diqqəti cəlb edir. Gəmiqaya kiçik Qafqaz sıra dağlarının ən yüksək zirvəsi olan Qapıcığın mifik adıdır. O Ordubad şəhərindən 60 km şimalda, Tivi və Nəsirvaz kəndləri arasında yerləşir.

Qapıcıq zirvəsi dəniz səviyyəsindən 3905 m yüksəklikdədir. Dağın cənub ətəyinə səpələnmiş metamorfizləşmiş tuf parçalarının təbii aşınma nəticəsində hamarlanan səthinə qədim insanların həyat tərzini və düşüncəsini əks etdirən təsvirlər çəkilmişdir. Gəmiqaya rəsmləri ilk dəfə 1969-cu ildə qeydə alınmışdır.



Şəkil 77. Maral təsviri (Gəmiqaya)

1969-1971-ci illərdə Gəmiqayanın cənub ətəyində Qaranquş, Nəbiyurdu, Camışölən yaylaqlarında, dəniz səviyyəsindən 3500-3700 m yüksəklikdə V.H.Əliyev tərəfindən yüzlərlə qayaüstü şəkil aşkar olunmuşdur. 2001-2005-ci illərdə aparılan araşdırmalar zamanı Gəmiqayada iki mindən artıq qayaüstü təsvir qeydə alınmışdır. Qayaüstü rəsmlər arasında ov səhnələri, xüsusilə diqqəti cəlb edir. Şəkillərin bir qrupunda kəməndlə, ya da torla tutulan dağ keçilərinin təsvirləri verilmişdir. Cüt-cüt verilən dağ keçilərinin bir qrupu qarşı-qarşıya yerləşdirilmişdir. Ola bilsin ki, bu, heyvanların döyüş səhnəsini əks etdirir. Təsvirlər arasında vəhşi heyvanların (canavarın) keçilər üzərinə hücum səhnəsi də vardır.

Qayaüstü rəsmlər arasında öküz, maral, pələng təsvirlərinə də rast gəlinir. At, köpək və fantastik heyvanların ayrıca təsvirləri Gəmiqaya rəsmləri arasında müəyyən yer tutur. Bəzi heyvanlar həndəsi fiqurların birləşdirilməsi ilə yaradılmışdır. Belə təsvirlərə boyalı qablar üzərində də rast gəlinmişdir.



Şəkil 78. Gəmiqayada parçalama səhnəsinin təsviri

Gəmiqaya qayaüstü təsvirləri arasında insan rəsmləri mühüm yer tutur. Onlar, başlıca olaraq, incə xətlərlə çəkilmiş siluet təsvirlərdən ibarətdir. Onların başı yuvarlaq, ayaqları bir-birindən aralı, ya da dizdən bükülü halda, əlləri yuxarıya qaldırılmış vəziyyətdə təsvir edilmişdir. Şəkillər arasında insan və keçi təsvirləri, kollektiv ov səhnələri diqqəti cəlb edir. İnsanların başı üzərində təsvir olunan keçi şəkilləri ehtimal ki, totemizmlə bağlıdır.

Şəkillərin bir qrupu kollektiv rəqs səhnələrindən ibarətdir. Bu səhnələrdən birində başına buynuzlu maska taxan insan təsvirinə, digərində isə üçbarmaqlı insan təsvirinə rastlanmışdır. Tədqiqatçılar bu təsvirləri qədim insanların mifoloji təsəvvürləri ilə bağlayırlar.

Gəmiqayada, həmçinin ritual yallı rəqsinin təsvirinə də rastlanır. Məlum olduğu kimi, qoşa rəqs təsvirinə Qızılburundan tapılan polixrom boyalı qab parçası üzərində də təsadüf olunmuşdur. Qeyd etmək lazımdır ki, Naxçıvan, xüsusilə Şərur bölgəsi indi də müxtəlif yallı rəqsləri ilə tanınmaqdadır.

Gəmiqaya rəsmləri arasında araba təsvirləri, lövbər, üçdişli yaba, dairə və göy cisimlərinin təsviri müəyyən yer tutur. Bəzən göy cisimləri heyvanlarla eyni kompozisiyada verilmişdir. Şübhəsiz ki, bu təsvirlər qiymətli incəsənət

nümunələri olmaqla bərabər, həm də qədim insanların dünyagörüşünü, o cümlədən mifologiyasını özündə əks etdirmişdir.

Azərbaycanın qayaüstü təsvirləri arasında Qobustan təsvirləri mühüm yer tutur. Tunc dövründə qayaüstü rəsmlərin həcmi, əvvəlkilərə nisbətən kiçilmiş, lakin heyvanların realist təsviri saxlanmışdır. Bu dövrdə ovçuluğun insanların həyatında mühüm yer tutması, Qobustan təsvirlərində də əks olunmuşdur. Qobustanda təsvir olunan piyada, ya da atlı ovçular ox və kaman, üçdişli yaba, nizə və kəməndlə silahlanmışdır.

Qobustan qayalarında, Yazılıtəpə və Böyükdaşda e.ə. III-II minilliyə aid edilən ov səhnələri realist, dinamik və ifadəli təsviri ilə fərqlənir. Burada, həmçinin yüksək sənətkarlıqla təsvir edilmiş maral rəsmlərinə də rast gəlinir.

Qobustanda qeydə alınan insan fiqurları Gəmiqayada olduğu kimi sxematikdir. Onlar anfasdan, ritual rəqs və hərəkət vəziyyətində təsvir edilmişdir. Təsvirlər arasında iki kişinin mübarizəsi diqqəti cəlb edir. Böyükdaşda qaya üzərində qazılan yallı rəqsi xüsusi yer tutur. Rəqs iki sırada yerləşdirilmiş insanlar tərəfindən ifa edilir. Bu rəsmlər e.ə. III-II minilliyə aiddir. Qobustanda, həmçinin e.ə. II minilliyə aid edilən köpək və şir rəsmləri də vardır.

Kəlbəcərdə qaya təsvirləri Zalxagöl, Qaragöl, Pəriçınqıl, Taxta, Ayıçınqıllı, Lilpar, Gelinqaya və Sarımsaqdərəsində qeydə alınmışdır. Təsvirlərin bir qrupu Q.S.İsmayılov tərəfindən tədqiq olunmuşdur. Qaya təsvirləri təsərrüfat-məişət və ritual xarakterlidir. Bu təsvirlərdə Azərbaycanın qədim faunası öz əksini tapmışdır. Rəsmlər arasında araba təsvirləri, Göy cisimlərinin təsvirləri və müxtəlif tamğalar da vardır. Təəssüf ki, Kəlbəcər təsvirləri geniş şəkildə araşdırılaraq nəşr edilməmişdir.

Tunc dövrünə aid edilən qayaüstü rəsmlər qədim sənətkarların yüksək bədii zövqünü, insanların dünyagörüşünü, məşğuliyyətini və ətraf mühiti əks etdirməklə tariximizin öyrənilməsi üçün qiymətli mənbədir.

**Orta Tunc dövrü mədəniyyətinin Cənubi Qafqaz və Yaxın Şərq mədəniyyətləri arasında yeri və xronologiyası.** Arxeoloji materialların əksəriyyətini təşkil edən keramika məmulatı, Orta Tunc dövrü mədəniyyətinin genezisi və xronologiyasının müəyyən edilməsi üçün olduqca əhəmiyyətlidir. Yuxarıda qeyd olunduğu kimi, Orta Tunc dövrünün keramikası lokal xüsusiyyətləri ilə fərqlənir. Keramika məmulatı, başlıca olaraq, iki böyük qrupa ayrılır. Birinci qrupa çəhrayı rəngdə, yaxşı bişirilmiş boyalı, ikinciyə isə boz-qara rəngli, basma və cizgi naxışlı qablar daxildir. Hər iki qrupa aid gil məmulatının Azərbaycanda yayılma arealı, yuxarıda göstərilmişdir. Qeyd etmək lazımdır ki, boz və qara rəngli keramikanın Kür-Araz mədəniyyəti əsasında formalaşdığı, tədqiqatçılar tərəfindən qeyd edilmişdir. Orta Tunc dövrünün başlanğıc mərhələsi üçün xarakterik olan forma və bəzəmə motivləri Kür-Araz mədəniyyətinin son mərhələsində ortaya çıxmışdır. Boz və qara rəngli, cilalı keramika Orta Tunc dövründə Cənubi Qafqazın və Azərbaycanın əksər hissəsini əhatə etmişdir. Lakin, qeyd edildiyi kimi, nəinki Cənubi Qafqazda, hətta Azərbaycanda yayılan

qara cilalı basma və cizgi naxışlı qablar, lokal xüsusiyyətlərinə görə fərqlənirlər. Bu mədəniyyət, başlıca olaraq, Cənubi Qafqazın şimal rayonlarında yayılmışdır.

Cənubi Qafqazın cənub rayonları, xüsusilə Naxçıvan-Urmiya hövzəsi və Şərqi Anadolu üçün xarakterik olan boyalı qabların genezisi ilə bağlı müxtəlif fikirlər irəli sürülmüşdür. Arxeoloji ədəbiyyatda «Van-Urmiya boyalıları», «Trialeti mədəniyyəti», «Təzəkənd mədəniyyəti», «Naxçıvan mədəniyyəti» və başqa adlarla tanınan Orta Tunc dövrü mədəniyyətinin mənşəyi ilə bağlı tədqiqatçılar arasından yekdil fikir yoxdur. Boyalı qablar mədəniyyətinin Kür-Araz mədəniyyətindən törəməsi haqqında söylənən fikirlər bizcə, doğru deyildir. Kür-Araz mədəniyyətindən tamamilə fərqlənən boyalı qablar mədəniyyəti bu bölgədə məskunlaşan yerli tayfaların yenidən yüksəlişi ilə bağlı olmuşdur.

Orta Tunc dövrünün boyalı qabları forma və naxışlanmasına görə İranda Suz, Cənubi Mesopotomiyada Cəmdət-Nəsr, Anadoluda Keban bölgəsinin Eneolit keramikası ilə bağlanır. Lakin, Eneolit dövrü ilə Orta Tunc arasında mövcud olan Kür-Araz mədəniyyətində boyalı qablara heç rast gəlinməmişdir. Ehtimal ki, Eneolit dövründən başlayaraq, lokal xüsusiyyətlərini saxlayan boyalı qablar Orta Tunc dövründə yenidən canlanmışdır. Şübhəsiz ki, gələcək tədqiqatlar bu məsələni daha da aydınlaşdırmağa imkan verəcəkdir.

Araşdırmalar göstərir ki, Cənubi Qafqazda Orta Tunc dövrü boyalı qablarının Sevan-Üzərlik mədəniyyəti adlandırılması və bu mədəniyyətin Ararat vadisində ortaya çıxması haqqında tədqiqatçıların fikri olduqca yanlışdır. Bildirdiyimiz kimi, K.X.Kuşnaryevanın bu qrupa daxil etdiyi abidələr, başlıca olaraq, nekropollarla təmsil olunmuşdur. Bu qrupa aid edilən Üzərliktəpə yaşayış yerində boyalı qablar gil məmulatının yalnız 2 %-ni təşkil edir. Qeyd edilməlidir ki, Üzərliktəpə, Sevan hövzəsi və Ermənistanın digər yerləri üçün xarakterik olan bəzəmə stili Naxçıvandan, xüsusilə II Kültəpədən yayılmışdır.

K.X.Kuşnaryeva Trialeti mədəniyyətinə aid abidələrdən boyalı qabların əldə edilməsini əsas tutaraq, bu mədəniyyətin Trialetidən Van, Naxçıvan və Urmiya hövzəsinə yayıldığını irəli sürmüşdür. Lakin qeyd edilməlidir ki, boyalı qablar Trialeti mədəniyyəti üçün xarakterik deyildir. Trialetidə yüzlərlə kurqanın yalnız bəzisində boyalı qablar aşkar olunmuşdur. Bu mədəniyyət, başlıca olaraq, qara cilalı, cizgi bəzəməli gil məmulatı ilə xarakterizə edilir. Xüsusilə, qeyd edilməlidir ki, Cənubi Qafqazda yayılan tək stil monoxrom boyalı qabların əksinə olaraq, Naxçıvanda və Urmiya hövzəsində boyalı qabların müxtəlif mərhələləri izlənmişdir. Cənubi Qafqazın digər yerlərindən fərqli olaraq, bu regionda boyalı qablar Erkən Dəmir dövrünədək davam etmişdir. Şübhə yoxdur ki, Cənubi Qafqazda Orta Tunc dövrü boyalı qablarının başlıca istehsal mərkəzləri Urmiya hövzəsi və Naxçıvanda yerləşmişdir. Bu regiondan boyalı qablar Cənubi Qafqazın digər bölgələrinə, o cümlədən Azərbaycanda Gəncəçay rayonuna və Mil düzünə yayılmışdır.

Naxçıvan-Urmiya hövzəsi və Şərqi Anadoluda məskunlaşan tayfa birliklərinə aid olan boyalı qabların dövrləşdirilməsi ilə bağlı müxtəlif fikirlər

irəli sürülmüşdür. Boyalı qabların tarixləndirilməsi üçün Urmiya hövzəsində yerləşən Göytəpə, Haftavantəpə, Naxçıvanda I Kültəpə və II Kültəpə yaşayış yerlərinin mühüm əhəmiyyəti vardır. Bu yaşayış yerlərində aparılan qazıntılar zamanı boyalı qabların müxtəlif inkişaf mərhələləri aydın şəkildə izlənmişdir. O.H.Həbibullayev I Kültəpənin stratiqrafiyasına əsaslanaraq, boyalı qabları 4 tipə bölmüşdür. Birinci tipə aid edilən monoxrom boyalı qablar, e.ə. XVII-XVI, ikinci tip e.ə. XVI-XIV, üçüncü tip e.ə. XIV-XI, dördüncü tip e.ə. X-VIII əsrlərə aid edilmişdir.

V.H.Əliyev də, eyni zamanda, II Kültəpənin stratiqrafiyasına əsaslanaraq, Orta Tunc dövrünün boyalı qablarını dörd mərhələyə bölmüş, birinci mərhələni e.ə. XX-XIX, ikinci e.ə. XVIII-XVII, üçüncü e.ə. XVII-XVI, dördüncü isə e.ə. XV-XIV əsrlərə aid etmişdir.

Biz abidələrin stratiqrafiyasına və son araşdırmalara əsaslanaraq boyalı qabların başlanğıc mərhələsini e.ə. III minilliyə aid etmişik. Bu, bir tərəfdən Kür-Araz mədəniyyətinin tarixləndirilməsi, digər tərəfdən isə Naxçıvan- Urmiya qrupuna daxil olan yaşayış yerlərindən alınan kömür analizlərinin nəticələri ilə bağlıdır. Göytəpə yaşayış yerinin D təbəqəsi Barton-Braun tərəfindən e.ə. 2400-2000-ci illərə, C təbəqəsi isə e.ə. II minilliyin birinci yarısına aid edilmişdir.

Haftavantəpənin altıncı təbəqəsinin C-14 tarixləndirilməsinə əsasən, VI C təbəqəsi e.ə. 2200-2000-ci, Erkən VI B təbəqəsi e.ə. 1900-1550-ci, Son VI B təbəqəsi isə e.ə. 1600-1450-ci illərə aid edilmişdir.

II Kültəpənin Orta Tunc dövrünə aid ikinci təbəqəsinin üst laylarından götürülmüş kömür analizi e.ə. 1800-cü ili göstərmişdir.




Şəkil 79. Boyalı qablar mədəniyyətinin erkən mərhələsinin
keramika məmulatı

Orta Tunc dövrü boyalı qablarının daha erkənə aid olduğunu sübut edən faktlardan biri də, boyalı qablarla eyni kompleksdə aşkar olunan metal əşyaların qədim tarixə malik olmasıdır. Belə ki, N.V.Fyodrovun kolleksiyasına daxil olan Qızılburun xəncərləri, iynələri, habelə, Çalxanqala

kurqanlarının materialları öz yaxın bənzərlərini Yaxın Şərqin e.ə. III minilliyə aid abidələrində tapır.



Şəkil 80. Boyalı qablar mədəniyyətinin ikinci mərhələsinin keramika məmulatı

Söylənən faktlara əsaslanaraq, Azərbaycanda Orta Tunc dövrünün başlanğıcını e.ə. III minilliyin ikinci yarısına, ya da sonlarına aid etmək olar. Buna əsaslanaraq, Orta Tunc dövrünün erkən mərhələsinə aid monoxrom boyalı qabları e.ə. 2300-1900-cü illərlə tarixləndirmək mümkündür. Monoxrom boyalı qabların ardınca gələn polixrom boyalı qabların ilk nümunələri Göytəpə və II Kültəpədən aşkar olunmuşdur. Onlar qırmızı üzərinə qara, qırmızı ya da ağ rənglə çəkilmiş xətlərlə naxışlanmışdır. Qeyd etmək lazımdır ki, Göytəpədə rast gəlinən bəzi motivlər hələlik Naxçıvanda aşkar olunmamışdır. Polixrom boyalı qabların bir qrupu, qabların mərkəzi hissəsini əhatə edən sarı-ağ boya üzərinə

qırmızı və qara rənglərlə çəkilmiş ornamentlə naxışlanmışdır. Göytəpənin C təbəqəsindən tapılan bu tip keramika e.ə. 2000-1700-cü illərə aid edilmişdir. Qızılburun və Şahtaxtıdan aşkar olunan polixrom boyalı qabların yaxın



bənzərləri Göytəpənin D və C

Şəkil 81. Zəngin naxışlı polixrom boyalı qablardan nümunələr.
1 - Şahtaxtı, 6 -I Kültəpə, 2, 3, 4, 5, 7, 8 - II Kültəpə

təbəqələrində aşkar olunmuşdur. Boyalı keramikanın bu növü e.ə. 1900-1700-cü illərə aid edilir.

Üçüncü mərhələyə aid edilən polixrom boyalı qablar naxışlarının zənginliyi ilə fərqlənirlər. Bu dövrdə həndəsi motivli naxışlarla bərabər, stilizə heyvan rəsmlərindən də geniş istifadə olunmuşdur. Bu mərhələyə aid polixrom boyalı qablar çayniktipli qablarla birlikdə əldə edilmişdir. Bu tip qabların geniş yayıldığı dövrü B.Braun e.ə. 1500-cü ilə aid edir. Bu cür keramika II Kültəpənin Orta Tunc dövrü təbəqəsinin üst qatlarında bu tip boyalı küpə çayniktipli qablarla birlikdə tapılmışdır. Şahtaxtıdan tapılan bu tip küpə O.H.Həbibullayev və V.H.Əliyev tərəfindən e.ə. XV-XIV əsrlərə aid edilmişdir. Qeyd etmək lazımdır ki, Haftavantəpənin belə keramika verən Son VI B təbəqəsi e.ə. 1600-1450-ci illərə aid edilir. Göstərilən faktlara dayanaraq boyalı qabların bu mərhələsini e.ə. 1600-1400-cü illərə aid etmək olar. Boyalı qabların dördüncü inkişaf mərhələsi Son Tunc və Erkən Dəmir dövrü üçün xarakterikdir. Bu mərhələnin boyalı qabları haqqında sonrakı başlıqda məlumat veriləcəkdir.

Orta Tunc dövrü boyalı qablarının tədqiqi göstərir ki, bu mərhələlərin hər biri, bir neçə aralıq mərhələdən keçmişdir. Monoxrom boyalı qabların iki mərhələdən keçdiyi V.H.Əliyev tərəfindən söylənmişdir. Polixrom boyalı qabların müxtəlif ara mərhələlərindən keçdiyi, vaxtilə tərəfimizdən qeyd edilmişdir .

Arxeoloji araşdırmalar Naxçıvan-Urmiya qrupuna daxil olan boyalı qabların ayrı-ayrı mərhələlərindən keçərək e.ə. III-I minilliklərdə inkişaf etdiyini və zənginləşdiyini göstərir. Orta Tunc dövrünün müəyyən mərhələsində və Son Tunc dövründə Cənubi Qafqazda istifadədən çıxan boyalı qablar Naxçıvan-Urmiya rayonunda uzun müddət davam etmişdir. Qızılburundan əldə edilən bəzi nümunələr boyalı qabların Urartu öncəsinədək davam etdiyini göstərir. Bu regionda boyalı qabların uzun zaman ərzində istifadə olunması, onların Naxçıvan-Urmiya rayonunda meydana çıxdığını və qonşu ərazilərə yayıldığını göstərir. Fikrimizə görə, bu mədəniyyət Naxçıvan-Urmiya hövzəsi və Şərqi Anadoluda məskunlaşan, bir qismi oturaq, digər bir qismi isə köçəri həyat tərzi keçirən tayfalar tərəfindən yaradılmışdır. Cənubi Qafqazın digər rayonlarında ortaya çıxan boyalı qablar, yalnız bu mədəniyyətin əsas mərkəzlərindən yayılma istiqamətlərini göstərir.

**İctimai quruluş, mədəni əlaqələr, inamlar.** Arxeoloji tədqiqatlar göstərir ki, Orta Tunc dövründə əkinçilik və maldarlığın intensiv inkişafı nəticəsində yaranan məhsul artıqlığı cəmiyyətdə bərabərsizliyi daha da dərinləşdirmişdir. Başlıca istehsal sahələri olan əkinçilik və maldarlığın inkişafı sənətkarlığın da müstəqil istehsal sahəsi kimi formalaşmasını şərtləndirmişdir. Orta Tunc dövrünün əvvəlindən başlayaraq, ortaya çıxan yüksək zövqlü boyalı qablar, qara cilalı basma naxışlı keramika, müxtəlif konfiqurasiyalı tunc əşyalar və zərgərlik

məmulatı sənətkarlığın nəinki müstəqil peşəyə çevrildiyini, həmçinin onun müxtəlif istiqamətlər üzrə ixtisaslaşdığını göstərir.

Sənətkarlığın müstəqil peşəyə çevrilməsi nəticəsində artan əmtəə istehsalı mübadilənin inkişafına, sərvətlərin müəyyən qrup insanların əlində toplanmasına şərait yaratmışdır. İnsanlar arasında ictimai bərabərsizliyin gücləndiyini həm aşkar olunan yaşayış binalarının qalıqları, həm də qəbir abidələri sübut edir. II Kültəpə yaşayış yerində qəbilə başçılarının yaşadığı binaların qalın qala divarı ilə əhatə olunması bununla bağlıdır. Bu yaşayış yerində, həmçinin zəngin ailələrə aid olduğu düşünülən çoxotaqlı evlər də aşkar olunmuşdur.

Orta Tunc dövründə cəmiyyətdə bərabərsizliyin dərinləşdiyini sübut edən faktlardan biri də qəbir abidələrinin konstruksiyasında və qəbir avadanlığında müşahidə olunan fərqlərdir. Tayfa başçıları dəbdəbəli şəkildə, zəngin qəbir avadanlığı ilə dəfn edilmişdir. Kükü kurqanları, Şahtaxtıda at dəfn olunan qəbir, Çalxanqala və Qobustandakı bəzi kurqanlar qəbir avadanlığının zənginliyi ilə fərqlənir.

İqtisadiyyatın intensiv inkişafı, xüsusilə, sənətkarlıq məmulatının artması və ticarət əlaqələrinin genişlənməsi qədim şəhərlərin formalaşmasına şərait yaratmışdır. Bu tip yaşayış yerlərindən biri olan II Kültəpədə aparılan qazıntılar qədim şəhərlər üçün xarakterik olan strukturların aşkar olunması ilə nəticələnmişdir. II Kültəpədə aparılan qazıntılar sənətkarların və müxtəlif peşələrlə məşğul olan istehsalçıların qala divarlarından kənarda məskunlaşdığını, eyni zamanda yaşayış binalarının daş döşənmiş küçələrlə bir-birindən ayrıldığını göstərmişdir. Qəbilə başçıları çox güman ki, yuxarıda qeyd edildiyi kimi, şəhərin mərkəzində yaşamışdır.

Orta Tunc dövründə iqtisadiyyatın inkişafı qəbilələr arasında münasibətləri genişləndirdiyi kimi, tayfalar arasında ziddiyətləri də dərinləşdirmişdir. Tayfalararası ziddiyyətlərin artması, xarici işğal təhlükəsi, iri tayfa birliklərinin formalaşması prosesini sürətləndirmişdir. Bununla bağlı olaraq, sənətkarlıq və ticarət mərkəzləri olan şəhərlər həm də böyük inzibati idarəetmə mərkəzinə çevrilmişdir. Bu dövrdə Göytəpə, Şahtaxtı, Üzərliktəpə və Qaraköpəktəpə yaşayış yerlərinin ətrafı müdafiə divarı ilə əhatə edilmişdir. II Kültəpədə e.ə. XVII-XVI əsrlərə aid qala divarının dağılması və yanğın izləri, tayfalararası dağıdıcı müharibələrin olduğunu göstərir. Tayfalararası ziddiyyətlərin artması, insanların təbii cəhətdən müdafiə olunan mövqelərdə məskən salmasına səbəb olmuşdur. Naxçıvanda Qazançıqala, Qalacıq, Vayxırqalası belə yerləşmələr nəticəsində yaranmışdır. Lakin qeyd etməliyik ki, bu qalaların divarları daha sonrakı dövrlərdə inşa edilmişdir. Fikrimizcə, haqqında danışılan dövr, Orta Tuncun sonu və Son Tuncun əvvəllərinə aiddir. Bu barədə gələcək fəsildə geniş məlumat veriləcəkdir.

Orta Tunc dövründə baş verən iqtisadi-sosial dəyişikliklər, sinfi ziddiyyətlərin artması şəhər-dövlətlərin formalaşmasına səbəb olmuşdur. Azərbaycanda şəhər-dövlətlərin mövcudluğu, yalnız II Kültəpədə aparılan

qazıntılarla ortaya qoyulmuşdur. Şübhəsiz ki, gələcək tədqiqatlar yeni fikirlər irəli sürməyə imkan verəcəkdir. Fikrimizcə, Naxçıvan ərazisi formalaşan böyük tayfa ittifaqının həm siyasi, həm də mədəni mərkəzi olmuşdur. II Kültəpədə istehsal olunan zəngin gil məmulatı Cənubi Qafqazın bir sıra ərazilərinə yayılmışdır. Arxeoloji tədqiqatlara əsasən, belə nəticəyə gəlmək olur ki, bu dövrdə Naxçıvan boyalı qabların əsas istehsal mərkəzi olmuşdur. Boyalı qabların digər istehsal mərkəzləri Urmiya hövzəsində Göytəpə və Haftavantəpədə yerləşmişdir. Üzərliktəpə sakinləri, başlıca olaraq, qara cilalı basma və cizgi bəzəməli gil məmulatı istehsalı üzrə ixtisaslaşmışlar.

Müxtəlif istehsal və sənətkarlıq mərkəzinin meydana çıxması, əmək bölgüsünün dərinləşməsinə səbəb olmuş, mədəni əlaqələrin genişlənməsi nəticəsində Naxçıvan-Urmiya hövzəsində istehsal olunan keramika məmulatı Gürcüstana, Ermənistana, Gəncəçay rayonuna və Mil-Qarabağ düzünə yayılmışdır. Şübhəsiz ki, Mil-Qarabağ düzünün qara cilalı, basma naxışlı keramikası da mübadilədə müəyyən rol oynamışdır. Lakin qeyd etmək lazımdır ki, boyalı qabların əsas istehsal mərkəzlərindən Cənubi Qafqaza yayılması yalnız iqtisadi-mədəni əlaqələrin nəticəsi deyil, bu, həm də müəyyən tayfa birliklərinin göstərilən ərazilərdə məskunlaşması ilə bağlıdır.

Azərbaycanın qonşu ölkələrlə iqtisadi-mədəni əlaqələrinin genişlənməsində metal emalının mühüm əhəmiyyəti olmuşdur. Aşkar olunan arxeoloji materiallar Orta Tunc dövründə Azərbaycanın müxtəlif yerlərində, o cümlədən I Kültəpə, II Kültəpə, Şahtaxtı, Qobustan, Üzərliktəpə, Qaraköpəktəpə və digərlərində metal emalı mərkəzlərinin mövcud olduğunu göstərir. Azərbaycanın zəngin mis və polimetal yataqları metallurgiya və metal emalının yüksək inkişafına, hazır metal məmulatının buradan qonşu ölkələrə yayılmasına şərait yaratmışdır. Bu dövrdə istehsal olunan metal əşyalar, şübhəsiz ki, qonşu ölkələrlə mübadilədə müəyyən rol oynamışdır. Mübadilə zamanı, həmçinin xüsusi qəliblərdə hazırlanmış mis külçəsindən də istifadə olunmuşdur. Son Tunc dövrünə aid belə külçələr Qarabağlardan aşkar olunmuşdur.

Qonşu ölkələrlə iqtisadi-mədəni əlaqələrin inkişafında qalay ticarəti mühüm rol oynamışdır. Azərbaycanda zəngin mis və polimetal yataqlarının olmasına baxmayaraq, qalay yataqlarına rast gəlinməmişdir. Belə yataqlara qonşu Şərq ölkələrində də təsadüf olunmamışdır. Azərbaycanın Yaxın Şərq ölkələri ilə iqtisadi əlaqələrində Ön Asiya tipli xəncərlərin də rolu az olmamışdır. Bu tip xəncərlər e.ə. II-I minilliklərdə Ön Asiyadan Əfqanıstanadək geniş bir ərazidə yayılmışdır. Belə xəncərlərin Misir, Assuriya və İran mənşəli olması fikri də irəli sürülmüşdür. Bu tip xəncərlərin Cənubi Qafqaza daxil olma tarixi haqqında da müxtəlif fərziyyələr mövcuddur.

A.A.İessen bunların yayılma dövrünü e.ə. 1500-800-cü illərə, V.H.Əliyev e.ə. XVII-XV əsrlərə aid etmişdir. Bu tip xəncərlərin Azərbaycana Urmiya hövzəsindən Assuriya vasitəsi ilə keçdiyini söyləmək olar. Belə xəncərlər Azərbaycanda Son Tunc dövründə də yayılmışdır.

Şahtaxtıdan tapılmış silindrik möhür üzərində olan rəsmlərin ikonoqrafiyası, əsasən, Suriya-Fələstin və Kərkük tipləri ilə bənzərdir. Bu tip möhürlərin Ön Asiyadan əldə edilən bənzərləri e.ə. II minilliyin ikinci yarısına aid edilir. V.H.Əliyevin fikrinə görə, Suriya-Fələstin mənşəli olan bu möhür Azərbaycana Ön Asiyadan - Mesopotamiyadan keçmişdir.

Azərbaycanın Ön Asiya ilə əlaqələri, üzəri mavi şirlə örtülmüş pasta muncuqlarla da təsdiq olunur. Məlum olduğu kimi, bu tip muncuqların vətəni Misir və Mesopotamiya olmuşdur. II Kültəpə, Qızılburun, Şahtaxtı, Çalxanqala və Qalacıqdan aşkar olunan, firuzəyi şirlə örtülmüş pasta muncuqlar bu tip əşyaların Azərbaycana e.ə. II minilliyin birinci yarısında daxil olduğunu göstərir.

Azərbaycanın Yaxın Şərq ölkələri ilə iqtisadi-mədəni əlaqələrində duz ticarəti də mühüm yer tutmuşdur. Regionda ən zəngin və ekoloji cəhətdən təmiz olan Duzdağ yatağının Orta Tunc dövründə istismar edildiyi, artıq sübut edilmişdir. Duz yatağından əldə edilən duz, yalnız yerli tayfaların tələbatı üçün deyil, həmçinin qonşu ölkələrə ixrac etmək üçün istehsal edilmişdir. Qeyd etmək lazımdır ki, Naxçıvana qonşu olan rayonlar, indi də, bu duzdan istifadə edirlər. Bu, Naxçıvan duzunun təmiz və zərərsiz olması ilə bağlıdır.

Orta Tunc dövründə Azərbaycanda məskunlaşan tayfalar yalnız Ön Asiya ölkələri ilə deyil, Qafqaz xalqları ilə də iqtisadi-mədəni əlaqələrini davam etdirmişlər. Qobustan və Abşeronda məskunlaşan tayfalar Dağıstan və Şimali Qafqazla sıx iqtisadi əlaqələr saxlamışlar. Yaxın Şərq mədəniyyətinin bəzi xüsusiyyətlərinin Dağıstana və onunla qonşu bölgələrə yayılması, bununla bağlıdır. Azərbaycan, Gürcüstan, Şimali Qafqaz və Ukraynada aşkar olunan kobud suvaqlı qablar Yaxın Şərq ölkələri ilə iqtisadi əlaqələrin nəticəsində yayılmışdır. Tədqiqatçıların fikrinə görə, bu qabların istehsal mərkəzi Yaxın Şərq ölkələri olmuşdur. Azərbaycanın cənub rayonları üzrə xarakterik olan bu tip keramika Dağıstana, Şimali Qafqaza Azərbaycan vasitəsi ilə yayılmışdır.

Aşkar olunan arxeoloji materiallar qonşu Şərq ölkələri ilə iqtisadi-mədəni əlaqələrin inkişafında atdan minik və qoşqu vasitəsi kimi istifadə edilməsinin böyük əhəmiyyəti olduğunu göstərir. Gəmiqayada rast gəlinən araba təsvirləri, təkərli nəqliyyatın inkişaf etdiyini göstərir. Azərbaycanın başlıca mədəni mərkəzləri olan Urmiya, Naxçıvan, Mil düzü və Muğanın Yaxın Şərq ölkələrinin qonşuluğunda yerləşməsi bu ölkələrlə iqtisadi-mədəni əlaqələrin genişlənməsi üçün əlverişli şərait yaratmışdır. Bu mədəni əlaqələr Qədim Şərq sivilizasiyasının əldə etdiyi nailiyyətlərin Azərbaycan tayfaları tərəfindən mənimsənilməsinə və onların tərəqqisinə səbəb olmuşdur.

Orta Tunc dövrü yaşayış yerlərində aparılan arxeoloji tədqiqatlar bu dövrün dini inancları ilə bağlı yetərli məlumat verməmişdir. Bu baxımdan qəbir abidələrinin tədqiqi olduqca əhəmiyyətlidir. Orta Tunc dövrünə aid qəbir abidələrinin tədqiqi bu dövrdə tək, cüt, kollektiv dəfnlərlə xarakterizə edilən torpaq və daş qutu tipli qəbirlərin üstünlük təşkil etdiyini göstərir. Bəzi qəbirlərin üzərində torpaq, ya da daş qarışıq torpaq kurqanlar düzəldilmişdir. Bəzi

qəbirlərin ətrafı Qobustan, Nəhəcir və Şahtaxtı nekropolunda olduğu kimi, kromlexlə əhatə edilmiş, bəzilərinin ətrafı isə sal daşlarla dördkünc planda dövrəyə alınmışdır. Qəbirlərin üzərində kurqan düzəldilməsi, ya da kromlexlə əhatə edilməsi Günəşə olan inamla bağlı olmuşdur.

Orta Tunc dövrünə aid bir qrup qəbirdə insan skeletinə rast gəlinməmişdir. Belə qəbir abidələrinə Kükü, Şahtaxtı, Çalxanqala nekropolunda təsadüf olunur. Kükü nekropolunda tədqiq olunan kurqanların birindən bütöv öküz skeleti aşkar olunmuşdur. Burada qəbir avadanlığının üzərini örtən torpaq təbəqəsinin üstündə nazik kül qatına rast gəlinmişdir. Yandırma adətinə Qarabağ kurqanlarında da rastlanmışdır.

Şahtaxtı nekropolunda Ə.K.Ələkbərovun tədqiq etdiyi qəbirlərin birindən bütöv at skeleti aşkar olunmuşdur. Qəbirlərdə bütöv heyvan skeletlərinin ortaya çıxması, şübhəsiz ki, qədim insanların o biri dünyaya inamı ilə bağlı olmuşdur. Bu dövrə aid boz rəngli gil qablar üzərində rast gəlinən aypara təsvirləri, Azərbaycanda məskunlaşan qədim tayfaların göy cisimlərinə sitayişi ilə bağlıdır. Orta Tunc dövrünün boyalı qabları, habelə Qobustan, Abşeron, Gəmiqaya və Kəlbəcərin qayaüstü şəkilləri, heç şübhəsiz ki, qədim Azərbaycan tayfalarının dini inancları və mifologiyası ilə bağlıdır. Şübhəsiz ki, onların gələcəkdə tədqiqi dəyərli nəticələr verəcəkdir.

Qobustanda qəbirə nişangah daşının qoyulması, ya da onun daş heykəllərlə əvəz olunması, insanların xatirəsini əbədiləşdirmək, cəmiyyətdəki mövqeyini göstərmək kimi ideyalarla bağlı olmuşdur. Qəbirlərə oxra tökülməsi, rəsmli daşlar qoyulması, qədim insanların dini inanclarını əks etdirir. Şübhəsiz ki, bunlar simvolik məna daşımaqla, insanların əbədi həyata inamları ilə bağlı olmuşdur.

Qobustan və Gəmiqaya təsvirlərində rast gəlinən Günəş rəsmləri də diqqətəlayiqdir. Onlar şüalanan, içərisində nöqtə olan, ya da çarpaz xətlərlə 4 yerə bölünmüş dairələrlə təsvir olunmuşdur. Günəşə sitayiş demək olar ki, Tunc dövrünün bütün mərhələlərində mövcud olmuşdur. Şübhəsiz ki, bu inancın geniş yayılması, insanların məşğuliyyəti və həyat tərzi ilə bağlı olmuşdur. Həyat mənbəyi olan Günəş baş Tanrı səviyyəsində yüksəldilmişdir.

Fikrimizcə, Orta Tunc dövründə insanların ideologiyası və dini təsəvvürləri ilə daha zəngin olmuşdur. Arxeoloji abidələrin gələcək tədqiqi, o dövrdə yaşayan insanların dünyayabaxışını daha geniş şəkildə araşdırmağa və öyrənməyə imkan verəcəkdir.

## SON TUNC DÖVRÜ

Azərbaycanın Son Tunc dövrü abidələri arxeoloji ədəbiyyatda Son Tunc və Erkən Dəmir dövrü kimi xarakterizə edilmişdir. Tunc dövründən Dəmir

dövrünə keçid olan bu mərhələ, başlıca olaraq e.ə. II minilliyin ikinci yarısını əhatə edir.

Arxeoloji abidələrin tədqiqi göstərir ki, e.ə. II minilliyin ikinci yarısından başlayaraq, Azərbaycan ərazisində yaşayan tayfaların sosial-iqtisadi və mədəni həyatında xeyli irəliləyiş olmuşdur. Bu dövrdə yaşayan tayfaların etnik və mədəni cəhətdən birləşməsinin təkamülü prosesi davam etmişdir. Həmin proseslərin daha da aydın şəkildə dərk edilməsi üçün arxeoloji abidələrin nəzərdən keçirilməsi vacibdir.

**Naxçıvan mədəniyyətinin arxeoloji abidələri.** Bu qrupa daxil olan arxeoloji abidələrin əksəriyyəti Naxçıvanda, Urmiya hövzəsində və Zəngəzurda aşkar olunaraq, tədqiq edilmişdir. Naxçıvanın bu dövrə aid yaşayış yerlərini, arxeoloji materialların xarakterinə və tipoloji xüsusiyyətlərinə görə üç qrupa ayırmaq olar. Birinci qrupa Araz vadisindəki I Kültəpə, II Kültəpə, Şahtaxtı, Qızılburun kimi yaşayış yerləri daxildir. Məlum olduğu kimi, bu yaşayış yerlərində Tunc dövrünün əvvəlki mərhələlərində də əhali məskunlaşmışdır. Son Tunc dövründə bu abidələrdə Orta Tunc dövrü üçün xarakterik olan boyalı qabların istehsalı davam etmişdir.

I Kültəpə yaşayış yerinin bu dövrə aid mədəni təbəqəsi abidənin üzərindən 1,5-2,5m dərinliyədək davam edir. Bu təbəqə, digər təbəqələrlə müqayisədə, olduqca kiçik bir sahədə qalmışdır. I Kültəpənin bu dövrə aid təbəqəsində tikinti qalıqları qeydə alınmamış, yalnız uçub tökülmüş kərpic və çay daşlarına rast gəlinmişdir. Burada ocaqların ətrafına yığılmış kül təbəqələri, gil qab parçaları və osteoloji qalıqlar qeydə alınmışdır. Bu təbəqədən Naxçıvan boyalı qablarının dördüncü mərhələsi üçün xarakterik olan gil məmulatı, habelə, Xocalı-Gədəbəy mədəniyyətinin xüsusiyyətlərini əks etdirən gil qablar tapılmışdır.

II Kültəpə yaşayış yerində Son Tunc və Erkən Dəmir dövrünə aid təbəqə ən üstdə yerləşdiyindən, yaxşı qalmamışdır. Burada daş və çiy kərpicdən tikilmiş, lakin uçub dağılmış divar qalıqları, ocaq yerləri, boyalı və boyasız gil qab parçaları və osteoloji qalıqlar aşkar olunmuşdur. Boz rəngli gil qablar arsında Xocalı-Gədəbəy mədəniyyəti üçün xarakterik olan ağ inkrustasiyalı, göbələkşəkilli çıxıntısı olan qablara tez-tez rastlanır.

Şahtaxtı yaşayış yerində Son Tunc və Erkən Dəmir dövrünə aid mədəni təbəqə daha yaxşı qalmışdır. Bu dövrə aid təbəqə, bilavasitə, Orta Tunc dövrü təbəqəsinin üzərində yerləşir. Şahtaxtıda müdafiə divarı Son Tunc dövründə bərpa olunaraq yenidən istifadə olunmuşdur. Divar qalıqları 1-2,5 m hündürlüyündə salamat qalmışdır. Şahtaxtının bu dövrə aid mədəni təbəqəsi, boz rəngli keramikanın üstünlük təşkil etməsi ilə xarakterizə olunur. Bəzi gil qabların üzərində Xocalı-Gədəbəy mədəniyyəti üçün xarakterik olan göbəkşəkilli və qulpabənzər çıxıntılar vardır. Digər yaşayış yerlərində olduğu kimi, burada da tikinti qalıqları pis vəziyyətdə qalmışdır. Lakin tikintilərin ümumi xüsusiyyətlərinə əsaslanaraq, binaların düzbucaqlı formada, daş təməl üzərindən çiy kərpiclə tikildiyini demək olar.




Şəkil 82. II Kültəpədən aşkar olunmuş polixrom
boyalı qablar

Şahtaxtı nekropolu. Bundan əvvəlki fəsildə qeyd etdiyimiz kimi, yaşayış yerinin yaxınlığında iki nekropol yerləşir. Onların biri yaşayış yerindən şimal-şərq, digəri isə cənub-qərb istiqamətindədir. Hər iki nekropolda Son Tunc və Erkən Dəmir dövrünə aid qəbirlər aşkar olunmuşdur. Qəbirlər daş qutu tipli olub, yanlarda iri sal daşlarla qurulmuş, yastı daş pilətələrlə qapadılmışdır. Bəzi qəbirlərdə örtük daşlarına rast gəlinmir. Şahtaxtı nekropollarının arxeoloji materialları arasında Son Tunc dövrü üçün xarakterik olan çayniktipli qablar üstünlük təşkil edir. Lakin burada, Xocalı-Gədəbəy mədəniyyəti üçün xarakterik olan tiplərə də rast gəlinir.

Qalacıq yaşayış yeri Şərur rayonunun Qarabağlar kəndi yaxınlığındadır. Yaşayış yerində arxeoloji qazıntı aparılmamışdır. Abidənin üzərindən toplanan yerüstü materiallar, başlıca olaraq, Son Tunc və Erkən Dəmir dövrü üçün xarakterikdir. Qalacıq yaşayış yerinin nekropolu 12 ha- dan artıq sahəni əhatə edir. O iki müstəqil və sinxron qəbiristanlıqdan ibarətdir. Onların biri yaşayış yerinin cənubunda, digəri isə şimalında yerləşir. Şimaldakı nekropol üçün kromlexli və daş qutular olan kurqanlar xarakterikdir. Lakin bu kurqanların heç birində insan skeletinə rast gəlinməmişdir. Cənub tərəfdə yerləşən nekropoldan insan skeleti, zəngin qəbir avadanlığı olan daş qutu və torpaq qəbirlər aşkar olunmuşdur.

Yurdçu kəndi yaxınlığında yerləşən nekropol üçün daş qutu tipli qəbirlər xarakterikdir. Bu qəbirlərdən Son Tunc Erkən Dəmir dövrünə aid olan gil qablar aşkar edilmişdir.

Son illər aparılan tədqiqatlar zamanı, Şərur rayonu ərazisində Qarabulaq, Aşağı Daşarx, Zeyvə, Ordubad rayonunda Qumluq, Dəmyələr nekropolu kimi abidələr qeydə alınmışdır. Aşağı Daşarx və Zeyvə nekropollarında qəbirlər tamamilə dağıdıldığından, onların formasını müəyyən etmək mümkün olmamışdır. Qarabulaq nekropolunda aparılan tədqiqatlar isə, buradakı qəbirlərin kurqan tipli olduğunu göstərmişdir. Tədqiq olunan kurqanlardan birinin altındakı qəbir kamerası daş qutu tipli olub divarları daşlardan hörülmüşdür.

Qızılburun yaşayış yerində Son Tunc və Erkən Dəmir dövrünə aid materiallar Orta Tunc dövrü təbəqəsində aşkar olunmuşdur. Bu yaşayış yerində Son Tunc və Erkən Dəmir dövrünə aid tikinti qalıqları qeydə alınmamışdır. Azərbaycan Dövlət Tarix Muzeyində saxlanan arxeoloji materiallara əsasən demək olar ki, Qızılburun yaşayış yerində çəhrayı rəngli keramika üstünlük təşkil etmişdir.

İkinci qrupa aid etdiyimiz yaşayış yerləri qala tiplidir. Gursulu çay vadilərində yerləşən birinci qrupdakılardan fərqli olaraq, bu yaşayış yerləri dağlıq ərazidə yerləşir. Bu abidələr içərisində Qazançı qalası xüsusilə fərqlənir.

Qazançı qalası Culfa rayonunun Qazançı kəndi yaxınlığında, hündür dağın üzərində yerləşir. Yaşayış yeri Əlincəçayın axdığı dərin dərə ilə iki yerə ayrılmışdır. Burada inşa edilən su anbarı ilə bağlı olaraq, onun sağ sahil hissəsi tamamilə dağıdılmışdır. Abidənin bu hissəsində yarımdairəvi bürclərlə möhkəmləndirilmiş dairəvi planlı müdafiə divarının olması tədqiqatçılar tərəfindən qeyd edilmişdir.



Şəkil 83. Erkən Dəmir dövrünə aid boyalı qablar. 1, 2, 3 - Naxçıvan nekropolu, 6, 7 - Qızılburun, 4 -Şahtaxtı, 5 -Culfa

Qalanın sol sahil hissəsində aparılan arxeoloji araşdırmalar zamanı əldə edilən gil qab parçaları burada Orta Tunc dövründən başlayaraq, Dəmir dövrünədək yaşayış olduğunu göstərir. Qalanın yerləşdiyi ərazinin təbii cəhətdən müdafiə olunmasına baxmayaraq, bu ərazi relyefə uyğun olaraq qala divarı ilə

əhatə olunmuşdur. Arxeoloji qazıntı işləri aparılmadığından divarların tikildiyi dövrü müəyyənləşdirmək çətindir. Lakin, memarlıq xüsusiyyətlərinə əsasən demək olar ki, qala divarları, başlıca olaraq, iki dövrdə inşa edilmişdir. Birinci dövrə aid tikintiləri təqribən e.ə. II minilliyin ortalarına və ikinci yarısına aid etmək olar. Bu divarlar uzunsov formalı yerli daş bloklardan inşa edilmişdir. Divarların xarici tərəfində birtərəfli çıxıntılara rast gəlinir. Diş biçimli belə çıxıntılara Çalxanqalada da rast gəlinmişdir. Qala divarlarının quruluşu onların dəfələrlə bərpa edildiyini göstərir. Divarların eni müxtəlif ölçülüdür. Şimal və şimal- şərqdə qala təbii cəhətdən zəif müdafiə olunduğu üçün burada divarların eni 2,6- 3 metrə çatır. Divarların salamat qalan hissəsinin hündürlüyü 1-2 metrdir. Qalanın içərisində dördkünc planlı bina qalıqları vardır. Qalanın şərq tərəfi gediş-gəliş üçün əlverişli olduğundan, onun giriş qapısının da bu tərəfdə olduğu güman edilir.

İkinci dövrə aid divarlar qalanın mərkəzi hissəsində cəmlənmişdir. E.ə. I minilliyin birinci yarısına aid olan bu divarlar tikinti texnikasına görə Oğlanqalanın divarlarını xatırladır. Araşdırmalar Erkən Dəmir dövründə qalanın möhkəmləndirilmiş Narınqalaya malik olduğunu göstərir.

Bu dövrə aid qala tipli yaşayış yerlərindən biri də Vayxır qalasıdır. Onu arxeoloji ədəbiyyatda Vayxır Govurqalası da adlandırırlar.

Vayxır qalası Babək rayonunun Vayxır kəndindən şimalda, təbii cəhətdən müdafiə olunan hündür dağın üzərində, Naxçıvançayın sol sahilində salınmışdır. Qalanın yerləşdiyi dağın qərb tərəfi sıldırım qaya olduğundan, bu tərəfdə divar çəkilməmiş, qalanın digər tərəfləri isə daşlardan hörülmüş divarlarla müdafiə olunmuşdur. Divarlar ərazinin relyefinə uyğun olaraq tikildiyindən, bəzi yerlərdə ziqzaq biçimlidir. Qala divarının şimal-şərq hissəsində dördkünc planlı bürclərə rast gəlinir. Qalanın giriş qapısı şərq tərəfdə olmuşdur. Giriş hər iki tərəfdən kontrfoslarla möhkəmləndirilmişdir. Divarlar bəzi yerlərdə 2,5 metr hündürlüyündə qalmışdır. Qala divarının içərisində dördkünc planlı (9 x 5 metr) bir bina qalığı qeydə alınmışdır. Onun divarları daşdan tikilmiş, gil məhlulu ilə bərkidilmişdir. Sahəsi 2 hektardan artıq olan qalanın içərisində arxeoloji materiallara olduqca az rast gəlinir ki, bu da onun dövrünü müəyyənləşdirməkdə çətinlik törədir. Ümumiyyətlə, bu yaşayış yerlərində qazıntı aparılmadığından, qala divarlarının tarixi haqqında dəqiq fikir yürütmək çətindir. Fikrimizcə, qalanın tikilmə dövrü e.ə. II minilliyin ortaları və ya ikinci yarısına aiddir. Arxeoloji materialların azlığı təsdiq edir ki, qala daimi yaşayış yeri olmamış, lakin müəyyən zamanlarda ondan müdafiə məqsədi kimi istifadə olunmuşdur.

Naxçıvanda qala tipli yaşayış yerləri sırasına daxil olan abidələrdən biri də Çalxanqaladır.

Çalxanqala Babək rayonunun Payız kəndindən şimalda, əlçatmaz bir dağın üzərində salınmışdır. Qala şimal-cənub istiqamətində axan Cəhri çayının qərbində, dəniz səviyyəsindən 1840 metr yüksəklikdə yerləşmişdir. Çalxanqalaya Cəhri çayı vadisindən şərqdən və şimaldan qalxmaq mümkündür. Vayxır

qalasında olduğu kimi, burada da arxeoloji materiallara rast gəlinməmişdir. Ehtimal ki, qaladan daimi yaşayış yeri kimi deyil, təhlükə yarandıqda müdafiə məqsədilə istifadə edilmişdir.

Çalxanqala üzəri yastı olan sıldırım qayalığın cənub tərəfində tikilmiş, yalnız bir divardan ibarətdir. Yaşayış yerinin bu hissəsi təbii cəhətdən müdafiə olunmadığından, müdafiə divarına ehtiyac duyulmuşdur. Şərq-qərb istiqamətində olan bu divarın uzunluğu, təqribən 350- 360 metrdir. Divarın qərb ucu yüksək bir qayalıqla, şərq ucu isə sıldırım qayalıqla birləşir. Qala divarı düz biçimdə deyil, yerin relyefinə uyğun olaraq inşa edilmiş, içəridən və çöldən çıxıntılarla möhkəmləndirilmişdir. Divarın qalınlığı 2,3-2,7, hündürlüyü isə 2,5-2,7 metr arasındadır. İlk dövrlərdə divarın daha hündür olduğu güman edilir. Çalxanqala müdafiə divarının ən mühüm xüsusiyyəti, divarların müəyyən məsafədə xaricə və içəriyə doğru çıxıntılı biçimdə inşa edilməsidir.

Qalanın biri cənub-qərbdə, digəri isə cənub-şərqdə olan iki qapısı vardır. Cənub-qərbdəki qapının eni 2,4-2,5, hündürlüyü isə 3,1 metrdir. Qapının üzəri bütöv bir sal daşla qapalı olmuşdur. Qapı girişi hər iki tərəfdən kontrforslarla möhkəmləndirilmişdir. Qala divarının iç tərəfində divara birləşən üçotaqlı bir binanın qalıqları var. Düzbucaqlı formada olan binaların divarının qalınlığı 1- 1,2 m arasındadır.

Qala divarlarının cənub tərəfində, təpənin ətəyində də dördkünc planlı evlərin qalıqları vardır. Daş təməl üzərində tikilən bu binaların içərisi torpaqla dolmuşdur. Ola bilsin ki, onların üst hissəsi çiy kərpicdən inşa edilmişdir.

Arxeoloji materiallara rast gəlinmədiyindən və arxeoloji qazıntı işləri aparılmadığından, Çalxanqalanın dövrünün müəyyənləşdirilməsi, olduqca çətinləşir. Qala divarlarını hələlik e.ə. II minilliyin ortalarına və ikinci yarısına aid etmək olar. Bununla bağlı aşağıda geniş məlumat verəcəyik.

Naxçıvan ərazisində yerləşən üçüncü tip yaşayış yerləri mövsümi xarakterlidir. Bu tip yaşayış yerləri sırasına I Kükü, II Kükü, Külüs, Qarnıyarıq, Şamlar yaşayış yerlərini aid etmək olar. Başlıca olaraq, Şahbuz rayonu ərazisində qeydə alınan bu yaşayış yerlərində həyat mövsümi xarakterli olduğundan, mədəni təbəqə az yığılmışdır. Yer səthində toplanan daş yığınları, hər halda, təməli daşdan olan tikintilərin olduğuna işarə edir. Lakin yaşayış yerlərinin bəzilərində tikinti qalıqlarına rast gəlinmədiyindən, onların planını müəyyən etmək mümkün deyildir. Dördkünc planlı tikinti qalıqlarına II Kükü yaşayış yerində rast gəlinmişdir. İri həcmli daşlardan inşa edilən bu evlərin sahəsi bəzən 35 $m^2$ - ə çatır. Böyüklüyünə görə bu evləri Çalxanqalanın ətəyində rast gəlinən binalarla müqayisə etmək olar.



Şəkil 84. Erkən Dəmir dövrünə aid boyalı qablar.
1, 2, 3, 5, 6 - Culfa, 4, 7, 8 - Qızılburun

Bu yaşayış yerlərində aparılan yoxlama xarakterli araşdırmalar mədəni təbəqənin yığılmadığını göstərmişdir. Yerüstü materiallar yalnız gil qab parçalarından və daşdan hazırlanmış əmək alətlərindən ibarətdir.

Qarnıyarıq yaşayış yeri Şahbuz rayonunun Kolanı kəndi yaxınlığında, Naxçıvançayın sol sahilində, dağ silsiləsinin çaya doğru uzanan hündür çıxıntısı üzərində yerləşir. Mədəni təbəqə uzun müddət təbii aşınmaya məruz qaldığından tamamilə dağılmışdır. Yerüstü materiallar çəhrayı və boz rəngli gil qab parçalarından, daşdan hazırlanmış əmək alətlərindən ibarətdir.



Şəkil 85. Kolanı nekropolunun Xocalı-Gədəbəy tipli silahları

Yaşayış yerinin cənub tərəfində Kolanı nekropolu yerləşir. Nekropol iki terrasdan ibarət uzunsov, ensiz təpənin üzərində salınmışdır. Qəbirlər daş qutu tipli olub əsasən dördkünc, bəziləri isə oval formalıdır. Qəbirlər yanlarda iri sal

daşlarla qurulmuşdur. Bəzi qəbirlərin divarları çay daşları və qaya parçaları ilə hörülmüşdür. Onların üzəri bir neçə iri sal daşla qapadılmışdır. Kolanı nekropolunun qəbirləri üçün, başlıca olaraq, kollektiv dəfnlər xarakterikdir. Lakin, bəzi qəbirlərdə insan skeletinə rast gəlinməmişdir. Kolanı nekropolundan aşkar olunan arxeoloji materiallar Xocalı-Gədəbəy mədəniyyəti üçün xarakterik olan xüsusiyyətlərə malikdir.




Şəkil 86. Qazxan nekropolunun Xocalı-Gədəbəy tipli keramikası (Şərur rayonu)

II Sarıdərə nekropolu kəşfiyyat xarakterli tədqiqatlarla öyrənilmişdir. III Sarıdərə nekropolu ikincidən şərq tərəfdə, Quruçay vadisinin sağ kənarında yerləşir. Bu nekropoldakı qəbirlərin yeddisi V.B.Baxşəliyev tərəfindən tədqiq edilmişdir. Qəbirlər daş qutulardan ibarət olub, yanlarda iri sal daşlarla qurulmuş, üzəri daş plitələrlə örtülmüşdür. Bəzi qəbirlərin divarları çay daşları ilə hörülmüşdür. Nekropoldakı bütün qəbirlər üçün kollektiv dəfnlər xarakterik olmuşdur. Qəbirlərin birində it skeleti, ikisində isə dələ kəlləsi aşkar olunmuşdur. Şübhəsiz ki, bu, həmin heyvanlara olan inamla bağlı olmuşdur. Tədqiq edilmiş qəbirlərdən Xocalı-Gədəbəy mədəniyyəti üçün xarakterik olan gil qablar və xeyli

tunc əşya aşkar olunmuşdur. Tapılmış materiallar e.ə. XII- X əsrlərə aid edilmişdir.

Haqqıxlıq nekropolu Şahbuz rayonunun Külüs kəndi yaxınlığında, Külüs çayının sol sahilində, hündür təpənin üzərində yerləşir. Nekropolda 1979- cu ildə V.H.Əliyev və A.Q.Seyidov tərəfindən kəşfiyyat xarakterli tədqiqat işləri aparılmışdır. Nekropoldakı qəbirlər daş qutu tiplidir. Qəbirlərin divarları müxtəlif tikinti texnikası ilə inşa edilmişdir. Onların bəzisinin divarları sal daşlarla qurulmuş, bəzisininki isə iri qaya parçalarından hörülərək, üzəri böyük sal daşlarla qapadılmışdır. Qəbirlər, başlıca olaraq, yamacda yerləşdiyindən təbii aşınma nəticəsində üzə çıxmış və dağılmışdır.

1990- cı ildə bu nekropoldakı qəbirlərin ikisi V.B.Baxşəliyev tərəfindən tədqiq edilmiş və dağıdılmış qəbirlərin materialları toplanmışdır. Tədqiq edilmiş qəbirlərdə kollektiv dəfn adəti qeydə alınmışdır. Aşkar edilən gil məmulatı Xocalı-Gədəbəy mədəniyyətinin xarakterik xüsusiyyətlərini özündə əks etdirir. Arxeoloji materiallara əsasən, nekropolu e.ə. II minilliyin sonu - I minilliyin əvvəllərinə aid etmək olar.

Bayəhməd nekropolu Culfa rayonunun Bayəhməd kəndindən cənub-qərbdə yerləşir. Nekropol hündür təpənin dağ çayına enən yamacındadır. Tikinti işləri görülən zaman təsadüfən aşkar olunan nekropolda 1989-1991- ci illərdə V.B.Baxşəliyev tərəfindən tədqiqat işləri aparılmış və dörd qəbir abidəsi öyrənilmişdir. Qəbirlər daş qutu tipli olub, yanlarda iri sal daşlarla qurulmuş, üzəri böyük yastı daşlarla örtülmüşdür. Qəbirlər üçün kollektiv dəfn adəti xarakterik olmuşdur. Aşkar edilmiş gil məmulatı, tunc silah və bəzək əşyaları Xocalı-Gədəbəy mədəniyyəti üçün xarakterikdir. Arxeoloji materiallara əsasən, nekropolu e.ə. I minilliyin əvvəllərinə aid etmək olar.

Bayəhməd kəndi yaxınlığında ikinci nekropolun yeri təyin edilsə də, orada tədqiqat aparılmamışdır. Bu nekropoldan yerli əhali tərəfindən toplanan tunc əşyalar e.ə. I minilliyin əvvəlləri üçün xarakterikdir.

Culfa nekropolu dəmir yolu çəkilərkən,1939-1940-cı illərdə dağıdılmışdır. Bu nekropolun materialları, hazırda Gürcüstan Dövlət Tarix Muzeyində saxlanılır. V.H.Əliyev tərəfindən nəşr olunan həmin materiallar e.ə. XIII- IX əsrlərə aid edilir.

Xalı-Keşan nekropolu Ordubad rayonunda Sabikənd yaxınlığında, Xaraba-Gilanın qərb tərəfində yerləşir.Nekropol üçün qurbangahları olan daş qutu tipli qəbirlər xarakterikdir. Nekropolun tədqiqi zamanı çəhrayı və boz rəngli keramika məmulatı, tunc silah və bəzək əşyaları aşkar olunmuşdur. Bəzi qəbirlərin kompleksində rastlanan boyalı qablar Boyalı qablar mədəniyyətinin son dövrü üçün xarakterikdir.

Xaraba-Gilan ərazisində yerləşən Mərdangöl nekropolundakı qəbir abidələrinin quruluşu Xalı-Keşanla bənzərdir. Qəbir abidələrinin tədqiqi zamanı aşkar edilmiş keramika boz və çəhrayı rəngli qablarla təmsil edilir. Boya ilə naxışlanmış qablar azdır. Tədqiqatlar zamanı, həmçinin, dəmir əşyaların

parçaları, tuncdan hazırlanmış bəzək əşyaları, xeyli miqdarda muncuq aşkar olunmuşdur. Muncuqlar arasında ağ rəngli daşdan hazırlanmış silindrik möhürlər də vardır.

Naxçıvan mədəniyyəti ilə bənzər olan Son Tunc və Erkən Dəmir dövrünə aid maddi-mədəniyyət qalıqları Zəngəzurda və Urmiya hövzəsində də qeydə alınmışdır. Haftavantəpənin beşinci və dördüncü, Göytəpənin B və A, Qordlartəpənin «üst» təbəqələri bu dövrə aid material vermişdir. Urmiya hövzəsinin arxeoloji abidələrindən aşkar olunan materiallar tipoloji cəhətdən Naxçıvan materialları ilə yaxındır.

Son Tunc və Erkən Dəmir dövründə Naxçıvan-Urmiya qrupunun arxeoloji abidələrində mədəni təbəqə əvvəlki dövrlərə nisbətən az yığılmış, yaxud heç yığılmamışdır. Bu dövrdə, yaşayış yerləri məlum olmayan nekropollar ortaya çıxır. Şübhəsiz ki, bu faktlar həmin dövrdə həyatın köçəri maldarlıqla bağlanması ilə əlaqədar olmuşdur.

**Xocalı-Gədəbəy mədəniyyətinin arxeoloji abidələri.** Azərbaycanda Son Tunc və Erkən Dəmir dövrü abidələrinin böyük bir qismi Xocalı-Gədəbəy mədəniyyətinə aiddir. Bu mədəniyyətə aid yaşayış yerləri olduqca azdır. Həmin dövrə aid yaşayış yerləri içərisində geniş tədqiq edilən abidələrdən biri Gəncəçay vadisindəki 1 №- li yaşayış yeridir.



Şəkil 87. Xanlar rayonu. 1 № - li yaşayış yerinin planı

Bu yaşayış yeri Xanlar şəhərindən cənubda, Gəncəçayının sol sahilində yerləşmişdir. Yaşayış yerinin sahəsi 3 hektara yaxındır. Burada aşkar olunan evlər iki qrupa bölünmüşdür. Birinci qrupa uzunsov formalı tayfa evləri daxildir. Arxeoloji araşdırmalar göstərir ki, belə evlərdən tunc dövrünün müxtəlif

mərhələlərində istifadə olunmuşdur. Son Tunc dövründə istifadə olunan 58 №- li ev arakəsmə divarla dörd hissəyə bölünmüşdür. Binanın şərq divarında 1-ci və 4-cü otağa açılan qapı yeri müəyyən edilmişdir. Digər otaqların qapı yeri aşkar olunmamışdır. Ola bilsin ki, onlar döşəmədən bir qədər yuxarıda olmuşdur. Bu yaşayış yerində Son Tunc dövrünə aid binaların əksəriyyəti kiçik həcmli yarımqazma tipli evlərdir. Bu binaların qalıqları Y.Hümmel tərəfindən tədqiq edilmişdir. Yaşayış yerindəki 54 №- li evin qarşısında çay daşları ilə hasarlanmış böyük həyətin olduğu müəyyən edilmişdir. Evlərin tikintisində çay daşlarından istifadə olunmuşdur. Tikinti zamanı balıqbeli texnikası tətbiq edilmişdir. Bu texnikadan Azərbaycanda, o cümlədən Gəncə və Naxçıvanda geniş istifadə edilmişdir.

Evlərin divarı müxtəlif qalınlıqdadır. Bəzən torpağın bərk olduğu yerlərdə divarlarda daş hörgüdən istifadə edilməmişdir. 55 və 56 №- li evlərin qərb divarlarında daş hörgü yoxdur. Evlərin divarı və döşəməsi ağ gillə suvanmışdır. Qapı yerləri, başlıca olaraq, döşəmə səviyyəsində, bəzən isə ondan bir qədər yuxarıda qoyulmuşdur. Qapı girişlərinin eni 1 m-dir. Həcmcə böyük olan evlərdən biri arakəsmə divarla iki hissəyə bölünmüşdür. Bu evdə qapı yerinə rast gəlinməmişdir.

Gəncəçay rayonunda Y.Hümmel tərəfindən tədqiq edilən 2 №-li yaşayış yeri Lüləli dərəsində yerləşir. O, 1 №-li yaşayış yerinin yaxınlığındadır. Bu yaşayış yerindəki binaları yer səthində olan əlamətlərinə görə müəyyən etmək mümkün olmuşdur. Onlar düzbucaqlı, ya da dairəvi formalı olub, yarımqazma tiplidir. 1 №- li yaşayış yerindən fərqli olaraq, evlərin divarları daş hörgü ilə möhkəmləndirilməmişdir. Burada qeydə alınan yüzə yaxın evdən yalnız beşi təmizlənib, öyrənilmişdir. Evlərin içərisində kül və kömürlə dolmuş ocaq yerləri, divarlar boyunca yerləşən dirək oyuqları aşkar olunmuşdur. Evlərdən aşkar olunan materiallar heyvan sümüklərindən, qara rəngli gil qab parçalarından ibarətdir. Gil qablar arasında ağ inkrustasiyalı olanlar da vardır.

1 №- li yaşayış yeri 2 №- li yaşayış yeri ilə müqayisədə arxeoloji materiallarla daha zəngindir. Buradan tunc, sümük, əqiq, pasta və b. materiallardan hazırlanmış bəzək əşyaları, tunc bıçaqlar, gil qablar aşkar olunmuşdur. Aşkar olunmuş arxeoloji materialların əksəriyyətini keramika təşkil edir. Gil qablar arasında, çiynində göbələkşəkilli çıxıntılara və qulp bənzər çıxıntılara rast gəlinir. Qablar forma və hazırlanma texnikasına görə müxtəlifdir. Aşkar olunmuş materiallar 1 №- li yaşayış yerini e.ə. II minilliyin sonu və I minilliyin əvvəlinə aid etməyə imkan verir.

Mingəçevirdəki 1 №- li yaşayış yeri Kür çayının sağ sahilində yerləşir. Aparılan tədqiqatlar zamanı 10-a yaxın yaşayış binasının qalığı öyrənilmişdir. Buradakı yarımqazma tipli binalar düzbucaqlı planda olub, ikiotaqlıdır. Binaların divarları və döşəməsi saman qatılmış palçıqla suvanmışdır.

Araşdırmalar göstərir ki, 1 №-li yaşayış yeri yanğın nəticəsində sıradan çıxmışdır. Tədqiqatlar zamanı evlərin içərisindən kül yığınları, heyvan sümükləri, gil qab parçaları aşkar edilmişdir.



Şəkil 88. Xanlar kurqanlarının keramikası

Mingəçevir kurqanları həcmcə müxtəlifdir. Tək dəfnlərlə xarakterizə edilən kurqanlardan tunc xəncərlər, ox ucları, at yüyənləri, hərbi baltalar, yabalar, zərif naxışlı qolbaqlar, sırğalar, düymələr və digər tunc əşyalar əldə edilmişdir. Aşkar edilən gil məmulatı Xocalı-Gədəbəy mədəniyyəti üçün xarakterikdir. Zəngin qəbir avadanlığı və at skeleti ilə müşayiət olunan kurqanların tayfa başçılarına aid olduğu güman edilir.

Mingəçevirdə tədqiq edilən torpaq qəbirlər üçün sağ, ya da sol böyürü üstə, bükülü vəziyyətdə dəfn edilən skeletlər xarakterikdir. Bu qəbirlərdən aşkar olunan arxeoloji materiallar Xocalı-Gədəbəy mədəniyyətinə aiddir. Boz və qara rəngdə bişirilmiş gil qabların üzəri həndəsi motivdə bəzənmiş, naxışların içərisi

ağ rəngli maddə ilə doldurulmuşdur. Bu qəbirlərdən tuncdan hazırlanmış xəncərlər, bıçaqlar, baltalar, ox ucları aşkar edilmişdir.



Şəkil 89 Mingəçevir. 63 № - li qəbirin materialları

63 №- li torpaq qəbir 1950- ci ildə tədqiq edilmişdir. Bu qəbirdən yaxşı vəziyyətdə qalmış müxtəlif tunc, xüsusən mis bəzək əşyaları tapılmışdır. Saxsı qablar küpə, xeyrə, dolçalardan ibarətdir. Buradan Aralıq dənizi hövzəsində yayılmış balıqqulağından və şüşəvari materialdan hazırlanmış müxtəlif muncuqlar da tapılmışdır. V.P.Fomenko qəbirin Xocalı-Gədəbəy mədəniyyətinə, e.ə. IX- VII əsrlərə aid olduğunu demişdir.

Q.İone Mingəçevir qəbirlərini iki arxeoloji qrupa bölərək, birinci qrupu e.ə. XIII-IX, ikincini isə e.ə. X-VIII əsrlərə aid edir. Birinci qrup qəbirlərin materialları Xocalı-Gədəbəy mədəniyyətini özündə əks etdirir.



Şəkil 90. Gəncəçay rayonundan tapılmış tunc əşyalar

Gəncəçay rayonunun arxeoloji abidələrinin bir qrupu qəbir abidələrindən ibarətdir. Onlar kurqan və daş qutularla təmsil olunmuşdur. Kurqanlar şərqdə Gəncə çayından Küryək çayınadək olan düzənlik və dağətəyi zonada, qərbdə isə Gəncə və Qoşqar çayları arasındakı ərazidə yerləşir. V.A. Skinder Gəncədən Çovdara qədər uzanan 30 km- lik ərazidə qədim qəbiristanlığın olduğunu göstərmişdir. Kurqanlara Gəncəçay rayonundan qərbdə, Şamxor çayının düzənlik hissəsində də rast gəlinmişdir.

Xarici görünüşünə görə dairəvi, oval və konusvari olan kurqanların hündürlüyü 2,5 metrə çatır. Onların bəzisi qumdan, bəzisi çay daşlarından, bəzisi isə çay daşları ilə qum qarışığından düzəldilmişdir. Kurqanların bəziləri bir-birini əvəz edən torpaq və daş qatlarından ibarətdir. Bəzi hallarda kurqanların oturacağı bir, ya da iki sıra daşdan düzəldilmiş kromlexlə əhatə edilmişdir.

Kurqanaltı qəbirlər dördkünc formalı torpaq qəbirlərdən ibarətdir. Qəbirlər dəfndən sonra torpaq, ya da daşla doldurulur, üzəri sal daşla, ya da taxta parçaları ilə örtülürdü. Bəzən qəbirlər taxta lövhələrlə bir neçə mərtəbəyə bölünür və hər qatda dəfn aparılırdı. Bəzi hallarda dəfn yalnız aşağı mərtəbədə aparılır, yuxarıda isə qəbir avadanlığı və qurban kəsilmiş heyvanlar yerləşdirilirdi. Kurqanaltı qəbirlərin sayı olduqca müxtəlifdir. Onların sayı 2-10 arasındadır. E. Reslerin Bayan kəndi yaxınlığında açdığı kurqanda 18 qəbir aşkar olunmuşdur.

Gəncəçay rayonundakı kurqanların xarakterik cəhətlərindən biri, onlarda qurbangahların olmasıdır. Qurbangahlar kurqanın təpəsində, ya da onun altında xam torpaqda düzəldilmişdir. Qurban yerləri bəzən möhrədən, bəzən isə daşdan düzəldilmişdir. Bəzi qurbangahlar dördkünc formalı çuxurlardan ibarət olub, üzəri sal daşlarla örtülmüşdür. Gəncə kurqanlarının bir qrupu üçün kollektiv dəfnlər xarakterik olmuşdur.

Gəncə və Xanlar yaxınlığında yerləşən kurqanların bəzisində skeletin sarı, ya da qırmızı rənglə boyandığı qeydə alınmışdır. Y.İ.Hümmel tərəfindən Xanlar yaxınlığında tədqiq edilmiş 1 №- li kurqanın mərkəzi qəbrin divarları qırmızı rəngə boyanmışdır.

Tədqiqatçıların fikrinə görə, Gəncəçay rayonunun kurqanlarında rast gəlinən xarakterik hallardan biri, ölülərin «parçalanmış» halda dəfn edilməsidir. Qəbirlərdə skelet sümüklərinin çatmaması, kəllənin ayrıca dəfn edilməsi, alt çənənin kəllədən ayrılması onların parçalanmış vəziyyətdə dəfn edilməsi ilə izah edilmişdir.

Gəncəçay rayonunun dağlıq hissəsində yerləşən daş qutu tipli qəbirlər «parçalanmış skeletlər»in olması ilə xarakterizə edilir. Qəbirlərdəki «parçalanmış skeletlər» çox ehtimal ki, kollektiv dəfn adəti ilə bağlı olmuşdur. Çünki, təkrar dəfn zamanı əvvəlki skeletlər bir tərəfə yığıldığından, sümüklər qarışmış, o cümlədən skeletin çənə sümüyü ayrılmışdır. Bu faktın mövcudluğu, hələ B.A.Kuftin tərəfindən də söylənmişdir.

Y.İ.Hümmelin Xanlar yaxınlığında öyrəndiyi 7 №- li kurqanda skeletin baş tərəfinə tısbağa qoyulduğu müəyyən edilmişdir. Bu dəfn adəti Mingəçevirin torpaq qəbirlərində də qeydə alınmışdır.

Gəncə rayonundakı kurqanların bir qrupu üçün ağac konstruksiyalar, yandırma adəti və at skeletinin qoyulması xarakterikdir. Gəncədən qərbdə yerləşən 3 №- li kurqanda 3,48 x 1,63 x 2 metr ölçüdəki qəbirin üzəri ağac tirlərlə örtülmüşdür. Tirlər odun təsirindən yanmışdır. Qəbrin şimal-qərb küncündə insan skeletinin qalıqları, cənub-qərbində isə at skeleti olmuşdur. Gəncə ətrafındakı düzənlikdə yerləşən 4-12 №- li kurqanlarda da belə dəfn

adətindən istifadə olunmuşdur. Bu kurqanlar üçün kurqanın oturacağında, ya da materikdən bir qədər yuxarıda daşdan qurulmuş kromlexlərə təsadüf olunur. Kurqanların üzərində daşla doldurulmuş torpaq çuxurlar, ya da daşdan düzəldilmiş piramidalar vardır. Kurqanların hamısında ağac konstruksiyalar aşkar olunmuşdur. Bəzi kurqanlarda ağac konstruksiyalar iki, ya da üç qat olmuşdur. 4 №- li kurqanda üst örtük tamamilə yanmış, yalnız ağacların torpağa basdırılmış ucları qalmışdır.

Qeyd olunduğu kimi, bu tip kurqanlarda yandırma adəti müəyyən rol oynamışdır. 8 və 11 №- li kurqanlarda ölünün yandırıldığı aşkar olunmuşdur. Qəbirlərin bir neçəsində tonqal birbaşa qəbirin üzərindəki ağac örtükdə yandırılmışdır. Kurqanların altısında at skeleti aşkar olunmuşdur. 7 №- li kurqanda isə beş at skeleti aşkar edilmişdir. E. Reslerin verdiyi məlumata görə, 11 №- li kurqanda insan skeleti at skeletinin üzərində olmuşdur. Digər kurqanlarda yalnız at sümüklərinə rast gəlinmişdir. Kurqanlardan at skeletindən başqa, qaban dişləri, keçi kəlləsi, qoyun və quş sümükləri də aşkar edilmişdir.

Zurnabad asfalt yolundan şərqdə aşkar olunan 1 №- li kurqanın mərkəzi qəbrinin divarları, hər tərəfdə 12 ağac dirəklə qurulmuş və qırmızı rənglə boyanmışdır. Mərkəzi hissədə yerləşən daş qutu tipli qəbirdə bir insan skeleti, onun ətrafında isə müxtəlif yerlərdə altı insan və üç at skeletinə rast gəlinmişdir.

Xocalı-Gədəbəy mədəniyyətinə aid arxeoloji abidələrin bir qrupu Qarabağda yerləşir. Qarabağın Son Tunc dövrünə aid yaşayış yerləri başlıca olaraq kəşfiyyat xarakterli tədqiqatlarla öyrənilmişdir. Onların sırasına Üçtəpə, Rəsultəpə, Böyüktəpə, Göytəpə, Qaratəpə və digər yaşayış yerləri daxildir. Üçtəpə yaşayış yerində A.A.İessenin apardığı araşdırmalar zamanı qazma tipli, düzbucaqlı və ya oval formalı yaşayış evlərinin qalıqları aşkar olunmuşdur. H.F.Cəfərov tərəfindən qeydə alınaraq tədqiq edilən Qaratəpə yaşayış yerindən e.ə. II minilliyin sonuna aid olan iki tikinti qatı aşkar olunmuşdur. Tədqiqat zamanı bu yaşayış yerindən dördkünc bürclərlə möhkəmləndirilmiş müdafiə divarının qalıqları aşkar olunmuşdur. Müdafiə divarı daş özül üzərində çiy kərpicdən inşa edilmişdir. Qarabağın yaşayış yerlərindən aşkar olunan keramika məmulatı boz rəngdə olub müxtəlif motivli ornamentlə, o cümlədən göbələkvari çıxıntılarla naxışlanmışdır.

Borsunluda tədqiq edilən Son Tunc dövrü kurqanlarının biri qəbilə başçısına aid edilmişdir. Bu kurqanın altında sahəsi 256 $m^2$ olan böyük qəbir kamerası qeydə alınmışdır (32 x 8 x 4). Qəbrin üzəri iki, üç, bəzi yerlərdə isə dörd qat ağac dirəklərlə örtülmüşdür. Onların arasında qalın qamış döşəmə olmuşdur. Arxeoloji qazıntılardan kurqanın qarət edildiyi ehtimal olunur. Qəbirdə dünyəvi və dini hakimiyyəti əlində cəmləşdirən tayfa başçısı dəfn edilmişdir. Tayfa başçısı tunc və qızıl mıxlarla, tunc lövhələr bərkidilmiş ağac döşəmə üzərində dəfn edilmişdir. Onun doqquz nəfərdən ibarət qulluqçusu və qoruyucuları olmuşdur. Qəbirdən zəngin bəzəməli səkkiz at skeleti, habelə

iribuynuzlu və xırdabuynuzlu heyvan sümükləri aşkar olunmuşdur. Dəfn ritualı hədsiz dəbdəbəsi və böyüklüyü ilə diqqəti cəlb edir.

Qəbir avadanlığı olduqca zəngindir. Onlar orjinal formalı və naxışlı gil qablar, tunc baltalar, müxtəlif at yüyənləri, isgənə, zireh lövhələri, ox ucluğu, nizə ucluğu, at bəzəkləri və s. əşyalarla təmsil edilmişdir. Üzərində insan təsvirləri olan sümük yüyənlər, fil dişindən bəzək əşyaları, qızıl düymələr, qızıl toqqa, şirli gil qab yüksək bədii zövqlə hazırlanması ilə fərqlənir. Tapıntılar arasında şüşədən düymələr, muncuqlar, pasta, tunc və serdolikdən hazırlanmış bəzəklər, orijinal formalı mərmər toppuz da vardır. Arxeoloji materialların təhlilinə əsasən Borsunlu kurqanı e.ə. XII- XI əsrlərə aid edilmişdir.

Bu rayonda Xocalı-Gədəbəy mədəniyyətinin ən yaxşı öyrənilmiş abidələrindən biri Xocalı kəndi yaxınlığındakı Tunc dövrü qəbiristanlığıdır. Burada çox da böyük olmayan kurqanlar və kromlexlər aşkar olunmuşdur. Bu kurqanlarda tək və kollektiv dəfnlər olmuşdur. Bəzi kurqanlarda yandırma adəti də qeydə alınmışdır. Abidələrdən Xocalı-Gədəbəy mədəniyyəti üçün xarakterik olan keramika, silah və bəzək əşyaları aşkar edilmişdir. Xocalıda tədqiq edilən 11 №- li kurqan, xüsusilə əhəmiyyətli nəticələr vermişdir. Bu kurqandan Assur padşahı Adadnirarinin adı yazılmış muncuq tapılmışdır. İ.İ. Meşaninov bu muncuğu e.ə. VIII əsrə aid etmişdir. Lakin, son zamanlar tədqiqatçılar bu muncuğu I Adadnirarinin yaşadığı dövrə, yəni təqribən e.ə. IX əsrin sonu və VIII əsrin əvvəlinə aid etməyə meyillidirlər.

Xocalı qəbiristanlığından başqa, Dağlıq Qarabağ ərazisində Arçadzor-Dovşanlı, Ballıca, Sırxavənd, Axmaxi kəndləri yaxınlığında Emil Resler tərəfindən arxeoloji qazıntılar aparılmışdır. Dovşanlıda 1 və 2 №-li kurqanlarda kollektiv dəfnlər olmuşdur. Skeletlərin ətrafından tunc xəncər, ox ucluqları, balta, hərbi yaba, bıçaq, qızıl muncuqlar, xeyli miqdarda boz rəngli gil qab aşkar edilmişdir. Dağlıq Qarabağdakı abidələrin bir qrupu Y.İ.Hümmel, A.A.İvanovski, İ.M.Cəfərzadə, T.Passek və B.Latının tərəfindən tədqiq edilmişdir. Bu qrupa daxil olan Bəyimsarov, Borsunlu, Sarıçoban kurqanlarının tədqiqində H.F. Cəfərov, F.R.Mahmudov, T.İ.Axundov iştirak etmişdir.

Xocalı nekropolunun böyük daş kurqanları (№ 7,11,14,19- 21). Arçadzor-Dovşanlıda 1 və 2 №- li, Axmaxidə 1- 5 №- li, Ballıqayada 1 №- li, Qarabulaqda 91 №- li kurqan dəfn adətinin zənginliyi ilə fərqlənir. Onlar üçün böyük kurqan təpəsi, qəbir kamerasının mürəkkəb quruluşu, ağac konstruksiyalardan istifadə olunması, qəbir kamerasının və skeletlərin qırmızı oxra ilə boyanması, at sümüklərinə rast gəlinməsi, kollektiv dəfn, xeyli miqdarda silah və at əsləhəsinin olması xarakterikdir. Bəzi kurqanlarda uzadılmış skeletlərin ətrafında, oturmuş vəziyyətdə olan insan skeletlərinə də təsadüf olunmuşdur. Bu əlamətlərinə görə, Qarabağ qrupunun abidələri ilə Gəncəçay rayonunun abidələri arasında yaxınlıq görünür. Dəfn adətini aydınlatmaq məqsədilə onların bəzisi haqqında ətraflı məlumat vermək fikrindəyik.



Şəkil 91. Dağlıq Qarabağ abidələrinin maddi-mədəniyyət nümunələri

Arçadzor-Dovşanlıdakı 1 №- li kurqanın altında daş tipli qutu qəbirdə 4 insan skeleti aşkar olunmuşdur. Qəbrin üzəri 5 daş plitə ilə örtülmüşdür. Skeletlərin biri qəbrin cənub-şərqində, əlləri yanına uzadılmış şəkildə dəfn olunmuşdur. Onun ayağının yaxınlığında kauri ilə doldurulmuş küpə aşkar olunmuşdur. Skeletin başında tunc çələng olmuşdur. Skeletin ikisi isə qərb divarın künclərində qeydə alınmışdır. Onların birinin qadına aid olduğu zənn edilir. Onun başında tunc təbəqədən hazırlanmış baş bəzəyi olmuşdur. Digər 2 skeletin başında dəbilqə olduğu güman edilir.

Burada tədqiq edilən 2 №- li kurqanın altında üç qəbir aşkar olunmuşdur. Onların biri qazıntı sahəsindən kənarda qaldığından, öyrənilməmişdir. I «a»

qəbrində insan skeleti, onun başında diadema, ətrafında at kəlləsi, qaban dişləri, tunc halqa və serdolik muncuqlar aşkar edilmişdir. Skeletin sağ çiyni yaxınlığında qofre edilmiş kiçik küpə aşkar olunmuşdur. Maraqlıdır ki, bu qəbirdəki skeletin ağzına qızıl tozu doldurulmuşdur.

Kurqandakı II «v» qəbrində başsız bir insan skeleti, tunc və daşdan əşyalar, gil qab parçaları, at əsləhəsi tapılmışdır. Qəbirdə, həmçinin at, it və quş sümüklərinə rast gəlinmişdir.

Araçadzor və Ballıqaya arasında yerləşən Axmaxi kurqanları kiçik həcmli olması ilə fərqlənir. Onların kurqanaltı qəbirləri daş qutularla təmsil olunmuşdur. Axmaxidəki 1 №- li kurqanda dörd skelet aşkar olunmuşdur. Onların biri uzanmış, üçü isə oturmuş vəziyyətdə olmuşdur. Axmaxidəki 3 №-li kurqanın qəbir kamerasında 9 insan skeleti aşkar olunmuşdur. Onların biri uzadılmış, səkkizi isə oturmuş vəziyyətdə olmuşdur. Oturmuş vəziyyətdə aşkar olunmuş skeletlərdə zorla öldürmə əlamətlərinə rast gəlinmişdir.

A.A.İvanovskinin Köndələnçayın sağ sahilində tədqiq etdiyi 5 №- li kurqandan 3 insan və 2 dəvə skeleti aşkar olunmuşdur. Skeletlərin ətrafından tunc silah, qızıldan əşyalar, gil qablar tapılmışdır. Həmin arxeoloji materiallar Xocalı- Gədəbəy mədəniyyəti üçün xarakterikdir.

Xocalı-Gədəbəy mədəniyyətinə aid abidələrin bir qrupu Gədəbəy bölgəsinində yerləşir. Bu qrupa Daşkəsən, Xaçbulaq, Gədəbəy, Qazax və Şamxor rayonlarının arxeoloji abidələri daxildir. Bu qrupa aid yaşayış yerləri qəbir abidələri ilə müqayisədə azlıq təşkil edir.

Sarıtəpə yaşayış yeri Qazax şəhərinin cənub-şərqində yerləşir. Yaşayış yerində 1956-cı ildə İ.H.Nərimanov tərəfindən tədqiqat işlərinə başlanmışdır. Aşkar olunan arxeoloji materiallar əhalinin məşğuliyyəti və həyat tərzi haqqında məlumat verir. Sarıtəpədə qeydə alınan yaşayış binaları uzunsov, dördkünc formalıdır. Binaların divarları çay daşları ilə hörülərək, gil məhlulu ilə möhkəmləndirilmişdir. Divarların içərisi və evlərin döşəməsi gillə suvanmışdır. Arxeoloji tədqiqatlar zamanı yaşayaş yerindən Xocalı- Gədəbəy mədəniyyəti üçün xarakterik olan tunc bəzək əşyaları, boz və qara rəngli iri təsərrüfat küpləri, üzəri cızma naxışlı məişət qabları, yanmış taxıl və üzüm dənləri, xırdabuynuzlu və iribuynuzlu heyvan sümükləri əldə edilmişdir. Yaşayış yerindən aşkar olunan heyvan başlıqlı tunc qolbaqlar, dairəvi və düzbucaq formalı gil möhürlər diqqəti cəlb edir. Bu möhürlərin aşkar olunması, Son Tunc dövründə xüsusi mülkiyyətin mövcudluğunu təsdiq edən faktlardan biridir. Yaşayış yeri aşkar olunan arxeoloji materiallar əsasında e.ə. II minilliyin sonu, I minilliyin əvvəlinə aid edilir.

Babadərviş yaşayış yeri Qazax şəhərindən 2 km qərbdə, Ağstafaçayın sol sahilində yerləşir. Abidənin üst mədəni təbəqəsi Xocalı-Gədəbəy



Şəkil 92. Sarıtəpə yaşayış yerinin materialları

mədəniyyəti üçün xarakterik olan arxeoloji material vermişdir. Aşkar edilmiş arxeoloji komplekslər dördkünc formalı evlər, təsərrüfat quyuları, təsərrüfat küpləri, müxtəlif məişət əşyaları, gil möhürlər, manqallar, tuncdan ox ucluqları, öküz heykəlciyi və dəmir məmulatından ibarət maddi-mədəniyyət nümunələri ilə xarakterizə olunur.

Babadərviş qəbirləri. Babadərvişdə, IV yaşayış yerində Son Tunc və Erkən Dəmir dövrünə aid dörd qəbir tədqiq edilmişdir. Qəbirlərdən tunc bilərzik, müxtəlif qablar aşkar edilmişdir. Qəbirlər Q.S.İsmayılov və V.H.Əliyev tərəfindən tədqiq olunmuşdur.

Töyrətəpə yaşayış yeri Qazax rayonunun Göyçəli kəndi yaxınlığındadır. Çoxtəbəqəli yaşayış yerində Neolit, Eneolit və Tunc dövrünə aid mədəni təbəqə aşkar edilmişdir. Töyrətəpənin üst mədəni təbəqəsi Xocalı-Gədəbəy mədəniyyəti üçün xarakterik olan arxeoloji material vermişdir. Qazıntılar zamanı gillə suvanmış toxuma divarlı tikinti qalıqları, dördkünc formalı qurğular, gil möhürlər və müxtəlif formalı gil qablar aşkar olunmuşdur. Töyrətəpə yaşayış yerində rast gəlinən keramika məmulatının bir qismi basma naxışlıdır.

Şamxor rayonunun Seyfallı kəndi yaxınlığındakı yaşayış yeri 1939- cu ildə Y.İ.Hümmel tərəfindən kəşfiyyat xarakterli tədqiqatlarla öyrənilmişdir. Tədqiqatlar nəticəsində dən daşları, obsidian alətlər və qara rəngli gil qab parçaları aşkar olunmuşdur. Yaşayış yeri e.ə. II minilliyin sonu, I minilliyin əvvəllərinə aid edilir.

Yastıtəpə yaşayış yeri Qazax rayonunda, Ağstafa dəmiryol stansiyasından 1 km şimal-qərbdə, çox da hündür olmayan təpə üzərində yerləşir. 1957-1961-ci illərdə burada aparılan arxeoloji tədqiqatlar zamanı xeyli miqdarda gil qab parçaları, dən daşları, gil möhürlər və təsərrüfat küpələrinin qalıqları əldə edilmişdir. Yastıtəpə yaşayış yerinin boz və qara rəngli keramikası Xocalı-Gədəbəy mədəniyyəti üçün xarakterikdir. Aşkar olunmuş arxeoloji materiallar əsasında, yaşayış yeri e.ə. I minilliyin əvvəllərinə aid edilmişdir.

Qazax rayonu ərazisində yuxarıda göstərilən yaşayış yerlərindən başqa Nadirbəytəpəsi, Göyərçintəpə, Arançıtəpələri və s. abidələr də qeydə alınmış, lakin, Nadirbəytəpəsi istisna olmaqla, qalanları arxeoloji tədqiqatlarla geniş öyrənilməmişdir.

Gədəbəy bölgəsinin arxeoloji abidələrinin bir qismi qəbir abidələri ilə təmsil olunmuşdur. Onlar, başlıca olaraq, kurqanlar və daş qutularla təmsil olunmuşdur. Kurqanlara Xaçbulaq və Bayan kəndi yaxınlığında rast gəlinmişdir.

Xaçbulaq kurqanları Daşkəsən rayonunda, Qoşqarçayın yuxarısında yerləşir. H.P.Kəsəmənli bu kurqanları 3 qrupa bölür: 1. Kollektiv dəfnlərlə xarakterizə olunan kurqanlar; 2. Tək qəbirli kurqanlar; 3. Ağac örtüklü kurqanlar. 1960-cı ildən başlayaraq arxeoloq H.P.Kəsəmənli tərəfindən kollektiv dəfnlərlə müşayiət olunan kurqanların bir qismi tədqiq edilmişdir.

1 №-li kurqanın hündürlüyü 3,05 m olmuşdur. Kurqan əsasən torpaqdan düzəldilmişdir. Burada 37 qəbir aşkar olunmuşdur. Onların əksəriyyəti daş qutu tipli olmuşdur. Bütün bu qəbirlər Son Tunc dövrünə- e.ə. XIII-XII əsrlərə aid edilmişdir.

2 №-li kurqan Qoşqarçayın sağ sahilində, 1 №-li kurqandan 100 m cənubda yerləşir. Burada 1962-ci ildə qazıntı işləri aparılmışdır. Kurqanın diametri 15, hündürlüyü 1,55 m olmuşdur. E.ə. XIII-XII əsrlərə aid edilən kurqandan 9 qəbir aşkar edilmişdir ki, onlardan da 7-si daş qutu tipli olmuşdur.



Şəkil 93. Xaçbulaq daş qutularının materialları

3 №-li kurqanın diametri 15, hündürlüyü 1,6 m olmuşdur. Kurqan «Pristavlıq» adlanan ərazidə aşkar olunmuşdur. Bu kurqan da e.ə. XIII-XII əsrlərə aid edilmişdir. Kurqan üçün kollektiv dəfn xarakterik olmuşdur.

4 №-li kurqan 1901-ci ildə E.A.Resler tərəfindən tədqiq olunmuşdur. Qora-Persaqa adlanan kurqan Qoşqarçayın sağ sahilində, Bayan kəndinin cənubunda yerləşir. Kurqanın altında olan 18 qəbirdən 15-i daş qutu tipli olmuşdur. Daş qutuların hamısı qapaq daşları ilə örtülmüşdür. Qəbirlərin bəzisinin dibinə ağ rəngli gil, bəzisinə isə çınqıl döşənmişdir. Daş qutuların içərisi qumla doldurulmuşdur. Buradakı 2 №-li qəbirdə yanmış sümük, kül və

kömürlə dolu olan gil qaba (urna) rast gəlinmişdir. Skeletlər bükülü vəziyyətdə, böyrü üstə, ya da üzü üstə basdırılmışdır.

Xaçbulaq kəndinin ətrafında «Çoban Abdulla yurdu» adlanan ərazidə diametri 15-20, hündürlüyü 1,5-2,5 metr olan qrup halında kurqanlar yerləşir. Onlardan birində aparılan qazıntılar zamanı 2 daş qutu qəbirdə sağ böyrü üstə uzadılmış, bükülü vəziyyətdə olan skeletlər və arxeoloji materiallar aşkar olunmuşdur. Kurqan e.ə. XII-XI əsrlərə aid edilmişdir.

H.P.Kəsəmənli tərəfindən ikinci qrupa aid edilən, tək dəfnlə xarakterizə olunan kurqanlara Xaçbulaq, Çovdar, Seyidkənd və Balçılıda rast gəlinmişdir. Bu qrupa aid kurqanlar E.A.Resler və İ.M.Cəfərzadə tərəfindən tədqiq edilmişdir. 1938-ci ildə İ.M.Cəfərzadə tərəfindən 2 kurqan öyrənilmişdir.

Daşkəsən rayonunun Seyidkənd yaxınlığında olan kurqanların daş qutuları böyük sal daşlardan qurulmuşdur. Burada 1901-ci ildə E.A.Resler tərəfindən tək dəfnlərlə xarakterizə olunan 4 kurqan öyrənilmişdir. Onların üçü daş qutu tipli, biri ağac örtüklü torpaq qəbir olmuşdur. E.A.Resler qeyd edir ki, bu qəbirlər xalq arasında «qəbri-ur-rus» (nəhənglər qəbiri) adlanır. O, bu ərazidə bir neçə belə «nəhənglər» qəbrinə rast gəldiyini yazır. Daş qutuların ikisinin döşəməsinə də daş piltələr döşənmişdir. Seyidkənd kurqanlarında oturmuş vəziyyətdə skeletlər də aşkar olunmuşdur. Seyidkənd daş qutularının Xocalı-Gədəbəy mədəniyyəti üçün xarikterik olan keramikası qara rəngli, gövdəsinin yuxarısında böyük novlarla naxışlanan, qaba hazırlanmış qablardan ibarətdir.

Balçılıda 1901-ci ildə E.A.Resler tərəfindən tək qəbirlərlə xarakterizə edilən bir neçə kurqan qeydə alınmışdır ki, onlardan da üçü tədqiq edilmişdir. Birinci kurqanın hündürlüyü 2,75, ikincininki isə 2,10 metr, birinci kurqandakı qəbrin uzunluğu 2,74, eni 1,00, dərinliyi 1,66 metr olmuşdur.

E.A.Resler apardığı tədqiqatlardan belə nəticəyə gəlinmişdir ki, kurqanların ən aşağı hissəsində - əsas qəbirdə ölən adamın atı, silahı, qəbir avadanlığı ilə, ondan üst qatda vəhşi və ev heyvanları, öz sahibkarına qulluq edən qullar dəfn edilmişdir. Yuxarı qatda tonqal yandırılmış, oraya daş tökülmüş və kurqan düzəldilmişdir.

Xaçbulaq kurqanlarının materialları Gədəbəy və Gəncəçay zonasında gil məmulatının formasında mövcud olan ümumiliyi müəyyən etməyə imkan verir.

Daşkəsən nekropolunun daş qutu tipli qəbirləri bir sıra xüsusiyyətləri ilə fərqlənir. Burada uzadılmış vəziyyətdə dəfn adətindən tutmuş, kəllənin altına kasa qoyulmasına, kollektiv dəfn, kəlləsiz dəfn etməyə qədər müxtəlif dəfnlərə, həmçinin küllə doldurulmuş qablara-urnalara da rast gəlinmişdir. Dəfn edilmiş skeletlərin bəzisi qeyri-adi böyüklükdə (uzunluğu 2,13 m) və uzunbaşlı olmuşdur. Qəbirlərdən boz rəngli, konnelyur naxışlı və sadə qablar aşkar olunmuşdur.




Şəkil 94. Quşçu daş qutularının keramikası

1984-cü ildə aparılan arxeoloji qazıntılar zamanı Xaçbulaqda daha iki kurqan öyrənilmişdir. Kurqanaltı qəbirlər daş qutulardan ibarət olmuşdur. 2№-li kurqanda isə 4 daş qutu aşkar olunmuşdur. Daş qutular üçün bükülü vəziyyətdə olan tək qəbirlər xarakterikdir. Bu baxımdan 3 №-li kurqanın üçüncü qəbiri istisnalıq təşkil edir. Bu qəbirdə iki böyük və bir uşaq skeletinə rast gəlinmişdir. Qəbir avadanlığı Son Tunc dövrü üçün xarakterik olan keramika, iy başlıqları, ucu əyri bıçaqlar, iynələr, xəncər, kəmər, sinə bəzəkləri, bilərzik və s. əşyalardan ibarət olmuşdur.

Kurqan tipli abidələrə Şamxorçay hövzəsində də rast gəlinmişdir. Bu abidələrin kurqanaltı kameraları daş qutu və torpaq qəbirlərdən ibarətdir. Qəbirlər sağ, ya da sol böyrü üstə, bükülü vəziyyətdə dəfn edilmiş skeletlərlə xarakterizə olunur. Burada tədqiq edilən 9 №-li kurqanın altındakı torpaq qəbirdə, bükülü vəziyyətdə tək insan skeleti, gil qablar, tunc əşyalar və qaban dişləri aşkar olunmuşdur.

Qəbir abidələrinin bir qrupu daş qutularla təmsil olunmuşdur. Bu qəbirlərin yayılma arealı Gəncəçay rayonunun dağlıq hissəsini də əhatə edir. Bu tipli qəbirlərə Çovdar, Bayan, Quşçu, Mirzik, Aşağı Daşkəsən, Gədəbəy qəbirstanlıqlarında rast gəlinmişdir.

Bayan və Quşçu kəndləri yaxınlığındakı daş qutular iri pilitələrdən qurulmuşdur. Qəbirlər 1,50-2 m dərinlikdə aşkar olunmuşdur. Onların bəzisi iki sıra sal daşla qurulmuşdur. Qəbirlərdə ağac kömürünə, donuz dişlərinə, alt çənənin ayrı qoyulmasına rast gəlinmişdir. Quşçu daş qutuları üçün boz və qara rəngli gil qablar xarakterikdir. Qabların bir qismi basma naxışlıdır.

Xaçbulaqda daş qutu tipli qəbirlər Çovdar, Aşağı və Yuxarı Daşkəsən, Quşçu, Zağalı, Hamamdüzü və Tatoğlu yurdu adlanan yerlərdə tədqiq edilmişdir. Onlar yanlarda sal daşlarla qurulmuş, üzəri isə yastı sal daşla örtülmüşdür. Xaçbulaq daş qutu qəbirləri üçün, başlıca olaraq, tək dəfnlər xarakterikdir.

Gədəbəydə açılan daş qutu qəbirlər iri sal daşlarla qurulmuşdur. Bəzi qəbirlərin divarları sal daşlardan qurulmaqla bərabər, çay daşları ilə də hörülmüşdür. Qəbirlər üçün adətən oturmuş, ya da uzadılmış vəziyyətdə olan tək skeletlər xarakterikdir. Lakin V.Belkin Gədəbəydə tədqiq etdiyi qəbirlərin birində kollektiv dəfn adəti qeydə alınmışdır. Bu qəbirdə 15 skelet aşkar olunmuşdur.

Gəncəçay rayonunun abidələrində rast gəlinən parçalanmış skeletlər, kəllənin və alt çənənin ayrı qoyulması adəti Gədəbəy-Daşkəsən bölgəsinin abidələrində də aşkar olunmuşdur.

E.Resler tərəfindən Aşağı Daşkəsəndə tədqiq edilən daş qutu tipli qəbirlərin birində kollektiv şəkildə dəfn olunmuş dörd insan skeleti qeydə alınmışdır. Qəbirin mərkəzində arxası üstə, bükülü vəziyyətdə, əlləri döşündə çarpazlaşdırılmış bir skelet olmuşdur. Bükülü vəziyyətdə sağ və sol böyrü üstə yerləşdirilən digər skeletlər kəlləsizdir. Qəbirin cənub tərəfində üst çənə sümüyünün parçaları tapılmışdır.

A.A.İvanovskinin Gədəbəy rayonunda qazdığı daş qutularda da skeletin parçalanmış halda dəfn olunmasına rast gəlinmişdir. Divarları kobud daşla qurulmuş daş qutu qəbirdə çürümüş insan skeleti və gil qabın içərisinə qoyulmuş alt çənə qeydə alınmışdır.

Gədəbəydəki 12 №-li daş qutuda insan skeletinə aid çürümüş barmaq və çanaq sümükləri, habelə qərb divarından bir qədər aralı qoyulmuş insan kəlləsi aşkar olunmuşdur. Kəllənin üst sümükləri yox imiş.

Rezendorfun Quşçu kəndi yaxınlığında tədqiq etdiyi daş qutu tipli qəbirlərin birində on bir insan kəlləsi, bir neçə ilik sümüyü, dörd onurğa və bir neçə barmaq sümüyü tapılmışdır. Qəbir avadanlığı beş ədəd dəmir nizə ucluğundan, iki ədəd dəmir xəncərdən, xəncər qınlarından, tunc kəmər və s. əşyalardan ibarət olmuşdur. Rezendorf rast gəldiyi dəfn adəti ilə bağlı belə bir fikir yürütmüşdür ki, insan öldükdən sonra ətinin çalağanlar tərəfindən yeyilməsi üçün onun meyidi müəyyən yerə qoyulurmuş və bununla bağlı bir sıra hallarda onun bəzi sümükləri itirmiş.

Qeyd edək ki, Rezendorfun bu mülahizəsi düzgün deyildir. Son illər Azərbaycan və Yaxın Şərq abidələrində aparılan tədqiqatlar belə dəfn adətinin kollektiv dəfnlə bağlı olduğunu göstərir.

Xocalı-Gədəbəy mədəniyyəti üçün xarakterik olan abidələrin bir qismi siklop tikintiləridir. Bu tip tikintilər Cənubi Qafqazın müxtəlif rayonlarında qeydə alınmışdır. Azərbaycanda Xanlar, Dəstəfur, Şamxor, Gədəbəy, Tovuz və Qazaxda aşkar olunan bu tip tikintilər başlıca olaraq yüksək daş kəsimlərində yerləşir. Bəzi tədqiqatçılar Naxçıvan ərazisində yerləşən bir qrup qalanı siklop tikintiləri sırasına daxil etmişdir. Bu abidələrin siklop tikintisi adlandırılmasının səbəbi, onların tikintisində böyük qaya parçalarından və iri daşlardan istifadə edilməsidir. Lakin aparılan araşdırmalar göstərir ki, bu abidələr Son Tunc dövründə müdafiə məqsədi ilə inşa edilmiş qalalardır.

1983-1984-cü illərdə Gəncə-Qazax arxeoloji ekspedisiyasının birinci dəstəsi Gədəbəy rayonunda yerləşən siklop tikintilərdə də araşdırma aparmışdır. Tədqiqatlar nəticəsində abidələrin bir qismində kəşfiyyat şurfu qoyulmuşdur.

Son illərdə tədqiq olunan siklop tikintilər, tədqiqatçı T.Rəsuloğlu tərəfindən, mədəni təbəqəsinin qalınlığına görə üç qrupa bölünür: 1. mədəni təbəqəsinin qalınlığı 0,5-0,8 metr olan tikintilər; 2. mədəni təbəqəsinin qalınlığı 1,2- 2 metr olan tikintilər; 3. mədəni təbəqəsi olmayan tikintilər. Yüksək dağlıq hissədə yerləşən qalalarda mədəni təbəqə ya az yığılmış, ya da heç yığılmamışdır (I Göydərə qalası, II Göydərə, Böyük Qalaça və b.). Birinci qrup qalaların ətrafına müdafiə divarının çəkilməsinə baxmayaraq, onların müdafiə imkanları olduqca azdır. İkinci qrup qalalar isə strateji cəhətdən əlverişli və təbii müdafiə olunan mövqelərdə salınmışdır.

Aparılan arxeoloji qazıntılar siklop tikintilərin funksional vəzifəsini müəyyən etməyə imkan vermişdir. Tədqiqatçıların fikrinə görə, I qrupa daxil olan və güclü müdafiə divarı ilə əhatə olunan qalalar müdafiə məqsədilə, ikinci qrupa daxil olan qalalar yaşayış yeri kimi, üçüncü qrupa daxil olan qalalardan isə mal-qaranın saxlanması üçün ağıl məqsədilə istifadə olunmuşdur. Güman etmək olar ki, hər üç qrupa aid olan tikintiləri Son Tunc dövründə Qərbi Azərbaycanın dağlıq ərazilərində məskunlaşan maldar tayfalar yaratmışlar.

Arxeoloji araşdırmalar göstərir ki, e.ə. II minilliyin ikinci yarısında Azərbaycanda müdafiə tikintilərinin meydana çıxması, cəmiyyətin sosial

həyatında meydana gələn dəyişikliklər və xarici işğal təhlükəsi ilə bağlı olmuşdur.

Yuxarıda qeyd olunanlardan göründüyü kimi, Son Tunc dövrü arxeoloji abidələrinin bir qismi Orta Tunc dövrü abidələrinin üzərində salınmışdır. Qeyd olunduğu kimi, bu yaşayış yerləri əkinçilik və maldarlıq üçün əlverişli mövqelərdə olmuşdur. Onların əksəriyyətinin mövqeyi strateji cəhətdən də əlverişlidir. Bu baxımdan, Naxçıvan qrupuna daxil olan Qalacıq və Şahtaxtı yaşayış yerlərinin ərazisi, bütün Şərur düzünü və Araz vadisini nəzarətdə saxlamağa imkan verir. Son Tunc dövründə tayfalararası ziddiyyətlərin, xarici basqın təhlükəsinin çoxaldığı bir zamanda, bu yaşayış yerlərinin əhəmiyyəti daha da artmışdır.

Qeyd olunduğu kimi, bu dövrdə daimi yaşayış yerləri ilə bərabər, yarımköçəri maldarlığın inkişafını təmin edən mövsümi yaşayış yerləri də meydana çıxmışdır. Bu yaşayış yerlərinin hamısı çay kənarlarında, su mənbələrinin və ticarət yollarının nəzarətdə saxlanılması üçün əlverişli mövqelərdə yerləşmişdir. Naxçıvanda bu tip abidələr sırasına Şamlar, Qarnıyarıq, Külüs, Kükü və b. yaşayış yerləri aiddir.

Gəncəçay rayonunun yaşayış yerləri ovalıqda, strateji cəhətdən ətraf əraziyə hakim mövqelərdə salınmışdır. Bu ərazidə 1 №-li yaşayış yerinin əlverişli mövqeyi, ondan uzun müddət yaşayış məntəqəsi kimi istifadə olunmasına şərait yaratmışdır. Qeyd edilməlidir ki, Gəncəçay rayonunda yaşayış yerlərinin azlığı və mədəni təbəqənin cüzi yığılması, bu dövrdə həyatın yarımköçəri maldarlığa əsaslanması ilə bağlı olmuşdur. Dağlıq və ovalıq zonanın qovşağında yerləşən bu ərazi yarımköçəri maldarlıq və əkinçilik üçün olduqca əlverişli olmuşdur.

Qazax rayonunda yerləşən yaşayış yerləri də təbii və strateji mövqedə olmaları ilə fərqlənirlər. Bu ərazinin əkinçilik və yarımköçəri maldarlıq üçün əlverişli olması, şübhəsiz ki, qədim insanların diqqətini çəkmişdir. Ağstafaçay vadisində olan münbit torpaqlar və yaxınlığındakı bol otlaqlar Son Tunc dövrü insanlarının oturaq və yarımköçəri həyat tərzini təmin etmək baxımından əlverişli olmuşdur. Bu ərazidə digər ərazilərə nisbətən yaşayış yerlərinin daha çox qeydə alınması bununla bağlıdır.

Əsasən e.ə. II minilliyin ikinci yarısı ilə tarixləndirilən müdafiə tikintiləri topoqrafik baxımdan diqqəti cəlb edir. Qeyd edildiyi kimi, bu dövrdə müdafiə istehkamlarının bir qrupundan yaşayış yeri kimi istifadə

olunmuşdur. Naxçıvan abidələrində Orta Tunc dövründə inşa edilmiş müdafiə divarları, ehtimal ki, Son Tunc dövründə də bərpa edilərək istifadə edilmişdir. Qalacıq, Şahtaxtı, II Kültəpə belə yaşayış yerlərinə aid edilə bilər. Şübhəsiz ki, bu dövrdə ətrafı möhkəmləndirilmiş yaşayış yerləri müdafiə baxımından əlverişli olmadığından, təbii cəhətdən müdafiə olunan yüksək dağlıq zonalarda qalalar salınmışdır. Naxçıvanda Çalxanqala, Vayxır qalası və Qazançıqala belə

abidələrdəndir. Onlar arasında Çalxanqala təbii mövqeyinə görə fərqlənməkdədir.

Çalxanqala təbii qayalıq üzərində, həm də düşmən gözündən uzaq bir mövqedə salınmışdır. Odur ki, müdafiə baxımından olduqca əlverişlidir. Belə ki, düşmənə birbaşa qalaya hücum etmək imkanı verilməmişdir. Qalanın giriş yolu dik yamaclar və qayalıqlardan keçdiyindən, düşmənin hücumunu xeyli çətinləşdirir. Lakin qalanın içərisində yaşayış binasına aid tikinti qalıqları olduqca azdır. Onun mərkəzi hissəsində mədəni təbəqəyə və arxeoloji materiallara rast gəlinmir. Qalanın yerləşdiyi ərazi bütün Cəhri çayı vadisini nəzərdə saxlamağa və hücum təhlükəsinin qarşısını almağa imkan verir.

Naxçıvançayın sol sahilində, təbii qayalıq üzərində yerləşən Vayxır qalası da olduqca əlverişli mövqedədir. Naxçıvançay vadisindən qalanın mövqeyi alınmazdır. Bu istiqamətdə qala təbii cəhətdən müdafiə olunduğundan, divar çəkilməmişdir. Divarlar qalanın dağ silsiləsinə birləşən və zəif müdafiə olunan hissələrindəndir. Bu prinsiplə tikilən qala, düşmən gözündən yayınmağa və bütün çay vadisini nəzarətdə saxlamağa imkan verir. Çalxanqalada olduğu kimi, burada da, qalanın içərisində yaşayış binasının qalıqlarına rast gəlinməmişdir. Arxeoloji materiallar, yalnız forma verməyən gil qab parçalarından ibarətdir. Arxeoloji materialların azlığı və yaşayış binasının olmaması, qaladan düşmən hücumları zamanı sığınacaq məqsədi ilə istifadə olunduğunu göstərir.

Qazançı qalasının yerləşdiyi ərazi təbii baxımdan Vayxır qalasına bənzəsə də, o daha əlverişli mövqeyə malikdir. İki çayın qovşağında, təbii cəhətdən müdafiə olunan mövqedə yerləşən qala,  əlavə olaraq müdafiə divarları ilə möhkəmləndirilmişdir. Burada arxeoloji materiallara digər qalalara nisbətən daha çox rastlanır. Lakin qalanın içərisində yaşayış binaları azdır. Qala divarlarının tikinti texnikasında olan müxtəliflik, onların ayrı-ayrı dövrlərdə tikildiyini və bərpa edildiyini göstərir. Qalanın olduqca böyük sahəni əhatə etməsindən görünür ki, buradan yalnız yerli əhalinin deyil, həm də heyvanların sığınması üçün də istifadə edilmişdir.

Azərbaycanın şimal rayonlarında yerləşən siklop tikintiləri adlandırılan qalalar, qeyd olunduğu kimi üç qrupa bölünürlər: yaşayış yeri kimi istifadə olunanlar; müdafiə məqsədi ilə istifadə olunanlar; heyvanların sığınması və saxlanması üçün istifadə olunanlar. Yaşayış yeri kimi istifadə olunan qalalar, başlıca olaraq, strateji cəhətdən əlverişli mövqelərdə yerləşdirilmiş və müdafiə divarı ilə əhatə olunmuşdur. İkinci və üçüncü qrupa daxil olan qalalar, təbii baxımdan, dağların əlçatmaz, düşmən diqqətindən yayınan və alınması çətin olan mövqelərdə yerləşdirilməklə, müdafiə divarı ilə də əhatə olunmuşdur. Hər üç tip qalada müdafiə divarları yerin relyefinə uyğun inşa edilmişdir.

Son Tunc dövrünün yaşayış binaları və müdafiə tikintiləri inşa texnikasına görə bir-birindən fərqlənir. Naxçıvan ərazisində yaşayış binaları yerüstü olmaqla əsasən düzbucaqlı formada tikilmişdir. Binaların yalnız daş təməlləri salamat qalmışdır. Onlar iki sıra çay daşı, ya da qaya parçalarından hörülərək, arası kiçik

həcmli daşlarla doldurulmuş və gil məhlulu ilə bərkidilmişdir. Ola bilsin ki, divarların yuxarı hissəsi kərpiclə hörülmüşdür. Binaların ətrafına yayılan qalın torpaq qatları bunu deməyə imkan verir.

Gəncəçay rayonunun arxeoloji abidələri üçün yarımqazma tipli evlər xarakterikdir. Onlar, başlıca olaraq, dördkünc planlıdır. Torpağın bərkliyindən asılı olaraq, evlərin divarları bəzən hörgüsüz, bəzən isə daş hörgü ilə möhkəmləndirilmişdir. İnşaat materialı kimi çay daşlarından istifadə olunmuşdur. Divarlar iki sıra daşla hörülərək, arası kiçik həcmli daşlarla doldurulmuşdur. Bu texnika, Tunc dövründə demək olar ki, Azərbaycanın hər yerində yayılmışdır. Bu rayonda tətbiq olunan balıqbeli texnikası diqqəti cəlb edir. Divarın daşları bir sırada bir tərəfə, o biri sırada isə əks tərəfə qoyulmaqla inşa edilmişdir. Divarların möhkəmliyini təmin edən bu texnika Azərbaycanın inşaat sənətində uzun müddət istifadə edilmiş və indi də istifadə edilməkdədir.

Gəncəçay rayonunda, Lüləli dərəsində tədqiq edilən 2 №-li yaşayış yerində evlər düzbucaqlı və dairəvi formalı yarımqazmalardan ibarətdir. Lakin, 1 №-li yaşayış yerindən fərqli olaraq, burada, binaların divarları daş tikintilərlə möhkəmləndirilməmişdir. Evlərin tavanı döşəməyə basdırılan dirəklər vasitəsilə saxlanmışdır. Düzbucaqlı evlərdə dam örtüyünün iki çatılı, dairəvi evlərdə isə konusvari olduğu güman edilir. Yaşayış yerləri geniş tədqiq edilmədiyindən, onların ümumi planı haqqında daha geniş fikir söyləmək, çətindir. Gəncəçay rayonundakı 1 №-li yaşayış yerində evlərin çay boyu düzümü, Lüləli dərəsində isə müəyyən sıra ilə düzülməsi qeydə alınmamışdır. Şübhəsiz ki, evlər dar küçələr vasitəsilə bir-biri ilə bağlanmışdır. Qazax rayonundakı Töyrətəpə yaşayış yerində divarları çubuqdan hörülərək gillə suvanmış evlər də aşkar olunmuşdur. Bu zonada yerləşən Sarıtəpə, Babadərviş yaşayış yerlərində aşkar olunan evlər dördkünc formalıdır. Binaların divarları çay daşlarından hörülərək, gil məhlulu ilə bərkidilmişdir.

Son Tunc dövrünə aid müdafiə divarları da tikinti texnikasına görə fərqli xüsusiyyətlər göstərir. Bu baxımdan, Çalxanqalanın tikinti texnikası diqqəti cəlb edir. Qala divarlarının tikintisində qaba düzəldilmiş, dördkünc biçimli daş bloklardan istifadə edilmişdir. Divarlar yan tərəflərdə iri bloklardan inşa edilmiş, onların arası isə kiçik həcmli daşlarla doldurulmuşdur. Bəzi hallarda divarların hörgüsündə bərkidici məhluldan istifadə edilmişdir. Çalxanqalada divarların tikinti texnikasında özünü göstərən xüsusiyyətlərdən biri divarların içəri və çöl tərəfində düzbucaqlı çıxıntılardan istifadə edilməsidir. Divarların müdafiə gücünü xeyli artıran bu tip texnikaya, indiyədək Azərbaycanın başqa abidələrində rastlanmamışdır. Çalxanqalanı digər qalalardan fərqləndirən digər əlamət, müdafiə divarının yalnız bir uzun divardan ibarət olmasıdır. Bu, qalanın cənub tərəfindədir. Digər tərəflər təbii cəhətdən müdafiə olunduğundan, divarla əhatə olunmamışdır. Ümumi planda, Çalxanqala düzgün olmayan çoxbucaqlıya bənzəyir.

Vayxır qalasının tikintisində qaba düzəldilmiş təbii qaya parçalarından istifadə edilmişdir. Çalxanqalada olduğu kimi, burada da divarlar yanlarda iri daşlarla hörülmüş, onların arası isə kiçik daşlarla doldurulmuşdur. Lakin Çalxanqaladan fərqli olaraq, Vayxır qalasında bərkidici məhlul kimi palçıqdan istifadə edilmişdir. Qala divarları yerin relyefinə uyğun olaraq tikilmişdir. Divar bəzi hissələrdə ziqzaq şəkillidir. Şərq tərəfdə dördkünc formalı bürclər vardır.

Azərbaycanın digər rayonlarında yayılan müdafiə tikintilərinin fərqləndirici cəhəti, onların divarlarının bərkidici məhlul olmadan tikilməsidir. İnşa texnikasına görə, tədqiqatçılar həmin qalaları üç tipə ayırmışlar. Birinci qrupa iri daşlardan hörülmüş, bir sıra divarı olan qalalar; ikinci qrupa iri daşdan inşa edilən iki, ya da üç sıra müdafiə divarı olan qalalar; üçüncü qrupa orta həcmli daşlardan tikilmiş iki, ya da üç sıra müdafiə divarı olan qalalar daxildir. B.B.Piotrovski bu qalalarda divarların yuxarı hissəsinin çiy kərpiclə hörüldüyünü qeyd etmişdir. Lakin divarların üzərində və ətrafında çiy kərpicə rast gəlinmədiyindən, bu fikir bir qədər inandırıcı deyildir.

Qalalar ümumi planda oval, ya da düzgün olmayan dördbucaqlı formasındadır. Divarlar, başlıca olaraq, iki sıra daşla hörülmüşdür.

**İqtisadiyyat.** Arxeoloji tədqiqatlar göstərir ki, Son Tunc və Erkən Dəmir dövründə iqtisadiyyatın başlıca sahəsi əkinçilik və maldarlıq olmuşdur. Bu dövrdə əkinçilik mədəniyyətinin inkişafı, hər şeydən əvvəl, yaşayış yerlərindən aşkar olunan maddi-mədəniyyət qalıqları ilə sübut olunur. Bu maddi-mədəniyyət nümunələrinin bir qismini əmək alətləri təşkil edir. Xanlar rayonu yaxınlığında yerləşən 1 №-li yaşayış yerinin 115 və 118 №-li binalarından 40-dan artıq daş toxa əldə edilmişdir. Toxalar müxtəlif ölçülüdür. Onların uzunluğu 14-24, qalınlığı 2-4 sm arasındadır. Toxaların işlək ucu nazik olub, qəlpələnmə yolu ilə itilənmişdir. İşlək ucunun əks tərəfində dəstək bərkitmək üçün nov açılmışdır. Bəzi toxaların ucları uzun müddət işləndiyindən cilalanmış, bəziləri isə qırılmışdır.

Son Tunc dövrünün arxeoloji abidələrində xışlara rast gəlinməsə də demək olar ki, bu dövrdə şumlama əkinçiliyindən və qoşqu qüvvəsindən istifadə edilmişdir. Yuxarıda qeyd edildiyi kimi, Azərbaycanda şumlama əkinçiliyi hələ İlk Tunc dövründən mövcud olmuşdur. Şübhəsiz ki, dağ ətəklərində şumlama əkinçiliyi ilə bərabər, dəmyə əkinçilikdən də istifadə edilmişdir. Yaşayış yerlərində və qəbir abidələrində xeyli miqdarda iribuynuzlu heyvan və at sümükləri aşkar olunmuşdur. Şübhəsiz ki, bu heyvanlardan qoşqu qüvvəsi kimi də istifadə edilmişdir. Bu dövrdə qoşqu qüvvəsinin tətbiq olunduğu şumlama əkinçiliyi olmadan, iqtisadiyyatın ahəngdar inkişafını təmin etmək mümkün deyildi. Əkinçilik iqtisadiyyatın digər sahələrinin də inkişafını təmin etmişdir.

Əkinçiliklə bağlı əmək alətlərinin bir qrupu oraq dişlərindən ibarətdir. Bu cür oraq dişləri Sarıtəpə, Babadərviş, Mingəçevir və digər yaşayış yerlərində aşkar olunmuşdur. Qeyd etmək lazımdır ki, yalnız Mingəçevir yaşayış yerindən 300-dən artıq oraq dişi aşkar olunmuşdur. Xanlar yaxınlığındakı 1 №-li yaşayış

yerində aşkar olunan oraq dişlərinin aşkar olunma vəziyyəti onların aypara şəklində düzüldüyünü göstərir. Şübhəsiz ki, oraq dişləri aypara formalı ağac əsaslara bərkidilmişdir. Lakin ağac əsaslar çürüdüyündən, bu günümüzədək gəlib çatmamışdır. Tuncdan hazırlanmış oraqlar Gədəbəy abidələrindən aşkar edilmişdir.

Əmək alətlərinin bir qrupu taxılın döyülməsi və üyüdülməsi ilə bağlıdır. Xanlar yaxınlığındakı 2 №-li kurqandan aşkar olunmuş ağac vəl, bir tərəfinə prizmatik daşlar keçirilən iki eyni formalı parçadan ibarətdir. Forma etibarı ilə, o indi Azərbaycanın dağlıq rayonlarında istifadə olunan vəllərə bənzəyir. Bu alətin tapılması Son Tunc dövründə, taxıl döyümündə qədim ənənəvi üsullara yanaşı, vəllərdən də istifadə olunduğunu göstərir.

Taxılın üyüdülməsi üçün dən daşlarından istifadə olunmuşdur. Alt və üst daşlarından ibarət olan bu alətlər, formaca Tunc dövrünün əvvəlki mərhələlərində istifadə olunan alətlərdən fərqlənmirlər. Alt dən daşlarının işlək tərəfi qayıqşəkilli, üst dən daşlarının işlək tərəfi isə düzdür.

Taxılın saxlanması üçün təsərrüfat quyularından və küplərdən istifadə edilmişdir. Bu cür təsərrüfat küpləri Mingəçevir, Sarıtəpə, Babadərviş yaşayış yerlərindən tapılmışdır. Sarıtəpə yaşayış yerində təsərrüfat küplərinin saxlandığı ərzaq anbarları da olmuşdur. Yaşayış yerlərindəki təsərrüfat küplərinin içərisindən taxıl və üzüm çəyirdəyinin qalıqları, taxıl quyularında isə darı qalıqları aşkar olunmuşdur. Xocalı kurqanlarından tapılan təsərrüfat küplərinin birinin qulpunda buğda təsviri vardır.

Bu dövrün təsərrüfatının geniş inkişaf etmiş sahələrindən biri də üzümçülükdür. Yaşayış yerlərindən aşkar olunan təsərrüfat küplərinin içərisində üzüm çəyirdəklərinə rast gəlinməsi, bu dövrdə şərab istehsalının da inkişaf etdiyini göstərir. Sarıtəpə yaşayış yerində tapılan şərab tuluğu, üzümçülüyün inkişafını göstərən nadir tapıntılardan biridir. Üzümçülüyün inkişafını, eyni zamanda, qədim yaşayış yerlərinin ətrafından aşkar olunan üzüməzən daşlar da sübut edir. Üzüməzən daşlara Naxçıvan ərazisində daha çox rast gəlinmişdir.

Arxeoloji qazıntılar zamanı aşkar olunan buğda növləri M.M.Yakubsiner və İ.Mustafayev tərəfindən təyin edilmişdir. Onların arasında yumşaq buğda (Tritcum vulqare), bərk buğda (Triticum durum Dest) və digər buğda növləri (Tritcum aestivum, triticum comraktum) vardır. Müxtəlif arpa növlərindən (Hordeum sativum) də istifadə edilmişdir. Yuxarıdakı fəsillərdə qeyd edildiyi kimi, Azərbaycan qədim zamanlardan əkinçilik mədəniyyətinin mərkəzi olmuşdur. Azərbaycanın dağlıq zonalarında yabanı buğda, arpa və darı növlərinin olması, habelə, ərazinin əlverişli təbii coğrafi mövqeyi əkinçilik mədəniyyətinin erkən meydana çıxmasını və formalaşmasını təmin etmişdir. Son Tunc dövründə artıq əkinçilik müstəqil istehsal sahəsi kimi mövcud olmuşdur.

Son Tunc dövrü təsərrüfatının geniş yayılmış formalarından biri maldarlıq olmuşdur. Arxeoloji tədqiqatlar, Azərbaycan ərazisində hələ İlk Tunc dövründən başlayaraq, maldarlığın əkinçilikdən ayrıldığını və yarımköçəri maldarlığının

formalaşdığını göstərir. Son Tunc dövründə şübhəsiz ki, maldarlıq müstəqil təsərrüfat sahəsi kimi mövcud olmuşdur. Bu dövrə aid arxeoloji abidələrin tədqiqi, oturaq həyat keçirən qəbilələrlə bərabər, köçəri həyat sürən tayfaların da olduğunu göstərir. Bu qəbilələrə aid mövsümi yaşayış yerlərində mədəni təbəqə olduqca az yığılmışdır. Şübhəsiz ki, bu, insanların köçəri həyat tərzi ilə bağlı olmuşdur. Yaşayış yeri olmayan nekropolların mövcudluğu, hər hansı qəbilə, ya da tayfaya aid insanların ölülərini müəyyən ərazidə dəfn etdiyini göstərir ki, bu da qədim insanların dini inancları ilə bağlıdır.

Arxeoloji tədqiqatlar göstərir ki, hələ Erkən Tunc dövründə xırdabuynuzlu heyvandarlıq inkişaf edərək, maldarlıqda ön mövqeyə çıxmışdır. Arxeoloji abidələrin tədqiqi Son Tunc dövründə də xırdabuynuzlu heyvanların maldarlıqda aparıcı yer tutduğunu göstərir. Babadərviş, Sarıtəpə, Mingəçevirdən aşkar olunmuş osteoloji qalıqların təhlili, xırdabuynuzlu heyvanların üstünlük təşkil etdiyini sübut edir. Mingəçevirdən aşkar olunan heyvan sümüklərinin tədqiqi, xırdabuynuzlu heyvanlar arasında qoyun və keçi cinslərinin xüsusi yer tutduğunu göstərir. Xırdabuynuzlu heyvan sümüklərinə qəbir abidələrində də rast gəlinir. Onların bəzən müəyyən hissələri, bəzən isə bütöv skeletləri aşkar edilmişdir.

Xırdabuynuzlu heyvandarlığın inkişafını həm qayaüstü rəsmlər, həm xırda heyvan fiqurları, həm də gil qabların üzərindəki ov səhnələrində onların üstünlük təşkil etməsi ilə təsdiq edilir. Şübhəsiz ki, bu xırdabuynuzlu heyvanların maldarlıqda önəmli rolu və insanların məişətində onların böyük əhəmiyyəti ilə bağlıdır.

Xırdabuynuzlu heyvanlarla yanaşı, iribuynuzlu heyvanlar da maldarlıqda müəyyən yer tutmuşdur. Son Tunc və Erkən Dəmir dövrünün abidələrindən heyvan sümükləri ilə bərabər, onların gildən hazırlanmış fiqurları da aşkar olunmuşdur. A.A.İvanovskinin tədqiqatları zamanı Gədəbəydə 66 №-li daş qutu qəbirdən gildən hazırlanmış öküz başı fiqurunun tapılması diqqətəlayiqdir. Bu fiqurun realist görkəmi, onun ritual xarakterli olduğunu göstərir. Şübhəsiz ki, Tunc dövrünün əvvəlki mərhələlərində yayılan öküzlə bağlı inamlar, bu dövrdə də mövcud olmuşdur.

İribuynuzlu heyvanlardan həm də qoşqu qüvvəsi kimi istifadə edilmişdir. Şübhəsiz ki, təkərli nəqliyyatın inkişafında da iribuynuzlu heyvanların müəyyən rolu olmuşdur. Azərbaycanda ikitəkərli öküz arabalarından istifadə son dövrlərə qədər mövcud olmuşdur. Mingəçevirin Son Tunc və Erkən Dəmir dövrü yaşayış yerindən tapılan arabalar, ola bilsin ki, köçəri və yarımköçəri həyat sürən insanların həyatında mühüm rol oynamışdır.

Bu dövrün heyvandarlığında atçılıq da mühüm yer tutmuşdur. Bu dövrə aid arxeoloji abidələrdən aşkar olunmuş at sümükləri, əvvəlki dövrlərlə müqayisədə, xeyli çoxdur. At sümükləri xüsusilə qəbir abidələrindən tapılmışdır. Şübhəsiz ki, atla dəfnetmə adəti ata olan inamla bağlı olmuşdur. Azərbaycanın Son Tunc və Erkən Dəmir dövrünə aid kurqan tipli abidələrindən bütöv at skeletləri, ya da at sümükləri aşkar olunmuşdur. At sümükləri ilə bərabər, qəbir

abidələrindən at əsləhəsi də tapılmışdır. Onların içərisində yüyənlər diqqəti cəlb edir. Çünki bu tapıntılar atın əhilləşdirildiyini və ondan minik vasitəsi kimi istifadə olunduğunu göstərən tapıntılardandır.

Tədqiqatçıların bir qrupu Qafqazda atın əhilləşdirilməsinin hind-avropalılarla bağlı olması, habelə onların gəlişindən əvvəl, burada əhilləşdirilmiş atlardan minik vasitəsi kimi istifadə edilmədiyi kimi, qeyri-elmi fikirlər irəli sürmüşlər. Qeyd etdiyimiz kimi, at Azərbaycanda qədim dövrlərdən əhilləşdirilmiş və şübhəsiz ki, ondan minik vasitəsi kimi də istifadə olunmuşdur. Bu baxımdan, M.N.Poqrebovanın Gəncəçay rayonunun at dəfnləri ilə fərqlənən qəbirlərini irandillilərə aid etməsi yanlışdır. Hər şeydən əvvəl qeyd edək ki, atın əhilləşdirilməsi və atla bağlı inamlar müxtəlif xalqlarda özünəməxsus xüsusiyyətlərə malik olmuşdur. Heç bir xalq, atçılığın inkişafı üçün, hind-avropalılara borclu deyil. Digər tərəfdən, mədəni dünyanın ən mühüm nailiyyətlərini hind-avropalılara bağlamağa çalışan tədqiqatçıların fikirləri çox hallarda subyektiv xarakter daşımaqla arxeoloji faktlarla təsdiq olunmur. Odur ki, atçılığın Azərbaycan ərazisində yerli zəmində meydana gəldiyini və inkişaf etdiyini söyləmək daha doğrudur.

Şübhəsiz ki, bu dövrdə heyvandarlığın digər sahələri də inkişaf etmişdir. Lakin onlarla bağlı arxeoloji dəlillər olduqca azdır. Fizuli şəhəri yaxınlığında, Köndələnçayın sağ sahilində A.A.İvanovski tərəfindən tədqiq edilən 5 №-li kurqanda iki dəvə skeletinə rast gəlinməsi, bu heyvanların ictimai həyatda müəyyən rolunun olduğunu göstərir. Şərq ölkələrində yük daşımaq üçün istifadə edilən bu heyvanların, yarımköçəri və köçəri həyat keçirən tayfaların həyatındakı rolu böyük olmuşdur. Digər tərəfdən, bəlli olduğu kimi, dəvə karvanları ticarət əlaqələrində əvəzsiz rol oynamışdır.

Son Tunc və Erkən Dəmir dövrünün təsərrüfatında əsas istehsal sahələri ilə bərabər, yardımçı təsərrüfatların da müəyyən rolu olmuşdur. Ovçuluq, balıqçılıq, yığıcılıq belə təsərrüfat sahələrindəndir. Qayaüstü rəsmlərdə və gil qablar üzərindəki təsvirlərdə ovçuluğa geniş yer verilməsi, heç də təsadüfi deyildir.

Arxeoloji abidələrdən aşkar edilən toxuculuq alətlərindən görünür ki, bu dövrdə toxuculuq təsərrüfatın müəyyən bir sahəsini təşkil etmişdir. Ola bilsin ki, toxuculuğun müəyən sahələri ev sənətkarlığı çərçivəsindən kənara çıxaraq, müstəqil istehsal sahəsi kimi formalaşmışdır.

Son Tunc və Erkən Dəmir dövründə iqtisadiyyatın inkişafı, sənətkarlığın müxtəlif sahələri üzrə ixtisaslaşmasını dərinləşdirmiş, mübadilənin artmasına, tayfalar arasında sosial differensasiyanın güclənməsinə səbəb olmuşdur. Tədqiqatlar zamanı, aşkar olunmuş qəbir abidələrinin zəngin avadanlığına görə bir-birindən fərqlənməsi, şübhəsiz ki, qəbilə üzvləri arasında güclənən əmlak bərabərsizliyi ilə bağlıdır.

İqtisadiyyatın əsas sahələrindən biri olan dulusçuluq başlıca olaraq keramika məmulatına əsasən öyrənilmişdir. Azərbaycanın Son Tunc dövrü

keramikası ilə bağlı arxeoloji ədəbiyyatda müxtəlif fikirlər irəli sürülmüşdür. Tədqiqatçılar Son Tunc dövrünə aid Xocalı-Gədəbəy keramikasını müxtəlif qruplara bölərək, xarakterizə etmişlər. Bu dövrün keramikasının xarakteristikasına keçməzdən əvvəl, bir qədər fərqli görünən Naxçıvan qrupunun keramikası üzərində dayanmaq fikrindəyik.

Naxçıvan ərazisində aşkar olunan Son Tunc dövrü keramikasını iki qrupa ayırmaq olar. Birinci qrupa Araz çayı və Naxçıvançay vadisində yerləşən I Kültəpə, II Kültəpə, Şahtaxtı, Qalacıq, Yurdçu yaşayış yerləri və onlara aid olan nekropolların keramikası daxildir. Bu abidələrdə Son Tunc dövrü keramikası müəyyən dəyişikliyə uğramaqla, Orta Tunc dövrü keramikasının davamı kimi ortaya çıxmışdır. Bu qrupa daxil olan abidələrin keramikasında Orta Tunc dövrü üçün xarakterik olan boyalı qabların inkişafı davam etmişdir. Bu qrupun xarakterik qab formalarından biri uzun axıdacağı olan çayniklərdir.

Bu tip qablar Urmiya hövzəsi və Zəngəzur üçün də xarakterikdir. Onlar Azərbaycanın digər abidələrindən aşkar olunmamışdır. Naxçıvanda çaynik tipli qabların boyalıları da geniş yayılmışdır. Boyalı çayniklər Naxçıvan nekropolu, Şortəpə və Qızılburundan əldə edilmişdir. Son Tunc dövrünə aid çayniklərin birinin gövdəsi mərkəzi hissədə sarı rənglə boyanmış, onun üzərindən paralel xətlərlə məhdudlaşdırılan torlu üçbucaqlarla naxışlanmışdır. Boyasız çayniklər boz və qara rəngdə yaxşı bişirilmişdir. Onların üzəri cızma və basma ornamentlə naxışlanmışdır. Şahtaxtı və Şortəpədən aşkar olunan çaynik tipli qablar incə bəzəmələri ilə fərqlənirlər.

Bu dövrün xarakterik qab formalarından biri Xocalı-Gədəbəy mədəniyyətini özündə əks etdirən, göbələkşəkilli çıxıntıları olan küpə və çölmək tipli qablardır. Onlar boz rəngdə, bəzəməsiz, ya da dalğaşəkilli cızma bəzəmələrə malikdir. Belə qablar I Kültəpə, Kükü, Yurdçu, Qızılburun və digər abidələrdən bəllidir. Konusvari gövdəli küpə tipli qablar bu dövrdə daha geniş yayılmışdır. Şahtaxtı nekropolundan aşkar olunan bu tip qabların bir qismi boyalı, bir qismi isə boyasızdır. Onların boyalı nümunələri Culfa nekropolundan da bəllidir.

Qabarıq, konusvari gövdəyə malik olan kasa tipli qabların bir qrupu konnelyur ornamentlidir. Bu tip qablar Şəhtaxtı və I Kültəpədən bəllidir.

Göründüyü kimi, boyalı qablarla xarakterizə olunan Naxçıvan qrupunun gil məmulatında Xocalı-Gədəbəy mədəniyyəti üçün xarakterik olan keramika formaları, xüsusilə göbələkşəkilli çıxıntısı olan çölmək və küpələr ortaya çıxır. Maraqlıdır ki, Naxçıvan abidələrində bu tip qabların boyalılarına da rast gəlinir.

Qeyd edək ki, boyalı keramikanın aşkar olunduğu qəbir abidələrində insan skeletinin qalıqlarına rast gəlinməmişdir. Lakin bunun əksinə olaraq, qəbirlərdə xırdabuynuzlu heyvan və quş sümüklərinə təsadüf edilmişdir. Bu baxımdan, Qızılburun nekropolu istisnalıq təşkil edir. Belə ki, bu nekropoldakı qəbirlərdə kollektiv dəfnetmə adətinin olduğu müəyyən edilmişdir.

Naxçıvan ərazisində aşkar olunan ikinci tip keramika Xocalı-Gədəbəy mədəniyyəti üçün xarakterikdir. Onların komplekslərində indiyədək boyalı

qablara rastlanmamışdır. Çaynik tipli qablar isə, olduqca azdır. Şərur rayonunda bu qrupa daxil olan qəbir abidələri dağılmış vəziyyətdə qeydə alındığından, onların dəfn adətini müəyyən etmək mümkün olmamışdır. Lakin, Şahbuz rayonunda tədqiq olunan Sarıdərə, Kolanı, Haqqıxlıq, Culfa rayonundakı Bayəhməd nekropolları üçün kollektiv dəfnlərlə müşayiət edilən daş qutu qəbirlər xarakterikdir. Bu abidələrdən aşkar olunan gil məmulatı, başlıca olaraq, boz və qara rəngdə bişirilərək, cızma xətlərdən ibarət həndəsi ornamentlərlə naxışlanmışdır. Qabların az bir qrupunu yaxşı cilalanmış, basma naxışlı qablar təşkil edir. Başlıca formalar küpə, kasa, qədəh, nimçə, çölmək tipli qablardan ibarətdir. Qədəh tipli qablar və konus gövdəli, nimçə tiplilər xüsusilə geniş yayılmışdır. Qabların bir qrupunu silindrik lüləyi olan kasa tipli qablar təşkil edir. Çaynik tipli qablar olduqca azdır.

Bu tip qabların aşkara çıxarıldığı arxeoloji komplekslər Xocalı-Gədəbəy mədəniyyəti üçün xarakterik olan tunc əşyalarla müşayiət olunur. Onların arasında tunc xəncərlər, ox ucluqları, bilərzik, asma, pilək, üzük, sırğa, quş fiqurları və digər əşyalar vardır. Aşkar olunmuş arxeoloji materiallar e.ə. II minilliyin sonu və I minilliyin əvvəlində Xocalı-Gədəbəy mədəniyyətinin Naxçıvanda geniş yayıldığını göstərir. Naxçıvan ərazisində qeydə alınan Xocalı-Gədəbəy mədəniyyətinə aid abidələr istər dəfn adəti, istərsə də arxeoloji materiallarına görə, Gədəbəy qrupunun abidələrinə daha çox bənzərdir. Gəncəçay hövzəsi üçün xarakterik olan zəngin bəzəməli qablara, o cümlədən ağ instruksiyalı gil məmulatına burada az rastlanır.

Azərbaycanın şimal rayonlarında yayılan və arxeoloji ədəbiyyatda Xocalı-Gədəbəy mədəniyyəti adı ilə tanınan keramika məmulatı M.A.Hüseynova tərəfindən üç qrupa bölünərək xarakterizə edilmişdir. Birinci qrupa əldə hazırlanmış, boz və qara rəngli, cilalanmış, ya da cilasız qablar daxildir. Onlar həndəsi motivli, ağ maddə doldurulmuş qazma ornamentlə naxışlanmışdır. Bəzəmələr arasında stilizə edilmiş heyvan fiqurları da vardır.

İkinci qrupa daxil olan qablar, dulus dəzgahında hazırlanmış, boz, boz-sarı və çəhrayı rəngli keramika ilə təmsil olunmuşdur. Bu qrup üçün təkqulplu, uzunboğaz küpə tipli qablar xarakterikdir. Gil qablar, başlıca olaraq, cızma xətlər, bəzən isə basma ornamentlə naxışlanmışdır. Bu qrupa hündürdayaqlı qablar da daxildir.

Üçüncü qrup keramikanın xarakterik cəhəti, gil qabların xaricdən parıldayanadək cilalanması və konnelyur ornamentlə naxışlanmasıdır.

Gəncəçay zonasının qəbir abidələri üçün, başlıca olaraq, birinci qrup keramika xarakterikdir. Onlar boz-qara rəngli, cilalanmış, cızma naxışlı və ağ inkrustasiyalı qablarla təmsil edilmişdir. Bu abidələrdən aşkar olunan ikinci qrup keramika sarı-boz və qonur rəngli olması ilə fərqlənir. Nazik divarlı, lakin möhkəm olan gil məmulatının naxışlanmasında basma ornament və rəngdən də istifadə edilmişdir. Onlar bəzən qırmızı və qara rənglə başdan-başa boyanmışdır. Yüksək keyfiyyətli bişirilmiş, konnelyur ornamentli keramikaya bu zonada az

rastlanmışdır. Qarabağ və Gədəbəy qrupunun qəbir abidələrində hər üç qrup aid qablar aşkar olunmuşdur. Lakin burada ikinci qrupa aid gil qablar üstünlük təşkil etdiyi halda, birinci qrup qablar azdır.

Yaşayış yerlərinin keramikası qəbir abidələrinin materiallarından müxtəlif formalı qabların olması və ikinci qrup keramikanın üstünlük təşkil etməsi ilə fərqlənir.

Hər qrupa daxil olan keramika özünəməxsus formaya malikdir. Birinci qrup keramika üçün müxtəlif formalı kasalar, piyalələr, çölməklər və küpələr xarakterikdir.

İkinci qrupa daxil olan keramika birincidən gilinin rənginə, hazırlanmasına, forma və ornamentinə görə fərqlənir. Bu qrupa daxil olan qabların əksəriyyəti bikonik və silindrik-konik formalı kasalardan və küpələrdən ibarətdir. Kasaların hamısı yüksək keyfiyyətli gildən dulus çarxında hazırlanmış, üzərləri yaxşı cilalanmışdır. Gil qablar qara və qırmızı rəngli zolaqlarla naxışlanmışdır. Bu tip kasalar Gəncəçay rayonunda və Gədəbəy qrupunun arxeoloji abidələrindən aşkar olunmuşdur.

Üçüncü qrup keramika az miqdarda tapılmışdır. Başlıca olaraq yüksək keyfiyyətli bişirilmiş bu qablar, qara rəngdə yaxşı cilalanmışdır. Onlar yuvarlaq gövdəli, uzunsov oturacaqlı, bəzən isə hündürayaqlıdır. Gövdəsinin konnelyur ornamentlə naxışlanması, zoomorf qulplarla birlikdə onlara xüsusi gözəllik verir.

Arxeoloji abidələrdən aşkar olunan keramika məmulatının təhlili göstərir ki, onlar gilinin tərkibinə, keyfiyyətinə, rənginə və hazırlanma texnikasına görə bir-birindən fərqlənən üç qrupa bölünür. Keramikanın tipoloji təsnifatı formalarda meydana gələn xronoloji dəyişikliyi izləməyə də imkan verir.

Araşdırmalar göstərir ki, Gəncəçay rayonunda yayılan keramikanın xarakterik xüsusiyyətlərindən biri qabların naxışlanmasında ağ inkrustasiyanın istifadə olunmasıdır. Arxeoloji araşdırmalar, Xocalı-Gədəbəy mədəniyyəti çərçivəsində bu tip qabların, başlıca olaraq, Gəncəçay vadisində və Xanlar rayonunda geniş yayıldığını, digər rayonlarda isə az rastlandığını göstərir.

Ağ inkrustasiyalı keramikanın mənşəyinin müəyyən edilməsində, gil qabların bəzəmə motivinin və naxışlanma texnikasının araşdırılması, olduqca əhəmiyyətlidir. Bu tip qabların naxışları həndəsi ornamentlərin kompozisiyalardan ibarətdir. Bəzi qabların yalnız çiyin hissəsi, digərlərinin isə bütün gövdəsi naxışlanmışdır. Bu keramikanın xarakterik cəhətlərindən biri də həndəsi ornamentlə bərabər insan, heyvan və quş rəsmlərindən istifadə edilməsidir.

Heyvan rəsmləri arasında maral, keçi, it, quş, bəzi hallarda qaban və zubr təsvirlərinə rast gəlinir. Qeyd etmək lazımdır ki, təsvir edilən heyvan rəsmləri həndəsi fiqurların birləşdirilməsi ilə yaradılmışdır. Lakin bəzən real təsvirlər də meydana çıxır.

Daha çox rastlanan quş rəsmləri də həndəsi fiqurların birləşdirilməsi ilə yaradılmışdır. Başlıca olaraq suda üzən qaz və qu quşları təsvir edilmişdir.

Yalnız bir halda tovuz quşu rəsminə rast gəlinmişdir. Tədqiqatçıların fikrincə, e.ə. XVII əsrdə Mitaniya mədəniyyətində meydana gələn tovuz quşu rəsmi Şərq mədəniyətinin, Hindistanın təsiri ilə bağlıdır.

Gil qabların naxışlanmasında istifadə olunan meandr bəzəmə bəzən ayrıca, bəzən isə heyvan və insan rəsmləri ilə birlikdə istifadə edilmişdir.

Qabların bəzəməsində insan fiqurları xüsusi yer tutur. Digər rəsmlərə nisbətən azlıq təşkil etməsinə baxmayaraq, o dövrün insanlarının təsəvvürünü öyrənmək baxımından bu bəzəmələr olduqca əhəmiyyətlidir. Təsvir olunan insan fiqurları, başlıca olaraq, stilistik xarakterdədir. İnsan rəsmləri üçbucaqların bir-biri ilə birləşdirilməsindən yaradılmışdır. Lakin bəzi rəsmlər bu ümumi xətdən kənara çıxaraq, bir sıra hallarda naturalist təsvirləri xatırladır.

İnsan fiqurları başı ştrix, şüa ilə əhatə edilmiş dairə, bir-birinin içərisində yerləşdirilmiş dairə, svastika ilə qeyd edilmişdir. Onların əlləri üç, ayaqları isə iki barmaqlıdır. Bəzi insan fiqurlarının əlində ox və kaman rəsmlərinə rastlanır.

Arxeoloji ədəbiyyatdan bəlli olduğu kimi, ağ inkrustasiyalı keramika Mərkəzi Avropa və Kiçik Asiyadan başlayaraq, Çinə qədər geniş bir ərazidə yayılmışdır. Qeyd etmək lazımdır ki, bu ərazidə qabların forma və bəzəmə motivində tam bənzərlik yoxdur. Ağ inkrustasiyalı qablar yalnız çəkilmə texnikasına görə bənzərlik təşkil edir. Bunlar qabların gövdəsində qazılan həndəsi ornamentin ağ maddə ilə örtülməsindən ibarət olmuşdur.

R.Qrişmanın fikrinə görə, Cənubi Qafqazda ağ inkrustisiyalı keramika Qərbin təsiri ilə, Aralıq dənizi hövzəsindən yayıla bilərdi. Bu ərazidə, xüsusilə, Suriya, Fələstin və Misirdə ağ pasta ilə inkrustasiyalı bəzəmə Tunc dövründə mövcud olmuşdur. Qeyd edək ki, Azərbaycanın qədim dövrdə Yaxın Şərq ölkələri ilə iqtisadi-mədəni əlaqələrinin mövcudluğunu nəzərə alaraq, bu fikri müəyyən dərəcədə qəbul etmək olar. Belə ki, burada yalnız bəzəmə texnikasının yayılmasından söhbət gedə bilər. Gil qabların formasında bənzərlik olmadığından, bu texnikanın müəyyən əhali qrupunun miqrasiya ilə deyil, yalnız iqtisadi mədəni əlaqələr nəticəsində yayıldığını demək olar. Bu iqtisadi-mədəni əlaqələrin saxlanmasında ola bilsin ki, Mitaniyanın müəyyən rolu olmuşdur. Azərbaycanın ərazisində yayılan ağ inkrustasiyalı keramikanın Mərkəzi Avropadan başlayaraq Çinə qədər yayılmış keramika ilə M.A.Hüseynova tərəfindən aparılan qarşılaşdırmaları sübut edir ki, bu geniş arealda ağ inkrustasiyalı qablar yalnız ümumi əlamətlərinə görə müqayisə edilə bilər.

Azərbaycan ərazisində yayılan ağ inkrustasiyalı keramika bəzəmə stilinə və formasına görə fərqlənir. Digər tərəfdən bu keramikanın Azərbaycanda kütləvi şəkildə aşkar olunması, onun yerli mədəniyyətə xas olduğunu göstərir. Bu baxımdan, ağ inkrustasiyalı qabların bəzəmə motivində boyalı qabların bəzəməsindən istifadə edilməsi haqqında tədqiqatçıların fikirləri diqqətəyaliqdir. Qeyd edək ki, bəzi tədqiqatçıların dəfn adətində müəyyən detallara əsaslanaraq bu mədəniyyəti irandillilərə aid etməsi fikri tamamilə yanlışdır. Fikrimizcə, Azərbaycanın Son Tunc dövrü mədəniyyəti e.ə. IV-III minilliklərdə burada

meydana çıxan Kür-Araz mədəniyyəti və qonşu ölkələrlə iqtisadi-mədəni əlaqələr əsasında formalaşaraq, ortaya çıxmışdır. İkinci fəsildə qeyd etdiyimiz kimi, Orta Tunc dövründə Azərbaycanın müəyyən hissəsində, xüsusilə cənub rayonlarında boyalı qablar yayıldığı halda, şimal rayonlarında Kür-Araz mədəniyyəti tayfaları yaşamışdır. Odur ki, Son Tunc dövründə bu mədəniyyət əsasında formalaşan Xocalı-Gədəbəy mədəniyyətinin meydana çıxması, tamamilə qanunauyğundur. Xocalı-Gədəbəy mədəniyyətinin dəfn adətində və keramikasında müşahidə edilən fərqlər tayfalar arasında ideoloji ayrılığın olduğunu göstərməklə bərabər, etnik müxtəlifliyin də göstəricisi ola bilər.

M.A.Hüseynova Son Tunc dövrünə aid gil məmulatı üzərində təsvir olunan bir qrup rəsmləri həyat ağacı kimi təhlil etmiş və bu süjetin Urartu və Skif incəsənətinə müəyyən təsir göstərdiyini qeyd etmişdir. Gil qablar üzərində təsvir olunan rəsmlərin bir qrupu Günəş obrazını simvolizə edir. Daha geniş yayılmış Günəş obrazları svastika ilə təmsil olunmuşdur. Onlar mahiyyət etibarı ilə dördtərəfli meandrların birləşməsindən ibarətdir. Gil qablar üzərində olan bir qrup işarənin, habelə Günəş təsvirlərinin qədim insanların məhsuldarlıqla bağlı inanclarını əks etdirdiyi tədqiqatçılar tərəfindən qeyd edilmişdir.

Azərbaycanın Son Tunc və Erkən Dəmir dövrü yaşayış yerlərində mədəni təbəqə yaxşı saxlanmadığından, bu dövrə aid metal emalı qurğularına və alətlərinə də az rast gəlinmişdir. Metal emalı ilə bağlı əmək alətləri, təbərzin baltalar tökmək üçün istifadə olunan qəliblərlə təmsil olunmuşdur. Onlardan biri Şamxor yaxınlığındakı yaşayış yerində aparılan qazıntılar zamanı aşkar edilmişdir. Gildən hazırlanmış qəlibin uzunluğu 19,5, eni 16, qalınlığı isə 8 sm-dir. Mingəçevirdən əldə edilən qəlib boz rəngli bazaltdan hazırlanmışdır. Müəyyən olunmuşdur ki, bu qəlibdən də Azərbaycanda geniş yayılan tunc təbərzin baltaların tökülməsi üçün istifadə olunmuşdur.

Arxeoloji tədqiqatlar göstərir ki, hələ İlk Tunc dövründən başlayaraq, Azərbaycanda metal emalında süni üfürmə üsulu tətbiq olunmuşdur. Şübhəsiz ki, bu üsul Son Tunc dövründə daha geniş yayılmışdır. Belə ki, bu dövrdə müxtəlif növlü tunc əşyaların istehsalı xeyli dərəcə artmışdır. Metal əşyaların kimyəvi tərkibinin öyrənilməsi, bu dövrdə sulfidli mis filizinin əridilməsinin mənimsənildiyini təsdiq edir. Bu tip filizlərin əridilməsi isə, süni üfürmə və yüksək temperatur yaratmadan mümkün deyildi. Metal əşyaların kimyəvi tərkibinin öyrənilməsi bu dövrdə misə mərgümüş, qalay, qurğuşun, sink, sürmə, nikel və b. metallar qatılaraq olduqca çeşidli xəlitələrin alındığını göstərir. Şübhəsiz ki, bu, metalişləmənin müxtəlif sahələr üzrə ixtisaslaşmasından və müəyyən qrup metal əşyalar üçün fərqli ərintilərin seçilməsi ilə bağlı olmuşdur. Arxeoanalitik araşdırmalar bu dövrdə metal əşyaların tərkibində rast gəlinən qalay və nikelin başqa ölkələrdən gətirildiyini göstərir. Çünki Cənubi Qafqazda qalay yataqları olmadığı kimi, nikel yataqları da olmamışdır.

Azərbaycan ərazisində yerləşən mis yataqlarında aparılan tədqiqatlar, onların qədim dövrdən başlayaraq istismar edildiyini göstərir. A.A.İessen Cənubi

Qafqazda apardığı araşdırmalar zamanı Azərbaycanın mis yataqlarında 135 qədim mədən yerinin olduğunu müəyyənləşdirmişdir. A.A.İessenin Cənubi Qafqazda ayırdığı 5 metallurgiya rayonunun ikisi Azərbaycan ərazisindədir.

Son Tunc dövründə Azərbaycanda metallurgiya və metalişləmə sənətinin yüksək inkişafı çox sayda müxtəlif formalı tunc əşyaların mövcudluğu ilə təsdiq olunur. Aşkar olunmuş arxeoloji materialların bir



Şəkil 95. Kolanı nekropolunun bəzək əşyaları

qrupunu silahlar təşkil edir. Silahlar balta, xəncər, nizə ucları, ox ucları, tunc yabalardan ibarət müxtəlif qruplara bölünür.

Arxeoloji abidələrdən aşkar olunmuş tunc tapıntıların əksəriyyəti bəzək əşyalarından ibarətdir. Onları baş, sinə, bel, qol və ayaq bəzəkləri kimi müxtəlif qruplara bölmək olar. Baş bəzəkləri dingələr, dairəvi lövhələr, sırğalar, saç boruları və asmalardan ibarətdir.



Şəkil 96. Kolanı nekropolu. Bəzək əşyaları

Tədqiqatçı K.X.Kuşnaryeva tökmə qolbaqları yalnız bəzək əşyası kimi qəbul etməyərək, göstərir ki, onlardan, həmçinin «pul vahidi» kimi də istifadə edilmişdir. Onların çəkiləri müxtəlifdir. Dvindən tapılmış qolbaqlar 617 və 636 qram, Qərbi Azərbaycanda Lalvar abidəsindən tapılan 8 ədəd qolbağın hər biri 560 qramdır.



Şəkil 97. Xocalı-Gədəbəy mədəniyyətinə aid tunc əşyalar

Xocalı-Gədəbəy mədəniyyəti abidələrindən aşkar olunan tunc kəmərlər yüksək sənətkarlıqla hazırlanmaları ilə fərqlənir. Xocalı və Mingəçevirdən tapılan belə kəmərlərin bəzəmə motivi zəngindir.

Tuncdan hazırlanmış bəzək əşyalarının bir qrupu muncuqlardan ibarətdir. Forma etibarı ilə onlar şarşəkilli və silindrikdir. Bundan başqa qızıl, qalay və dəmirdən hazırlanmış muncuqlara da rast gəlinir.

Bu dövrdə bəzək əşyalarının çoxluğu, onların mürəkkəb konfiqurasiyası bəzək əşyalarının hazırlanması ilə məşğul olan xüsusi sənətkarların mövcud olduğunu göstərir. Ümumiyyətlə, bu dövrdə metal istehsalının artması və şaxələnməsi metalişləmə sənətinin müəyyən sahələr üzrə ixtisaslaşmasını tələb edirdi. Belə ixtisaslaşma olmadan, yüksək keyfiyyətli məhsul istehsal etmək mümkün deyildir. Aşkar olunan arxeoloji materiallar Son Tunc dövründə tunc metalurgiyasının ən yüksək inkişaf dövrü keçirdiyini göstərir.

**Son Tunc dövrü mədəniyyətlərinin mənşəyi və xronologiyası.** Qeyd olunduğu kimi, Azərbaycanın Son Tunc və Erkən Dəmir dövrü mədəniyyəti boz və qara rəngli keramikanın geniş yayılması ilə xarakterizə edilir. Bu dövrdə boz

rəngli keramika Orta Tunc dövründə boyalı qabların hegemon olduğu cənub rayonlarına da yayılaraq, üstünlük təşkil edir. Vaxtilə, Şimal-Qərbi İran (Cənubi Azərbaycan) və Azərbaycanda boz rəngli keramikanın yayılması irandilli əhalinin yayılması ilə bağlanmışdır. Lakin boz rəngli keramikanın yerli köklərinin olduğunu nəzərə alan bəzi tədqiqatçılar bu fikirdən imtina etmiş və öz fikirlərini yeni dəlillərlə isbat etməyə çalışmışlar. Bu baxımdan M.N.Poqrebovanın fikri diqqətəlayiqdir. O, Gəncəçay rayonunda at dəfnləri, ağac konstruksiyalar və yandırma adəti ilə fərqlənən kiçik bir qrup abidəni ayıraraq, onları irandillilərlə bağlamışdır. Daha sonra, o, belə bir fikir irəli sürmüşdür ki, irandilli əhali Azərbaycanda uzun müddət qalaraq yerli əhalinin mədəniyyətini qəbul etmiş və onu özü ilə Şimal-Qərbi İrana aparmışdır.

M.N.Poqrebovanın nəzəriyyəsi düzgün olsa belə, onun öz fikirlərindən göründüyü kimi, kiçik bir qrup yerli əhalinin mədəniyyətinə təsir etməmiş, əksinə, onun mədəniyyətini qəbul etmişdir. Digər tərəfdən Gəncəçay rayonunun sözü gedən abidələri kompleks halda nəzərdən keçirilməmişdir. Ümumiyyətlə, Azərbaycanla qonşu olan şimal ərazilərə müəyyən əhali qrupunun gəldiyini qəbul etmək mümkündürsə də söylənməlidir ki, bu əhali qrupu yerli əhali ilə qarışaraq assimilyasiya olunmuşdur. Əksinə, bəzi tədqiqatçıların gəlmə əhalinin yalnız irandillilər olduğu və yerli əhalinin irandilliləşdirilməsi haqqında fikirləri doğru deyildir.

Xəzərin cənubunda yerləşən bir qrup abidənin Şərqi Zaqafqaziya ilə bilavasitə bağlı olması haqqında M.N.Poqrebovanın irəli sürdüyü fikirlər də doğru deyil. Çünki, M.N.Poqrebovanın özünün də qeyd etdiyi kimi, bu iki regionun maddi-mədəniyyəti, tamamilə bir-birindən fərqlənir və söhbət yalnız müəyyən iqtisadi-mədəni əlaqələrin mövcudluğundan gedə bilər.

M.A.Hüseynova Son Tunc və Erkən Dəmir dövründə dəfn adətinə, keramikanın xarakterinə və coğrafi mövqeyinə görə fərqlənən üç qrupun olduğunu göstərmiş və bunların müəyyən etnik qruplarla bağlılığını qeyd etmişdir. O, bu etnik qruplar içərisində xurritlərin üstünlük təşkil etdiyini göstərmişdir.

Qeyd edək ki, Azərbaycan ərazisində qədim dövrdə yayılan tayfaların etnik mənsubiyyəti ilə bağlı irəli sürülən fikirlərdə xeyli subyektivlik vardır. R.Qasımovanın apardığı araşdırmalar təsdiq edir ki, Mezolit dövründən başlayaraq Son Tunc dövrünədək Azərbaycanda yaşayan əhali aborigenlərdən ibarət olmuşdur. Azərbaycan əhalisi, əsasən, Azərbaycan türklərinin antropoloji tipini təmsil edən kaspi tipindən ibarət olmuşdur.

Fikrimizcə, Son Tunc və Erkən Dəmir dövründə Azərbaycanda yayılan arxeoloji mədəniyyət, bilavasitə, Kür-Araz mədəniyyətinin davamıdır. Bu məsələnin öyrənilməsi xüsusi araşdırma tələb etsə də, əldə olan faktlar, lazımi nəticələr çıxarmaq üçün yetərlidir. Hər şeydən əvvəl Son Tunc dövrü keramikasının forması və hazırlanma texnikası, bir çox hallarda Kür-Araz mədəniyyəti keramikasına bənzəməkdədir. Digər tərəfdən, yuxarıda qeyd edildiyi kimi, Orta Tunc dövründə Azərbaycanın cənub rayonlarında boyalı qabların

yayıldığı bir zamanda, şimal rayonlarında Kür-Araz mədəniyyəti öz mövcudluğunu davam etdirmişdir. Bu vəziyyət Cənubi Qafqazın digər rayonlarında da özünü göstərir. Belə ki, Trialetinin bəzi kurqanlarında idxal malı kimi boyalı qablara rast gəlinsə də, bu mədəniyyət boz və qara rəngli cilalı qabların üstünlük təşkil etməsi ilə xarakterizə edilir. Qablar cızma və basma ornamentlə naxışlanmışdır. Azərbaycanın şimal rayonları üçün də qara cilalı basma və cızma xətlərlə bəzənmiş keramika xarakterikdir. Mil düzündə boyalı qabların geniş yayıldığı tək abidə Üzərliktəpədir. Burada isə boyalı keramika, aşkar olunan gil məmulatının yalnız 2 %-ni təşkil edir. Keramikanın əksəriyyəti boz və qara rəngli qablarla təmsil olunmuşdur. Deməli, Kür-Araz mədəniyyəti tayfaları Orta tunc dövründə öz həyatlarını davam etdirmiş, e.ə. II minilliyin ikinci yarısında mövcud iqtisadi-ictimai dəyişikliklərə bağlı, yenidən güc toplamış və hegemon rol oynamağa başlamışlar. Bu dövrdə, Azərbaycanda məskunlaşan müxtəlif etnik qruplar arasında, mədəni cəhətdən birləşmə prosesinin getdiyi arxeoloji abidələrdə aydın şəkildə izlənmişdir.

Son Tunc dövrü arxeoloji komplekslərin bir-birinə diffuziya etməsi, həm dəfn adəti, həm də bu komplekslər üçün xarakterik olan keramikanın yayılması ilə sübut olunur. Fikrimizcə, bu dövrdə Azərbaycanda yaşayan tayfaların vahid bir etnosda birləşməsi prosesi davam etmişdir. Bu, Azərbaycanın cənub rayonlarında, xüsusilə, Naxçıvan ərazisində özünü aydın şəkildə göstərir. Qeyd olunduğu kimi, Son Tunc və Erkən Dəmir dövründə bu ərazidə boz rəngli keramika və boyalı qablarla xarakterizə olunan komplekslər bir-birindən fərqlənir. Lakin, eyni zamanda, onlar arasında birləşmə prosesinin getdiyi də özünü göstərir. Çaynik tipli qablara Xocalı-Gədəbəy mədəniyyəti üçün xarakterik olan komplekslərdə rast gəlinməsi, habelə, göbələkşəkilli çıxıntısı olan qablara boyalı qabların xarakterik olduğu komplekslərdə rast gəlinməsi, həm də bu tip qabların boyalılarının tapılması, buna aydın sübutdur. Bu dövrdə Xocalı-Gədəbəy mədəniyyətinin Naxçıvan ərazisində yayılması, arxeoloji tapıntıların bütöv kompleksi ilə sübut olunur. Tədqiqatçılar tərəfindən qeyd olunduğu kimi, Naxçıvan ərazisində Xocalı-Gədəbəy mədəniyyətinin Gədəbəy qrupu üçün xarakterik olan mədəniyyət geniş yayılmışdır. Bu, onu göstərir ki, e.ə. II minilliyin sonunda Gədəbəy qrupuna aid olan etnoslar üstünlük təşkil etmiş və Azərbaycanın cənub rayonlarına da yayılmışdır. Ola bilsin ki, bu dövrdə Xocalı-Gədəbəy mədəniyyətinə aid tayfalar vahid bir etnos halında birləşmişdir.

Ağ inkrustasiyalı keramikanın mənşəyi ilə bağlı tədqiqatçılar tərəfindən irəli sürülən fikirlər, müəyyən mənada qəbul edilə bilər. Bu keramikanın, Aralıq dənizi hövzəsindəki ölkələrlə iqtisadi-mədəni əlaqələrin təsiri nəticəsində ortaya çıxması mümkündür. Lakin gil məmulatının bəzəmə motivi, xüsusilə, müəyyən qrup boyalı qablarla sıx əlaqə, onun yerli köklərə malik olduğunu da göstərir. Bizim fikrimizcə, ağ inkrustasiyalı keramikanın bəzəmə motivi boyalı qablarda deyil, Orta Tunc dövrünün boz və qara rəngli gil məmulatında axtarılmalıdır. Təəssüf ki, digər rayonların Orta Tunc dövrü geniş tədqiqatlarla öyrənilməmişdir.

Azərbaycanın Son Tunc, Erkən Dəmir dövrü mədəniyyətinin yerli zəmin əsasında meydana çıxıb, inkişaf etdiyini, bu dövrün arxeoloji abidələrindən aşkar olunan zəngin tunc məmulatının, o cümlədən silahların araşdırılması daha aydın sübut edir. Bu dövrdə Azərbaycanda meydana çıxan silahlar, xüsusilə, təbərzin formalı baltalar və konusvari başlığı olan çənbərli xəncərlər, yalnız bu mədəniyyət üçün xarakterikdir. Azərbaycandan kənarda bu tip silahlara olduqca az rast gəlinmişdir.

Araşdırmalara əsaslanaraq söyləmək olar ki, Son Tunc və Erkən Dəmir dövrü mədəniyyəti qədim dövrdən bu ərazidə məskunlaşan etnik qruplar tərəfindən yaradılmışdır. M.A.Hüseynova ağ inkrustasiyalı qabların analizinə əsaslanaraq xurrit etnik massivinin yerli ocaqlarının bu dövrdə saxlandığını və bu mədəniyyətin inkişafına təsir etdiyini göstərmişdir. Qeyd edək ki, e.ə. III minilliyin sonu ilə tarixləndirilən yazılı qaynaqlarda Urmiya hövzəsində kuti və lullubi tayfalarının yaşadığı qeyd edilmişdir. Fikrimizcə, İlk Tunc dövründə Urmiya hövzəsi və Naxçıvanda yayılan Kür-Araz mədəniyyəti kuti və lullubi tayfaları ilə bağlıdır. Şübhəsiz ki, bu tayfalar Azərbaycanın şimal rayonlarına da yayılmışdır. Kür-Araz mədəniyyəti ilə bağlı olan Xocalı-Gədəbəy mədəniyyətinin yaradılmasında bu tayfaların şübhəsiz ki böyük rolu olmuşdur. E.ə. II minliiyin sonu, I minilliyin əvvəlində Xocalı-Gədəbəy mədəniyyəti tayfalarının cənuba doğru hərəkəti, Urmiya hövzəsində meydana gələn siyasi hadisələr və bu etnik bağlılıqla əlaqədar olmalıdır. Bu qəbilələrin Zaqro-Elam dil qrupu ilə bağlandığı və Ural-Altaylarla əlaqələli olduğu tərəfindən qeyd edilmişdir.

Arxeoloji abidələrin tədqiqi göstərir ki, Son Tunc və Erkən Dəmir dövrü mədəniyyəti, başlıca olaraq, Xocalı-Gədəbəy tipli abidələrlə xarakterizə edilir. E.ə. II minilliyin ortalarında Azərbaycanın şimalında meydana çıxan bu mədəniyyət e.ə. II minilliyin əvvəllərində Azərbaycanın cənub rayonlarına da yayılmışdır. Bu mədəniyyətin xronologiyası ilə bağlı məsələlər arxeoloji ədəbiyyatda geniş araşdırılmışdır.

E.ə. II minilliyin ikinci yarısı ilə tarixləndirilən bu mədəniyyətə aid erkən abidələr Gəncəçay rayonunda yerləşir. Bunların sırasına torpaq qəbirlər və torpaq qəbirləri olan kurqanlar daxildir. Üzəri daş piltə ilə örtülmüş torpaq qəbirlərdə qırmızı cilalı qablar üstünlük təşkil edir. Örtüksüz torpaq qəbirlərdə qara cilalı keramika çoxluq təşkil edir. Onların kompleksində çəhrayı rəngdə olan ağ inkrustasiyalı qablara da rast gəlinir. Xronoloji cəhətdən, sal daşla örtülmüş torpaq qəbirlər, daha əvvələ aiddir. Onların kompleksində ağ inkrustasiyalı qablara rast gəlinir və başlıca olaraq, çəhrayı keramika ilə fərqlənir. Sal daşla örtülmüş torpaq qəbirlər e.ə. XV, kurqanaltı örtüksüz torpaq qəbirlər isə e.ə. XIV əsrə aid edilir.

Bu qrupa aid kurqanların tarixləndirilməsində Orta Tunc dövrü üçün xarakterik olan qırmızı rəngli, boyalı və basma naxışlı qabların mühüm əhəmiyyəti vardır. Bu, Orta və Son Tunc dövrlərinin yaxınlığını göstərir. Bu tip

keramika Ön Asiya abidələrində e.ə. XVI-XV əsrlərdə meydana gəlir. Onların bəzisi ağ pasta ilə örtülmüşdür. Şərqi Gürcüstanda bu tip keramikanın ortaya çıxması e.ə. II minilliyin ortalarına aiddir.

Mingəçevir və Qazaxbəylidən əldə edilən, tiyəsinin ortasında iki deşiyi olan tunc xəncərlər Xocalı-Gədəbəy mədəniyyətinin ilk mərhələsinə- e.ə. XIV-XIII əsrlərə aid edilir.

Xocalı-Gədəbəy mədəniyyətinin ikinci dövrü e.ə. XII-XI əsrlərlə tarixləndirilir. Bu dövrə Araçadzor, Axmaxi, Ballıqaya, Qarabulaq kurqanları, Gədəbəy daş qutularının bir qrupu daxildir. M.A.Hüseynova bu dövrə aid dörd keramika tipi müəyyən etmiş və onların üçünün yerli zəmin əsasında inkişaf etdiyini göstərmişdir. Qarabağ və Gədəbəy zonasının abidələri ikinci qrup keramikanın üstünlük təşkil etməsi ilə fərqlənir. Bu dövrə aid Gəncəçay abidələrində ağ inkrustasiyalı keramika üstünlük təşkil etməkdə davam edir. Gillikdağ və Lüləlidə ağ inkrustasiyalı keramikanın əvvəlki dövrə nisbətən xeyli sadələşdiyi nəzərə çarpır.

Bu dövrə aid abidələrdən aşkar edilmiş konusvari başlığı olan yastı tiyəli xəncərlər e.ə. XIII-XII əsrlərə aid edilmişdir.

Xocalı-Gədəbəy mədəniyyətinin üçüncü inkişaf dövrü e.ə. X-IX əsrləri əhatə edir. Gəncəçay rayonunun bu dövrə aid abidələri birinci və ikinci qrup keramikanın mövcudluğu ilə xarakterizə edilir. Lakin bu dövrdə, ikinci qrupa daxil olan keramikada ağ inkrustasiyalı bəzəmələr meydana çıxır. Bu dövrə, həmçinin Dağlıq Qarabağın bir sıra abidələri də aid edilməkdədir.

Naxçıvan ərazisində aşkar olunan Xocalı-Gədəbəy tipli arxeoloji abidələr e.ə. II minilliyin sonu, I minilliyin əvvəlləri ilə tarixləndirilmişdir. Onlar daş qutu qəbirlərlə, kollektiv dəfn adəti ilə, boz rəngli keramika və zəngin tunc əşyalarla xarakterizə edilirlər. Abidələrin tarixləndirilməsi üçün, başlıca olaraq, keramika məmulatı, bəzən isə konusvari başlıqları olan tunc xəncərlər əsas tutulmuşdur.

Qeyd olunduğu kimi, Naxçıvanın ikinci qrup arxeoloji abidələri üçün boyalı qablar xarakterikdir. Şahtaxtı, Yurdçu daş qutuları, Qızılburun və Culfa nekropolları belə abidələrdəndir. Bu abidələr onlar üçün xarektirik olan gil məmulatı və tunc əşyalarla birlikdə e.ə. XIV-XI əsrlərə aid edilir. Bu komplekslərin tarixləndirilməsi üçün çaynik və qədəh tipli qablardan, həmçinin digər diaqnostik nümunələrdən istifadə edilmişdir. Bu baxımdan, yanları hər iki tərəfdən içəri batıq olan kasalar diqqətəlayiqdir. Gövdəsinin hər tərəfi bəzəməli olan bu tip qablar yalnız Son Tunc dövrü abidələri üçün xarakterikdir. Naxçıvanın Son Tunc dövrü abidələrinin tarixləndirilməsi üçün dəqiq stratiqrafiya verən I və II Kültəpə kimi yaşayış yerlərinin mühüm əhəmiyyəti vardır. Bu abidələrin stratiqrafiyası Son Tunc dövrünü e.ə. II minilliyin ikinci yarısına aid etməyə imkan verir. Hər iki yaşayış yerinin Son Tunc və Erkən Dəmir dövrünə aid üst təbəqəsində Xocalı-Gədəbəy mədəniyyəti üçün xarakterik olan keramika meydana çıxır. V.H.Əliyev bu keramikanın ortaya çıxmasını e.ə. XIV əsrə aid edir.

Cənubi Qafqazda, o cümlədən Naxçıvanda meydana çıxan müdafiə tikintilərinin bir qisminin tarixləndirilməsi mübahisəlidir. Bu abidələrin bəzisində, məsələn Qazançı qalasında Orta Tunc dövrünə aid boyalı qabların tapılması ilə bağlı olaraq bir qrup tədqiqatçı onları Orta Tunc dövrünə aid etmişdir. Lakin Naxçıvanın bu tip arxeoloji abidələrində geniş tədqiqatlar aparılmamışdır. Məlum olduğu kimi, Azərbaycan ərazisində yayılan siklop tikintiləri tədqiqatçılar tərəfindən e.ə. II minilliyin sonu, I minilliyin əvvəli ilə tarixləndirilmişdir. Bu tikintilərin xarakterik cəhəti onların bərkidici məhlul olmadan tikilməsidir. Bu xüsusiyyət Naxçıvan abidələrində də izlənməkdədir. Fikrimizcə, Naxçıvanda qala tipli müdafiə tikintilərinin meydana gəlməsi Azərbaycanın digər analoji abidələri ilə həmdövrdür. Bu baxımdan, Çalxanqala, Qazançı qalası, Vayxır qalasının qala divarlarının tikilməsi tarixini e.ə. II minilliyin ortalarına və ikinci yarısına aid etmək olar. Oğlanqala yaşayış yerində aparılan qazıntılar buradakı müdafiə tikintilərinin e.ə. IX əsrdən qədimə getmədiyini göstərir.

Ümumiyyətlə, aparılan araşdırmalar nəticəsində, Azərbaycanda Son Tunc dövrünü e.ə. II minilliyin ikinci yarısı ilə tarixləndirən tədqiqatçılar arasında fikir birliyinin olduğu bəlli olur.

**İctimai quruluş, mədəni əlaqələr, inamlar.** Yuxarıda deyildiyi kimi, Azərbaycanda sinifli cəmiyyətin formalaşması İlk Tunc dövrünə aiddir. Qeyd etmək istərdik ki, Azərbaycanın cənub rayonlarında sinifli cəmiyyətin tez yaranması, şimal rayonlarda isə gecikməsi haqqında arxeoloji və tarixi ədəbiyyatda mövcud olan fikir, bizcə, doğru deyil. Çünki, Tunc dövrünün arxeoloji abidələrinin öyrənilməsi göstərir ki, nəinki Tunc, hətta Eneolit dövründən başlayaraq Azərbaycanın şimalında və cənubunda yaşayan tayfalar eyni iqtisadi, siyasi quruluşa malik olmuşdur.

Son Tunc və Erkən Dəmir dövründə iqtisadiyyatın ahəngdar inkişafı, sinifli cəmiyyətdə mövcud olan sosial ziddiyyətləri və bərabərsizliyi daha da artırmışdır. Arxeoloji abidələrin tədqiqi bu dövrdə köçəri və yarımköçəri maldarlığın surətlə inkişaf etdiyini göstərir. Şübhəsiz ki, maldarlığın inkişafı əmlak bərabərsizliyini gücləndirmiş və sənətkarlığın inkişaf etməsinə səbəb olmuşdur. Təsadüfi deyil ki, bu dövrdə metallurgiya və metalişləmə sənəti əvvəlki dövrlərə nisbətən yüksək inkişafı və çoxsahəli xarakterdə olması ilə fərqlənir.

Cəmiyyətdə meydana gələn bu dəyişikliklər, hər şeydən əvvəl arxeoloji abidələrin arxitekturası və topoqrafiyasında da özünü göstərmişdir. E.ə. II minilliyin sonu, I minilliyin əvvəli ilə tarixləndirilən siklop tikintilər, məhz belə abidələrdəndir. Yuxarıda qeyd olunduğu kimi, onların tədqiqi, bu abidələrdən üç məqsədlə-daimi yaşayış, mühafizə və heyvanların qorunması məqsədi ilə istifadə olunduğunu göstərir. Bu dövrdə tayfalarının ətrafı möhkəmləndirilmiş yaşayış yerlərində yaşamasına baxmayaraq, güclü basqınlar zamanı əlçatmaz dağlarda inşa edilən qalalara da ehtiyac duymuşlar. Bu qalalardan yalnız düşmən

təhlükəsindən müdafiə üçün istifadə edilməmişdir. Onlardan düşmən hücumları zamanı mal-qaranı qorumaq üçün də istifadə edilmişdir. Ümumiyyətlə, qala tipli yaşayış yerlərinin araşdırılması sosial ziddiyyətlərin və düşmən təhlükəsinin xeyli artdığını göstərir.

Azərbaycanda olan qala tipli yaşayış yerlərinin tədqiqi, onlardan yalnız birində-Qazançı qalasında Narınqalanın olduğunu göstərmişdir. Fikrimizcə, Qazançıqalada Narınqalanın inşası bir qədər sonraya, daha doğrusu, inkişaf etmiş Dəmir dövrünə aiddir.

Tayfalar arasında sosial bərabərsizliyin gücləndiyini qəbir abidələri də təsdiq edir. Əgər qəbirlərin bir qrupu zəngin avadanlığı ilə seçilirsə, digər bir qrupu yoxsul avadanlığa malikdir. Bu dövrdə tayfa başçılarına aid zəngin qəbirlər ortaya çıxır. Xanlar rayonundakı 1 №-li kurqan, Qarabulaqdakı 5 №-li kurqan, Borsunluda tədqiq olunan kurqan və digərləri qəbilə başçısına aid edilmişdir. Bunlar arasında Borsunlu kurqanı diqqəti cəlb edir. Qəbrin təsviri yuxarıda verildiyindən, onun üzərində geniş dayanmayacağıq, Lakin qəbrin 256 kv.m sahəni əhatə etməsi, tayfa başçısının mühafizəçiləri ilə birlikdə yüksək dəbdəbə ilə basdırılması mövcud olan sosial bərabərsizlik haqqında təsəvvür yaradır.

Qəbilə üzvləri arasında sosial bərabərsizliyin mövcud olduğunu qəbirlərdə oturdulmuş vəziyyətdə olan skeletlərə rast gəlinməsi də sübut edir. Oturdulmuş vəziyyətdə olan skeletlərə kurqanlarda və daş qutu tipli qəbirlərdə rast gəlinmişdir. Bəzi qəbirlər avadanlığının azlığı ilə seçilir.

Tayfa başçısına aid edilən qəbirlərdən biri Kolanı nekropolundadır. Bu qəbir böyüklüyünə görə digərlərindən fərqlənir. Qəbir dağıdıldığından, dəfn adətini kifayyət qədər izləmək mümkün olmamışdır. İkikameralı qəbirin yan daşları üzərində çəkilmiş mifik şəkillər, onun tayfanın xüsusi adamına aid olduğunu göstərir. Qeyd edək ki, rəsmlərlə bəzənmiş qəbir kamerası olan qəbirlərə indiyədək az rast gəlinəmişdir.

Gəncəçay vadisindəki 1 və 2 №-li yaşayış yerlərində aparılan tədqiqatlar, cüt nigaha əsaslanan tək ailələrin yaşadığı bir, bəzən isə ikiotaqlı evlərin sayca artdığını göstərir. Bu, artıq əvvəlki dövrlər üçün xarakterik olan patriarxal qəbilə münasibətləri qalıqlarının tamamilə dağıdıldığını, xüsusi mülkiyyətin inkişaf etdiyini göstərir.

Bu dövrdə Azərbaycanda yaşayan tayfalar arasında birləşmə prosesinin getdiyini nəzərə alaraq, söyləmək olar ki, e.ə. II minilliyin sonunda, ola bilsin ki, Azərbaycanın böyük bir hissəsini əhatə edən tayfa birliyi olmuşdur. Onun ərazisi Xocalı-Gədəbəy mədəniyyətinin yayıldığı əraziyə uyğun olmuşdur. Lakin yazılı məlumatlar olmadığından, geniş nəticələr çıxarmaq mümkün deyildir.

Son Tunc və Erkən Dəmir dövrünə aid abidələrin tədqiqi qədim insanların dünyagörüşü və inamları ilə bağlı qiymətli materiallar verilmişdir. Bu dövrə aid qəbir abidələri tək və kollektiv dəfnlərlə xarakterizə olunur. İnsanların yanına müxtəlif məişət əşyaları, silah qoyulması, ev heyvanlarının, o cümlədən at, dəvə,

qoyun s. heyvanların ölən adamla birlikdə dəfn edilməsi, insanların o biri dünyaya inamı ilə bağlı olmuşdur. Ölən adamın atı, ev heyvanları və qulluqçuları ilə basdırılması bu inamı ifadə edir.

Qəbirlərdə vəhşi heyvan sümüklərinə rast gəlinməsi, ehtimal ki, insanların məşğuliyyəti ilə bağlı müəyyən inancları əks etdirir. Belə ki, Sarıdərə nekropolunda aparılan qazıntılar zamanı, qəbirlərin içərisində dələ kəlləsinə rast gəlinmişdir. Şübhəsiz ki, vəhşi heyvan sümüklərinin qəbirlərdən tapılması, onların ritual xarakter daşıdığını göstərir.

Xocalı-Gədəbəy mədəniyyətinin qəbir abidələrini araşdıran tədqiqatçılar bəzi qəbirlərdə skeletlərin parçalanmış vəziyyətdə dəfn edildiyini qeyd etmişlər. Onların bu fikrə gəlməsinə səbəb alt çənənin kəllədən ayrılması, kəllənin ayrı dəfn edilməsi, skeletlərin müəyyən sümüklərinin çatışmamasıdır. Qeyd edək ki, qəbirlərə sümüklərin qarışması, kollektiv dəfn adətləri ilə bağlı ola bilər. Arxeoloji abidələrin tədqiqi göstərir ki, kollektiv dəfnlər zamanı, əvvəlki dəfnlər qəbirin bir tərəfinə sıxışdırıldığından sümüklər bir-birinə qarışmışdır. Ola bilsin ki, skeletin kəlləsinə müəyyən hörmət edildiyindən, onlar qarışıq sümüklərin üzərində, bir-birinin yanına yığılmışdır. Belə bir faktı gözdən qaçırmaq olmaz ki, bu abidələrin böyük bir qismi qeyri-professional arxeoloqlar tərəfindən qazılmışdır.

Abidələrin tədqiqi, bu dövrdə ölüyandırma adətinin də mövcud olduğunu göstərir. Qəbirlərin bəzisində ölülərin külü açıq, bəzi hallarda isə urnalarda dəfn edilmişdir.

Gəncəçay rayonunun bir qrup abidəsində ağac konstruksiyaların mövcudluğu ehtimal ki, Orta Tunc dövrü ənənələrinin qalığıdır. Bu həm də praktiki məqsədlərlə də bağlı ola bilər. Belə ki, Borsunlu kurqanındakı nəhəng qəbrin üzəri yalnız ağac tirlərlə qapadıla bilərdi Onların bir neçə cərgə düzülmüsi isə dayanıqlıq və çürümənin qarşısını almaq məqsədi daşımışdır. Ağac konstruksiyalı qəbirlərin şimaldan gələn tayfalarla bağlı olması haqqında M.N.Poqrebovanın fikri əsassızdır. Belə ki, ağac tirlərlə örtülmüş qəbirlərə Cənubi Qafqazda Orta Tunc dövründə də rast gəlinmişdir.

Kolanı nekropolundan aşkar olunan, qəbilə rəhbərinə aid qəbirdəki rəsmlər, bu dövrdə yaşayan insanların dini inancları ilə bağlı maraqlı məlumat əldə etməyə imkan verir. Qeyd etdiyimiz kimi, rəsmlər mifoloji xarakterdədir. Üzərində rəsm olan daşlar qəbirdə üz-üzə yerləşdirilmişdir. Rəsmlərin hər ikisi qazıma texnikası ilə çəkilmişdir. Rəsmlərdən biri, hündürlüyü 103 sm, eni 82 sm olan daş lövhə üzərindədir. Burada atın üzərində sxematik insan fiquru təsvir edilmişdir. Kareliyadan Sibirədək geniş bir ərazidə yayılmış qayaüstü təsvirlərlə aparılan qarşılaşdırmalar burada Günəş Tanrısının təsvir edildiyini deməyə imkan verir. Fantastik və mifoloji rəsmlər içərisində özünə bənzərlər tapmayan ikinci rəsm, qoruyucu ruh kimi izah edilmişdir. Fikrimizcə, bu rəsmlər dəfn edilən şəxsin o biri dünyadakı yaşayışının təminatçısı və qoruyucusu olmuşdur.

Son Tunc dövrünə aid gil qablar üzərində rast gəlinən təsvirlər də insanların inancları ilə bağlı müəyyən fikirlər söyləməyə imkan verir. Tədqiqatçıların haqlı olaraq qeyd etdiyi kimi, gil qablar üzərindəki təsvirlər bəzən o qədər qarışmışdır ki, onların dekorativ xarakteri simvolik mənasını üstələmişdir. Bununla belə, müəyyən nəticələr çıxarmaq mümkündür. Bu baxımdan, gil qablar üzərində olan insan təsvirləri diqqəti çəkir. Bu təsvirlər olduqca sxematik, çox zaman üçbucaqların və digər həndəsi fiqurların birləşdirilməsi ilə yaradılmışdır. İnsan təsvirlərinin başı bir-birinin içərisində yerləşdirilmiş konsentrik dairələr, şüa ayrılan kiçik dairələr, bəzən isə svastika ilə verilmişdir. Bəzi hallarda insan təsvirlərinin başı həyat ağacının detallarını əks etdirən işarələrlə tamamlanır. Qayaüstü təsvirlərin və gil məmulatı üzərində rast gəlinən rəsmlərin araşdırılması göstərir ki, dairə, içərisində nöqtə olan dairə, svastika və bu qəbildən olan digər işarələr Günəşi simvolizə etmişdir.

Gil qablar üzərindəki işarələrin təhlili, Son Tunc dövründə həyat ağacının kanonlaşdırılmış rəsmlərinin mövcud olduğunu göstərmişdir. Qeyd olunduğu kimi, həyat ağacı Günəşi simvolizə etmişdir. Araşdırmalar, bu dövrdə Günəşə sitayişin geniş yayıldığını göstərir. Ola bilsin ki, bu dövrdə təbiətin canlandırıcısı və bərəkətləndiricisi olan Günəş Allahı Xocalı-Gədəbəy tayfalarının panteonunda əsas yer tutmuşdur.

Gil qablar üzərində rast gəlinən təsvirlər də tədqiqatçılar tərəfindən analiz edilmişdir. Tədqiqatlar göstərir ki, gil qablar üzərində olan həndəsi bəzəmələr dağları, səmanı, Günəşi, yağışı və təbiətin digər atributlarını simvolizə etmişdir. Bu rəsmlər məxsus olduqları xalqların kainat haqqında təsəvvürlərini əks etdirməklə, onların zəngin mənəvi aləmə malik olduğunu göstərir. Dövrünə görə yüksək inkişaf etmiş iqtisadiyyata və zəngin mənəvi aləmə malik olan bu xalqların formalaşmasında, şübhəsiz ki, qonşu ölkələrlə iqtisadi-mədəni əlaqələrin inkişafı müəyyən rol oynamışdır. Arxeoldoji tapıntılar bu əlaqələrin şərqdə Çinə, qərbdə Misirə, cənubda Mesopotamiyaya, şimalda Qara dəniz sahillərinə qədər uzandığını göstərir. Yaxın Şərq ölkələri ilə iqtisadi-mədəni əlaqələr, mühüm əhəmiyyət daşımışdır. Azərbaycanda Xocalıdan, II Kültəpədən və Yurdçu qəbirlərindən aşkar olunan şirli qablar Assuriya ilə iqtisadi-mədəni əlaqələrin olduğunu göstərir. Xocalıda 11 №-li kurqandan əldə edilən muncuğun üzərində Assur çarı Adadnirarinin adına rast gəlinməsi də bununla bağlıdır. Assuriya ilə olan əlaqələr nəticəsində, şübhəsiz ki, Azərbaycanın qalaya və nikelə olan tələbatı da ödənilmişdir. Çünki yuxarıda qeyd etdiyimiz kimi e.ə. I minillikdə qalay ticarətində assurlu tacirlər mühüm rol oynamış və qalayın Ön Asiya ölkələrinə Assuriya vasitəsilə yayıldığı tədqiqatçılar tərəfindən qeyd edilmişdir.

Metallurgiya və metalişləmənin coşğun inkişafı yalnız xammalın deyil, hazır metal əşyaların da mübadilə edilməsi ilə əlamətdar olmuşdur. Yaxın Şərq ölkələrindən Azərbaycana gətirilən Ön Asiya tipli xəncərlər buna misal ola bilər. Bu tip xəncərlər Qarabağ kurqanlarından, Xanlar kurqanlarından, Culfa

nekropolundan, Talış abidələrindən aşkar edilmişdir. Bu xəncərlərin İran, Assuriya və Misir mənşəli olduğu qeyd edilmişdir. Şübhəsiz ki, bu tip silahlar Azərbaycana Mesopotamiyadan, Urmiya hövzəsindən keçməklə yayılmışdır. Azərbaycanda yayılan Ön Asiya tipli xəncərlərin tarixi ilə bağlı müxtəlif fikirlər irəli sürülmüşdür. Hazırda tədqiqatçılar bu tip silahları e.ə. II minilliyin ortası və ikinci yarısı ilə tarixləndirməkdədirlər.

Xocalı-Gədəbəy tipli xəncərlərin Çində aşkar olunması mədəni əlaqələrin birtərəfli olmadığını göstərməkdədir. Xocalı-Gədəbəy mədəniyyəti üçün xarakterik olan tunc kəmərlərə Ukrayna abidələrində rast gəlinməsi də, bununla bağlıdır. Bu dövrdə Azərbaycandan hazır metal məmulatı ilə bərabər, şübhəsiz ki, xammal da ixrac edilmişdir. Çünki Azərbaycan ərazisi mis, arsen, sürmə və polimetal yataqları ilə zəngin olmuşdur. Bu baxımdan, Naxçıvanda Qarabağlar kəndində tapılan bilərzik formalı mis külçələr diqqəti cəlb edir. Cızma xətlərlə naxışlanan bu əşyaların bəzisi hədsiz ağırdır. Əvvəldə qeyd etdiyimiz kimi, onların ağırlarından ola bilsin ki, mübadilə vasitəsi kimi istifadə olunmuşdur.

Qədim Şərq ölkələri ilə iqtisadi-mədəni əlaqələrin inkişaf etdiyini firuzəyi, mavi şirlə örtülən pasta muncuqlar da təsdiq edir. Bu tip muncuqların Misir və Mesopotamiyada istehsal olunduğu qeyd edilmişdir. İqtisadi-mədəni əlaqələr nəticəsində bu tip muncuqlar butun Cənubi Qafqaza və Azərbaycana yayılmışdır.

Azərbaycan tayfalarının Şərq ölkələri ilə əlaqələrini göstərən tapıntılardan biri Cyprea və Dentalium tipli balıqqulağından hazırlanmış muncuqlardır.Tədqiqatçılar Cyprea tipli balıqqulağının Hind okeanından, Dentalium tiplilərin isə Van hövzəsindən gətirildiyini qeyd etmişlər. Bu əşyalardan mübadilə vasitəsi kimi də istifadə olunduğu qeyd edilmişdir.

Yuxarıda göstərildiyi kimi, Ön Asiya və Aralıq dənizi hövzəsi ilə iqtisadi-mədəni əlaqələr gil qabların bəzəmə texnikasına da müəyyən təsir göstərmişdir. Bütöv olaraq götürüldükdə, demək olar ki, Son Tunc dövründə Azərbaycanda formalaşan arxeoloji mədəniyyət qonşu ölkələrlə sıx iqtisadi-mədəni əlaqələr əsasında inkişaf etmişdir. Bu əlaqələrin mövcudluğu şəraitində Azərbaycan tayfalarının iqtisadi-mədəni inkişafı Şərq ölkələrinin əldə etdiyi nailiyyətləri mənimsəməklə zənginləşmiş və öz növbəsində onların da inkişafına müəyyən təsir göstərmişdir.

# NƏTİCƏ

Azərbaycan dünyanın ən qədim mədəniyyət mərkəzlərindən biri olmuşdur. Azərbaycanda aşkar olunan arxeoloji abidələr ən qədim dövrlərdən başlayaraq müasir dövrədək bu ərazidə baş verən sosial-iqtisadi dəyişiklikləri izləməyə imkan verir. Paleolit dövrünə aid abidələrdə, xüsusilə Azıx mağarasında aparılan araşdırmalar Azərbaycanın ilk insanların məskən saldığı əsas ərazilərdən biri olduğunu təsdiq edir. Qədim insanların Azərbaycanda

məskən salmasını şərtləndirən əsas amillər bu regionun təbii mağaralarla zəngin olması və əlverişli təbii-coğrafi şəraitə malik olmasıdır.

Azıx mağarasının X-VII təbəqələrində aşkar olunan əmək alətləri Quruçay mədəniyyətinin xüsusiyyətlərini və əmək alətlərinin işlənmə texnikasında meydana gələn dəyişikliyi ardıcıllıqla izləməyə imkan verir. Quruçay mədəniyyətinin yenilikləri Aşel dövründə inkişaf etdirilmiş, daşdan qoparılmış qəlpələrdən istifadə olunmaqla daha təkmil alətlər yaradılmışdır. Bu dövrdə insanlar odla tanış olmuş, tikinti vərdişlərinə yiyələnmişlər. Azıx mağarasında Aşel təbəqəsinə aid gizlin guşəsində aşkar olunan ayı kəllələri və onlar üzərindəki cizgilər dini inancların meydana çıxdığını təsdiq edir.

Orta Paleolit dövründə daşın işlənmə texnikasında xeyli dəyişiklik olmuş, piramidal nukleuslardan, levallua itiuclularından və nazik bıçaqşəkilli lövhələrdən istifadə olunmuşdur. Tağlar mağarasında aparılan araşdırmalar Orta Paleolit dövrünün inkişaf mərhələlərini ardıcıllıqla izləməyə imkan vermişdir. Tağlar mağarasında əmək alətləri çaxmaqdaşından hazırlanmış, retuşdan istifadə olunmuşdur.

Üst Paleolit dövründə daşın işlənmə texnikası daha da təkmilləşmiş, prizmatik nukleus və basma retuşdan istifadə olunmuşdur. Bu dövrdə əmək alətlərinin əksəriyyəti bıçaqşəkilli lövhələrdən hazırlanmışdır. İnsanlar mağaralarla yanaşı qayaaltı sığınacaqlardan və qazma tipli evlərdən də istifadə etmişlər. Üst Paleolit dövründə ağıllı insan meydana çıxmış, cəmiyyətin sosial inkişafında xeyli dəyişiklik olmuş, qəbilə icması və tayfa formalaşmışdır.

Üst Paleolit dövründə əmək alətlərinin hazırlanmasında əldə edilən nailiyyətlər Mezolit dövründə mikrolitlərin istehsalı üçün zəmin yaratmışdır. Mezolit dövrü başlıca olaraq Qobustan abidələri əsasında öyrənilmişdir. Bu dövrün mühüm yenilikləri qoşma alətlərin, ox və kamanın tətbiqi idi. Bu dövrdə ovçuluq insanların əsas məşğuliyyəti olmuş, mənimsəmə təsərrüfatından istehsal təsərrüfatına keçidin əsası qoyulmuşdur.

E.ə. VII-VI minillikləri əhatə edən Neolit dövründə insanlar daşın deşilməsi və cilalanması texnikasına, istehsal təsərrüfatına yiyələnmişlər. İnsanların istehsal fəaliyyətinin əsas sahəsi əkinçilik və maldarlıq olmuşdur. Bu dövrdə insanlar həmçinin dulusçuluq və toxuculuq kimi mühüm istehsal sahələrinə də yiyələnmişlər.

Azərbaycanda Eneolit mədəniyyəti Daş dövrünə nisbətən daha geniş öyrənilmişdir. Bu dövrdə mis emalı mənimsənilmişdir. Aparılan araşdırmalar Eneolit mədəniyyətinin müxtəlif mərhələlərini izləməyə imkan vermişdir. Azərbaycanın Eneolit mədəniyyəti Urmiya hövzəsi və Mesopotamiyanın qədim mədəniyyətləri ilə iqtisadi mədəni əlaqələr şəraitində inkişaf etmişdir. Eneolit mədəniyyətinin təşəkkülündə Ubeyd tayfalarının xüsusilə böyük rolu olmuşdur. Arxeoloji abidələrinin tədqiqi nəticəsində Ubeyd tayfalarının Azərbaycan ərazisində yayılması ilə bağlı xeyli maddi dəlil ortaya çıxarılmışdır. Urmiya hövzəsində yayılan Eneolit dövrünə aid boyalı keramikanın Şimali Ubeydin lokal

variantı olması, Urmiya hövzəsinin qədim əkinçilik mədəniyyətinin formalaşmasında Şimali Mesopotamiyadan gələn tayfaların müəyyən rol oynadığını təsdiq edir. Ubeyd tayfaları Urmiya hövzəsindən bir neçə istiqamətdə Azərbaycan ərazisinə yayılmışdır. Eneolit mədəniyyətinin erkən mərhələsində meydana gələn düzbucaqlı evlər Əliköməktəpə və İlanlıtəpənin bənzər tikintiləri kimi Urmiya hövzəsinin qədim arxitekturası ilə bağlıdır. Neolit və Eneolit dövrünə aid düzbucaqlı tikintilərə Urmiya hövzəsində Hacı-Firuz, Yanıqtəpə və Göytəpədə rastlanmışdır. Keramika məmulatı və əmək alətlərinin bənzərliyi I Kültəpə, Pijdəlitəpə, Göytəpə, Tilkitəpə kimi abidələrin eyni mədəni rayona daxil olduğunu göstərir. Azərbaycanın Eneolit abidələri xarakterik xüsusiyyətlərinə görə başlıca olaraq üç böyük qrupa bölünür. Özünəməxsus təsərrüfat kompleksləri və keramika məmulatı ilə fərqlənən bu qruplar tədqiqatçılar tərəfindən Şomutəpə mədəniyyəti, Kültəpə mədəniyyəti və Dalmatəpə mədəniyyəti adlandırılmışdır.

İlk Tunc dövrü abidələrinin öyrənilməsi göstərir ki, e.ə. IV-III minilliklərdə Kür-Araz mədəniyyəti Azərbaycanın böyük bir qismini əhatə etmişdir. Yaşayış binalarının arxitekturasında və gil məmulatında müəyyən lokal xüsusiyyətlərin olmasına baxmayaraq, qeyd etmək olar ki, Azərbaycanda məskunlaşan Kür-Araz tayfaları etnik baxımdan bir-birinə yaxın olmuşdur. Yazılı məlumatlar az olduğundan, Kür-Araz mədəniyyəti tayfalarının hansı etnik qruplara bağlandığını söyləmək çətindir. Bəzi tədqiqatçılar Kür-Araz mədəniyyətinin xurritlərə aid olduğunu qeyd etmişdir. Lakin məlum olduğu kimi e.ə. III minilliyin sonuna aid qaynaqların saxladığı məlumata görə e.ə. III-I minilliklərdə Cənubi Azərbaycanda yaşayan əhali lullubey və kutilərdən ibarət olmuşdur.

Araşdırmalar Kür-Araz mədəniyyətini Azərbaycanın cənubunda yaşayan kuti və lullubeylərə aid olduğunu deməyə imkan verir. Arxeoloji araşdırmalar göstərir ki, Naxçıvan-Urmiya qrupunun abidələri vahid etnik-mədəni rayon təşkil etmişdir. Buna görə də bu dövrdə kuti və lulubey tayfalarının Azərbaycanın müəyyən hissəsində yayıldığını demək olar. Azərbaycan abidələrindən aşkar edilən Kür-Araz mədəniyyətinə aid arxeoloji materiallar, xüsusilə, nalşəkilli ocaq qurğuları, öküz başı formasında hazırlanmış sitayiş əşyaları, Kür-Araz mədəniyyəti tayfaları arasında müəyyən ideoloji birliyin olduğunu sübut edir.

Araşdırmalar Kür-Araz mədəniyyəti tayfalarının inkişaf etmiş patriarxal münasibətlərlə xarakterizə edildiyini göstərir. Şübhəsiz ki, bu istehsal prosesinin genişlənməsi və çoxsahəli xarakter alması ilə bağlı olmuşdur. İlk Tunc dövründə iqtisadiyyatın inkişafı maldarlığın əkinçilikdən ayrılmasına və müstəqil istehsal sahəsinə çevrilməsinə gətirib çıxarmışdır. Bu dövrdə əkinçilikdə qoşqu qüvvəsinin tətbiqi, şumlama əkinçiliyinin meydana çıxması, köçmə yaylaq maldarlığının yaranması, iqtisadiyyatın coşğun inkişafına, cəmiyyətdə sosial bərabərsizliyin güclənməsinə səbəb olmuşdur. Bu dövrün yaşayış yerlərində müdafiə divarlarının meydana çıxması, şübhəsiz ki, sosial bərabərsizliyin artması

və tayfalararası ziddiyətlərin kəskinləşməsi ilə bağlıdır. Yaşayış yerlərində ümumi ərzaq anbarlarının, ziyarətgahların, qəbilə toplantıları üçün ictimai binaların olması göstərir ki, istehsalın təşkili, mülkiyyətin qorunması üçün müəyyən ictimai təşkilatlara ehtiyac olmuşdur. Şübhəsiz ki, bu dövrdə cəmiyyəti idarə edən müəyyən təşkilatlar-dövlət qurumları mövcud olmuşdur. Ehtimal ki, bu dövlətin ilkin forması hərbi demokratiya olmuş, sonra isə daha da inkişaf etmiş idarə forması formalaşmışdır.

İlk Tunc dövründə iqtisadiyyatın inkişafı sənətkarlığın da təkamülü üçün şərait yaratmışdır. Aşkar olunmuş arxeoloji materialların təhlili, bu dövrdə sənətkarlığın yüksək inkişaf səviyyəsində olduğunu göstərir. Kür-Araz mədəniyyətinin üçüncü mərhələsi dulusçuluğun yüksək inkişaf səviyyəsi ilə fərqlənir. Bu dövrdə yaxşı cilalanmış, keyfiyyətli bişirilmiş, bəzən isə qara rəngli boya ilə boyanmış gil qablar geniş yayılır. Bu dövrün qabları həm də yüksək sənətkarlıqla icra olunmuş həndəsi ornamentləri ilə fərqlənir. Metallurgiya və metalişləmə sahəsində süni üfürmə tətbiq olunan metaləritmə kürələri və metalişləmə emalatxanaları yaranır. Sənətkarlığın inkişaf səviyyəsi, artıq onun müstəqil istehsal sahəsinə ayrılma ərəfəsində olduğunu göstərir.

Orta Tunc dövründə, başlıca olaraq, Azərbaycanın cənub rayonlarını, qismən isə şimal rayonlarını əhatə edən, boyalı qablarla xarakterizə edilən arxeoloji mədəniyyət yaranır. Bəzi tədqiqatçıların fikrinə görə, boyalı qablar Kür- Araz mədəniyyəti əsasında inkişaf etmişdir. Bizim fikrimizcə, Kür-Araz keramikasından tamamilə fərqlənən boyalı qablar, yeni bir mədəniyyətin ortaya çıxdığını göstərir. Boyalı qabların Naxçıvan ərazisində digər rayonlara nisbətən daha çox-Erkən Dəmir dövrünədək davam etməsi və bir neçə mərhələdən keçməsi Orta Tunc dövrü boyalı qablarının Naxçıvan ərazisində meydana çıxdığını deməyə imkan verir. Fikrimizcə, boyalı qablar Urmiya hövzəsi, Naxçıvan və Şərqi Anadoluda məskunlaşan bir qismi oturaq, digər bir qismi isə yarımköçəri həyat sürən tayfalar tərəfindən yaradılmışdır.

Belə hesab edirik ki, Boyalı qablar mədəniyyəti Orta Tunc dövründə Azərbaycanda məskunlaşan qədim tayfalardan birinin iqtisadi və siyasi baxımdan güclənməsi ilə bağlı olaraq meydana çıxmışdır. Eneolit dövründə də Yaxın Şərqdə boyalı keramikanın meydana çıxması məhz belə bir sosial-iqtisadi inkişafın nəticəsi olmuşdur.

İqtisadiyyatın və mədəniyyətin inkişafı Orta Tunc dövründə Azərbaycanın cənub rayonlarında, xüsusilə Naxçıvanda şəhər dövlətlərin meydana çıxması ilə nəticələnmişdir. Şəhər dövlətlərin yaranması, iqtisadi-mədəni əlaqələrin, o cümlədən Yaxın Şərq ölkələri ilə ticarət əlaqələrinin inkişafı, qalaylı tuncun meydana gəlməsinə, bədii metal məmulatı istehsalının artmasına, zərgərliyin ortaya çıxmasına səbəb olmuşdur. Qeyd olunduğu kimi, Orta Tunc dövründə Azərbaycanın bir hissəsində boyalı qablar yayıldığı halda, digər bir hissəsində, xüsusilə şimal rayonlarda Kür-Araz mədəniyyəti tayfaları yaşamaqda davam etmişdir. Azərbaycanın bu hissəsində yayılan arxeoloji komplekslər boz, ya da

qara cilalı həndəsi bəzəməli keramika ilə xarakterizə olunur. Bəzəmələr bəzən cızma, bəzən isə basma texnikası ilə icra edilmişdir.

Son Tunc və Erkən Dəmir dövründə ortaya çıxan və arxeoloji ədəbiyyatda Xocalı-Gədəbəy mədəniyyəti adlandırılan mədəniyyət, boz və qara rəngli cilalı keramika ilə xarakterizə edilir. Bu mədəniyyətə aid abidələrin bir qrupu, xüsusilə Gəncəçay abidələri ağ inkrustasiyalı qabların olması ilə fərqlənir. Bu texnika ilə bəzəmənin iqtisadi-mədəni əlaqələr nəticəsində Aralıq dənizi bölgəsində yerləşən ölkələrdən qaynaqlandığı, artıq yuxarıda qeyd edilmişdir. Qonşu ölkələrlə iqtisadi-mədəni əlaqələrin bu mədəniyyətin inkişafına müəyyən təsir etməsinə baxmayaraq, o, yerli zəmin əsasında inkişaf etmişdir. Tədqiqatçılar Xocalı-Gədəbəy arxeoloji mədəniyyətinin Kür-Araz mədəniyyəti ilə bağlı olduğunu qeyd etmişlər.

Araşdırmalar Xocalı-Gədəbəy mədəniyyətinin Azərbaycanın şimalında meydana çıxdığını və e.ə. II minilliyin sonlarına yaxın cənub rayonlara yayıldığını göstərir. Bu dövrdə Xocalı-Gədəbəy mədəniyyəti boyalı qabların xarakterik olduğu Naxçıvan ərazisində də yayılmış və onu təsiri altına almışdır.

Tədqiqatçılar aparılan araşdırmalara söykənərək, Xocalı-Gədəbəy mədəniyyətində iki, bəzən isə üç tayfa ittifaqının mövcudluğunu qeyd etmişlər. Bu zaman ağ inkrustasiyalı keramika ilə seçilən komplekslər xurritlərə, ağac kunstrksiyalı qəbirlər, kremasiya və at dəfnləri ilə seçilən komplekslər isə irandillilərə aid edilmişdir. Yuxarıda qeyd etdiyimiz kimi, bu abidələrin irandillilərə aid edilməsi üçün heç bir əsas yoxdur. Çünki, at dəfnləri və atla bağlı inamlar yalnız hind-avropalılar və irandillilər üçün xarakterik olmamışdır. At dəfnləri türkdilli xalqlar arasında geniş yayılmış dəfn ritualıdır. Digər tərəfdən, ağac konstruksiyalı qəbirlərə Cənubi Qafqazda Orta Tunc dövründə rast gəlinməsi, bu tip qəbirlərin e.ə. II minilliyyin sonunda Volqa boyundan yayılması haqqında M.N.Poqrebovanın fikirlərini təkzib edir. Ağac konstruksiyalı qəbirlər, onların qəbilənin seçilmiş üzvlərinə aid olması və qəbilənin böyüklüyü ilə də bağlı ola bilər. Qeyd edək ki, ağac konstruksiyalı qəbirlər Sibirin türkdilli tayfaları arasında olduqca geniş yayılmışdır. Məşhur Pazırıq kurqanları buna əyani misaldır. Odur ki, M.N.Poqrebovanın irəli sürdüyü fikirlər əsaslı deyildir.

Araşdırmalar göstərir ki, Aralıq dənizi hövzəsindən Sibirədək yayılmış boz rəngli, bəzən isə ağ inkrustasiyalı keramika yalnız ümumi əlamətlərinə görə müqayisə edilə bilər. Bu geniş ərazidə yayılan arxeoloji mədəniyyətlər arasında heç bir genetik bağlılıq yoxdur. Keramika arxeoloji mədəniyyətin başlıca ünsürü olsa da, onun ayrılıqda qarşılaşdırılması tamamilə yalnış ola bilər. Belə ki, Xocalı-Gədəbəy mədəniyyəti üçün xarakterik olan tunc avadanlıq, xüsusilə konusvari başlığı olan xəncərlər və digər xarakterik əşyalar onu digər mədəniyyətlərdən fərqləndirir.

Son Tunc dövründə Azərbaycan ərazisində meydana gələn siklop tikintilər cəmiyyətin iqtisadi və sosial həyatında böyük irəliləyiş olduğunu göstərir. Arxeoloji araşdırmalar bu dövrdə sosial ziddiyətlərin kəskinləşməsi ilə yanaşı,

müxtəlif tayfalar arasında etnik və mədəni birləşmə prosesinin getdiyini göstərir. Bu prosesdə, ehtimal ki, Assuriya və Urartu kimi dövlətlərin Azərbaycana basqınlarına qarşı mübarizənin də müəyyən rolu olmuşdur. Azərbaycan tayfaları arasında gedən etnik-mədəni birləşmə prosesi, e.ə. I minilliyin başlanğıcında yeni dövlət birliklərinin yaranması ilə nəticələnmişdir.